# MƏQALƏLƏR

(2004 – 2008-ci illər)

MÜNDƏRİCAT


- HEYDƏR ƏLİYEVİN XATİRƏSİ AZƏRBAYCANIN QAZANDIĞI NAİLİYYƏTLƏRDƏ VƏ ÖLKƏMİZİN İNKİŞAFINDA ƏBƏDİLƏŞİR....2
- HEYDƏR ƏLİYEVİN ŞAH ƏSƏRİ ....7
- SABAHIMIZ, GƏLƏCƏYİMİZ XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN YOLUDUR ....11
- HEYDƏR ƏLİYEVİN SİYASİ PORTRETİNİN CİZGİLƏRİ ....15
- YADDAŞIMIZIN ƏBƏDİ MƏHƏBBƏTİ....21
- İNSANLARIN TÜKƏNMƏZ MƏHƏBBƏTİ HEYDƏR ƏLİYEVİN ƏN BÖYÜK MÜKAFATIDIR ....24
- HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA....29
- İ. KOBZON: MƏN AZƏRBAYCAN DİLİNİ TƏKCƏ ONA GÖRƏ ÖYRƏNƏRDİM Kİ, BU DİLDƏ HEYDƏR ƏLİYEV DANIŞMIŞDIR ....39
- MİLLİ İNTİBAHIMIZIN MEMARI ....44
- HEYDƏR ƏLİYEV SİYASİ PORTRETİNİN CİZGİLƏRİ....48
- ƏSL VƏTƏNDAŞ, BÖYÜK ŞƏXSİYYƏT VƏ QÜDRƏTLİ LİDER HAQQINDA BƏZİ DÜŞÜNCƏLƏR....54
- TARİX YARADAN ŞƏXSİYYƏT ....60
- HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİL DÖVLƏTİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR SİSTEMİ ....65
- XALQIN İNAMINI DOĞRULDAN LİDER....71
- HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİ MÜASİR ELİTOLOGİYA KONTEKSTİNDƏ....76
- QLOBAL İQTİSADİ LAYİHƏLƏRİN REALLAŞMASI ÜMUMMİLLİ LİDERİMİZİN MÜSTƏSNA XİDMƏTLƏRİNDƏNDİR ....86
- HEYDƏR ƏLİYEVİN SOVET DÖVRÜNDƏKİ DÖVLƏT VƏ İDARƏÇİLİK TƏCRÜBƏSİ ....91
- AZƏRBAYCANDA QADIN SİYASƏTİNİN HÜQUQİ BAZASI ....95

# HEYDƏR ƏLİYEVİN XATİRƏSİ AZƏRBAYCANIN QAZANDIĞI NAİLİYYƏTLƏRDƏ VƏ ÖLKƏMİZİN İNKİŞAFINDA ƏBƏDİLƏŞİR

**Nə qədər ki, müstəqil Azərbaycan mövcuddur, bu dövlətin qurucusu da tariximizdə əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider örnəyi kimi daim yaşayacaq**

***Seyfəddin QƏNDİLOV***
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru,*
*Dövlət Qulluğunu İdarəetmə Şurasının üzvü,*
*əməkdar elm xadimi, professor*

**Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin imzaladığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərman ictimaiyyət tərəfindən böyük razılıq və minnətdarlıq hissi ilə qarşılandı. Ötən ilin dekabr ayının 12-dən etibarən ölkəmizin hər bir vətəndaşı ona qüdrətli dövlət, inkişaf edən cəmiyyət, yüksək sosial rifah, təhlükəsiz həyat bəxş edən əbədi liderinin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı öz təşəbbüslərini müəyyənləşdirmiş və yüzlərlə təşkilat, minlərlə insan tərəfindən müvafiq Dövlət Komissiyasına təkliflər verilmişdir.**

**Məhz bu təkliflər əsasında ölkə rəhbəri məlum fərmanı imzalamış və qərara almışdır ki, Heydər Əliyev mükafatı və ordeni təsis edilməklə bərabər, ümummilli liderimizin xatirə memorial kompleksləri yaradılsın, Ali Hərbi Məktəbə, Bakı Beynəlxalq Aeroportuna, Dərin özüllər zavoduna, Respublika sarayına, İdman-Konsert Kompleksinə, şəhər və rayonlarda küçə və meydanlara bu böyük şəxsiyyətin adı verilsin, həmçinin Bakı-Tbilisi-Ceyhan ixrac boru neft kəmərinə, "Lider" qazma qurğusuna Heydər Əliyevin adının verilməsi, ictimai əsaslarla Heydər Əliyev Fondunun yaradılması ideyası dəstəklənsin.**

## Sovet Azərbaycanında müstəqillik carçısı

Xalqımızın bu fərmanı razılıq hissi ilə qarşılamasının bir səbəbi var: hər bir azərbaycanlı ümummilli liderinin xatirəsinin layiqincə əbədiləşdirilməsini özünə vətəndaşlıq borcu sayır! Vətəndaşlarımız Heydər Əliyevin cismən aramızda olmadığı məqamlarda bu böyük şəxsiyyətin malik olduğu bənzərsiz fitri xüsusiyyətlərini, misilsiz şəxsi keyfiyyətlərini, Azərbaycan qarşısında indiyədək heç bir rəhbərin göstərmədiyi xidmətlərini və fədakarlıqlarını daha dərindən dərk edirlər- Heydər Əliyev elə bir düha idi ki, rəhbərlik etdiyi dövrlərin siyasi rejimlərinin mahiyyətindən asılı olmayaraq yalnız dövlətinin inkişafına və xalqının dünya birliyində layiqincə təmsil olunmasına çalışdı, daha doğrusu, bu çətin və şərəfli missiyasına nail oldu.

Əbədi liderimizin şanlı tərcümeyi-halı ilə tanış olarkən bu böyük qüdrət sahibinin dövlətinə və xalqına nə dərəcədə bağlı olduğunu daha müfəssəl dərk edir və anlaşırsan ki, Heydər Əliyevin ömrü şəxsi həyatına, nə ailəsinə, nə də karyerasına həsr olunub. Əksinə, o, millətinin maraqlarını və ölkəsinə xidməti daim şəxsi həyatının, ailəsinin, karyerasının fövqündə tutub. Budur əsl vətəndaşlıq və rəhbər iradəsi ki, ümummilli liderimiz məhz bu xüsusiyyətlərinə görə Azərbaycan tarixində şəriksiz örnək nümunəsidir!

Ötən ilin oktyabr ayında Azərbaycan xalqına, müraciətində Heydər Əliyev öz həyat fəlsəfəsini, fəaliyyət prinsiplərini belə açıqlamışdır: **"Mənim Azərbaycan Respublikasına bütövlükdə rəhbərliyimin 34, müstəqil Azərbaycan dövlətinə prezident kimi rəhbərliyimin isə 10 ili tamam olur. Bu illərdə istər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, prezidenti kimi mənim həyat amalım yalnız sizə - bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".** Heydər Əliyev xalqını bu cür yüksək qiymətləndirir, millətinə xidməti ən böyük xoşbəxtlik kimi dəyərləndirirdi.

Bu, ümummilli liderimizin hələ gənc yaşlarından fəaliyyət prioriteti idi. Heydər Əliyev hələ Dövlət Təhlükəsizlik Komitəsində çalışarkən vəzifə borcuna uyğun olaraq, sovet rejiminin tələblərinə riayət etməli, milli hisslərin daşıyıcısı olan hər hansı bir meyli zərərsizləşdirməli idi. Ancaq **"hər bir vəzifə yalnız xalqa xidmət üçün bir vasitədir"** - fikrini özünə kredo seçən qüdrətli insan fəaliyyətini, əsasən, milli hisslərin daşıyıcısı olan şəxslərin mühafizəsinə və ölkədə milli ruhu yüksəldən tədbirlərin həyata keçirilməsinə kömək etmək xüsusunda qururdu. Elə **1967-ci ildə Azərbaycanda Novruz bayramının geniş şəkildə qeyd olunmasına şərait yaradılmasında və bu mərasimə etiraz edən qüvvələrin susdurulmasında göstərdiyi böyük xidmətlərə görə Heydər Əliyev tariximizdə yaşamaq haqqı qazanıb!** Həmin dövrdə təhlükəsizlik

orqanlarının milliləşdirilməsi kimi çətin bir proses və bu strukturlardan azərbaycanlı qanına susayan erməni-rus çekistlərinin uzaqlaşdırılması da məhz ümummilli liderimizin dövlətimiz qarşısında göstərdiyi misilsiz fədakarlığıdır.

1969-cu ilin 14 iyulunda Azərbaycana rəhbər seçilməsi isə Heydər Əliyev üçün dövlətə və xalqa xidmət üçün daha geniş imkan yaratdı. Ümummilli liderimiz ölkəni bütün sahələr üzrə inkişaf etdirdi, Azərbaycanı ittifaq məkanında ucqar əyalət statusundan çiçəklənən respublikaya, öncül mövqeyə qədər yüksəltdi. 1969-1982-ci illərdə Azərbaycan böyük bir tikinti meydanına, quruculuq məkanına çevrilmişdi. Kəndlərə şəhər siması gətirən rəhbər bu məntəqələrdə müasir tipli məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları, ictimai-iaşə obyektləri inşa etdirirdi. Şəhərlərdə hər kvartalda yeni fabrik və zavodların açılması ənənə halını almışdı. Mərkəzin həyata keçirdiyi "bütün respublikaların biri- birindən iqtisadi və xammal asılılığı siyasəti" Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda yerinə yetirilmədi. Yeni istehsal sahələrinin açılması ölkənin iqtisadi müstəqilliyinin daha da artmasına-xidmət edirdi. Əhalinin sosial durumu qat-qat yüksəlirdi. Sənaye, kənd təsərrüfatı, istehsal dinamik inkişaf edirdi.

Ölkədə 213 yeni sənaye müəssisəsi istismara verilmişdi. Sənayedə əmək məhsuldarlığı 2,1 dəfə artmışdı. 581 adda yeni tipli maşın, avadanlıq və cihaz nümunələri yaradılmışdı. 1056 adda mühüm sənaye məhsulunun kütləvi buraxılışına başlanılmış, 310 avtomatlaşdırılmış xətt, 1300 kompleks mexanikləşdirilmiş xətt və avtomatlaşdırılmış məntəqə, sex və istehsal sahəsi istismara buraxılmışdı. Milli gəlirin həcmi 2,5 dəfə artmış və qeyd edilən 13 il ərzində istehsal olunan sənaye məhsulları öz həcminə görə əvvəlki 50 ilə bərabər idi.

Neft sektoruna diqqət isə xüsusi əlahiddə əhəmiyyət kəsb edirdi. Ötən əsrin 70-ci illərindən etibarən neft sənayesi yeni inkişaf mərhələsinə qədəm qoydu. Neft sektorunda bilavasitə Heydər Əliyevin adı ilə bağlı olan nailiyyətlər daha böyük idi. Heydər Əliyevin birbaşa qayğısı və diqqəti sayəsində neft yataqlarının kəşfiyyatı, qazılması, işlənməsi, mütərəqqi texnologiyalardan və üsullardan istifadədə yeniliklər yenə də Azərbaycanın payına düşdü. Ölkədə neft sənayesi konsepsiyasının nəzəri inkişafını təmin edən elmi-tədqiqat institutları, istehsalat birlikləri, müxtəlif müəssisələr yaradıldı. Ötən əsrin 60-cı illərində istehsalı əsaslı şəkildə aşağı düşən neft-qaz sənayesi həmin dövrdən etibarən yeni yüksəliş mərhələsinə qədəm qoydu. Sənaye istehsalı artımı neftdə 3 dəfə, qaz sektorunda isə 2 dəfə çoxaldı. Azərbaycan SSRİ-də neft hasilatı, emalı, geologiyası, kəşfiyyatı ilə məşğul olan ən böyük dövlətlərdən idi.

Həmin illərin uğur təzahürləri tək Azərbaycanın iqtisadi gücünün artırılıb, iqtisadi muxtariyyətin bərqərarı ilə yekunlaşmadı. Bu, milli-mənəvi, mədəni, ədəbi yüksəlişlərlə, əsl azərbaycanlı düşüncə tərzinin və şüurunun yaranması ilə davam etdi. Heydər Əliyev ali və orta məktəblərin sayının bir neçə dəfə artırılması, milli ədəbiyyata, folklora, mədəniyyətə və incəsənətə dövlət qayğısının gücləndirilməsi barədə qərarlar verdi. Azərbaycan dili dövlət dili kimi respublika Konstitusiyasında təsbit edildi. Milli ruh, milli mənəviyyat, milli intibah artıq adi söz deyildi, bunlar cəmiyyətin və vətəndaşın əsas xüsusiyyət göstəriciləri idi.

Ümummilli liderimizin daha bir uzaqgörən siyasəti Dağlıq Qarabağ Muxtar Vilayətində Azərbaycan üsul-idarəsini möhkəmləndirmək idi. Rəhbərimiz DQMV-də meydan sulayan erməni hikkəsini ustalıqla yatırdı, vilayətdə 50 il ərzində ilk dəfə olaraq Azərbaycan təsirini, azərbaycanlının gücünü hiss etdirdi. Onun idarəçiliyi dönəmində DQMV-nin rəhbərliyi, vilayət erməniləri rəsmi Bakının, Heydər Əliyevin qarşısında, sözün həqiqi mənasında, təzim göstərirdilər.

Həmin illərdə dövlətin bütün sahələri üzrə azərbaycanlı mütəxəssislərin hazırlığı prosesi də yüksək səviyyədə həyata keçirildi. İqtisadi, hüquq, dövlət idarəçiliyi, hərbi və digər mühüm sahələr üzrə milli kadr hazırlığı bilavasitə Heydər Əliyevin nəzarətində idi və bu yönümdə iş azərbaycanlı gənclərin ittifaqın ən nüfuzlu ali təhsil müəssisələrində təhsil almaları ilə davam edirdi. Heydər Əliyev Azərbaycanı müstəmləkə kimi deyil, iqtisadi və milli-mənəvi muxtariyyatı olan ölkə tək yaşadırdı. Bir sözlə, **1969-1982-ci illər ərzində Sovet İttifaqı tərkibində Heydər Əliyev müstəqil Azərbaycanın ilkin rüşeymlərini əsaslı şəkildə formalaşdırdı!**

## Tarixi missiyanın yeni mərhələsi

Fəlsəfə elmləri doktoru, professor Ramiz Mehdiyev **"Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr"** əsərində həmin dövrdə dövlət başçısının yürütdüyü cahanşümul missiyanın təsnifatını belə verir: "**Təbiət Heydər Əliyevə nadir keyfiyyətlər - iş qabiliyyəti, qətiyyət, özünün haqlı olduğuna əminlik, ətrafındakı adamların məziyyətlərini və imkanlarını müəyyənləşdirmək bacarığı kimi keyfiyyətlər bəxş etmişdir... Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır. Onun adı da, elə özü də bu dövlətçiliyi təcəssüm etdirir... Heydər Əliyev həm özünün nadir siyasi istedadı sayəsində, həm də milli dirçəlişin mükəmməl fəlsəfi konsepsiyasına əsaslanaraq, müasir Azərbaycan adlandırdığımız bir məmləkəti, onun bugünkü həqiqətlərini, sabahkı gününün etibarlı**

**bünövrəsini yarada bilmişdir. Formal səbəblərə görə deyil, ilk növbədə məhz buna görə Azərbaycan tarixinin 1969-cu ildən bəri bütün dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Həqiqətən də, Azərbaycanı müstəqil dövlət qurmağa aparan yol, əslində, 1969-cu ildən - məhz onun hakimiyyətə gəlişindən sonra başlanır. Heydər Əliyevin respublikanın rəhbəri vəzifəsində fəaliyyətinin ilk günlərindən aydın oldu ki, onun simasında Azərbaycan xalqı əsl milli liderini tapmışdır. O, əvvəlki, standart stereotipləri qırır, hansısa yeniliklər daxil edə bilirdi ki, bunları da o illərdə başa düşmək və dəqiq formalaşdırmaq çətin idi. Əslində isə, bunlar olduqca aydın nəticələrə gətirib çıxarırdı. Heydər Əliyevin bütün fəlsəfi konstruksiyası xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Qalan hər şey, o cümlədən də iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin təməlinə çevrilməli idi".** Bu münasibət ümummilli liderimizin Azərbaycana rəhbərliyinin ilk mərhələsinə verilən ən müfəssəl, ən dəqiq qiymətdir.

1982-ci ildə Heydər Əliyev Azərbaycanın adını növbəti dəfə ucaltdı və bacarığı, istedadı, idarəçilik məharəti, işgüzarlığı nəticəsində ittifaq rəhbərliyinə yüksəldi. Ümummilli liderimiz dünyanın altıda birini təşkil edən böyük bir dövlətin ən ali rəhbərliyində dördüncü adam idi (Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsi siyasi iyerarxiyada baş katib, Ali Sovetin sədri və Nazirlər Sovetinin sədri postlarından sonra gəlirdi). **"Kremlə sancılan əzəmətli türk bayrağı"** ittifaqın bütün sənayesinə, iqtisadiyyatına, təsərrüfatına, elminə, təhsilinə, mədəniyyətinə, səhiyyəsinə, tikintisinə, bütün strateji sahələrinə birbaşa rəhbərlik edirdi. O, Siyasi Büronun üzvü kimi dövlətin xarici və daxili siyasətini müəyyənləşdirən əsas simalardan sayılırdı.

Heydər Əliyev bu postda tam 5il çalışdı. Brestdən Vladivostokadək, Norilskdən Həştərxana qədər on minlərlə tikinti meydanının, Baykal-Amur Magistralının qurucusuna çevrilən bu böyük azərbaycanlının xidmətlərini indi də keçmiş müttəfiq respublikalarda böyük hörmətlə xatırlayırlar. Bu müddətdə Heydər Əliyev, şübhəsiz ki, vətənini unuda bilməzdi. Həmin illərdə mərkəzdən Azərbaycana ayrılan vəsaitlərin həcmi dəfələrlə artırılmış, respublikada gedən quruculuq işlərinə daha geniş və münbit zəmin yaranmışdı.

Onun təşəbbüskarlığı tək maddi quruculuq məsələləri ilə bağlı deyildi. Heydər Əliyev sistemdə, ideoloji prinsiplərdə, idarəçilik metodlarında islahatlar aparmaq təklifini cəsarətlə irəli sürürdü. 1985-ci ildə ittifaqa rəhbər seçimində qabiliyyətinə, nüfuzuna görə Siyasi Büronun bütün üzvlərindən daha şanslı olmasına baxmayaraq qeyri-slavyan mənşəli olduğundan layiq olduğu postdan məhrum edildi. Bütün fəaliyyəti boyu **"Azərbaycanlı kimi dünyaya gəldiyimə, Azərbaycan dilində danışdığıma, Azərbaycanı təmsil etdiyimə görə özümü çox xoşbəxt sayıram"** - sözlərini fəxrlə səsləndirən böyük şəxsiyyət məhz milli mənsubiyyətinə görə layiq olduğu vəzifədən kənarda qaldı. Və o vaxtdan sonra Heydər Əliyevin əleyhinə kampaniya başladı. Lakin o, elə böyük qüdrət və nüfuz sahibi idi ki, ona yönəlmiş bütün təxribatlar yalnız pərdə arxası aparılır, heç kəsin Heydər Əliyevlə aşkar mübarizə aparmağa cəsarəti çatmırdı. Fəqət Kremldaxili intriqalar elə geniş və məkrli miqyas almışdı ki, nəticədə ümummilli liderimiz istefa ərizəsi yazdı.

Ancaq Heydər Əliyevin tarixi missiyası bitməmişdi, əksinə, bu missiyanın ən şərəfli və məsuliyyətli mərhələsi başlayırdı. Azərbaycanın üzləşdiyi ədalətsiz müharibə, ölkəmizin ittifaq rəhbərliyi tərəfindən təklənməsi dövlətimizin və xalqımızın Heydər Əliyevə olan ehtiyacını daha da artırırdı. 1991-ci ilin əvvəllərində Heydər Əliyev Azərbaycan parlamentinin deputatı kimi gərgin fəaliyyətə başladı. Çıxışlarının əsas leytmotivi Dağlıq Qarabağ probleminin həlli ilə bağlı rəsmi Bakının daha cəsarətli mövqe tutması və əhalinin müdafiəsinin təşkilini dövlətin öz üzərinə götürməsi idi. Lakin parlament qaraguruhu bu fikirləri, "böyük qardaşa" qarşı səslənən mülahizələri tənqid edir, onu Azərbaycanda "zərərli müstəqillik ideyalarını yaymaqda" günahlandırırdı. Yeni ittifaq müqaviləsinə qoşulmaq üçün keçirilən referenduma qarşı çıxan Heydər Əliyev həmin zaman Azərbaycanın perspektiv müstəqilliyinin yeganə tərəfdarı kimi çıxış edirdi.

Bakıda ucuz intriqalar, saray çəkişmələri iyrənc xarakter aldığı dövrdə Heydər Əliyev Naxçıvana qayıtdı. Ancaq burada onu yenə də gərgin siyasi fəaliyyət gözləyirdi. Ümummilli liderimiz özünün qəti etirazlarına, rəsmən imtinasına baxmayaraq, Naxçıvan sakinlərinin uzunmüddətli mitinqlərindən və təkidli tələblərindən sonra Muxtar Respublikanın Ali Məclisinə rəhbərlik etməyə razılaşdı. O, xalqın arzu və istəkləri ilə yenidən siyasi olimpə doğru irəliləyirdi. Naxçıvan Azərbaycanın müstəqillik savaşının ideya və real fəaliyyət mərkəzinə çevrildi. Məhz ilk dəfə Naxçıvanda dövlət atributları qəbul olundu, bayrağımız rəsmi formada dalğalandı, "Sovet Sosialist" sözündən imtina edildi, sovet qoşunları ərazini tərk etdi, sərhəd məntəqələrində Azərbaycan bayrağı ucaldıldı, tarixi ədaləti və müstəqil dövlətçilik prinsiplərini bərqərar edən fərmanlar. imzalandı. Heydər Əliyevin bu təşəbbüslərini sonradan Azərbaycan Milli Şurası da rəsmiləşdirməyə məcbur oldu. Heydər Əliyev Azərbaycan məkanında əsl müstəqillik və layiqli dövlətçilik nümunəsini formalaşdırdı. Blokadada olan bölgəni yaşatmağa müvəffəq oldu. Əhalinin təhlükəsizliyini təmin etdi. Işğalın qarşısını aldı.

**Əbədi qurtuluşun müəllifi**

1993-cü ilin iyununda xalqın nəzərləri yenidən Heydər Əliyevə dikilmişdi. Bu zaman böyük şəxsiyyətin hakimiyyətə qayıdışını yalnız xalq tələb etmirdi, ixtilafları ilə ölkəni uçurum qarşısında qoyan bütün siyasi qüvvələr də bu "idarəçilik ensiklopediyası"nın rəhbərliyə gəlişini yeganə nicat yolu kimi dəyərləndirirdilər. Heydər Əliyev hakimiyyətə qayıtdı və 13 il ərzində qurduğu dövlətin 1983-cü ildən 1993-cü ilə qədər davamlı şəkildə dağıdılması prosesinin qarşısını aldı, xalqın ondan gözlədiyi qurtuluş missiyasını reallaşdırdı.

**Heydər Əliyev Azərbaycana sabitlik, siyasi islahatlar, demokratikləşmə, iqtisadi yüksəliş, sosial inkişaf gətirdi, dövlətə Ordu, əsgərə ehtiram, qürur bəxş etdi, vətəndaşına ən ali hüquq və azadlıqlar, sərbəstlik, təkmil Konstitusiya, azad və ədalətli seçkilər, xalqın səsi ilə ərsəyə gələn parlament verdi.**

**Heydər Əliyev MDB-də ilk dəfə olaraq torpaq islahatı apardı və torpağı ilk dəfə olaraq kəndliyə təmənnasız bağışladı, nefti "fəlakət mənbəyindən" yüksəlişin əsas amilinə və Ümumxalq sərvətinə çevirdi, şəffaf özəlləşdirmə prosesinin banisi oldu, xalqı mülkiyyətçi, sahibkar etdi.**

**Heydər Əliyev Azərbaycana 17 milyard ABŞ dollarından artıq həcmdə sərmayə, 1,5 milyard dollarlıq büdcə, yüz milyonlarla vəsaitin cəmləndiyi Neft Fondu, həcmi milyard dolları ötən valyuta ehtiyatı gətirdi, məcburi köçkün bataqlıqdakı çadırdan müasir evlərə köçürdü, onların öz doğma yurdlarına dönmələri üçün isə dünyanı, beynəlxalq təşkilatları qarış-qarış gəzərək Azərbaycanın haqq səsini qəbul etdirdi və Ermənistanın təcavüzkar siyasətini ifşa edərək qələbəmizin siyasi, diplomatik və informativ zəmnini formalaşdırdı.**

**Heydər Əliyev Azərbaycanda vətəndaş qarşıdurmasını dayandırdı, vətəndaş birliyini, sülhünü və həmrəyliyini yaratmaq məqsədilə on minlərlə insana amnistiya və əfv tətbiq etdi, Azərbaycan insanına güclü və qüdrətli dövlət, Azərbaycana isə uğrunda canından keçməyə hazır olan vətəndaşlar bəxş etdi.**

Biz 2003-cü ilin 12 dekabrında belə bir vətəndaşı, şəxsiyyəti, lideri, millət atasını itirdik. **Heydər Əliyev itkisinin miqyası qazandığımız bütün uğurların mahiyyəti qədər böyükdür!** Əbədi rəhbərimizin dəfnində və sonrakı hüzn günlərində dörd milyondan artıq vətəndaşımızın müqəddəs ziyarətgahda Heydər Əliyevin xatirəsinə ehtiram nümayiş etdirməsi bu böyük dühanın Azərbaycan tarixində hansı iz qoymasını aydın şəkildə göstərir. Matəm mərasiminə dünyanın nüfuzlu dövlətlərinin rəhbərlərinin qatılması, eləcə də ölkəmizə gələn bütün xarici nümayəndə heyətlərinin Heydər Əliyevin məzarını ziyarət etmələri də ümummilli liderimizə beynəlxalq aləmin böyük ehtiramının ən bariz təcəssümüdür.

Heydər Əliyevin on minlərlə quruculuq izi bu gün bütün Azərbaycan boyu öz bəhrəsini verir, ölkəmizin inkişafında mühüm rol oynayır. Ümummilli liderimizin dövlət quruculuğu prosesinə ən böyük töhfələrindən biri də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılmasıdır. 1999-cu ilin yanvar ayında akademiyanın yaradılması barədə sərəncam imzalayan bu böyük şəxsiyyət məlum qərarı ilə yalnız növbəti bir ali məktəb təsis etmədi, həm də dövlət idarəetməsi sahəsində mütəxəssislər hazırlayacaq, rəhbər kadrların peşəkarlıq səviyyəsini artıracaq elm mərkəzi formalaşdırdı. Akademiyaya rektor təyin olunarkən Heydər Əliyevin mənimlə olan söhbətini indi də böyük fəxarət, eyni zamanda duyğulu hisslərlə xatırlayıram. **"Bizə müstəqil Azərbaycan üçün müasir idarəçiliyi mənimsəyən, yeni tərzdə düşünən, novator təfəkkürlü kadrlar lazımdır. Bu akademiya həmin vəzifəni yerinə yetirməli, ölkəyə lazımlı mütəxəssislər hazırlamalıdır. Bu sahədə beynəlxalq təcrübəni də öyrənməyiniz vacibdir. Ancaq ən əsası odur ki, Azərbaycanın yerli şəraitini, milli xüsusiyyətlərini də unutmamalısınız. Milli-mənəvi dəyərlərə bağlılıq, Azərbaycana sədaqət hazırlanacaq mütəxəssislərin əsas keyfiyyəti olmalıdır"** - ümummilli liderimizin bu sözləri beşillik fəaliyyətimiz boyu bizim yeganə istinadgahımız, əməl etdiyimiz əsas prinsip oldu. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professor-müəllim heyətinin əsas məqsədi Heydər Əliyev siyasi kursu əsasında formalaşmış, ümummilli liderimizin dövlətçilik ənənələrini mənimsəmiş və bu böyük dühanın qurduğu dövlətin layiqli rəhbər kadrları olacaq mütəxəssisləri hazırlamaq, onların peşəkarlıq səviyyələrini məhz Heydər Əliyevin tələbləri əsasında təkmilləşdirməkdir. Heydər Əliyevin bizə həvalə etdiyi bu vəzifəni həyata keçirmək şərəfli olduğu qədər də məsuliyyətlidir. Təhsil müəssisəmizin pedaqoji kollektivinin və tələbə heyətinin ən ümdə arzusu odur ki, ümummilli liderimizin xatirəsinin əbədiləşdirilməsi ilə bağlı növbəti qərarlardan biri də Heydər Əliyevin yaratdığı və onun dövlət quruculuğu ənənələrini yaşadan elm mərkəzi kimi tanınan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına dünyanın ən böyük azərbaycanlısının adının verilməsi olsun.

Biz Heydər Əliyev itkisinə nə qədər çox kədərlənsək də, təskinliyimizi onunla tapırıq ki, bu gün ölkəmizdə dahi şəxsiyyətin əsasını qoyduğu siyasi kurs uğurla davam edir və onun qurduğu, inkişaf etdirdiyi dövlət indi etibarlı əllərdədir. Əslində, ötən ilin 15 oktyabrında Azərbaycan seçicilərinin bu kursun ən layiqli davamçısına böyük etimad nümayiş etdirmələri və hazırda cənab İlham Əliyevə sonsuz inam bəsləmələri də

məhz Heydər Əliyevin ruhu qarşısında vətəndaşlıq borcunun ödənməsidir. Ümummilli liderimizdən "**Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm**" - qiymətini alan prezident İlham Əliyev, şübhəsiz ki, xalqın da əsas ümid yeri olmalıdır.

Dövlət başçısının Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvləri ilə keçirdiyi son görüşdə səsləndirdiyi bu fikirlər isə hər birimizdə dövlətimizin daha böyük nailiyyətlər qazanacağına inam formalaşdırır: **"Xalqın dəstəyi ilə bir neçə ay ərzində ölkədə aparılan siyasət Azərbaycan xalqının mənafelərinə xidmət edib, əhali tərəfindən dəstəklənib. Bu siyasət Heydər Əliyev siyasətinin məntiqi nəticəsi və davamıdır. Başqa cür ola da bilməz. Bir vətəndaş kimi, bir siyasətçi kimi mən açıq-aydın görürəm ki, Azərbaycanda bu siyasətə alternativ yoxdur. Əgər biz istəyiriksə ki, Azərbaycan xalqı rahat, xoşbəxt yaşasın, bu siyasət mütləq və mütləq davam etdirilməlidir. Mən sizi əmin etmək istəyirəm ki, bütün məsələlərdə Heydər Əliyev siyasətinə sadiq qalacağam".**

**Biz tam əminik ki, Heydər Əliyev siyasi kursu Azərbaycanda daim davam edəcək və dahi liderimizin müəllifi olduğu milli inkişaf strategiyası cənab İlham Əliyevin rəhbərliyi altında daha böyük nailiyyətlərlə müşayiət olunacaq. Heydər Əliyevin xatirəsi isə, əslində, Azərbaycanın qazandığı nailiyyətlərdə və ölkəmizin davamlı tərəqqisində əbədiləşib. Nə qədər ki, müstəqil Azərbaycan mövcuddur, bu dövlətin qurucusu da tariximizdə daim yaşayacaq və əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider örnəyi kimi xatırlanacaq!**

**“Azərbaycan”**.- 2004.- 6 may.-№105.- S. 5.

# HEYDƏR ƏLİYEVİN ŞAH ƏSƏRİ

## *ƏSRİN NEFT MÜQAVİLƏSİ*

**Eldar ŞAHBAZOV**,
*texnika elmləri doktoru, professor*

*Neft Azərbaycan Respublikasının və Azərbaycan xalqının ən böyük milli sərvətidir.*

**Heydər ƏLİYEV**

Ümummilli lider Heydər Əliyevin şah əsəri olan "Əsrin müqaviləsi" yüksək dinamik sürətlə həyata keçirilir. Bir müddət bundan öncəni, yəni 1993-cü ili yada salsaq, Azərbaycanın neft sənayesinə investisiya qoyulması adama yuxu kimi gələrdi. Ancaq zaman kəsiyi çərçivəsində, yəni həmin dövrdən keçən 10 il ərzində nəinki "Əsrin müqaviləsi"ndən alınan mənfəət, həm də respublikanın iqtisadiyyatının dinamik inkişafı göz qabağındadır. Və hər bir vətəndaş bundan bəhrələnir. Yaxın gələcəkdə həyat səviyyəsinin yüksəlməsinə təkan verən neft amili Azərbaycanın gələcəyi deməkdir.

Bir anlığına keçmişə - 70-80-ci illərə qayıdaq. Heydər Əliyev zəkasının bəhrəsi olan Bakıda Dərin Özüllər Zavodunun tikilməsi, emal və maşınqayırma kompleksinin yaradılması - sanki bunlar Heydər Əliyev tərəfindən gələcəyə baxış səviyyəsində həyata keçirilmişdir. Zaman keçdikcə insan düşünür və qətiyyətlə bir fikir üzərində dayanır ki, 34 ilə yaxın bir dövr ərzində Azərbaycana rəhbərlik etmiş Heydər Əliyev dühası sanki hadisələri qabaqcadan görə-görə inkişafını tapmışdır. Bu gün Heydər Əliyev məktəbinin layiqli davamçısı, onun ideyalarını uğurla həyata keçirən möhtərəm Prezidentimiz İlham Əliyevin sözləri ilə desək, **müasir dünyada neft məqsəd yox, qlobal siyasi, strateji və iqtisadi problemləri həll etmək üçün vasitədir.** Bu sözlər dövrümüzün siyasi-iqtisadi problemlərindən irəli gələrək deyilmişdir.[1]

Dünyada cərəyan edən siyasi, strateji amillərin Yer kürəsinin bu və ya digər regionlarında çıxarılması mümkün olan karbohidrogen ehtiyatlarının miqdarına və dünya bazarına çıxarılmasına təsiri kontekstində aparılmış strateji planlaşdırma göstərir ki, XX əsrin birinci yarısından başlayaraq dünya sərmayəçilərinin diqqəti əvvəlcə Meksika körfəzinə, oradakı ehtiyatların dünya bazarına çıxarılmasına, sonralar isə tədricən bu marağın Hibraltar boğazına, daha sonra İran körfəzinə, Şimal dənizinə, Yaxın Şərqə yönəlmişdir. Aparılmış tədqiqatlar əsasında müəyyən edilmişdir ki, bu proses təkamül xarakteri daşımaqla, regiondan-regiona "sürüşmə" dövrü 20-25 ilə bərabərdir.

90-cı illərin əvvəlində sovet rejiminin süquta uğraması və karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması zərurəti, məhsulun maya dəyərinin dünyanın digər regionlarına nisbətən aşağı olması dünya sərmayəçilərini Xəzər hövzəsinin neft və qaz ehtiyatlarının mənimsənilməsinə cəlb etdi.

20 sentyabr 1994-cü ildə dünyanın ən iri transmilli neft şirkətləri ilə birgə ümummilli liderimiz Heydər Əliyevin şah əsəri olan "Əsrin müqaviləsi" imzalandı. Hal-hazırda 15 ölkənin 33 neft şirkəti ilə 22 müqavilə bağlanmışdır. Azərbaycanın neft və qaz sektoruna 8 milyard ABŞ dollarından çox sərmayə qoyulmuş və 12 milyard ABŞ dolları həcmində aşağıdakı 4 nəhəng layihə üzrə işlər aparılır:

**1. "Azəri", "Çıraq", "Günəşli" (AÇG)**

Bu yataqlar Bakı şəhərindən 100 km. məsafədə - dənizdə yerləşir, təqribən 5,4-6 milyard barel (və yaxud 825 milyon ton) həcmində çıxarıla bilən ehtiyatlara malikdir. Dünyanın iri neft şirkətləri qrupunun təşkil etdiyi və bp şirkətinin əməliyyatçı olduğu ABƏŞ tərəfindən həyata keçirilir.

AÇG layihəsi 4 mərhələ üzrə işlənir: İlkin neft layihəsi (1997-ci ildən), faza 1 ( 2004, IV rüb, ildə 20-30 milyon ton), faza 2 ( 2006, II rüb, ildə 40 milyon ton), faza 3 ( 2008, II rüb, ildə 50-60 mln. ton), gündə 133 min barel neftdən - 1 milyon barelədək (2009-cu ildə) hasilatın artması nəzərdə tutulur. Bu isə dünyada artan neft tələbatının 10%-i deməkdir.

**2. "Bakı-Tbilisi-Ceyhan" (BTC)**

Xəzərlə Aralıq dənizi arasında Türkiyə boğazlarından yan keçən ilk birbaşa neft boru kəməridir ki, bunun çox böyük regional əhəmiyyəti vardır.[2] Uzunluğu 1760 kilometrlik boru kəmərinin Azərbaycan - Gürcüstan - Türkiyədən Ceyhan limanına kimi inşasının 2005-ci il IV rübündə başa çatdırılması nəzərdə tutulmuşdur. "BTC" şirkəti boru kəmərinin tikintisilə 11 neft şirkətinin adından boru kəmərinin əməliyyatçısı kimi fəaliyyət göstərir.

**3. "Şahdəniz" qaz və qaz-kondensat yatağı**

Xəzərin Cənub-Şərq sahilindən 100 kilometr məsafədə yerləşən bu yataqda qazılan ilk qiymətləndirmə quyusu göstərdi ki, Şahdəniz dünya miqyaslı bir qaz yatağıdır və onun tammiqyaslı işlənməsi zamanı çıxarıla

bilən potensial ehtiyatları 400 milyard kubmetrdən artıqdır. Layihə üzrə hasilatın 2006-cı və 2020- ci illər arasındakı dövrdə 110 milyon ton neft ekvivalenti təşkil etməsi gözlənilir (30 illik dövr ərzində ildə 8,2 milyard kubmetr qaza bərabər). Qaz və kondensat iki sualtı boru kəməri vasitəsilə quruda, Səngəçaldakı neft terminalının yanında tikilməli olan qəbuletmə və qaz emalı terminalına nəql olunacaq.

**4. Cənubi Qafqaz boru kəməri (CQBK)**

690 kilometr uzunluğunda olacaq Cənubi Qafqaz boru kəməri vasitəsilə ildə 7,3 milyard kubmetr həcmində Şahdəniz yatağının qazı Azərbaycanın Səngəçal terminalından başlayaraq və Gürcüstanı keçməklə Türkiyənin Ərzurum şəhərinə nəql olunacaq. CQBK Azərbaycanda və Gürcüstanda BTC boru kəmərinə paralel olaraq, eləcə də torpağın altında basdırılaraq çəkiləcək. CQBK tikintisini və istismarını həyata keçirən qrupa 7 milli və beynəlxalq neft şirkəti daxildir. bp şirkəti baş əməliyyatçıdır.

Şahdəniz yatağından hasil edilən qaz Azərbaycan, Gürcüstan və Türkiyədə qaz təchizatı komplekslərinə əhəmiyyətli dərəcədə yardım edəcək. Azərbaycan ildə 1,5 milyard kubmetr həcmində qaz almaq hüququna malikdir. Gürcüstanın isə tranzit tarifi əvəzində boru kəməri ilə nəql edilən illik qaz həcminin 5%-ni götürəcəyi gözlənilir. Türkiyə Azərbaycandan ildə 6 milyard kubmetrdən artıq qaz almaq barədə alqı-satqı sazişi imzalamışdır.[3]

BTC boru kəməri sistemi boyunca 8 iri nasos stansiyası tikiləcək. Bunun 2-si Azərbaycanda, 2-si Gürcüstanda, 4-ü isə Türkiyədə. Azərbaycanda neft dəniz səviyyəsindən 1000-1500 metr yüksəklikdə boru vasitəsilə nəql ediləcək. Gürcüstanda yüksəkliklər 2500-3000 metr, boru kəmərinin diametri Türkiyədə orta hesabla 3000-3500 metrdir. Ceyhan limanına yaxınlaşdıqca yüksəklik xeyli azalır.

Layihənin həyata keçirilməsində ətraf mühitə göstərilən qayğı xüsusilə qeyd edilməlidir. Əgər əvvəlcə, ilkin variantda, Azərbaycanda Ceyrançöl və Şəmkir qoruqları ərazisində, Gürcüstanda Borjomi, Tsalka gölü ərazisində yarana biləcək problemlər bizi narahat edirdisə, uzun sürən və yüksək professionallıqla aparılan tədqiqatlar nəticəsində bu çətinliklərin olmaması sübuta yetirildi. Xüsusilə qeyd etmək istərdim ki, boru kəməri ətraf mühitlə bilavasitə təmasda olmur. Kəmər Səngəçal terminalında torpağa lazımi dərinliyə basdırılır və Ceyhan limanında yerin səthinə çıxır. Adıçəkilən boru kəməri çayların, vadilərin altı ilə quraşdırılır və inşa edilir, ekoloji baxımdan heç bir təhlükə törətmir.

Bu layihə yüksək professionallıqla işlənmiş və kritik zəlzələlərin baş verməsi halları üçün ən yüksək dünya standartlarına cavab verən texnologiyaların tətbiqi ilə həyata keçirilir. Bu sahədə bir sıra tədqiqat xarakterli eksperimentlər aparılmış və yüksək nəticələr alınmışdır. Borulara gəldikdə isə, onlar yüksək etibarlılıq, dözümlülük və elastiklik qabiliyyətinə malikdir. Ümumiyyətlə, istismar zamanı hər bir əməliyyatın aparılmasında risk dərəcəsi təhlil edilir və onun lazımi səviyyədə olmasına nəzarət edilir.

Texniki təhlükəsizliyə gəldikdə isə, bp şirkətinin uzun illərdən bəri təcrübədən çıxmış "qızıl qaydaları" mövcuddur. Bu sahədə işləyən hər bir kəs həmin qaydalardan xəbərdardır və onlara riayət edir. Azərbaycan, Gürcüstan və Türkiyə ərazilərində ətraf mühitin qorunması və ona qayğı baxımından xeyli işlər görülmüşdür və bu gün onların hamısı dünya standartlarına cavab verir.

Bütün layihələri gələcəkdə həyata keçirmək üçün xərclər (indiyə kimi və gələcəkdə nəzərdə tutulan xərclər daxil olmaqla) 20 milyard ABŞ dolları həcmindədir.

AÇG neft hasilatı üzrə 2002-ci ilin IV rübünədək 165 milyon barel neft hasil edilmişdir. Bunun müqabilində Azərbaycan dövlətinə 200 milyon ABŞ dolları bonus şəklində ödənilmiş və 500 milyon ABŞ dolları dəyərində mənfəət neftindən gəlir əldə edilmişdir. Hazırkı proqnozlar əsasında 30 il müddətində AÇG layihəsinin həyata keçirilməsi nəticəsində Azərbaycan dövləti 21-58 milyard ABŞ dolları həcmində (1 barel neftin qiymətinin 16-25 ABŞ dolları olmasını nəzərə almalı), həmçinin Azərbaycan, Gürcüstan, Türkiyə üçün tranzit haqlar şəklində stabil gəlirin əldə edilməsi gözlənilir.

2005-ci ildən etibarən əldə edilən gəlir ölkənin bazar iqtisadiyyatına keçməsi yolunda böyük rol oynayacaq. Bu gəlirlə bağlı dünya bazarında neftin qiymətlərinin kəskin enib-qalxması ilə əlaqədar respublika iqtisadiyyatında yaranan problemlər qabaqcadan, .xüsusi olaraq nəzərə alınmalıdır. Bu amilin təsirinin gələcəkdə aradan qaldırılması ilə əlaqədar 2000-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondu yaradılmışdır. Fondun fəaliyyəti qarşılıqlı olaraq Azərbaycan Beynəlxalq Maliyyə Fondu və Ümumdünya Bankı ilə birgə fəaliyyətdə tənzimlənir. Bu gün Neft Fondunda 900 milyon ABŞ dollarından çox vəsait toplanmışdır.

2002-ci ildə respublikada yoxsulluğun azaldılması üçün xüsusi plan hazırlanmışdır. Azərbaycan xalqının uzunmüddətli sosial inkişafı üçün böyük zəmin yaradılıb. Bu işlərin həyata keçirilməsi 3 istiqamətdə reallaşır:

1. İqtisadi-sosial - ətraf mühit, neft və qaz gəlirləri.

— Məşğulluq və iqtisadiyyatın qeyri-neft sektoru - sosial sərmayə qoyuluşu, yerli enerji təminatı.

— İnsan hüquqları - münaqişələr, biomüxtəliflik, neft dağılmalarına qarşı cavab tədbirləri, istixana qazlarının paylanması.

Azərbaycanın Avropa Şurasına üzv olmağı ilə əlaqədar həyata keçirilən islahatlar, keçid proseslərinin bir hissəsi kimi aparılan digər iqtisadi struktur və təsisatlarda islahatlar dinamik olaraq həyata keçirilir. Bu islahatlar iqtisadi və sosial, ətraf mühitin idarə edilməsi və qorunması, insan hüquqları kimi sahələri də əhatə edir.

Qazanılan gəlirin şəffaflığının artırılması məqsədilə, layihələrə dair hasilatın pay bölgüsü sazişlərinin tranzit ölkələr sırasına daxil olan ölkələrin ictimaiyyəti üçün açıq olmasını təmin edən tədbirlər həyata keçirilir. Bu tədbirlər ictimaiyyət üçün açıq olan İnternet səhifələrində yerləşdirilmək vasitəsilə həyata keçirilir.

Bu gün BTC-də tikinti işlərini qrafik üzrə davam etdirməklə Azərbaycanda Bakı və Türkiyədə Ceyhan arasında bütün boru kəməri marşrutu boyunca 17-dən artıq tikinti sahəsində böyük işlər görülür. Tikinti işləri başlayandan bəri layihəyə hər gün 4 milyon ABŞ dollarından artıq pul xərclənmişdir və bu, 2004-cü ilin qalan hissəsində və gələn ilin birinci yarısında boru kəməri tamamlananadək davam edəcək.

Bu gün layihədə üç ölkə üzrə təxminən 14000-dən artıq işçi çalışır ki, onların 3500 nəfərdən çoxu azərbaycanlıdır və bunun da təxminən 76%-i Azərbaycan vətəndaşıdır.

22 aprel 2004-cü il tarixinə olan məlumata görə hər üç ölkə boyunca tikinti dəhlizinin 1074 kilometri tikinti üçün hazırlanmış, 931 kilometrdən artıq boru qaynaqlama üçün hazır düzülmüş, təxminən 842 kilometr uzunluğunda boru (47,7%) qaynaqlanmış, təxminən 441 kilometr uzunluğunda xəndək qazılmış və 385 kilometrdən artıq boru torpağa qoyulmuşdur. Ümumilikdə hər üç ölkədə 354 kilometr uzunluğunda boru yerləşdirilmiş xəndəyin üzəri torpaqla örtülmüşdür. BTC-nin bütün tikinti işlərinin 60%-dən çoxu tamamlanmışdır.

Bundan əlavə, gələcəkdə Azərbaycan hökumətinə çatacaq gəlir axınlarının proqnozu da müəyyən edilmişdir. 2005-2006-cı illərə qədər əməliyyat qruplarında təxminən 1800 nəfər işlə təmin olunacaq, bura texniklər, mühəndislər, qazmaçılar, layihə və biznes menecerlərinin cəlb olunması nəzərdə tutulur. Layihələrin həyata keçirilməsi ilə əlaqədar geniş çeşidli malların və xidmətlərin istehlak olunması nəzərdə tutulmuşdur. Təxmini hesablamalar əsasında müəyyən edilmişdir ki, tikinti-quraşdırma proseslərinin yerinə yetirilməsi ilə əlaqədar Azərbaycan, Gürcüstan və Türkiyədə yerli malların və xidmətlərin alınmasına sərf edilən xərclərin məbləği 5 milyard ABŞ dollarına yaxın təşkil edəcəkdir. Bəzi hesablamalar nəticəsində müəyyən edilmişdir ki, Azərbaycanda kəşfiyyat və hasilat layihələrinin istismar mərhələsi zamanı çəkilən xərclərin həcmi 2010-cu ildə təxminən 300 milyon ABŞ dollarına çata bilər. Boru kəmərlərinin illik istismar xərcləri 2009-cu ildə üç ölkə üzrə birlikdə 200 milyon ABŞ dolları həcmində olması gözlənilir.

Azərbaycan üzrə görülən tikinti işlərində 291,6 kilometr (65,8%) boru xətti qaynaqlanıb və 125,8 kilometr (28,4%) isə torpağa basdırılıb. Gürcüstan üzrə görülən tikinti işlərində 157,3 kilometr (63,2%) boru xətti qaynaqlanıb və 60,1 kilometr (24,1%) isə torpağa basdırılıb. Türkiyə üzrə görülən tikinti işlərində 337,8 kilometr (31,4%) boru xətti qaynaqlanıb və 128,1 kilometr (12%) isə torpağa basdırılıb.

Ümumi layihə üzrə cəlb olunan işçi qüvvəsinin sayı 14282 nəfər, Azərbaycan üzrə - 3469 nəfər (23,9%). Bu işçilərdən 716 nəfəri (20,6%) xarici vətəndaş, 2753 nəfəri (79,4%) isə Azərbaycan vətəndaşıdır.

Tikinti-quraşdırma işləri tamamlandıqdan sonra layihələrin istismar mərhələləri üçün müxtəlif diapazonda texniki və biznes bacarıqlarına malik işçilər, əsasən təcrübəli mühəndislər, qazmaçılar, hasilat operatorları və texniklər, həmçinin inzibatı və biznes sahəsində işçilərin götürülməsi nəzərdə tutulmuşdur. Yerli müəssisələr üçün imkanların genişləndirilməsini təmin etmək məqsədilə biznes mərkəzi yaradılmışdır.

Məlum olduğu kimi, 2004-cü il fevralın 3-də Bakıda BTC üzrə maliyyələşmə sənədləri imzalandı. Bu, tikintisi 2,95 milyard ABŞ dolları dəyərində ( boru kəmərinin doldurulması və tikinti müddətində borcların faizi də daxil olmaqla, layihənin ümumi dəyəri 3,6 milyard ABŞ dollarıdır) olan boru kəməri üçün maliyyələşmə sazişlərini başa çatdırdı. Maliyyələşmə paketi 78 müxtəlif tərəfin 17000-dən artıq imzası ilə 208 maliyyə sənədini əhatə edirdi.

BTC xərclərinin təxminən 30%-i səhmdarların öz vəsaitləri hesabına maliyyələşdirilir, ümumi xərclərin qalan 70%-i isə üçüncü tərəflərdən maliyyələşmə formasında təmin olunur. BTC tərəfdaşları artıq layihəyə bir milyard ABŞ dolları vermişlər.

**Qaynaqlar**

— Heydər Əliyevin neft strategiyası. Azərbaycanın müstəqilliyi və rifahı naminə. I və II hissələr, Bakı, 2001

— Алиев А., Мирзоев М., Шахбазов Э. ОЭТ Баку-Тбилиси-Джейхан:от видения к реальности. Баку, 2001.

— Əliyev N., Yusifzadə X., Şahbazov E. Azərbaycan neft və qaz sənayesi XXI əsrin astanasında (Azərbaycan və ingilis dillərində). Ekson Mobil nəşri. Kitab Heydər Əliyevin 1969-1999-cu illərdə ölkəyə rəhbərliyi dövründə neft və qaz sənayesinin inkişafındakı roluna həsr edilib.

**"Dirçəliş XXI əsr"**.-2004.- № 74-75.- S.98-106.

## SABAHIMIZ, GƏLƏCƏYİMİZ XALQIMIZIN ÜMUMMİLLİ LİDERİ HEYDƏR ƏLİYEVİN YOLUDUR

**Murtuz ƏLƏSGƏROV**,
*Milli Məclisin sədri,*
*hüquq elmləri doktoru, professor*

*İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm.*

**Heydər ƏLİYEV**

Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin ölməz ideyaları həmişə bizimlədir. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ümummilli liderimizin ən böyük əsəri olan Azərbaycan Respublikasının daha da inkişaf edib möhkəmlənməsi üçün əzmlə fəaliyyət göstərir.

Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevin sədrliyi ilə bu il mart ayının 11 -də Yeni Azərbaycan Partiyası İdarə Heyətinin iclasında dövlətimizin başçısı demişdir: **"Mən çox şadam ki, xalqın dəstəyi ilə bir neçə ay ərzində ölkədə aparılan siyasət Azərbaycan xalqının mənafelərinə xidmət edib, əhali tərəfindən dəstəklənir. Bu siyasət Heydər Əliyev siyasətinin məntiqi nəticəsi və davamıdır. Başqa cür ola da bilməz".**

İlham Əliyevin bu sözləri və bu gün Azərbaycanda həyata keçirilən böyük tədbirlər məhz Heydər Əliyevin ölməz ideyalarının həmişəyaşar, əbədi olduğunu bir daha sübut edir. Heydər Əliyevin uzaqgörənliyi, müdrikliyi və fədakarlığı onu təkcə Azərbaycan xalqının deyil, bütün dünya azərbaycanlılarının sevimlisi etmiş, ömür yolu isə Vətənə xidmətin parlaq nümunəsinə çevrilmişdir. Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqına, vətəninə həsr etmiş ümummilli liderimiz Heydər Əliyev Azərbaycan xalqının tarixində müstəqilliyimizin memarı və qurucusu kimi silinməz iz qoymuşdur. Yorulmaz, çoxşaxəli və zəngin fəaliyyəti, unudulmaz misilsiz insani keyfiyyətləri sayəsində o, bu gün qəhrəmanlıq əfsanəsinə çevrilmişdir.

Heydər Əliyev həmişə Azərbaycan xalqının mənafeyini düşünən bir öndər olmuş, bu istiqamətdə apardığı ardıcıl və məqsədyönlü siyasət onun bütün fəaliyyətinin əsasını təşkil etmişdir. O, hələ 1969-1982-ci illərdə Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrdə ölkəmizi müstəqil bir dövlət kimi görürdü. Hamıya məlumdur ki, 1960-cı illərin əvvəllərində respublika iqtisadiyyatında öz həllini gözləyən çoxsaylı problemlər mövcud idi. Ölkəni gerilikdən xilas etmək üçün Azərbaycanda xalqa əsl rəhbər ola biləcək şəxsiyyətə böyük ehtiyac duyulurdu. 1969-cu ildə hakimiyyət başına gələn Heydər Əliyev respublikamızı qısa müddətdə inkişaf etdirdi, xalqımızın milli mənlik şüurunun yanmasına təkan verən məqsədyönlü tədbirlər həyata keçirdi. Totalitar rejimin sərt tələblərinin qüvvədə olduğu bir dövrdə Heydər Əliyev Azərbaycana ilk dəfə olaraq fikir plüralizmi, demokratik düşüncə tərzi, güclü sosial ədalət duyğusu gətirdi. O, keçmiş İttifaq rəhbərliyində çalışdığı illərdə uzaqgörən bir siyasətçi kimi Azərbaycanın bütün sahələrdə daha da qüdrətlənməsi üçün əlindən gələni əsirgəmədi. Hərbi kadrların hazırlanması sahəsində Heydər Əliyevin gördüyü nəhəng işlər isə bu müdrik şəxsiyyətin uzaqgörənliyinin parlaq sübutu oldu.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra 1990-cı illərin əvvəllərində Azərbaycan yenə çoxsaylı problemlərlə üzləşdi. Respublikanın o vaxtkı rəhbərliyinin yarıtmaz fəaliyyəti nəticəsində Azərbaycan ərazilərinin dalbadal işğalı, gündən-günə gərginləşən siyasi vəziyyət, əhalinin günbəgün ağırlaşan sosial durumu, vətəndaş müharibəsi təhlükəsi ölkəni uçurum kənarına gətirdi.

Azərbaycanı belə dəhşətli vəziyyətdən Heydər Əliyev dühası xilas etdi. O dövrdə Yeni Azərbaycan Partiyası artıq ilk addımlarını atırdı. Yeni Azərbaycan Partiyasının yaranması və inkişafı Azərbaycanın siyasi həyatında ümid çırağı yandırdı. Xalq əmin oldu ki, Azərbaycana nicat verə biləcək, onu doğru yola çıxaracaq möhtəşəm siyasi qüvvə artıq mövcuddur və bu siyasi qüvvəyə görkəmli dövlət xadimi Heydər Əliyev rəhbərlik edir.

**Heydər Əliyevin o zaman hakimiyyət başına gəlməsi, bir-birinin ardınca həyata keçirdiyi tədbirlər, sözün həqiqi mənasında, böyük qəhrəmanlıq, hər şeydən əvvəl, vətəndaşlıq hünəri idi.** Cəbhədə atəşkəs elan olundu, ordu quruculuğu sahəsində səmərəli addımlar atıldı, iqtisadiyyatın inkişafı üçün təcili tədbirlər görüldü, demokratikləşdirmə prosesinə təkan verildi, Şərq aləmində ilk dəfə olaraq ölüm cəzası ləğv

edildi, iqtisadiyyatımız dirçəlməyə başladı, respublikamız tədricən düşdüyü ağır böhrandan qurtuldu. Bu gün tam əminliklə demək olar ki, əgər o vaxt ölkədə baş verən hadisələrə Heydər Əliyevin şəxsi müdaxiləsi olmasaydı, Azərbaycan adlı dövlət dünya xəritəsindən çoxdan silinmişdi. Ümummilli liderimiz Heydər Əliyevin ən böyük xidmətlərindən biri də onun Azərbaycanı dünya miqyasında tanıtması oldu. 20 Yanvar faciəsinə siyasi qiymət verilməsi, Dağlıq Qarabağ probleminin dünya ictimaiyyətinə geniş miqyasda çatdırılması məhz böyük öndərimizin adı ilə bağlıdır. Buna görə də tamamilə haqlı olaraq ölkənin ali qanunvericilik orqanı xalqın ən müxtəlif təbəqələrinin arzu və istəklərini nəzərə alaraq ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətə qayıtdığı 15 iyun gününü "Milli qurtuluş günü" kimi dəyərləndirdi.

Azərbaycanın böhrandan xilas olmasını, dünya miqyasında tanınmasını bir sıra xarici və daxili qüvvələr qısqanclıqla qarşılayırdılar. Lakin artıq gec idi. İki dəfə dalbadal dövlət çevrilişi cəhdləri baş tutmamışdı. Azərbaycanın düşmənləri yaxşı başa düşürdülər ki, Heydər Əliyevin yaratdığı Azərbaycan dövlətini artıq heç bir qüvvə yox edə bilməz. Daha dəqiq desək, tarixin təkərini geri döndərmək olmaz.

Heydər Əliyev ömrünün sonunadək Azərbaycanı yüksəltmək, inkişaf etdirmək naminə əlindən gələni əsirgəmədi. Bu gün ümummilli liderimizin yolunu onun siyasi məktəbinin layiqli davamçısı, dünya miqyasında tanınmış siyasətçi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ləyaqətlə davam etdirir. 2003-cü il oktyabrın 15-də tarixi bir seçim edən Azərbaycan xalqı demokratik, şəffaf, ədalətli seçkilərdə bu şərəfli missiyanı İlham Əliyevə həvalə etdi. Bununla da xalqımız sabitliyə, tərəqqiyə və sivil dünyaya inteqrasiyanın güclənməsinə tərəfdar olduğunu bir daha təsdiqlədi. Beləliklə, Azərbaycan özünün demokratik prinsiplərə sədaqətini bütün dünyaya yenidən bəyan etdi.

2003-cü ilin 15 oktyabr günü tarixi bir hadisəyə çevrildi. Azərbaycan xalqı etimad göstərdiyi liderə, beynəlxalq aləmdə kamil siyasətçi, təcrübəli diplomat, səriştəli dövlət xadimi kimi tanınan bir şəxsiyyətə səs verməklə ölkəmizi böyük tərəqqiyə aparan yolun - Heydər Əliyev yolunun davam etdirilməsinin möhkəm əsasını qoydu.

İlham Əliyev Prezident seçilənə qədər böyük bir siyasi məktəb keçmiş, beynəlxalq qurumlarda, xüsusən Avropa Şurasında xalqımızın haqq səsini bütün dünyaya çatdırmışdı. O, Azərbaycan parlament nümayəndə heyətinin başçısı olmaqdan əlavə, Avropa Şurası Parlament Assambleyasının sədr müavini və Büro üzvü seçilmişdi. Vaxtilə Heydər Əliyev Kremlin zirvəsini fəth etdiyi kimi, İlham Əliyev də Avropa Şurasının zirvəsini fəth etmişdi. Onun çoxşaxəli fəaliyyətində neft strategiyası sahəsində gördüyü böyük işlər, respublikamızda idmanın inkişafı naminə həyata keçirdiyi tədbirlər xalqımıza yaxşı məlumdur. Azərbaycana qarşı Ermənistanın işğalçılıq siyasətini yüksək kürsüdən bütün dünyaya çatdıran İlham Əliyev Dağlıq Qarabağ problemi ilə bağlı dünya ictimaiyyətinin nəzər-diqqətini cəlb edən bir çox sənədlərin yayılmasında böyük fədakarlıq göstərdi. Dağlıq Qarabağda narkotik bitkilərin yetişdirilməsi və nəqli, narkotik vasitələrin dövriyyəsindən götürülən gəlirdən terror məqsədləri ilə istifadə edilməsi, Ermənistandakı milli abidələrimizin dağıdılması, Azərbaycanın mədəni sərvətlərinin bədnam qonşularımız tərəfindən talan edilməsi və oğurlanması - bütün bunlar məhz Ilham Əliyevin sayəsində bütün dünyaya çatdırıldı.

Qazanılmış bütün nailiyyətləri yenə də xarici və daxili düşmənlərimiz qısqanclıqla qarşıladılar. 15-16 oktyabr hadisələri, qaragüruhçuların iğtişaş salmaq niyyəti yenə də baş tutmadı. Onlar məhkəmə qarşısında dayandılar və cəzalarını aldılar.

İlham Əliyev bütün fəaliyyəti ərzində Azərbaycanın tərəqqisinə, ölkədə demokratik dəyərlərin qorunmasına və inkişafına, xalqın rifah halının yaxşılaşdırılmasına, dövlətimizin dünyanın qüdrətli dövlətləri sırasına çıxarılmasına xidmət etmiş böyük siyasətçi Heydər Əliyevin siyasi və dövlətçilik xəttini davam etdirən ən layiqli şəxsiyyətdir. Heydər Əliyev Azərbaycanın iqtisadiyyatının tərəqqisi üçün necə əlindən gələni edirdisə, bu gün cənab İlham Əliyev də Azərbaycanın iqtisadi inkişafının təmin edilməsində fədakarlıqla çalışan bir siyasi xadim kimi onun yolunu davam etdirir.

Ümummilli liderimiz Heydər Əliyev Prezidentimiz İlham Əliyevin böyük gələcəyinə inamını belə ifadə etmişdi:

**"İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir... İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".**

Bu gün İlham Əliyev dövlətçiliyimizin memarı və qurucusu Heydər Əliyevin bu inamını ləyaqətlə doğruldur. O, ölkə əhalisinin Azərbaycanın gələcək inkişaf yolları üçün səfərbər olmasında olduqca səmərəli fəaliyyət göstərir. 2000-ci ilin parlament seçkilərində YAP-ın seçki kampaniyasına məhz İlham Əliyevin başçılıq etməsi və partiyamızın uğur qazanması onun xalq arasında nə qədər böyük nüfuza malik olmasının

bariz nümunəsidir. Bu gün İlham Əliyev Yeni Azərbaycan Partiyasının lideridir. Mən Prezident İlham Əliyev haqqında YAP İdarə Heyətinin iclasında dediyim sözləri burada bir daha təkrar edirəm:

**"İlham Əliyev Yeni Azərbaycan Partiyasının sədri olmağa tamamilə layiqdir və biz də onun ətrafında daha sıx sıralarda birləşəcəyik. Onun həm Prezident kimi, həm də partiya sədri kimi fəaliyyəti təqdirəlayiqdir. İlham Əliyevin bir-birinin ardınca həyata keçirdiyi tədbirlər, onun Fransaya, Rusiyaya və Qazaxıstana etdiyi səfərlər və bu səfərlərdə imzalanmış sənədlər sübut edir ki, İlham Əliyev xalqımızı daha işıqlı gələcəyə aparacaqdır. Bu yol isə Heydər Əliyevin ölməz ideyalarının yaşaması yoludur".**

Bir siyasi xadim kimi İlham Əliyevi, ABŞ, Türkiyə, Rusiya, Fransa, İngiltərə, Almaniya, Yaponiya və dünyanın bir çox başqa ölkələrində də yaxşı tanıyır, yüksək qiymətləndirirlər. Bu dövlətlər ölkəmizlə əlaqələrini bundan sonra da inkişaf etdirəcəklərini bildirmişlər. Amerika Birləşmiş
Ştatları kimi fövqəldövlətin prezidenti Corc Buşun İlham Əliyevə məktubunda oxuyuruq: "*Sizinlə, Sizin hökumətinizlə və Azərbaycan parlamenti ilə işləməyi səbirsizliklə gözləyirik. Biz, həmçinin ölkələrimizi daha da yaxınlaşdıracaq əsas sahələrdə, o cümlədən terrorizmlə mübarizə və regional sabitlik, enerji və davamlı siyasi və iqtisadi islahatlar sahəsində də əməkdaşlığı genişləndirmək üçün Sizinlə işləməkdə davam edirik".*

Bu fakt dünyanın aparıcı dövlətlərinin Azərbaycanın dövlət başçısına və dövlətimizə böyük hörmətinin bariz nümunəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2003-cü il 17 noyabr tarixli iclasındakı çıxışı dahi şəxsiyyət Heydər Əliyev tərəfindən ölkəmizdə ötən illər ərzində aparılmış iqtisadi siyasətin davam etdiriləcəyinin sübutu oldu. İlham Əliyev bütün iqtisadi sahələrin inkişafına nail olmaq üçün birinci növbədə mövcud problemlərin aradan qaldırılmasını əsas vəzifə kimi qarşıya qoydu. Bu baxımdan Prezidentin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanı xüsusi əhəmiyyətə malikdir. Dövlət başçısı yoxsulluğun azaldılmasını, işsizlərin sayının minimuma endirilməsini, dövlət idarələrində, müəssisə və təşkilatlarda maliyyə intizamının gücləndirilməsini, qaçqın və məcburi köçkün ailələrinin sosial durumunun yaxşılaşdırılmasını, vətəndaşların maddi ehtiyaclarının ödənilməsi üçün əlverişli şəraitin yaradılmasını, sahibkarlığın inkişafına dövlət dəstəyinin daha da artırılmasını, qaz və elektrik enerjisinin satışında yaranmış problemləri, regional layihələrin həyata keçirilməsini, fermer təsərrüfatlarının texnika ilə təmin olunmasını, ölkənin enerji ilə təchizatını yaxşılaşdırmaq məqsədilə yeni elektrik stansiyalarının tikilməsini və digər mühüm vəzifələri həyata keçirməyin vacib olduğunu önə çəkməklə Heydər Əliyevin siyasi xəttinin davamçısı olduğunu bir daha göstərdi. İlham Əliyev Azərbaycan iqtisadiyyatının gələcəyi haqqında belə demişdir: **"Sərmayələrin gəldiyi əsas yer Bakıdır, neft sənayesidir. Ancaq biz çox maraqlıyıq ki, Azərbaycanın hər bir bölgəsi inkişaf etsin, ölkəmizin hər bir vətəndaşı aparılan böyük işlərin nəticəsini hiss etsin".** İlham Əliyev bildirmişdir ki, hökumətin planlarına növbəti beş il ərzində 600 min yeni iş yerinin açılması daxildir. Azərbaycanın bütün bölgələrinin sosial-iqtisadi inkişafını təmin etmək dövlətimizin əsas məqsədlərindən biridir.

İlham Əliyevin "Azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" 2003-cü il 29 dekabr tarixli fərmanı Heydər Əliyevin humanizm prinsiplərinin yaşadığını göstərməklə yanaşı, həm də ölkəmizdə güclü bir dövlətin formalaşdığına əyani sübutdur. Bu sənəd beynəlxalq ictimaiyyətə sübut etdi ki, Azərbaycan dövləti bütün vətəndaşlarına münasibətdə yalnız humanist dəyərlərə, insan hüquqlarına hörmətin təzahürü olan ali meyarlara üstünlük verir. Prezident tərəfindən imzalanmış "Azərbaycan milli ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamlar ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli-mənəvi dəyərlərimizə, tariximizə, elm, mədəniyyət və incəsənətin inkişafına dövlət tərəfindən qayğı göstərilməsi ənənəsinin yaşadığını bir daha təsdiqlədi.

İlham Əliyevin Prezidentlik fəaliyyəti dövründə ABŞ dövlət başçısının 907-ci düzəlişin qüvvəsinin daha bir il müddətinə dayandırılması barədə qərarı müsbət qarşılandı. Uzun illər ABŞ-la münasibətlərin inkişafına əsaslı dərəcədə mənfi təsir göstərmiş "Azadlığa Dəstək Aktı"na 907-ci Əla-vənin qüvvəsinin dayandırılması müddətinin daha bir il uzadılması haqqında ABŞ Prezidentinin imzaladığı sənəd Vaşinqton - Bakı əlaqələrinin tərəfdaşlıq prinsiplərinə sədaqət andı üzərində köklləndiyini nümayiş etdirdi.

İlham Əliyev yetkin və uzaqgörən bir siyasətçi kimi sağlam gənclik yetişdirmək, bununla da bütün xalqımızın sağlam gələcəyini təmin etmək üçün idmanı ümumxalq hərəkatına çevirmək xətti yeridir. Bu onun doğma xalqına nə qədər dərindən bağlı olduğunu sübut edir. İlham Əliyev yorulmaz və gərgin əməyi sayəsində az vaxtda Azərbaycan idmanını ayağa qaldırmış, ona şöhrət qazandırmış- dır. Dünyanın bir çox ölkələrində keçirilmiş yarışlarda qələbə çalan Azərbaycan idmançılarının Vətən bayrağını göylərə ucaltması İlham Əliyevin böyük qələbəsidir.

Bu barədə İlham Əliyev demişdir: **"1997-ci ildən başlayaraq beynəlxalq yarışlarda, Olimpiya oyunlarında, dünya, Avropa çempionatlarında minə yaxın medal qazanılmışdır. Hər dəfə qazanılan qələbə təkcə idmançının deyil, bütün ölkənin qələbəsidir".**

İlham Əliyev Azərbaycan iqtisadiyyatında baş verən qlobal proseslərə ilk növbədə milli mənafelər baxımından yanaşır, neft amili və Qafqaz, neft amili və milli təhlükəsizlik, neft biznesi və sosial-iqtisadi tərəqqi məsələlərinə də ciddi diqqət verir. İlham Əliyev dəfələrlə bildirmişdir ki, iki əsrin qovuşuğunda respublikamızın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsi, dünyanın inkişaf etmiş ölkələrinin, beynəlxalq təşkilatların Azərbaycana marağının artması ilk növbədə Azərbaycan dövlətinin uğurlu siyasəti, neft strategiyası ilə bağlıdır. Bu strategiyanın ən vacib istiqamətlərindən biri "Bakı-Tbilisi-Ceyhan" neft və "Bakı-Tbilisi-Ərzurum" qaz kəmərləridir. Bu, bir daha Azərbaycan dövlətinin, Heydər Əliyev siyasətinin fundamental qələbəsidir, bu layihənin hazırlanması və işə başlamasına qədərki dövrdə, konkret araşdırma və təhlillər, xarici şirkətlərlə çoxsaylı işgüzar danışıqlar aparan İlham Əliyevin uğurlu fəaliyyətinin nəticəsidir. Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişaf etdirilməsini də Azərbaycan dövlətinin iqtisadi siyasətinin əsas istiqaməti hesab edir. Bu gün Azərbaycan xalqı uğurla reallaşan iqtisadi-siyasi, sosial islahatların real nəticələrini görməkdədir. Respublikada aparılan islahatlar rabitə, informasiya texnologiyaları, nəqliyyat, energetika, qaz təchizatı və iqtisadiyyatın digər mühüm sahələrini də əhatə etmişdir.

Bütün bunlar bir daha sübut edir ki, ümummilli liderimiz Heydər Əliyevin əməlləri, onun müəyyənləşdirdiyi siyasət ölməzdir. Müasir Azərbaycan dövlətinin qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycan tarixindəki misilsiz xidmətlərini nəzərə alaraq onun xatirəsinin əbədiləşdirilməsi haqqında Prezident İlham Əliyevin 2004-cü il 10 mart tarixli fərmanı xalq tərəfindən böyük sevgi və minnətdarlıq hissləri ilə qarşılanmışdır. Heydər Əliyevin ölməz xatirəsi Azərbaycan xalqı durduqca yaşayacaqdır.

Biz inanırıq ki, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin daha işıqlı və firavan gələcəyə qovuşacağı günlər uzaqda deyil. Biz inanırıq ki, İlham Əliyev Heydər Əliyevin başladığı taleyüklü planları qətiyyətlə həyata keçirəcəkdir. Bunun üçün biz hamımız onun ətrafında səfərbər olmalı, Heydər Əliyevin yolunu, ideyalarını həmişə davam etdirmək naminə əlimizdən gələni əsirgəməməliyik. Bizim bu günümüz də, sabahımız da xalqımızın ümummilli lideri Heydər Əliyevin ölməz adı, ölməz ideyaları ilə bağlıdır.

**Ədəbiyyat**

— Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. "Azərbaycan" qəzeti, 30 dekabr, 2000.

— ADU-nun 50 illiyi münasibətilə keçirilən yığıncaqda Heydər Əliyevin nitqi. Bakı, 1970.

— 28 May - Respublika gününə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Azərbaycan" qəzeti, 27 may 2001.

— Azərbaycan dövləti bundan sonra da yaşayacaq və müstəqilliyimiz əbədi, daimi olacaqdır. Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 10-cu ildönümünə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi. "Azərbaycan" qəzeti, 18 oktyabr 2001.

— Avropa Şurası Parlament Assambleyasının sessiyasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi. "Dirçəliş-XXI əsr" jurnalı, № 37, 2001.

— Heydər Əliyev və müasir Azərbaycan. I Ümumrespublika Əliyevşünaslıq konfransının materialları. "Azərbaycan Universiteti" nəşriyyatı, Bakı, 2003.

— Azərbaycan Prezidenti Heydər Əliyevin ölkəmizin müstəqilliyi və tərəqqisi naminə fəaliyyətindən bəhs edən silsilə kitablar. Bakı, 2001.

— Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevin sədrliyi ilə YAP İdarə Heyətinin iclası. Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevin nitqi. "Azərbaycan" qəzeti, 12 mart 2004.

— Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin fərmanı. "Azərbaycan" qəzeti, 25 noyabr 2003.

— Prezident İlham Əliyevin Parisə ilk rəsmi səfəri Azərbaycan-Fransa əməkdaşlığının yeni mərhələyə qədəm qoymasında müstəsna rol oynayacaqdır. Azərbaycan Prezidenti İlham Əliyevin Fransa Sahibkarlar Təşkilatının üzvləri ilə görüşündə nitqi. "Azərbaycan" qəzeti, 27 yanvar 2004.

**“Dirçəliş XXI əsr”**.- 2004.- № 74-75.- S.22-29.

# HEYDƏR ƏLİYEVİN SİYASİ PORTRETİNİN CİZGİLƏRİ

**Ramiz MEHDİYEV,**
***fəlsəfə elmləri doktoru, professor***

*Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu reallıqdır.*

**Heydər ƏLİYEV**

Heydər Əliyevin siyasi və mənəvi irsinə hər dəfə müraciət edəndə, bu irsdə Azərbaycan xalqının mənəvi-əxlaqi həyatının necə dərin problemlərinin öz əksini tapdığının şahidi olursan. Bu məqalədə həmin çoxsaylı problemlərdən yalnız biri - Azərbaycan dili ilə bağlı problem üzərində dayanmaq istərdik.

Hamıya məlumdur ki, xalqın ümummilli mənəvi birliyinin Heydər Əliyev tərəfindən yaradılmış konsepsiyasında Azərbaycan dili çox mühüm yer tutur. Heydər Əliyev özü bu dilin parlaq bilicilərindən olmuşdur. Onun nitqləri, çıxışları, müsahibələri yeni siyasi üslubu formalaşdırmış və Azərbaycan dilini o qədər əhəmiyyətli dərəcədə zənginləşdirmişdir ki, tədqiqatçıların hələ neçə-neçə nəsli natiqlik sənətinin bu nümunələrinə müraciət edəcəkdir.

Ümumfəlsəfi problem olaraq, dil fenomenini bir çox dahi mütəfəkkirlər açmağa çalışmışlar. Dünyada dilin ən müxtəlif tərifləri mövcuddur. Fəlsəfə əsərlərində ona çoxlu müxtəlif təriflər verilir. Onların hamısı belə bir faktı bu və ya digər dərəcədə əks etdirir ki, dilin funksiyaları olduqca çoxdur. Bu gün biz süni, formalizə edilmiş dillər, metadillər barədə nə qədər mühakimələr yürütsək də, bir məsələ şəksizdir: insanın bütün mənəvi həyatı, hər halda, öz əksini sözdə tapır. İnsan ruhunun **dil**dən kənarda hər hansı təzahürləri, - musiqi, rəssamlıq, heykəltəraşlıq, - dildə özünü ifadənin zəruriliyi ilə bu və ya digər şəkildə qarşılaşır. Filosoflar, sosioloqlar, psixoloqlar hələ uzun illər diskussiyalar aparacaq və mübahisə edəcək, yeni nəzəriyyələr yaradacaq və artıq təşəkkül tapmış konsepsiyalardan imtina edərək, dilin bütün bəşəriyyət üçün və ayrılıqda hər bir xalq üçün nə demək olduğunu anlamağa çalışacaqlar. Lakin bu, indi bəhs etdiyimiz məsələnin mövzusu olmasa da, bir fikri - xalqın milli ruhu ilə onun doğma dili arasında qırılmaz əlaqə olmasını məhz bu kontekstdə nəzərə çarpdırmaq və qabartmaq istərdik. **"Xalqın dili onun ruhudur, xalqın ruhu isə onun dilidir"** kəlamı kimi hikmətli ifadələr dilin mövcudluğunun və inkişafının sirlərinə nüfuz etmək üçün göstərilən məhz bu cür cəhdlər nəticəsində yaranmışdır. Mənəviyyatla dilin əlaqəsi barədə sadə bir həqiqət bu aforizmdə son dərəcə dəqiq ifadə edilmişdir.

Heydər Əliyev epoxası bütünlüklə yüksəliş epoxasıdır. İqtisadiyyatdan tutmuş, mədəniyyətədək müxtəlif sahələrdə yüksəliş epoxasıdır. Əlbəttə ki, dil mənəviyyatın məhz bu yüksəlişini özündə əks etdirməyə bilməzdi. Həm də unudulmamalıdır ki, Azərbaycan dili inkişaf üçün kifayət qədər əlverişsiz şəraitdə olduğu bir vaxtda bu problemə ilk dəfə Heydər Əliyev müraciət etmişdir. Hamıya məlumdur ki, dil ona qarşı zorakılığa dözmür, bu və ya digər dilin işlədilmə sahəsini məhdudlaşdırmaq istəyindən irəli gələn hər hansı siyasi kataklizmlərə son dərəcə həssaslıqla reaksiya verir.

Azərbaycan xalqı bir çox geosiyasi səbəblərə görə mürəkkəb tarixi proseslərin qovuşuğunda qalaraq, müxtəlif etnosların, mədəniyyətlərin və konfessiyaların qarşılıqlı təsiri və qarşılıqlı zənginləşməsi şəraitində özünün bütün çoxəsrlik tarixi ərzində dilə son dərəcə qayğıkeş münasibət əxz etmişdir. Bir çox hallarda o, nisbi bilinqvizm - ikidillilik şəraitində mövcud olmuşdur, buna baxmayaraq, xalq ən ağır və qarmaqarışıq zamanlarda Azərbaycan dilinin yaşaya və inkişaf edə bilməsinə həmişə xüsusi məsuliyyət hissi ilə yanaşmışdır. Heydər Əliyev əsrlərin və minilliklərin qovuşuğunda baş vermiş bu tarixi proseslərə qiymət verərək, ilk növbədə, tarixi kataklizmlər dövrlərində Azərbaycan dilinin yox olmamasına, əksinə, inkişaf etməsinə və zənginləşməsinə görə əvvəlki nəsillərə hamımızın bəslədiyi minnətdarlıq və iftixar hissindən danışırdı. Bu zaman o, həm adlarını bilmədiyimiz və dilə müqəddəs varlıq kimi, milli sərvət kimi yanaşmış minlərlə azərbaycanlını, həm də bu dili öz yaradıcılığı ilə zənginləşdirən ədəbiyyat və mədəniyyət xadimlərini nəzərdə tuturdu.

Sovet ideologiyası çərçivəsində bu ideologiyanın qızğın məddahları milli dillərə yeni tarixi birliyin - vahid rusdilli sovet xalqının formalaşması və təşəkkülü yolunda ancaq əngəl kimi baxırdılar.

Biz Heydər Əliyevin Azərbaycan dilinin inkişafı və zənginləşməsi ilə bağlı fədakarcasına fəaliyyətinə məhz belə mürəkkəb tarixi şərait prizmasından yanaşmalıyıq.

Mübaliğəsiz demək olar ki, XX əsrin son qərinəsi ərzində Azərbaycan dilinin hərtərəfli inkişafı və zənginləşməsi, dövlət dilinə, rəsmi sənədlər dilinə çevrilməsi, gündəlik həyatda, praktikada işlənilməsi, beynəlxalq münasibətlər, dünya diplomatiyası səviyyəsinə çıxması və özünə hörmət qazanması - bütün bunlar uzaqgörən dövlət xadimi Heydər Əliyevin yorulmaz və çoxşaxəli fəaliyyətinin, daimi diqqət və qayğısının nəticəsidir. O, Azərbaycan dilinin inkişafı üçün, bu dilin insanların mənəvi-əxlaqi və siyasi dünyagörüşünün əsası olması, cəmiyyətimizdə layiqli yer tutması üçün nə etmək lazım gəldiyini gözəl bilir və duyurdu.

Etiraf etməliyik ki, dilimizin bugünkü səviyyəsi Heydər Əliyevin apardığı son dərəcə dəqiq, uzaqgörən dil siyasətinin - Azərbaycan xalqı və Azərbaycan dövləti üçün taleyüklü siyasətin nəticəsidir.

**1960-cı illərin axırlarından respublikaya rəhbərliyə başlayan Heydər Əliyev özünün zəngin siyasi təcrübəsi, yüksək intellektual qabiliyyəti, milli mədəniyyətimizə, mənəvi meyarlarımıza dərindən bələdliyi sayəsində uzunmüddətli siyasət - milli dilin inkişafına və tətbiqinə təkan vermiş siyasət hazırlamış və bütün əngəllərə baxmayaraq, onu dönmədən həyata keçirmişdir.**

Ötən əsrin 20-ci illərindən başlayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli mövcudluğu dövrü də daxil olmaqla, milli dövlətçiliyimizin tarixində ana dili ilə bağlı məsələlərə Heydər Əliyev qədər dərindən maraq göstərən, bu məsələləri daim diqqət mərkəzində saxlayan ikinci bir dövlət başçısı olmayıbdır. Onun görkəmli dövlət xadimi Nəriman Nərimanovun fəaliyyətinə verdiyi qiymət də məhz Azərbaycan dilinə münasibət prizmasından formalaşmışdır. Sovet ideologiyası üçün son dərəcə sirli şəxsiyyət olmuş Nəriman Nərimanova millətçi damğası vurulduğu dövrdə Heydər Əliyev onun fəaliyyətinə müraciət etmiş və Azərbaycan dilindən respublikada daha geniş istifadə edilməsi üçün Nərimanovun atdığı addımların mahiyyətini başa düşməyə çalışmışdır. Lakin tarixi reallıqlar elə idi ki, Nərimanov dil siyasəti sahəsində az-çox nəzərəçarpacaq uğurlara nail ola bilməmişdir. Sonralar Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Nərimanovun qarşılaşdığı çətinliklər o dərəcədə qlobal idi ki, onları aradan qaldırmaq mümkün deyildi. O, Nərimanovun uğursuzluğunun səbəblərini sadalayaraq göstərirdi ki, əvvəla, xalqın milli özünüdərki kifayət qədər yüksək deyildi, ikincisi isə, Moskva rus dilini bütün sovet respublikalarında dövlət dilinə çevirmək xətti yeridərək, SSRİ-nin tərkibinə daxil olan milli qurumlarla zorakılıq və məcburiyyət dilində danışırdı.

Əslində, bu, tariximizin sovet dövründə İttifaq tərkibindəki respublika kimi, Azərbaycanın malik olduğu məhdud səlahiyyətlər çərçivəsində Azərbaycan dilinə yeni status vermək üçün göstərilmiş ilk cəhd idi. Bir tərəfdən, qeyd etmək lazımdır ki, Bakıda türkoloji qurultay keçirilməsi, Azərbaycanın türkdilli ölkələr arasında birinci olaraq latın qrafikasına tarixi keçidi dil siyasəti sahəsində çox böyük irəliləyiş olmuşdur. Lakin bundan dərhal sonra həmin xətdən fəlakətli surətdə uzaqlaşma baş verdi və sonrakı onilliklərdə Azərbaycan dili, xüsusən əlifbamız bir sıra dağıdıcı eksperimentlər obyektinə çevrildi. Azərbaycan dilini ünsiyyət və dövlət idarəçiliyi sahəsindən sıxışdırıb çıxarmaq üçün sovet dövlətinin yüksək dairələrində və respublika daxilində xeyli əməli tədbirlər görülürdü.

1950-ci illərin ortalarında İosif Stalinin vəfatı və Nikita Xruşşovun elan etdiyi "siyasi mülayimləşmə" ilə əlaqədar, Azərbaycan dilinin hüquqlarını özünə qaytarmaq üçün bir sıra cəhdlər göstərildi. Ancaq tələskənlik və problemə səthi yanaşma üzündən bu cəhdlər nəinki siyasi nəticələr vermədi, əksinə, dilimizin statusunun həlli məsələsində əlavə əngəllər yaratdı.

Beləliklə, Azərbaycan cəmiyyətində onillərlə yığılıb qalmış iqtisadi, siyasi və sosial problemlərlə yanaşı, Azərbaycan dilinin dövlət dili statusu alması məsələsi də yalnız ötən əsrin 60-cı illərinin sonlarında Heydər Əliyevin ölkəyə rəhbərliyə gəlməsindən sonra tam kəskinliyi və aktuallığı ilə gündəliyə çıxarıldı.

1906-cı ilin dekabrında "Molla Nəsrəddin" jurnalında ciddi düşüncələr doğuran son dərəcə ibrətamiz karikatura dərc edilmişdi: Azərbaycanlını yerə yıxaraq və "Ay qardaşlar, mən ki, dilsiz xalq olmamışam, bu dilləri ağzıma soxursunuz" - deyə nalə çəkməsinə məhəl qoymayaraq, onun ağzına bir tərəfdən ərəb, digər tərəfdən fars, üçüncü tərəfdən isə, rus dilini təpirlər.

Nə qədər kədərli də olsa, real vəziyyət belə idi. 1994-cü ildə böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin yubileyi qeyd olunarkən Heydər Əliyev onun **"Anamın kitabı"** əsərinə müraciət etdi. O, acı təəssüf hissi ilə deyirdi ki, Cəlil Məmmədquluzadənin XX əsrin əvvəlində qaldırdığı problemlər bizi bütün yüzillik ərzində izləmiş və əsrin sonunda da öz aktuallığını itirməmişdir. Ananın üç oğlu var: onların biri Rusiyada, digəri Türkiyədə, üçüncüsü isə İranda təhsil almışdır. Onların hər biri anaya yad olan mədəni-dil mühitinin yetirməsidir. Lakin onlar təkcə anaya deyil, bir-birinə də yaddırlar. Üç doğma qardaş öz aralarında, sözün əsl mənasında,ümumi dil tapa bilmir, odur ki, ana dilinin və doğma dilin xəzinəsi onlar üçün bağlı və gərəksiz olmuşdur.

Heydər Əliyev xüsusi olaraq vurğulayırdı ki, bu ananın hisslərini hər bir azərbaycanlı yaxşı başa düşür. Öz oğullarının doğma dilə belə münasibətini görən ananın keçirdiyi ürək ağrıları Heydər Əliyevə də

yaxşı tanış idi. Heydər Əliyev özünün bu çıxışını son dərəcə nikbin ruhda bitirdi, lakin bu nikbinliyə zəmin yaratmaq üçün o, uzun illər ərzində titanik fəaliyyət göstərməli olmuşdu. Kədərli də olsa, bu, real gerçəklik idi.

Bəzi istisnalar olmaqla, ancaq rus dilinin əsas ünsiyyət vasitəsi olduğu dövrün irəli sürdüyü təshihlərlə birlikdə bu məyusedici mənzərə XX yüzilliyin 70-ci illərinədək davam etdi. Yaşlı nəslin yaxşı yadındadır ki, keçmiş sovet respublikalarında olduğu kimi, Azərbaycanda da on illər ərzində bilinqvizm - ikidillilik məcburi surətdə tətbiq edilirdi. Dövlət idarələrində isə rus dilindən geniş istifadə edilməsi hər vasitə ilə təşviq olunurdu ki, bu da milli dilin dövlət dili kimi inkişafı yolunda ciddi əngəllər törədirdi. "Belə olmuşdur, ancaq həmişə belə olmamalıdır". **Keçmiş sovet respublikalarının rəhbərləri arasında birinci olaraq Heydər Əliyev milli məsələdə bu cür qətiyyətli mövqe tutdu.** O, Mərkəzdən asılı olan, qapalı sistemdə yaşayan və üstəlik, müsəlman-türk respublikası olan Azərbaycanda milli dil siyasətini çox ölçülüb-biçilmiş və hərtərəfli düşünülmüş surətdə həyata keçirirdi. Heydər Əliyev heç vaxt ötəri imic yaradan tələm-tələsik addımlar atmırdı. Bu keyfiyyət hər bir vətəndaşın, ilk növbədə, yaradıcı ziyalıların nümayəndələrinin həddindən artıq həssaslıq göstərdiyi milli dilə onun münasibətində özünü xüsusilə aydın şəkildə təcəssüm etdirirdi. O, hər bir kəsin diqqətini bu problemə cəlb etməklə onu gündəliyə çıxarır və təkcə rəhbərlik səviyyəsində deyil, həm də zəngin tarixə və mədəniyyətə malik olan bütün xalq səviyyəsində həll edirdi.

Ötən əsrin 70-ci illəri dövlətimizin tarixinə iqtisadiyyatın, sənayenin, tikintinin, rabitənin, nəqliyyatın, sosial və mənəvi həyatın, bütün mədəniyyətin sürətli inkişaf illəri kimi daxil olmuşdur. Bu dövr həm də onunla səciyyəvidir ki, ölkədə qanunilәşdirilmiş ikidillilik şəraitində Azərbaycan dili tədricən rus dilinin kölgəsindən çıxmağa başlayaraq, ictimai şüurda və milli dövlətçilik quruculuğunda öz yerini tuturdu. Bu proses təkamül yolu ilə gedirdi və onu dayandırmaq, yaxud geri döndərmək mümkün deyildi. O vaxtadək yalnız nominal olaraq Azərbaycan Respublikasının dövlət dili hesab edilən Azərbaycan dili artıq kağız üzərində deyil, real həyatda özünə layiq yer tutmağa başlamışdı.

**Şübhəsiz ki, bu, ilk növbədə, milli mənlik şüurunun sürətlə inkişafına kömək edir, milli özünüdərk prosesini tezləşdirirdi.**

Ana dilinə münasibətin son dərəcə siyasiləşdirildiyi və bir çox hallarda əsassız siyasi ittihamlar üçün zəmin olduğu illərdə Heydər Əliyev Azərbaycan dilinin məişət dili və ədəbi dil səviyyəsindən dövlət dili səviyyəsinə qaldırılmasına yönəldilmiş fəaliyyəti ilə kifayətlənmir, həm də özünün şəxsi nümunəsi ilə dilimizin nüfuzunu artırır, onun elmi şəkildə öyrənilməsi və geniş yayılması üçün stimullar yaradırdı. Məhz Heydər Əliyevin rəhbərliyi və iştirakı ilə 1970-ci illərin əvvəllərindən etibarən Azərbaycan dilindən dövlət əhəmiyyətli tədbirlərdə istifadə edilməyə başlandı. Heydər Əliyev yaradıcılıq təşkilatlarının, xüsusən Yazıçılar İttifaqının qurultaylarında, genişmiqyaslı yubiley tədbirlərində çıxış edərək, Azərbaycan dilində səlis və gözəl danışmaq məharəti nümayiş etdirir, bununla da ziyalılarımızın diqqətini ana dilinin inkişafına yönəldirdi.

Azərbaycan, Milli Elmlər Akademiyasının tərkibində ayrıca Dilçilik İnstitutu olan tək-tük sovet respublikasından biri idi. Heydər Əliyev dilçilik elminə, Azərbaycan dilinin problemlərinin öyrənilməsinə, onun mükəmməl qrammatikasının yaradılmasına, milli terminologiyanın inkişafına xüsusi qayğı göstərirdi. Onun yaxından iştirakı və dəstəyi sayəsində Azərbaycan dilçilərinin bir sıra əsərləri, o cümlədən dördcildlik "Müasir Azərbaycan dili" kitabı respublika Dövlət mükafatına layiq görüldü. Türk dillərinin müqayisəli şəkildə öyrənilməsi üçün məhz Heydər Əliyevin fəal dəstəyi ilə 1970-ci ildə Bakıda mötəbər "Sovetskaya tyurkologiya" Ümumittifaq jurnalı təsis olundu.

Jurnalı Azərbaycan Elmlər Akademiyası SSRİ Elmlər Akademiyası ilə birlikdə nəşr edirdi. Sovet respublikaları arasında ilk dəfə olaraq, Azərbaycan Dövlət Universitetində türkologiya kafedrası yaradıldı.

Heydər Əliyevin təşəbbüsü və səyləri sayəsində Azərbaycan Yazıçılar İttifaqının qurultayında (1981-ci il) Cənubi Azərbaycan ədəbiyyatı haqqında xüsusi məruzə dinlənildi, Yazıçılar İttifaqının Cənubi Azərbaycan ədəbiyyatı üzrə katibi ştatı yaradıldı, Elmlər Akademiyasında müvafiq şöbə açıldı, ədəbiyyat və mədəniyyətimizin bu ayrılmaz hissəsinin tədqiqi, öyrənilməsi və sistemli şəkildə nəşri sahəsində iş başlandı.

Əlbəttə, respublikalarda milli özünüdərk və inkişaf prosesinin sovet rəhbərliyinin müqaviməti ilə qarşılaşdığı, milli mənlik şüurunun yüksəlişinə kömək edən yeni meyllərin və təşəbbüslərin qarşısının sərt şəkildə alındığı bir şəraitdə bütün bu sadaladıqlarımızın həyata keçirilməsi Heydər Əliyevdən böyük cəsarət, qətiyyət, prinsipiallıq və yenilməzlik tələb edirdi. Lakin Azərbaycanda Heydər Əliyevin ölkəyə rəhbərliyə gəlməsindən sonra başlanmış milli-mədəni dirçəliş heç də həmişə müsbət qiymətləndirilmirdi və müəyyən dairələr tərəfindən, xüsusən İttifaq rəhbərliyini Azərbaycanın əleyhinə qaldırmaq, türk azərbaycanlılara qarşı etimadsızlıq və şəkk yaratmaq üçün dəridən-qabıqdan çıxan ermənilər tərəfindən əsassız siyasi ittihamlarla, yalan və böhtan kampaniyaları ilə müşayiət olunurdu.

**Ana dili məsələsində məhz Heydər Əliyevin tutduğu prinsipial, qətiyyətli mövqe sayəsində və qızğın fəaliyyəti nəticəsində Azərbaycan Respublikasının 1977-ci ildə qəbul edilmiş Konstitusiyasına**

**Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili olduğu barədə məşhur 73-cü maddə daxil edildi.** Həmin dövrdə Azərbaycan milli dilə Konstitusiya qanunu səviyyəsində dövlət statusu vermiş üç keçmiş sovet respublikasından biri və yeganə türk-müsəlman respublikası idi.

Şübhəsiz ki, bu uzaqgörən tarixi addım Heydər Əliyevin ana dilinə dövləti münasibətinin və siyasi əzmkarlığının parlaq təzahürü idi. Heydər Əliyevin özü o vaxtı belə xatırlayırdı: "Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur...

Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışırdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz Konstitusiyamıza yazmalıyıq və yazacağıq".

**İndi inamla təsdiq etmək olar ki, Heydər Əliyevin 1970-80-ci illərdə milli dil sahəsində apardığı fəal siyasət Azərbaycanda milli dirçəliş, milli mənlik şüurunun inkişafı prosesini sürətləndirdi və əslində, Azərbaycan xalqını milli müstəqillik və milli dövlətçilik əldə etməyə hazırladı.**

Müstəqil Azərbaycan dövlətinə rəhbərliyinin ilk günlərindən Prezident Heydər Əliyevin, yeni tarixi şəraitin ruhuna və tələblərinə uyğun olaraq, Azərbaycan dilinə göstərdiyi qayğı və diqqət həm siyasi, həm də əməli baxımdan fərqlənir. Əvvəla, Azərbaycan dilinin, şərtsiz və şəriksiz dövlət dili olması faktı göz qabağındadır. Müstəqillik illəri ölkə Prezidentinin öz ana dilini necə mükəmməl bildiyini və istər çıxışlarında, istərsə də əhali ilə görüşlərində bu dilin imkanlarından necə məharətlə istifadə etdiyini göstərdi. Digər tərəfdən, Prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dili dövlətlərarası münasibətlər dili, siyasi dialoqlar və diplomatik danışıqlar dili oldu, onlarca ölkədə səslənərək, hər yerdə dövlət başçısının öz doğma dilinə məhəbbətini əks etdirdi. Nəhayət, müstəqil dövlət quruculuğunun bütün çətinliklərinə və mürəkkəbliyinə baxmayaraq, Heydər Əliyev ana dilinə diqqət və qayğını bir an belə unutmurdu.

1992-ci ildə Azərbaycanda bir çox Konstitusiya və hüquq normaları pozularaq, Azərbaycan dilinin adının dəyişdirilməsi haqqında qərar qəbul edildi. Bununla əlaqədar səsini çıxarmağa və qəti etirazını bildirməyə cürət etmiş Azərbaycan alimlərinin kiçik bir qrupu, sadəcə, həbs olundu və xuliqanlıq edən ünsürlər kimi polis şöbəsinə aparıldı. Əslində, Azərbaycan dilinə qarşı mənəvi vandalizm aktı törədildi. Məktəb dərsliklərinin adları tələm- tələsik dəyişdirilməyə başlandı ki, bu da böyüməkdə olan nəslin şüurunda çox böyük dolaşıqlıq və çaşqınlıq yaradırdı. O vaxt Heydər Əliyev Naxçıvanda öz yaxın silahdaşlarının məhdud dairəsində həmin qərarın qeyri-elmiliyini və siyasi nadanlığını məyusluqla və təəssüflə izah edirdi. Lakin o vaxt həmin düşünülməmiş qərarı qəbul edən şəxslərə hər hansı bir təsir göstərmək imkanı yox idi.

On-on beş adam məsələni bütün Azərbaycan xalqı adından həll etmək ixtiyarını öz əllərinə keçirmişdi. Ancaq xalq öz seçimi ilə Heydər Əliyevə Azərbaycan dövlətində ən yüksək hüquqlar verdikdə də, o, səhvlərin düzəldilməsi üçün birbaşa inzibatçılıq yolu ilə getmədi. Elmi tədqiqat müəssisələrində, ali məktəblərdə, Elmlər Akademiyasında çoxlu müzakirələr aparıldı.

Bu müzakirələrin gedişində sırf elmi dəlillər öncül əhəmiyyət kəsb edirdi. Həmin tədbirlərdə az-çox maraq doğuran hər bir fakt barəsində dövlət başçısının məlumatının olması, alimlərin hər bir fikrinə, - hətta onun öz mövqeyinə uyğun gəlməsə də - diqqət və qayğı ilə yanaşması adamı heyran edir. O, bir neçə müzakirədə şəxsən iştirak etmişdi. Lakin son sözü deməyi xalqın ixtiyarına buraxdı. Dilin adı yeni Konstitusiyanın layihəsində öz əksini tapdı və referenduma çıxarıldı. Beləliklə, dünyada geniş yayılmış "Azərbaycan dili" anlayışının qanuni haqqı özünə qaytarıldı. Dövlətimizin başçısı haqlı olaraq vurğulamışdı ki, bu qərarın qəbul edilməsi **"həm keçmişimizə hörmət, həm də gələcək nəsillər üçün böyük bir sərvətdir. Mən hesab edirəm ki, biz çox düzgün və əsaslı qərar qəbul etmişik".**

Qeyd etmək lazımdır ki, Azərbaycan cəmiyyətində son dərəcə geniş və müsbət əks-səda doğurmuş bu qərarı Prezident avtoritar, inzibati- bürokratik yolla deyil, bilavasitə elmi və inandırıcı dəlil-sübutlarla reallaşdırmışdır. Konstitusiya komissiyasının iclaslarında, Azərbaycan Elmlər Akademiyasında və Prezident sarayında keçirilən müşavirələrdə Heydər Əliyevin Azərbaycan dilinin mənşəyi və qaynaqları, tarixi inkişaf yolları, türk dilləri ailəsində yeri, sovet hakimiyyəti illərində dili- mizə qarşı törədilmiş zorakılıqlar və dilimizin müasir inkişaf yolları haqqında söylədiyi və yüksək peşəkarlığı, dərin elmi məzmunu ilə seçilən mülahizələri onun dövlət dilinə məhəbbətinin və qayğısının daha bir təzahürü idi.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında millətin özünütəsdiqi üçün çox vacib olan siyasət, onun hələ ötən əsrin 70-ci illərində başladığı siyasət uğurla həyata keçirildi - dilimizə tam dövlət dili statusu verilməsi və dövlət idarəçiliyinin bütün sahələrində fəal istifadə edilməsinin təmin olunması vəzifəsi gerçəkləşdirildi. Azərbaycan dili cəmiyyətdə öz həqiqi yerini tutdu. Bu isə yalnız və yalnız çoxillik ardıcıl, ən başlıcası isə, ölçülüb-biçilmiş və dərindən düşünülmüş dövlət tədbirlərinin görülməsi nəticəsində mümkün olmuşdu.

Biz son illərdə dünyada Heydər Əliyev şəxsiyyətinə böyük marağın olduğunun şahidiyik. Azərbaycanın sabiq Prezidentinin şəxsiyyəti, həyat yolu, dövləti və siyasi fəaliyyəti haqqında müxtəlif ölkələrdə ayrı-ayrı dillərdə kitablar nəşr edilmişdir və edilir, məqalələr dərc olunur. Bunların bir çoxunda əsas diqqət onun tam siyasi portretinin yaradılmasına verilir. Heydər Əliyev dərin zəkalı, ensiklopedik biliyə, son dərəcə geniş dünyagörüşünə malik şəxsiyyət kimi səciyyələndirilir. Tamamilə haqlı olaraq vurğulanır ki, onun genişmiqyaslı fəaliyyətini təkcə siyasi mübarizə ilə məhdudlaşdırmaq olmaz. Onun başlıca keyfiyyəti quruculuq fəaliyyətidir. Heydər Əliyevin heyranedici uzaqgörənliyi, titanik fəaliyyəti sayəsində müasir müstəqil Azərbaycan dövləti yaradılmışdır. O, ölkənin dövlət müstəqilliyinin sarsılmazlığını və dönməzliyini, Azərbaycanın siyasi, iqtisadi və mədəni inkişafını təmin etmişdir. Heydər Əliyev Azərbaycanın bu gün də irəlilədiyi yolu açmışdır.

Zəmanəmizin bu dahi ictimai-siyasi xadimi və mütəfəkkirinin zəngin irsi, şübhəsiz, hələ gələcək tədqiqatçılarını gözləyir.

Bu şəxsiyyəti son 30 ildən çox bir zaman ərzində Azərbaycanda və ümumiyyətlə, bütün postsovet məkanında baş vermiş hadisələrdən kənarda təsəvvür etmək mümkün deyildir. Onun Azərbaycanın inkişafındakı müstəsna rolu, dəyərli fikir və mühakimələri gələcəkdə **"Heydər Əliyev və Azərbaycan elm və təhsili", "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı və mədəniyyəti", "Heydər Əliyev və Azərbaycanda ictimai-siyasi fikrin inkişaf mərhələləri", "Heydər Əliyev və azərbaycanlıların milli dirçəlişi"** və digər mövzularda dərin tədqiqat əsərlərinin yaranacağına şübhə doğurmur.

Bu baxımdan, zənnimizcə, **"Heydər Əliyev və Azərbaycan dili məsələləri"** mövzusu daha geniş və çoxsəpkilidir.

Mənə uzun illər ərzində Heydər Əliyev ilə birlikdə, onun rəhbərliyi altında işləmək kimi çox böyük şərəf nəsib olmuşdur. Şəxsi müşahidələrimə və gəldiyim nəticələrə, şahidi olduğum faktlara və hadisələrə əsaslanaraq deyə bilərəm ki, Azərbaycan xalqının bu dahi oğlu ilə bağlı tədqiqatlar aparmaq dərin bilik, yaradıcılıq axtarışları və əsl vətənpərvərlik tələb edir.

Heydər Əliyevin natiqlik istedadı, Azərbaycan dilinin imkanlarından özünə xas olan məharətlə istifadə etməsi, onun şifahi nitqinin kamilliyi və üslub xüsusiyyətləri, hətta mütəxəssisləri də heyran edir. Dövlət quruculuğu, ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatına rəhbərlik sahəsində gərgin və misilsiz fəaliyyəti, beynəlxalq həyatda aktiv iştirakı ilə ümumxalq hörməti və məhəbbəti qazanmış Prezident Heydər Əliyev həm də əvvəlcədən hazırlanmış mətn olmadan ən mürəkkəb, çətin mövzular barədə parlaq çıxışları və nitqləri ilə məşhurdur. Onun natiqlik məharəti, dərin zəkası və möhkəm məntiqi şəkkakların müqavimətini qırır, onları bu və ya digər qərarın düzgünlüyünə inandırırdı.

Bəzi siyasi qruplaşmalar və onların liderləri silah gücünə, xarici qüvvələrin dəstəyi ilə hakimiyyətə gələndən sonra, hətta həmin qüvvələrin köməyi ilə də hakimiyyətdə qala bilmədikləri halda, Heydər Əliyev öz sözü ilə milyonları səfərbər edir, dəmir məntiqi ilə düşmənləri susmağa vadar edir, natiqlik istedadı, özünün haqlı olduğuna sarsılmaz inamı ilə xalqı Azərbaycanın tərəqqisi naminə sıx birləşdirirdi. Bu baxımdan ikicə misal çəkəcəyəm.

**1993-cü ilin iyunu.** Respublika dağılır, hakimiyyət tam iflic vəziyyətində idi. Siyasi fəlakət və yalnız formal surətdə hakimiyyətdə olan insanların tam fərsizliyi göz qabağında idi. Belə bir şəraitdə Heydər Əliyev parlamentin sədri seçildi. Onun siyasi düşmənləri və bədxahları cidd-cəhdlə belə bir şayiə yayırdılar ki, onların vəziyyəti sabitləşdirmək üçün əl atmağa məcbur olduqları bu son tədbir də, görünür, uğurla nəticələnməyəcək, çünki sərəncamında bürokratik maşını, idarəetmə mexanizmləri olmayan Heydər Əliyev ölkəni böhrandan çıxara bilməyəcəkdir. Onlar faktları təsbit etməkdə, bəlkə də, haqlı idilər. Heydər Əliyevin şəxsiyyətinin və onun imkanlarının qiymətləndirilməsinə gəldikdə isə, büsbütün yanılırdılar.

Heydər Əliyev qaynar fəaliyyəti ilə yanaşı, təmiz Azərbaycan dilində söylədiyi dərin məzmunlu nitqləri ilə 1993-cü ilin ortalarında, sanki həlledilməz məsələni həll etdi. Bu, ən yüksək parlamentarizm dərsləri, nadir natiqlik məharəti, bənzərsiz siyasi müdriklik dərsləri idi. Azərbaycan xalqı bir neçə ay ərzində Heydər Əliyevin və onun opponentlərinin parlament iclaslarından televiziya ilə yayımlanan çıxışlarını izlədi. Heydər Əliyevin çıxışları elə bir təsir gücünə malik idi ki, sözə bu gücü onun düzgünlüyündən savayı heç nə verə bilməz.

**İkinci misal -- 1994-cü ilin oktyabrında onun televiziya ilə xalqa müraciəti.** Dövlət çevrilişi cəhdi haqqında xəbəri eşidən on minlərlə insan həmin müraciətdən sonra Prezident sarayının qarşısına toplaşdı, Heydər Əliyevi fəal surətdə dəstəklədi.

Müasir dövrdə siyasi mübarizədə, dövlətin idarə olunmasında dil amilindən Heydər Əliyev qədər məharətlə istifadə edə bilən ikinci bir dövlət başçısının, siyasi xadimin adını çəkmək çətindir. Bu, ilk növbədə. onun ana dilinə, öz xalqının arzu və istəklərinə dərindən bələd olması ilə bağlıdır. O, çıxışlarının birində demişdir: **"Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə,**

**Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu reallıqdır".**

Tam əminliklə deyə bilərik ki, o, özünün çoxillik yorulmaz, titanik fəaliyyəti ilə təkcə Azərbaycan dövlətinin deyil, həm də Azərbaycan xalqının nüfuzunu yüksəltmişdir.

Heydər Əliyev öz şəxsi nümunəsi ilə Azərbaycan dilini sevməyi, qoruyub saxlamağı öyrədirdi. Neçə illər Azərbaycandan kənarda, rusdilli mühitdə yaşaması və işləməsinə baxmayaraq, o, öz xalqına, dilinə diqqət və qayğısını bir an belə unutmamışdır. Yuxarıda dediyimiz kimi, dil öz varlığına görə xalqa borcludur, lakin ədəbiyyat və mədəniyyətin inkişafı xeyli dərəcədə dövlət başçısı tərəfindən formalaşdırılan münasibətlər sistemindən və mühitdən asılıdır. Bu mənada, Heydər Əliyev hətta ən çətin vəziyyətlərdə də dilin varlığı və inkişafı üçün ən əlverişli şərait yaradılmasına çalışırdı. Müstəqil dövlət şəraitində isə bu fəaliyyət nəinki onun şəxsi nəzarətində idi, həm də hüquqi xarakter və daha geniş miqyas almışdır.

İndi biz Azərbaycan vətəndaşlarının mənəvi birliyinin əsası kimi "Azərbaycançılıq" ideologiyasını, cəmiyyətin həyatında, ölkə əhalisinin vətənpərvərlik və Azərbaycana məhəbbət ruhunda tərbiyəsində onun birləşdirici rolunu təbliğ edir, haqqında elmi məqalələr yazırıq. **Lakin unutmamalıyıq ki, bu ideologiyanın ideya ilhamçısı və yaradıcısı Heydər Əliyev olmuşdur.** 1992- 1993-cü illərdə ölkəyə rəhbərlik edənlərdən fərqli olaraq. Heydər Əliyev obyektiv surətdə cəmiyyətin sosial problemlərə və münaqişələrə qiymət verən, cəmiyyətin və dövlətin proqram məqsədlərini əhatə edən ideyalar sisteminə ehtiyacı olduğuna bir an belə şübhə etmirdi. Nə qədər paradoksal olsa **da,** faktdır ki, SSRİ adlandırılan sovet dövlətinin liderlərindən biri olan Heydər Əliyev daim öz Vətəninin gələcək taleyini düşünmüş, Sovet İttifaqı rəhbərliyinin azərbaycanlılara heç də birmənalı münasibət bəsləmədiyi şəraitdə öz xalqının **h**əyatda qalmasının yollarını və formalarını axtarmışdır. Cənubi **Qafqazın** tarixinə gözəl bələd olan **Heydər** Əliyev Azərbaycan xalqının keçmişdə necə ağır sınaqlara məruz qaldığını, xalqının tarixi torpaqlarından çıxarılması üçün nə kimi tədbirlərə və cəhdlərə əl atıldığını yaxşı bilirdi. Heydər Əliyev ötən əsrin 70-ci illərindən etibarən həyatını bütünlüklə öz Vətəninin tam sahibi kimi Azərbaycan xalqının dirçəlişinə həsr etmişdir. Ona görə də əminliklə demək olar ki, bu gün biz bünövrəsi hələ ötən əsrin ikinci yarısında qoyulmuş işlərin bəhrəsini görürük.

Heydər Əliyev "Azərbaycançılığı" bir ideologiya olaraq irəli sürməklə, ölkənin dağılması, ərazisinin etnik əlamətlərə görə parçalanması təhlükəsinin qarşısını almaq vəzifəsini həll etdi. Bu, onun çox böyük vətəndaş hünəri idi və şübhəsiz, aktual milli vəzifələrin həlli üçün bütün dünya azərbaycanlılarının öz Vətənləri - Azərbaycan ətrafında birləşməsinə töhfəsini verəcəkdir.

*Türk yazılı abidələrinin birində millətin, dövlətin mövcudluğunu təmin edən üç əsas şərtdən bəhs olunur: dilin qorunub saxlanması, xalqın qorunub saxlanması və ənənələrin qorunub saxlanması. Heydər Əliyev bu şərtlərə dönmədən sadiq qalmışdır. Onun müdrik siyasəti sayəsində Azərbaycan dili dünyanın siyasi xəritəsində öz layiqli yerini tutan dövlətimizin rəsmi dili olmuş, ölkəmizin müstəqilliyi dönməz xarakter almışdır, xalqımız isə mənəvi irsini göz bəbəyi kimi qoruyur və inkişaf etdirir. Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin zəngin irsi XXI əsrin müstəqil dövləti kimi Azərbaycanın gələcək inkişaf və tərəqqi yolunu müəyyən edən etibarlı səmt göstəricisidir və daim belə olacaqdır.*

**Ədəbiyyat**

1. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciəti. "Azərbaycan" qəzeti, 30 dekabr 2000.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. 4-cü cild.
3. Qayıdış. 1990-1993. "Azərnəşr", Bakı, 1996.
4. Azərbaycan tarixi. Yeddi cilddə. Beşinci cild. Bakı, 2001.
5. Тойнби А. Цивилизация перед судом истории. М., 2002
6. Dünya Azərbaycanlılarının I Qurultayı. Bakı, 2002.

**“Dirçəliş XXI əsr”**.- 2004.- № 74-75.- S.30-41.

# YADDAŞIMIZIN ƏBƏDİ MƏHƏBBƏTİ

**Aqiyə NAXÇIVANLI,**
Azərbaycan Müəllimlər İnstitutunun rektoru, siyasi elmlər doktoru

“Hər il mayın 9-da bütün tərəqqipərvər bəşəriyyət faşizm üzərində qələbənin ildönümünü qeyd edir. Biz azərbaycanlılar üçün həmin günün ertəsi — mayın 10-u çox əziz və unudulmaz bir gündür. Həmin tarix ümummilli liderimiz, xalqımızın böyük oğlu Heydər Əliyevin doğum günüdür. Çoxdandır ki, qədirbilən xalqımız mayın 10-nu "Tanrının ən xoş günlərindən biri" adlandırır. Belə obrazlı bənzətmə dünyanın tək-tək siyasətçisinin, dövlət xadiminin qismətinə düşür. Bəs, xalqımızın öz böyük oğluna belə ehtiramını şərtləndirən səbəblər hansılardır? Ümumiyyətlə, Heydər Əliyev Azərbaycan xalqı üçün kimdir? O, bu xalqa nələr bəxş edib?

Fikrimcə, bu sualların cavabını hər bir azərbaycanlı bilir və respublikamıza rəhbərlik etdiyi 35 il ərzində Heydər Əliyev həmin cavabları öz titanik fəaliyyəti, gördüyü işlərlə cavablandırıb. Bəli, bu gün Azərbaycanda sosial-iqtisadi, ictimai-mədəni həyatın elə bir sahəsi yoxdur ki, həmin sahədən söhbət düşəndə Heydər Əliyevin adını çəkməmək mümkün olsun. "Azərbaycan - Heydər Əliyev", bu bir vəhdətdir ki, onu nə tarixdən silmək, nə təftiş etmək, nə də ona hər hansı bir əlavə düzəliş vermək mümkün deyildir. Bu anda, məhz böyük öndərin doğum günü ərəfəsində Rabindranat Taqorun "Tarixdə elə şəxsiyyətlər var ki, özləri üçün anadan olmayıblar" müdrik kəlamı yada düşür. Çünki Heydər Əliyev ömrünü xalq yolunda şam kimi əritmiş, Tanrının ona ərməğan etdiyi fitri istedadı, bilik və bacarığı bütünlüklə millətinə həsr etmiş bir şəxsiyyətdir.

Heydər Əliyev 1993-cü ildə - xalqın tələbi və təkidi ilə ikinci dəfə hakimiyyətə qayıdarkən: "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" - dedi. Bu, adi siyasətçi vədi, siyasətçi manevri, yaxud siyasi dividendə hesablanmış kəlmə deyildi. Əslində, Heydər Əliyevin heç buna ehtiyacı da yox idi. Çünki 1969-1982-ci illərdə respublikaya ilk rəhbərliyi dövründə Heydər Əliyev onsuz da böyük bir tarix yazmış, geridə qalmış, günü-gündən tənəzzülə uğrayan Azərbaycanın problemlərini öz çiyinlərinə almış, respublikanın sosial-iqtisadi, mədəni sferalarında sürətli yüksəlişə nail olmuş, Azərbaycanı çiçəklənən bir diyara çevirmişdi. 60-cı illərin tənəzzül edən Azərbaycanı ilə 70-ci illərin qaynar həyatlı və gündən-günə yeni uğurlar əldə edən Azərbaycanı arasında 180 dərəcə fərq var idi. O vaxtlar bütün İttifaqın gözü Azərbaycana və onun gənc, enerjili, yorulmaq bilməyən liderinə dikilmişdi. Heydər Əliyev bu xalqın qürurunu, məğrurluğunu, mənəviyyatını özünə qaytarmışdı.

Heydər Əliyev möhkəm və dayanıqlı iqtisadi baza yaratmaqla gələcək müstəqil Azərbaycanın özülünü qoymuşdu. Xatirimə gəlir. SSRİ-nin dağıldığı ərəfədə İttifaqın tanınmış iqtisadçıları belə bir fikri çox tez-tez vurğulayırdılar ki, əgər müttəfiq respublikalar müstəqillik qazansalar, onların arasında yalnız Rusiya, Ukrayna və Azərbaycan tam müstəqil, heç kimdən asılı olmadan yaşaya bilər. Bu, bilavasitə Heydər Əliyevin gördüyü nəhəng işlərin nəticəsi idi. 1987 - 1992-ci illər Heydər Əliyev şəxsiyyətinə, böyüklüyünə kəskin hücumlar dövrü idi. Əslində xalqımızın böyük öndərinə qarşı çıxanlar, onun millət üçün etdiyini heçə çıxarmağa çalışanlar, yaxın və hamının gözü qarşısında baş vermiş tarixi hadisələri və konkret olaraq tarixi təftiş etməyə çalışanlar bəlkə də özləri Don Kixotsayağı dəyirmanla vuruşduqlarını bilirdilər. Amma böyük tarixi şəxsiyyətləri ləkələməyə çalışıb, məhz buna görə tarixə düşməyə cəhd göstərənlər azmı olub?

Onlar bir şeyi yaddan çıxarırdılar: unudurdular ki, xalqın qəlbindəki Heydər sevgisi könüllərə zorən yazılmayıb. Bu, rus şairi Tütçevin yazdığı kimi, ürəklərə hopmuş ülvi sevgi kimidir və Azərbaycan xalqı durduqca, onun Heydər Əliyevə sevgisi də duracaqdır. Məhz bu sevgi 1993-cü ilin böhranlı yayında xalqın üzünü bir səmtə -Naxçıvana çevirdi və millət öz xilaskarını tələb etdi. Sanki hər şey əfsanələrdə olduğu kimidir: böyük öndər Simurq quşu timsalında özünü xalqın ən ağır vaxtında yetirdi. Bu, həmin dövr idi ki, nəinki Azərbaycanın müstəqilliyi və dövlətçiliyi, bütövlükdə ölkənin özü ölüm-qalım dilemması qarşısında idi.

Mənim üçün həmişə bir formul önəmli olub: insan arxa, dayaq hiss edəndə özündə təpər, qüvvə tapıb bütün çətinlikləri dəf edə bilir. Böyük yunan alimi Arximedin bu kəlməsini xatırlayın: mənə dayaq nöqtəsi göstərin, mən Yer kürəsini məhvərindən çıxarım. Heydər Əliyev məhz bu xalqın dayaq nöqtəsi, istinad yeri idi. Xalq yalnız ona arxalanırdı, yalnız onu bütün ictimai-siyasi xadimlərin fövqündə görürdü. İndi üstündən xeyli müddət ötüb-keçəndən sonra həmin günləri bir daha xatırlayıb fikir süzgəcindən keçirdikcə aydın olur ki,

Heydər Əliyevsiz Azərbaycan sadəcə olaraq təsəvvürə gəlmir. Əslində bu cür təsəvvürə gəlməzlik dünyanın bir çox xalqlarının tarixi üçün xarakterikdir. Atatürksüz yeni Türkiyə, Nehrusuz yeni Hindistan, Əbdül Nasirsiz yeni Misir olmadığı kimi, Heydər Əliyevsiz yeni Azərbaycan da yoxdur. Bu səbəbdən möhtərəm Prezidentimiz İlham Əliyevin "Heydər Əliyev müstəqil, demokratik Azərbaycanın memarıdır" fikri həm tarixi, həm də mənəvi-psixoloji baxımdan tam yerinə düşür.

Ümummilli liderimiz haqqında söz demək, onun ürəklərdə tam formalaşmış bitkin portretinə yeni cizgilər əlavə etmək, əlbəttə, çox məsuliyyətli və çətin bir işdir. Amma, eyni zamanda Heydər Əliyev elə bir şəxsiyyətdir ki, zaman ötdükcə, illər keçdikcə onun miras qoyub getdiyi siyasi xətt öz həyatiliyini sübut etdikcə, mütləq və mütləq əlavə sözə və Heydər Əliyev obrazına əlavə cizgilərə ehtiyac yaranır. Hər ötən gün böyük öndəri bizə daha da yaxınlaşdırır, onu bizə qovuşdurur və Heydər Əliyevin əbədiyaşar bir şəxsiyyət olduğunu, bu cür insanların məhz əbədiyyət qanunları fövqündə durduğunu hamıya və hər kəsə anladır. Mənim xatirimə gəlir, böyük öndərin 75 illiyinin bütün respublikamızda qeyd edildiyi günlərdə - 1998-ci il mayın 13-də ümummilli liderimizin keçmiş tələbə yoldaşları ilə görüşü televiziya ilə nümayiş etdirildi. Həmin görüşdə Heydər Əliyevin tələbə yoldaşlarına dediyi bir fikir heç yadımdan çıxmır. Böyük öndər bəlkə də ilk dəfə olaraq gördüyü işin çətinliyini və ağırlığını etiraf etdi: "Mən Azərbaycanın yüklərini çiyinlərimə götürmüşəm, aparmalıyam. Başqa əlac yoxdur". Bu çox səmimi anlar idi və Heydər Əliyev əslində çiyinlərinə götürdüyü yükün ağırlığından giley-güzar etmirdi: əslində bütün Azərbaycan, bütün post-sovet məkanı, bütün dünya onun ağır siyasi, iqtisadi, sosial mərhələləri biri-birinin ardınca necə ustalıqla, mərhələ-mərhələ keçdiyinin şahidi idi.

Biz 70 il ərzində tam formalaşmış bir sistemin başqa bir sistemə keçməsinin şahidiyik və hər şey gözlərimizin qarşısında baş verib. Çox üzücü və ağır mərhələdir. Bax, bizə həmin keçid dövrünün övladları olmaq qisməti düşdü. Amma Heydər Əliyev ölkəni həmin üzücü mərhələlərdən o qədər ustalıqla, o qədər dahiyanə şəkildə keçirdi ki, digər post-sovet dövlətlərindən fərqli olaraq, Azərbaycan xalqı həmin keçidin ağrılarını, üzüntülərini hiss etmədi. Bu gün Azərbaycan sosial-iqtisadi tərəqqinin hamar yolundadır və bu inkişafın sürətinə görə bir sıra Avropa ölkələrini də qabaqlamışdır. İstənilən qədər rəqəm və fakt gətirib respublikamızın inkişaf tempini və onun yaratdığı sosial-iqtisadi mənzərəni oxucuya təqdim etmək olar. Lakin buna ehtiyac varmı? Çünki hər hansı irəliləyiş özünü insanların gündəlik yaşamında, həyat tərzində, güzəranında göstərir. Əgər bu göstərici ilbəil yaxşılaşırsa, hansısa statistik göstəricini dübarə xatırlatmağa ehtiyac yoxdur.

Mən belə bir fikri inkar edirəm ki, tarixi şəxsiyyətə fərdi yanaşma olmamalıdır. Tutaq ki, Almaniyada milyonlarla almanı qırğına vermiş Hitlerlə, viran edilmiş, dağıdılmış Almaniyanı dikəldib ayaq üstə qoymuş Adenauerə müxtəlif fərdi münasibətlər, onların fəaliyyətinə müxtəlif bucaqlardan yanaşmalar ola bilər. Lakin əsas qiymət ümumi yanaşmaqdadır. Fikrimcə, dünyada minnətdarlıq hissi olmayan xalq mövcud deyildir. Heydər Əliyevi dünyanın digər nəhəng dövlət xadimlərindən fərqləndirən əsas cəhətlərdən biri budur ki, hətta onun şəxsiyyətinə fərdi baxışlarda da böyük fərqlər mövcud deyil. Onun opponentləri belə Heydər Əliyev fenomenini etiraf etməyə məcburdurlar və etiraf edirlər də. Mən bunu bir sıra ictimai motivlər fonunda izah etmək istərdim. Əvvəla, xalqın Heydər Əliyev şəxsiyyətinə birmənalı münasibəti müstəvisində belə münasibətin əleyhinə çıxmaq həm tarixi, həm mənəvi, həm də siyasi baxımdan olduqca yersiz və korazehinlik olardı. Çünki Heydər Əliyev dünyanın siyasi liderlərindəndir və Amerika Birləşmiş Ştatları kimi fövqəldövlətin diplomatı onu "Asiyanın Corc Vaşinqtonu" adlandırırsa, onda daxildə - Azərbaycanda Heydər Əliyev şəxsiyyətinə hansı qeyri-obyektiv fərdi yanaşmadan söhbət gedə bilər.

Nəhayət, yuxarıda qeyd etdiyimiz kimi, Heydər Əliyevin həyat və fəaliyyəti göz önündə olub və ona təftişçi yanaşma sadəcə olaraq mümkün deyil.

Böyük öndərimizin dövlətimizin müstəqilliyi və möhkəmlənməsi yolunda gördüyü işlər demək olar ki, mümkünsüzlükdən sıçrayışa bənzəyir və ən önəmlisi budur ki, həmin sıçrayışlar radikal yolla deyil, təkamüllə, dinc inkişafla müşayiət olunur. Məhz bu baxımdan ümummilli liderimiz həm də böyük təkamülçü və bəşəri dəyərlərin daşıyıcısı kimi bütün dünyanın qəbul etdiyi liderlərdəndir. Heydər Əliyev kimi şəxsiyyətlər, əlbəttə, bir ölkənin civarında qalıb, yalnız onun problemlərini çözməklə öz tarixi missiyasını yerinə yetirən dövlət xadimlərindən deyil. Onlar ayrılıqda bütöv bir regionun liderləridir və dünyada baş verən siyasi dəyişikliklər,

qlobal proseslər onların iştirakı olmadan yaşan və həyati olmur. Mən bu yaxınlarda mətbuatda Gürcüstanın eks-prezidenti Eduard Şevardnadzenin səmimi bir etirafı ilə qarşılaşdım. O, deyirdi: "Mən həmişə Heydər Əliyevlə məsləhətləşir, onun tövsiyələri ilə fəaliyyət göstərirdim. Lakin onun vəfatından sonra belə məsləhətləri eşitmədim və axırda da şahidi olduğunuz hadisələr baş verdi." Olduqca ibrətamiz fikirlərdir və məhz həmin fikirlərin fonunda biz xalqımıza ulu öndərimizdən miras qalmış siyasi xəttin müdrikliyini, bəşəriliyini dərk etməliyik.

Məşhur fransız filosofu və yazıçısı Jan Pol Sartrın dünyada "klassik inqilabçı" kimi ad çıxarmış Çe Gevara haqqında dediyi bir söz var. Filosof onu "iyirminci əsrin ən mükəmməl insanı" adlandırır. Bu zaman Jan Pol Sartrın hansı insani və bəşəri dəyərləri önə çəkdiyi bir qədər qaranlıq qalır, yaxud Çe Gevaraya verilən bu qiyməti Sartrın özünün də məhz inqilabı ruhda olması ilə bağlamaq düzgün olardı. Amma bizim xalqda həmin o "mükəmməl insan" ifadəsini uğurla əvəz edən və daha geniş anlamda qavramağa imkan yaradan "kamil insan" formulu mövcuddur. Heydər Əliyev şəxsiyyətinə məhz həmin formulda, həmin müstəvidə baxmaq gərəkdir. Çünki ulu öndərin hamıya örnək həyatı məhz əsil kamillik nümunəsidir və məhz bu nümunə Azərbaycan xalqının həm mənəvi, həm siyasi, həm də sosial-iqtisadi perspektivini bəri başdan qiymətləndirməyə və söyləməyə əsas yaradır.

Ümummilli liderimiz "Azərbaycan dünyaya günəş kimi doğacaq" deyəndə də məhz həmin amili önə çəkirdi: zira, xalqımızın və vətənimizin xoşbəxt gələcəyinə Heydər Əliyev qədər nikbin baxan, Heydər Əliyev qədər inanan, onu Heydər Əliyev kimi açıq-aydın görən ikinci bir azərbaycanlı varmı? Ona görə də mən "Azərbaycanın yalnız bu günü deyil, gələcəyi də Heydər Əliyevin adı ilə bağlıdır" fikrinə tam obyektiv və yerində deyilmiş fikir kimi yanaşıram. Heydər Əliyev itkisi -Azərbaycan xalqının ən böyük itkisidir və burada hər hansı mübahisə üçün lüzum da yoxdur. Amma təskinlik gətirən budur ki, bu, yalnız fiziki itkidir. Heydər Əliyev mənən xalqın ürəyindədir və onun cahanşümul abidəsi millətin qəlbində hələ o respublikaya rəhbərlik etdiyi ilk dövrlərdə ucaldılıb. Amma onun böyüklüyü, Heydər Əliyevi ümummilli lider statusuna gətirib çıxaran məhz bu amildir ki, o, bir nöqtədə, bir uğurda dayanıb qalan lider deyildi. Böyük öndərimiz dünyanın siyasi düzənini, xalq içərisində deyildiyi kimi, ovcunun içi kimi bilirdi və dünyanın yeni siyasi sıralamasında Azərbaycanın yerini və mövqeyini qəti olaraq müəyyənləşdirmişdi. Azərbaycan diqtə edilən yox, diqtə edən dövlətə çevrildi. Coğrafi ərazisinə görə özündən qat-qat böyük dövlətlərlə bir sırada dayandı, iqtisadi potensialı ilə birlikdə mənəvi və mədəni qüdrətini dünyaya sübut etdi.

Artıq tərəqqipərvər dünya belə bir formulu aksioma kimi çoxdan qəbul etmişdir ki, harada Heydər Əliyev varsa, orada sabitlik, inkişaf, əmin-amanlıq, mənəvi yüksəliş, mədəni tərəqqi də var. Yox, bu bizim sözlərimiz deyil. Bu, dünyanın tanınmış siyasətçilərinin, politoloqlarının, dövlət adamlarının müxtəlif vaxtlarda müxtəlif məclislərdə və yığıncaqlarda səsləndirdikləri fikirlərdir. Ulu öndərimiz haqqında yazılan kitabların birində maraqlı fikirlə rastlaşdım. Müəllif yazır: "Siz boş vaxt tapanda Azərbaycanın iqtisadi xəritəsini qarşınıza qoyun. Görün orada Heydər Əliyevin adı ilə bağlı olmayan bircə nöqtə də tapa bilərsinizmi? Onun adı və nəfəsi hər yerdə var.

Ümummilli liderimiz, doğrudan da, bütün ömrünü xalqının əsgəri timsalında yaşadı və o, ən kövrək və həssas anlarında böyük siyasi lider, dövlət xadimi, fenomenal şəxsiyyət, dünyanın tanınmış şəxsiyyətlərindən biri olması ilə deyil, məhz azərbaycanlı olması ilə fəxr edirdi.

Bu fəxarətin qarşılığı belədir: biz də Heydər Əliyevin məhz Azərbaycan xalqına mənsub olması ilə qürur duyuruq!

İnsanların, böyük şəxsiyyətlərin yalnız olum günü olur. Tanrı insanı yaradanda "ol" dedi. İnsan oldu. Lakin insanların hamısı "ol" sözünü ömrünün leytmotivinə çevirə bilmədi. Olanlar adi ömür yaşayıb, sonra dünyalarını dəyişdilər. Bu, təbiətin qanunudur: bir gün var olan, bir gün də yox olur. Lakin bu, cismani yoxluqdur. Mənəvi yaşam isə hər adama nəsib olmur.

Heydər Əliyev 1923-cü il mayın 10-da anadan oldu və bu xalqın qəlbində, yaddaşında həmişəlik qaldı.

Olum günün mübarək, ulu öndərimiz!

**“Xalq qəzeti”.-** 2005.- 3 may.-№99.-S. 3.

# İNSANLARIN TÜKƏNMƏZ MƏHƏBBƏTİ HEYDƏR ƏLİYEVİN ƏN BÖYÜK MÜKAFATIDIR

*Əsgər ƏLƏKBƏROV,*
**daxili işlər nazirinin müavini, polis general-leytenantı**

**Tarix sürətlə irəliləyir. Müstəqil Azərbaycan dövlətinin, cəmiyyətinin keçdiyi mərhələləri lazımi incəliklərinə qədər yadda saxlamaq elə də asan deyil. Lakin ötən vaxt və zaman kəsiyində 1993-cü il iyunun 15-dən — Qayıdış günündən başlanan, bu gün də davam edən, gələcəkdə də davam edəcək bir Heydər Əliyev mərhələsi var ki, onu sadəcə unutmaq mümkün deyil. Məşhur mütəfəkkir V.Qjeşik deyirdi: "İnsanlar iki kateqoriyaya bölünür. Birinciləri unutmaq istəmirlər, ikinciləri unuda bilmirlər".**

Bəşər tarixində mənsub olduğu xalqın taleyində müstəsna rol oynayan şəxsiyyətlər öz qüdrətli dühaları ilə qaranlığa işıq salır, millətini millətlər, dövlətini dövlətlər cərgəsinə çıxarırlar. Belə şəxsiyyətlər hər zaman mənsub olduqları xalqa xidmət etsələr də, həlledici anda və zamanda, əsl qəhrəmanlıq nümunəsi göstərir, taleyüklü məsələləri həll edir, bununla da tarixin səhifəsinə öz möhürlərini vururlar. Çörçill ingilis millətinə 40 il xidmət etdi. Ancaq o, 1940-cı ildə ingilislərə daha çox lazım oldu. Böyük öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldi. Məhz o zaman Azərbaycanı bir dövlət kimi məhv olmaq təhlükəsindən xilas edərək ölkəmizi vətəndaş müharibəsinin caynağından qurtardı. Regionda böyük strateji maraqları olan və elə bu səbəbdən də respublikamızı qan çanağında çalxalamağa istiqamət götürən xarici qüvvələrin, daxildə hakimiyyət hərisliyi ilə alışıb-yanan və ehtiraslarının quluna çevrilən siyasətbazların qarşısına keçilməz sədd çəkdi, respublikamızın müstəqilliyinin qarantı oldu. **O, tam müstəqil dövlət qurmaq və formalaşdırmaq kimi çətin və məşəqqətli bir vəzifəni əfsanəvi şəxsiyyətinin gücü ilə həyata keçirdi və Azərbaycan xalqının Ümummilli Lideri, Millət Atası kimi titulları qazandı.**

**Tarix sübut etdi ki, yalnız Heydər Əliyev nüfuzu, Heydər Əliyev qətiyyəti, Heydər Əliyev şəxsiyyəti və siyasəti Azərbaycanı bütün bəlalardan qorumaq, müstəqil dövlətçiliyimizi yaradıb möhkəmləndirmək qüdrətinə malik idi.** Böyük öndərin dühasının yenilməzliyi onda idi ki, o, ömrü boyu xalqa arxalanmış, həyatının mənasını xalqa xidmətdə görmüşdü. "Azərbaycanın müstəqilliyi yolunda özümün də, övladlarının da həyatmı lazım gələrsə qurban verməyə hazıram" deyə Azərbaycan Konstitusiyasına və müqəddəs Qurana and içən Heydər Əliyev ölkəmizin istiqlal məşəlidir.

Azərbaycanın ən böyük milli sərvəti Heydər Əliyev dühasıdır, onun müqayisəyəgəlməz siyasi və dövlətçilik təcrübəsidir. Bu sərvət müqəddəsdir və hifz olunmalıdır. Bunun məhz belə olduğunu Azərbaycan xalqı özünün böyük oğlunu cismən itirdikdən sonra bir daha tam, aydın formada yəqin etdi. Yəqin etdi ki, müstəqil Azərbaycanın gələcəyi, inkişafı, hüquqi-demokratik dövlət quruculuğu, ölkənin ərazi bütövlüyünün təmin olunması, vətəndaşların hüquq və azadlıqlarının qorunması, sosial rifahının yaxşılaşdırılması Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xətdən və siyasi kursdan kənarda deyil. Məhz ona görə də Azərbaycan xalqının böyük əksəriyyəti 2003-cü ilin oktyabrında keçirilən prezident seçkisində Heydər Əliyev məktəbinin layiqli yetirməsi, onun siyasi kursunun layiqli davamçısı, Azərbaycanda və beynəlxalq aləmdə sanballı dövlət xadimi, sivil bəşəri dəyərlərə sadiq, praqmatik düşüncə sahibi kimi tanınan və qəbul edilən cənab İlham Əliyevə səs verdi. Prezident seçkisini uduzan, məğlubiyyətdən nəticə çıxarmaq əvəzinə kütləvi iğtişaşlar törədən bədnam müxaliflər isə özlərini "millətin qəhrəmanları" kimi qələmə verməyə çalışdılar, minbir dona girdilər. Məsələ heç də onda deyil ki, beləlləri bir daha xalqı aldadıb hansısa yeni faciələrə sürükləyə bilərlər. Bu, istisna olunur. Xalq artıq onların hər üzünü görüb.

Mən düşünürəm ki, həmin adamlar ictimaiyyət arasında çaşqınlıq salmaq, təxribat, bəzən açıq, bəzən də pərdəarxası cinayətlər törətmək üçün bundan sonra da öz bəd əməllərindən əl çəkməyəcəklər. Onlar yalan danışmaq və böhtan atmaqdan da usanmayacaqlar. Çünki sovet imperiyasının dağılma ərəfəsi və süqutundan sonra peyda olmuş həmin meydan siyasətbazları hələ də məhz o günlərin sərməstliyi altındadırlar. Belələri hələ də düşünürlər ki, istənilən adam — elmi işçi də, laborant da, ömrü boyu tozlu arxivlərdə əlləşən ortabab tarixçi də, Heydər Əliyevin yaratdığı demokratik siyasi ab-havadan bəhrələnərək hər hansı siyasi qurum və partiya yaradan üzdəniraq başqan və partiya sədrləri də ölkəyə rəhbərlik edə bilərlər. Ancaq unudurlar ki, həyat o dərəcədə müdrikdir ki, o, xalqa rəhbərlik etməyə qadir olan şəxsiyyətləri önə çıxarır. **Müstəqil dövlətimizin taleyinin həll olunduğu daha bir gün — 2003-cü il oktyabrın 15-də Azərbaycan xalqı ümummilli liderin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram cavab olaraq məhz cənab İlham Əliyevi özünün yeni rəhbəri seçdi. Budur xalqın iradəsi, budur xalqın müdrikliyi!**

Biz Heydər Əliyev irsini daha çox əxz etdikcə aydın görürük ki, o, hətta ondan cavan olan bir çox siyasi xadimin bacarmadığı xüsusiyyəti — müasir dövrün ən aktual çağırışlarına hazır olmağı nümayiş etdirə bilmişdir. Diqqət edin, **xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdan Heydər Əliyev dərhal bəyan edir: "Respublikamız demokratikləşmə, demokratik hüquqi dövlət quruculuğu yolu ilə dünya demokratiyasının təcrübəsindən istifadə etməklə, demokratiyanın bütün atributları ilə, demokratik cəmiyyət quruculuğu yolu ilə getməlidir. Əlbəttə, yerli şərait, milli xüsusiyyətlər, milli ənənələr nəzərə alınmaqla. Azərbaycan müstəqil dövlətdir. Öz milli azadlığını daim qoruyacaq və bir daha başqa dövlətin əsarəti altına düşməsinə yol verməyəcəkdir. Azərbaycan keçmiş kommunist ideologiyasından, sosializm quruluşundan imtina etmişdir və bir daha bu yola dönməyəcəkdir. Azərbaycan bir dövlət kimi müsəlman dünyasına mənsubdur və İslam aləmində öz görkəmli yerini tutmağa çalışacaqdır. Ölkəmizdə demokratik prinsiplər — insan azadlığı, söz və xüsusən din, vicdan azadlığı təmin edilir və bundan sonra da təmin ediləcəkdir. İqtisadiyyatımız gələcəkdə də bazar münasibətləri yolu ilə gedəcək, sahibkarlığa, xüsusi mülkiyyətə, təşəbbüskarlığa geniş meydan açmaq prinsipləri əsas götürüləcəkdir."**

Belə dövlət modelini ancaq Heydər Əliyev kimi zəngin siyasi təcrübəsi, cəsarəti və sarsılmaz iradəsi olan planetar düşüncə sahibi müəyyənləşdirə bilərdi.

Heydər Əliyev uzun və dəyərli, nəsillərə örnək olan bir ömür yaşayan siyasət adamı və dövlət xadimidir. O hələ Azərbaycana rəhbərlik etdiyi 1970-ci illərdə ölkəsini dünyaya tanıtmaq üçün məğlubedilməz qrossmeyster kimi həm ehtiyatla, həm də qətiyyətlə fəaliyyət göstərərək Bakını bir sıra beynəlxalq tədbirlərin mərkəzinə çevirmişdi.

O zaman da Heydər Əliyev respublikada qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi uğrunda yorulmaq bilmədən, qətiyyətlə mübarizə aparmışdır. **1969-cu ilin iyulunda cənab Heydər Əliyev Azərbaycana rəhbər seçilir. Onun rəhbərliyə gəlişi ilə vəzifəsindən sui-istifadə edən şəxslərə, rüşvətxorlara, xalqın əmlakını dağıdanlara, insanların hüquqlarını pozanlara, iqtisadiyyata zərbə vuranlara, mənəviyyatımıza ləkə salanlara və başqa neqativ hallara qarşı ciddi mübarizə başlanır.** Nadir keyfiyyətlərə malik şəxsiyyət digər sahələrdə olduğu kimi, DİN rəhbərliyində də yaranmış dözülməz vəziyyəti aradan qaldırmaq üçün radikal addımlar atır. Cinayətkarlığa qarşı səmərəli mübarizəni gücləndirmək üçün bütövlükdə hüquq-mühafizə orqanlarında çalışan kadrların seçilib yerləşdirilməsi və tərbiyə olunması işi ciddi nəzarətə götürülür və nəticələr uğurlu olur.

Layiqli kadrların hazırlanması üçün respublikada kompleks tədbirlər həyata keçirilir. Beləliklə, bir müddətdən sonra "Heydər Əliyevin oxutduqları", "Heydər Əliyevin yetirmələri" ifadəsinin bariz təcəssümü olan, böyük potensiala malik gənc azərbaycanlı kadr ordusu formalaşır. Budur uzaqgörənlik, budur millətsevərlik!

XX əsrin sonlarında daha bir sərt imtahana çəkilmiş Azərbaycan xalqının üzünə bəxti həm də onda güldü ki, 1993-cü ilin iyununda ölkə rəhbərliyinə hüquq-mühafizə orqanları sahəsində yenilməz biliyə və təcrübəyə malik bir şəxsiyyət gəldi. Məhz ona görə də cəmiyyət bütün ağrılarına baxmayaraq baş verə biləcək çox böyük bəlaların üstündən adladı. Heydər Əliyev yaxşı bilirdi ki, Ayaz Mütəllibovun hakimiyyəti zamanı bazarkomlar, mafiozlar, cinayətkarlar "Qardaşlıq" cəmiyyətində birləşərək qanunsuz silahlı dəstələr yaratmış və yuxarıdan aldıqları dəstək nəticəsində hüquq-mühafizə orqanlarının rəhbərlərinə belə öz mövqelərini diktə etmişlər. Heydər Əliyev yaxşı bilirdi ki, AXC-Müsavat cütlüyünün hakimiyyəti dövründə hətta hakimiyyətdə təmsil olunan yüksək vəzifəli şəxslər özlərinə tabe olan silahlı dəstələr yaratmış, onlar qanunla müəyyənləşdirilmiş vəzifələrinin icrasından başqa hansı cinayət əməlinə desən baş vurmuş və yaranmış xaotik vəziyyətdən istifadə edərək atlarım sağa-sola çapmışlar.

Bütün bunlara, görə də Heydər Əliyev silahlı dəstələrin zərərsizləşdirilməsi, ictimai-siyasi sabitliyin yaradılması üçün qəti addımlar atdı. Bu mənada Azərbaycan Prezidentinin "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" 9 avqust 1994-cü il tarixli fərmanı xüsusilə böyük əhəmiyyət kəsb edir. Dövlət başçısının hüquq-mühafizə orqanları qarşısında qoyduğu əsas vəzifələrdən biri və mən deyərdim ki, birincisi bu orqanları çirkin siyasətdən təmizləmək, onları özlərinin qanunlarla müəyyənləşdirilmiş vəzifələrinin icrasına yönəltmək, az qala tamamilə məhv edilmiş peşəkar özəyi bərpa etmək, bu orqanları kriminal ünsürlərdən təmizləmək idi. Sözsüz ki, onun bu tapşırığı DİN-in yeni rəhbərliyi tərəfindən təxirə salınmadan icra olundu. Eyni zamanda, şəxsi ambisiyalar və qanunsuz hərəkətlər nəticəsində işdən çıxarılmış peşəkar polis zabitləri öz əvvəlki iş yerlərinə qaytarıldılar.

Kimin nə deməsi və necə yozmasından asılı olmayaraq indi DİN, onun strukturları Azərbaycan Konstitusiyası və "Polis haqqında" Qanunun tələblərinə uyğun olaraq fəaliyyət göstərir. O, cinayətkarlığa qarşı mübarizə aparır, ictimai-siyasi sabitliyi, vətəndaşların qanunla müəyyənləşdirilmiş hüquq və azadlıqlarını qoruyur. **Böyük öndər DİN və onun strukturlarını destabillik yaradan bir güc strukturundan stabillik**

**yaradan bir orqana çevirdi. İndi bu strukturda vətənə və xalqa sədaqətin, vəzifə borcunu ləyaqətlə yerinə yetirməyin - Heydər Əliyev nümunələri bərqərar olmuşdur.** Xırdalıqlara varmadan, yazını rəqəmlərlə yükləmədən bircə onu qeyd etmək istəyirəm ki, əgər Heydər Əliyev hakimiyyətə qayıdana qədər ölkədə cinayətkarlıq rekord həddə çatmışdısa, indi Azərbaycan cinayətkarlığa qarşı mübarizə sahəsində MDB ölkələri sırasında əldə etdiyi uğurlara görə birinci sırada yer alır.

Lakin arxayınçılıq üçün heç bir əsas yoxdur. Çünki cinayətkarlıq cəmiyyətlə birgə addımlayır, onun qorxulu və mütəşəkkil formaları Azərbaycanda da özünü göstərir. (Bu barədə DİN rəhbərliyi, onun mətbuat xidməti ictimaiyyətə vaxtaşırı məlumat verir. Biz cinayətkarlığa qarşı mübarizə ilə bağlı istənilən məlumatı hətta təftişçilərə də təqdim edə bilərik, edirik də.) Ancaq Azərbaycan vətəndaşları bilirlər ki, ölkənin hüquq-mühafizə orqanları Ali Baş Komandanın rəhbərliyi ilə möhkəm ictimai-siyasi sabitliyi qoruyub saxlamaq iqtidarındadır və bir daha sabiq iqtidarlar dövründə hökm sürən başıpozuqluğu, anarxiyanı yaşamayacaqlar.

Bu gün Azərbaycanda bərqərar olan möhkəm ictimai-siyasi sabitliyin təminatçısı, şəksiz, ümummilli liderimiz Heydər Əliyev və onun yürütdüyü daxili və xarici siyasət olub. Ölkənin mühüm dövlət strukturlarından biri kimi DİN Prezident fərmanlarından və qəbul edilən qanunlardan irəli gələn vəzifələri icra etməklə yalnız və yalnız bu böyük şəxsiyyətin həyata keçirdiyi siyasətə yardımçı olub.

Bir qədər tarixə ekskurs edək. Heydər Əliyevin nəhəng sovetlər ölkəsinin rəhbərliyə irəli çəkilməsi mərkəzdə millətlərin təmsilçilərinin olması kimi başa düşülə bilməz. Onun həmin ali vəzifəyə yüksəlməsi yalnız və yalnız fitri istedadı, böyük təşkilatçılıq və rəhbərlik qabiliyyətinin olması, şəxsiyyətinin parlaqlığı, idarəetmə imkanlarının respublika səviyyəsindən ittifaq səviyyəsinə qədər gedib çata bilməsi ilə bağlıdır. Həmin vaxtlar sovetlərin rəhbərliyi fövqəladə vəziyyətlərdən çıxış yolu tapa biləcək güclü şəxsiyyətlər axtarırdılar ki, İttifaqda başlayan və gizli formada davam edən dağılma proseslərinin qarşısını ala bilsinlər. Eyni zamanda, o vaxt iki sistem arasında soyuq müharibənin tam gücü ilə davam etməsi İttifaq rəhbərliyindən düşünülmüş beynəlxalq siyasət yürütməyi, ayrı-ayrı dövlətlərlə SSRİ arasında yaranmış qarşıdurmaları əməkdaşlığa istiqamətləndirməyi tələb edirdi. Belə bir zamanda Heydər Əliyevin siyasi dünyagörüşünə Moskvada ehtiyac duyuldu və onun düşünülmüş təklifləri baş verə biləcək çox olaylardan SSRİ-ni xilas etdi.

**Zaman keçdi. Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının Prezidenti kimi 1995-ci ilin mayında Bolqarıstana səfər etdi və o, parlamentdə çıxış edərək bu fikirləri söylədi: "Bolqarıstan prezidenti Jelyü Jelev öz çıxışında bildirdi ki, keçmiş SSRİ rəhbərliyi bu ölkəni 15 müttəfiq respublikadan biri kimi öz tərkibinə qatmaq cəhdlərində bulunurdu. Mən bu məsələyə bir az aydınlıq gətirmək istəyirəm. Əslində tam tərsinədir. Ölkənizin sabiq rəhbəri Todor Jivkov dəfələrlə Sov. İKP MK-nın Siyasi Bürosuna müraciət etmişdi ki, Bolqarıstanı 16-cı müttəfiq respublika kimi Sovet İttifaqının tərkibinə qatsınlar. Deyim ki, Siyasi Büroda bu məsələyə birmənalı münasibət yox idi. Lakin hər halda məsələ qapalı müzakirəyə çıxarıldı. Mən — Heydər Əliyev çıxış edərək bildirdim ki, Todor Jivkovun bu təklifinə müsbət cavab vermək məqsədəuyğun deyil. Bu təklifi dəstəkləyənlər də oldu. İcazə verin qürurla bildirim ki, o vaxt Bolqarıstanın SSRİ-nin tərkibinə qatılmamasının əsas səbəbkarlarından biri qarşınızdadır".**

Çin Xalq Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Çjan Siyun təsdiq edir ki, hələ 1980-ci illərdə Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işləyərkən o, sovet rəhbərləri arasında Çinlə münasibətlərin qaydaya salınmasına çalışan ilk şəxsiyyətlərdən biri olub.

**Tanınmış sovetoloq və siyasətçi, dövlət xadimi, hazırda ABŞ-ın Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru Zbiqnev Bjezinski isə demişdir: "Mən, xüsusilə Ağ Evdə çalışarkən sovet sistemi ilə maraqlanırdım və sovet liderləri ilə əlaqələrim var idi. Bilirdim ki, Heydər Əliyev aparıcı rəhbərlərdən biridir və onun adı hansısa məqamında, hətta partiyanın Baş katibi vəzifəsi üçün hallandırılırdı. Mən bilirdim ki, onun geniş siyasi təcrübəsi var. Heydər Əliyev həqiqətən beynəlxalq səviyyəli dövlət xadimi və tarixi əhəmiyyətli milli liderdir".**

Görkəmli qazax ədibi, ictimai-siyasi xadim Oljas Süleymenov "Ustad haqqında söz" xatirəsində yazır: "1980-ci illərin əvvəllərində SSRİ-nin hər yerindən idman şərhçilərini Moskvaya çağırmışdılar ki, aralarından ən hazırlıqlılarını seçsinlər. Onlar həmin ilin yayında Moskvada keçiriləcək yay olimpiya oyunlarının gedişini işıqlandırmalı idilər. Testlərdən biri belə idi ki, respublikalardan birinin adı çəkiləndə dərhal həmin respublikanın partiya rəhbərinin adı deyilsin. Çoxları məhz bu sınaqda büdrədi. Ancaq ən kəmsavadlar da bilirdilər ki, Azərbaycanın rəhbəri Heydər Əliyevdir. Çünki 1970-1980-ci illərdə o, sovet respublikalarının ən məşhur rəhbərlərindən biri idi".

Təkcə bu faktların özü göstərir ki, Heydər Əliyev necə böyük siyasətçi, necə böyük şəxsiyyət olub.

Təbii ki, Heydər Əliyevin Kremldə artan beynəlxalq nüfuzu erməni lobbisini, Moskvadakı erməni diasporunu narahat etməyə bilməzdi. Üstəlik, Azərbaycan xalqının böyük övladının Kremldə oturması Dağlıq

Qarabağ məsələsinin gündəliyə gətirilməsini əngəlləyirdi. Ona görə də erməni lobbisi Mixail Qorbaçovla əlbir olaraq Heydər Əliyevə qarşı təxribat planına başladı. Sonrası isə aydındır. Əvvəlcə Bakıda 20 Yanvar faciəsi, sonra Dağlıq Qarabağın işğalı və sair. Heydər Əliyevin fiziki məhvi üçün hələ o, Moskvada olarkən, 1990-cı il iyul ayının 20-də Bakıya gələrkən, hətta Naxçıvanda yaşadığı və işlədiyi zamanlar dəfələrlə planlar quruldu, cəhdlər göstərildi, lakin böyük Allah Azərbaycan xalqına olan sevgisi naminə onu hifz etdi, qorudu. Ən müxtəlif cinayətkar dəstələr, qanunsuz silahlı birləşmələr və onların rəhbərləri, hətta Azərbaycanın sabiq rəhbərliyi səviyyəsində dəfələrlə Heydər Əliyevə sui-qəsdlər hazırladılar, ağlasığmaz təzyiqlər göstərdilər. Onun keçmiş fəaliyyətini yoxlamaq üçün Moskvada, Bakıda neçə-neçə komissiyalar yaradıldı. Sonralar **Heydər Əliyev xatırlayırdı: "Moskvada xarici müxbirlər mənə telefon edirdilər ki, eşitmisinizmi, sizin fəaliyyətinizi yoxlamaq üçün komissiya yaradılıb. Deyirdim ki, mətbuatdan eşitmişəm. Soruşurdular ki, siz buna necə baxırsınız. Deyirdim ki, ağılsız adamlardırlar. Məni həbs etmək istəyirdilər, lakin heç bir sübut tapa bilmirdilər. Bakıda Ali Sovetin sessiyasında çıxış etdim. Dedim ki, referenduma getmək lazım deyil. Azərbaycan müstəqil olmalıdır. Kommunist partiyası hakimiyyətdən getməlidir. Bakıdan fövqəladə vəziyyət götürülməlidir. Yanvar hadisələrinin günahkarları cəzalandırılmalıdır... Bu çıxışdan sonra bir tərəfdən sessiyada mənim əleyhimə kampaniya başladı, bir tərəfdən komissiya yaratdılar. Telman Orucovdu, nə idi, onlar başçılıq etdilər... Məni Naxçıvanda Ali Məclisə sədr seçdilər. Sentyabrda Mütəllibovun prezident seçkisi idi. Bu seçkini qadağan etdik. Bir də gördüm 60 nəfər zabit, 11 deputat gəlibdir ki, bizə təzyiq etsinlər. Daxili işlər naziri var idi — Kərimov. Zabitlərə o başçılıq edirdi. Deputatların içərisində bizim Mustafa Cəfəroviç də var idi. General İsrafilov var, o da gəlmişdi. Prokurorluqda general rütbəsi olan bir müavin var idi, vaxtilə mən MK-da işləyəndə bizdə təlimatçı işləyirdi — Cəfərquliyev, o da general paqonu ilə gəlmişdi. Gəlmişdilər ki, orada bizi cəzalandırsınlar".**

O dövrdə Heydər Əliyevin Naxçıvanda hansı şəraitdə yaşadığını və işlədiyini bilən minlərlə insan var. Fransanın Azərbaycandakı ilk səfiri Jan Perrenin xatirələrindən: "Heydər Əliyev Naxçıvanda məni və həyat yoldaşımı qızdırılmayan otaqdakı soyuqla təzad təşkil edən bir hərarətlə qarşıladı". Heydər Əliyev sözün əsl mənasında məşəqqətlərə dözür, muxtar respublikanı ikiqat blokadadan çıxarmaq üçün öz nüfuzundan istifadə edərək Türkiyə və İranla birbaşa əlaqələr yaradırdı. Humanitar köməklik məhz böyük şəxsiyyətə olan hörmət əlaməti idi. Naxçıvan-Türkiyə sərhədində "Ümid" körpüsünün açılışı o dövr üçün bəlkə də möcüzə idi - Heydər Əliyev möcüzəsi. O vaxtkı Azərbaycan rəhbərlərinin bütün cəhdlərinə baxmayaraq Ermənistan tərəfdən ikinci cəbhənin açılmaması da Heydər Əliyevin vətən qarşısında tarixi xidmətlərindən biridir.

Ən dəhşətlisi o idi ki, vaxtilə Heydər Əliyevin yetişdirdiyi, ərsəyə gətirdiyi, yüksək vəzifələrə irəli çəkdiyi və bədii yaradıcılıqlarına görə imtiyazlar verdiyi bəzi adamlar dönük çıxdılar. Lakin Heydər Əliyev hakimiyyətə qayıdandan sonra onları bağışladığımı bildirdi. Ancaq satqınlar, şəxsi mənafelərini dövlət mənafelərindən üstün tutanlar, xudpəsəndlər, vəzifə hərisləri böyük şəxsiyyətin humanistliyindən nəticə çıxarmaq əvəzinə əqrəb xislətlərindən xilas ola bilmədilər. Hər kəsə bəllidir ki, Heydər Əliyevin etimad göstərərək böyük vəzifələrə təyin etdiyi bəzi adamlar yenə də xəyanət yolunu tutdular, bir çoxları 1994-cü ilin oktyabr, 1995-ci ilin martında dövlət çevrilişinə cəhd edən qüvvələrlə bilavasitə bir yerdə oldular.

Yüksək vəzifələrdə oturub başqa dövlətlərin mənafelərini güdən, iqtisadi sabotajla məşğul olan, "Əsrin müqaviləsi"nə qarşı çıxan qüvvələr də tapıldı. Heydər Əliyevə qarşı terror cəhdlərinə də baş vuruldu. Ölkədə ictimai-siyasi sabitliyi pozmaq məqsədilə neçə-neçə təxribatlar törədildi. Lakin onların hamısı qüdrətli şəxsiyyətin qarşısında aciz qalıb təslim olmaq zorunda qaldılar.

Ümummilli liderimiz Heydər Əliyevin müstəqil Azərbaycan respublikasının rəhbərliyinə qayıdışının hər günü, hər ayı, hər ili politoloq və sosioloqlar, tarixçilər üçün sanballı təhlil materialı, elmi araşdırmalar mövzusudur. Sabiq iqtidarlardan Heydər Əliyevə nə miras qalmışdı? Respublika iqtisadiyyatının ağlasığmaz formada dağıdılması, xaos və anarxiya, Azərbaycan torpaqlarının bir hissəsinin işğal edilməsi və işğal ərazilərini genişləndirmək üçün erməni təcavüzkarlarının əldə etdikləri əlverişli şərait, hakimiyyət hərisliyi və hakimiyyəti antidemokratik silahlı yolla zəbt etmək kimi avantüraya inam, separatizm, vətəndaş müharibəsi, bütövlükdə isə müstəqil Azərbaycan dövlətinin məhv olmaq təhlükəsi.

Bütün dəhşətli halları aradan qaldırmaq, problemləri ardıcıl olaraq çözmək üçün cəsarətli və sarsılmaz iradə sahibi olan Heydər Əliyev, tezislər formasında desək, aşağıda qeyd olunan istiqamətlərdə öz planlarım reallaşdırdı:

— əvvəlcə, ölkədə daxili sabitlik təmin edilməli idi. Dövlət başçısı özünün humanizmə söykənən ardıcıl, qətiyyətli siyasətilə 1996-cı ilin ortalarında buna tam nail oldu;

qan tökülməsinin qarşısı alınmalı, yəni müharibə dayandırılmalı idi. 1994-cü il mayın 12-də Ermənistanla atəşkəs haqqında saziş imzalandı. müharibə səngərlərdən diplomatiya cəbhəsinə keçirildi. Siyasət ustası səbrlə, lakin çox böyük qətiyyətlə Azərbaycan ətrafında yaradılmış informasiya blokadasını yardı. 1996-cı ilin

dekabrında Lissabonda, ATƏT-in zirvə toplantısında təşkilatın 54 üzvündən (Ermənistandan başqa) 53-ü Dağlıq Qarabağın Azərbaycan torpağı olduğunu qəbul etdi. Bütün beynəlxalq səviyyəli tədbirlərdə bu əfsanəvi şəxsiyyət xalqımızı, respublikamızı çox yüksək səviyyədə təmsil edib Azərbaycan həqiqətlərini anlada bildi;

— dünya azərbaycanlıları Azərbaycan Respublikası ətrafında birləşməli idi. Heydər Əliyev onu da bacardı, xalqına yeni bir ruh, yeni bir şövq, yeni bir inam verdi. Dünya azərbaycanlılarının beynəlxalq həmrəyliyi gününü təsis edən ümummilli liderimiz onların dünyaya səs salan birinci qurultayını Azərbaycan paytaxtında keçirdi;

— ölkənin sərvətləri millətin sərvətinə çevrilməli idi. Dənizin altındakı və ya yerin dərinliklərindəki təbii sərvətlər istifadə olunmadıqca heç bir fayda verməz. Bu sərvətlərin istifadəsi, Azərbaycan xalqına firavanlıq gətirməsi üçün "Əsrin müqavilə- si" imzalandı. Heydər Əliyevin qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olma- saydı, Bakı-Tbilisi-Ceyhan layihəsi gerçəkləşə bilməzdi. Bu gün artıq bu beynəlxalq layihənin tam reallaşacağı gün uzaqda deyil;

— Qədim İpək yolunun bərpası dünyanın diqqətini cəlb etdi. Bu layihə Heydər Əliyevin təşəbbüsü, təşkilatçılığı və rəhbərliyilə Bakıda keçirilən Beynəlxalq konfransda müzakirə olundu.

— ölkə iqtisadiyyatında, hüquqi-demokratik dövlət quruculuğu yolunda, vətəndaşların hüquq və azadlıqlarının qorunmasında, sivil bəşəri dəyərlərə söykənən vətəndaş cəmiyyətinin formalaşdırılması istiqamətində geniş islahatlar aparmaq lazım idi. Artıq bu sahədə görülən işlərin, həyata keçirilən qlobal tədbirlərin nəticəsini biz də görürük, beynəlxalq aləm də;

— Azərbaycanı dünyaya açmaq lazım idi. O, məhz bunu etdi. İndi respublikamız demək olar ki, bütün aparıcı beynəlxalq təşkilatların üzvüdür. Onun Avropa Birliyi, Avropa Şurası, NATO ilə əlaqələri günbəgün inkişaf edir;

— regional beynəlxalq təşkilatlarla əməkdaşlıq yaradılmalı və inkişaf etdirilməli idi. Ümummilli liderimiz bu siyasəti də özünəməxsus, Azərbaycanın milli maraqlarına uyğun formada reallaşdırdı. Onun məğzi belədir: hansı məsələlər Azərbaycanın müstəqilliyinə toxunmayacaqsa və Azərbaycanın dünya birliyinə, dünya iqtisadiyyatına birləşməsinə, qatılmasına şərait yaradacaqsa, biz onlarla razı olacağıq. Hansı məsələlər ki, bizim mənafeyimizə toxunacaq, biz onlarla razılaşmayacağıq.

Mən bu düşüncələrimi ümummilli liderimiz, böyük dövlət adamı, Azərbaycanın xilaskarı Heydər Əliyevin doğum günü ərəfəsində qələmə aldım. Mayın 10-u ad günüdür. İndi **Böyük Öndər Fəxri Xiyabanda tər çiçəklər arasında uyuyur. Fəxri Xiyabana ziyarətə gedən insanların sevgi seli onun ən böyük mükafatıdır. Vəsiyyəti müstəqil Azərbaycanın əbədiyyətə qədər yaşamasıdır. Əminəm ki, nə qədər Azərbaycan var, Azərbaycan xalqı var, o qədər də Ulu Öndər yaşayacaq, əbədi evi daim al qərənfillərlə süslənəcək, gələcək nəsillər minnətdarlıq hissi ilə onu yad edəcəklər.**

**“Xalq qəzeti”.-** 2005.- 6 may.- № 107.-S. 5.

# HEYDƏR ƏLİYEV MƏNİM HƏYATIMDA

**"Azərbaycan" qəzetinin nəşr etdirdiyi bu kitabda ulu öndərimizlə bağlı ən xoş xatirələr əksini tapıb**

**Ramiz MEHDİYEV,**
**fəlsəfə elmləri doktoru, professor**

İnsan heç vaxt valideynlərini seçmir. Necə ailədə dünyaya göz açması Tanrının qismətidir. Hansı ölkədə doğulub yaşayacağımızı da irəlicədən bilmirik. Bu da Allahın işidir. Amma insanın hansı ailədə doğulmasından, hansı ölkədə yaşamasından, hətta həmin dövrdə ölkəyə kimlərin rəhbərlik etməsindən onun gələcək taleyi çox asılıdır. Çünki bu amillər hər bir fərdin təlim-tərbiyə və təhsilinə, bilik və dünyagörüşünə, cəmiyyətdə necə mövqe qazanacağına əsaslı şəkildə təsir edir.

Əgər ilkin vaxtlarda məhz valideynlər hələ körpə sayılan fərdin gələcəkdə "kimliyini və nəliyini" müəyyənləşdirərək öz qərarlarına uyğun təhsil və tərbiyə verməyə, yönəltməyə çalışırlarsa, daha sonralar artıq yetkinləşmiş insanın özü sərbəst şəkildə yeni seçimlər aparır, harada və nəylə məşğul olacağını dəqiqləşdirir, valideynləri tərəfindən müəyyənləşdirilmiş ilkin planlara bəzi "düzəlişlər" edir. Bu halda insan üçün şəxsi keyfiyyətləri ilə yanaşı, cəmiyyətin yaratdığı şəraitin, verdiyi imkanların da böyük əhəmiyyəti olur. Necə deyərlər, arzu və zəhmət bizdən, onu gerçəkləşdirən mühit və amillər isə cəmiyyətdən doğur. Fərdlə dövlətin, ailə ilə cəmiyyətin bu qarşılıqlı əlaqə və münasibəti bütün dövrdə müxtəlif şəkildə və ayrı-ayrı talelərdə öz təzahürünü tapıb.

Ümumi şəkildə söylədiyimiz bu mülahizələr "Azərbaycan" qəzetinin səhifələrində mütəmadi surətdə dərc olunan "Heydər Əliyev mənim həyatımda" rubrikası altında verilən materiallarda konkret fakt və nümunələrdə əks olunur. Sıravi vətəndaşdan - sadə əmək adamı, təqaüdçüdən tutmuş görkəmli sənətkarlara və vəzifə, səlahiyyət sahiblərinə qədər çoxsaylı insanlar oxuyub təhsil almalarında, mütəxəssis və alim kimi formalaşmalarında, ədəbiyyat, incəsənət, mədəniyyət və digər yaradıcılıq sahələrində böyük uğurlar qazanmalarında, əməklərinin mükafatlandırılmasında, hörmət sahibi olmalarında və vəzifə pillələri ilə irəliləmələrində ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən və fərdi qayğısından dərin məhəbbət və ehtiramla söhbət açır, bir-birindən maraqlı faktlar və misallar göstərirlər.

Əlbəttə, 34 il Azərbaycana rəhbərlik etdiyi dövrdə ümummilli lider Heydər Əliyevin gördüyü bütün işləri, etdiyi xeyirxahlıqları və alicənablıqları toplayıb qələmə almaq, yaxud onun kömək göstərdiyi, həyatlarında rol oynadığı bütün insanları müəyyənləşdirərək qəzetdə yazılarını vermək mümkün deyil! Lakin Azərbaycanda yaşamış bir neçə nəslin uzun illər boyu güvənc və fəxr yerinə çevrilərək xeyirxahlıq simvolu olmuş bu dahi şəxsiyyətin əməlləri barədə bir qədər geniş danışmaq mümkündür. Həyatımın 30 ildən artıq bir dövrü Heydər Əliyev dühası ilə sıx bağlıdır. Onun siyasi idarəçilik sistemində təmsil olunaraq ümummilli liderimizin etimadı ilə mühüm dövlət vəzifələrində çalışdığım müddətdə bu böyük şəxsiyyətin öz xalqına necə qayğıkeş münasibət bəslədiyinin, vətəndaşlarının müraciətlərinə, ehtiyaclarına necə diqqətlə yanaşmasının, onlara himayədarlıq etdiyinin, demək olar ki, hər an şahidi olurdum. Bütün sosial təbəqələrin təmsilçilərinə xeyirxahlıq etmək, hər kəsin qeydinə qalmaq, müraciətlərdə istənilən yardımı artıqlaması ilə ödəmək və bütün bunlardan təmənna ummamaq əbədiyaşar liderimizin şəxsi xüsusiyyətlərindən, yüksək insani keyfiyyətlərindən qaynaqlanan fəaliyyət prinsipinə çevrilmişdi. Tarix belə şəxsiyyətlərə "millət atası" qiymətini verir. Heydər Əliyev isə bu adı hələ sağlığında, xalq tərəfindən almışdır. Şübhəsiz ki, tarix Heydər Əliyev faktorunun əsil qüdrətini müəyyənləşdirərkən bu insanın Azərbaycana bəxş etdiyi qurtuluşu, rifahı, inkişafı dəyərləndirərkən xalqın öz öndərinə hələ sağlığında verdiyi "millət atası - dövlət qurucusu" adını dönə-dönə təsdiqləyəcəkdir.

Heydər Əliyev Naxçıvana qayıtdıqdan bir neçə ay sonra Şahbuz rayonunun Külüş kəndinə gəlmişdi. Hamı liderin görüşünə tələsirdi. Mən də yolun bir kənarında dayanaraq gözləyirdim ki, görəsən, o məni tanıyacaq? Yanımdan keçəndə birdən dayanaraq "Sən Firuzə deyilsən ki?" - deyə soruşdu. Yerimdə donub qaldım. Sonuncu dəfə 37 il əvvəl görüşmüşdük, ancaq o yenə də güclü, bənzərsiz hafizəyə malik idi! Onun yaddaşına, hafizəsinə bir daha heyran qaldım! Mehribanlıqla görüşdük, tələbəlik illərini yenidən xatırladıq. Heydər Əliyev bizi heyrətlə müşahidə edən ətrafdakı insanlara "Bu, mənim ən yaxın uşaqlıq dostlarımdan biridir, biz bir-birimizi tanıyanda, dostluq edəndə mənim 13, onun isə 11 yaşı vardı. Uşaqlıq dostu daha əziz, daha qiymətli, daha səmimi olur" - dedi. Bu sözlər məni çox kövrəltdi, Heydər Əliyev yaranmış həssas məqamı yumora çevirmək üçün özünəməxsus məharətlə yenidən ötən günləri, 54 il əvvəl texnikumda voleybol yarışı keçirilərkən baş verən mübahisəni olduğu kimi danışmaqla bizi xeyli güldürdü. İnsanda necə güclü yaddaş olarmış!

Yenidən Lətif müəllimin sözlərini - "Heydər çox böyük adam olacaq" fikrini yada saldım. Xeyli güldü, "Firuzə, əsas böyük vəzifələrdə işləmək deyil, əsas xalqının səni böyük adam sayması, səni sevməsidir" - söylədi.

**Firuzə RZAYEVA,**
**1936-1939-cu illərdə Naxçıvan Pedaqoji Texnikumunda Heydər Əliyevlə birlikdə təhsil alıb**

"...1936-cı ilin sentyabr ayının 1-də ilk dərsə gəldik. Elə birinci dərs başlamamış Heydər bir qədər utanaraq mənə yaxınlaşdı: "Sənin adın Zərqələmdir də... Yəqin unutmamısan, dayın səni mənə tapşırıb, evdə də qardaşım Həsən mənə deyib ki, o qıza göz-qulaq olarsan. Qardaşım anama da deyib ki, sən şəhərdə qəribsən. Anam da mənə tapşırıb ki, səni evə gətirim, onunla tanış edim. Axı dayına söz vermişik, sənə gərək ailəliklə göz-qulaq olaq". Bu sözləri Heydər gülümsünərək söylədi. Onun səsindəki səmimiyyət məndə arxayınlıq yaratsa da, yaman utandım, axı 12 yaşım vardı, özü də kənddən təzə gəlmiş bir qız idim. Təşəkkür edərək anasına salam göndərdim. Beləliklə, bizim çox möhkəm dostluğumuzun əsası qoyuldu.

Texnikum o zaman indiki Bəhruz Kəngərli muzeyinin binasında yerləşirdi. Qızlara məktəbin həyətindəki yataqxanada yer vermişdilər. Həmin gün dərsdən sonra Heydər bizim yataqxanaya gələrək şəraitimizlə maraqlandı. Söhbət zamanı gördüm ki, Heydər nə isə sözlü adama oxşayır, nə isə demək istəyir, ancaq çəkinir. Onun nə deyəcəyi mənim üçün də çox maraqlı olduğundan axırda dözə bilməyib: "Ay Heydər, sözlü adama oxşayırsan, deyəsən, sözün var"- dedim. Gülümsünərək "Bilirsən, ay Zərqələm, kənddən şəhərə gələn qızlara dəb düşüb ki, hörüklərini kəssinlər. Sənin də çox qəşəng, uzun hörüklərin var, hayıfdı, kəsməzsən". Əslində, bu xəbərdarlığı mənə şəhərə gəlməmişdən əvvəl valideynlərim etmişdilər və tapşırmışdılar ki, hörüyümə əl vursam, təhsilimi yarımçıq saxlamalı olacağam. Ancaq zarafatcıl oğlan olan Heydərlə mən də zarafat etmək fikrinə düşdüm: "Yox, ay Heydər, hörüyümü kəsmək istəyirəm". Bu zaman Heydər səsinə kəskin ton verərək "Unutma ha, dayın səni mənə, bizim ailəyə tapşırıb, saçını kəsməmişdən əvvəl icazə almaq lazımdır, ancaq əvvəlcədən deyirəm ki, mən icazə verməyəcəyəm" - söylədi. Gülə-gülə "Yaxşı, arxayın ol, hörüyə əl vurmayacağam"- dedim. Belə adam idi Heydər... Hər ikimiz əlaçı idik. Ancaq onun dünyagörüşü, dərsləri mənimsəmək fərasəti, bacarığı qeyri-adi idi.

**Zərqələm ƏLİYEVA,**
**1936-1939-cu illərdə Naxçıvan Pedaqoji Texnikumunda Heydər Əliyevlə birlikdə təhsil alıb**

Qrupda şəriksiz lider idi Heydər, onu hamımız, hətta yaşca ondan böyüklər də sayırdı, hörmət edirdi. Bu hörməti Heydər özü qazanmışdı, səmimiyyəti, böyüklüyü, yaşına bəlkə də yaraşmayan müdrikliyi ilə. Sizi inandırım ki, qrupdakı bütün oğlanlar, içi də mən qarışıq, həmişə Heydəri təqlid etməyə çalışırdıq. Onun kimi yeriməyə, davranmağa, danışmağa, hətta gülməyə də cəhd edirdik. Texnikumda nə mübahisə olsaydı, ədalətli həlli yalnız Heydərdən gəlirdi. Bəli, o, obyektiv hakim idi. Məntiqi çox güclü idi, hamını özünə, sözünə inandırmağı bacarırdı, onun fikirlərinə biz heç vaxt şübhə etməmişdik. Heydər qrupdakı qızların da hamisi idi. Onlara başqa qrupdan kimsə söz atsaydı, həmin şəxs elə həmin dəqiqə Heydərdən cəza alacaqdı. Onu da deyim ki, Heydər nə qədər təmkinli, sülhsevər olsa da, yeri gələndə çox qətiyyətli və döyüşkən olurdu.

Qeyd etdiyim kimi, çox gözəl, mehriban, səmimi ailəsi vardı. Çox vaxt onlarda gecələyirdim. Xudmani həyətləri, iki otaqdan ibarət evləri vardı. Həyətdə daim xırda da olsa təsərrüfatları olurdu. Əlirza əmi zəhmətkeş kişi idi, elə övladlarını da bu ruhda, sadə insanlar kimi böyüdürdü. İzzət anadan danışmaqla isə qurtarmazdı. O qədər qayğıkeş insan idi ki... Bütün övladlarını çox istəyirdi, ancaq Heydərə xüsusi yanaşırdı, əslində, ailənin bütün üzvləri Heydəri yaşından böyük adam kimi qəbul edirdilər. İzzət ana Heydərin geyiminə, səliqəsinə həmişə fikir verirdi. Həsənlə Hüseyn artıq Bakıda olduqlarından Heydər də, demək olar ki, evdə böyük oğul kimi qalmışdı. Suğra ilə birlikdə kiçik bacı və qardaşlarına - Cəlala, Aqilə, Rəfiqəyə, Şəfiqəyə arxa-dayaq idi, onların təhsili, tərbiyəsi ilə məşğul olurdu.

Belə gözəl ailənin belə layiqli oğlu idi Heydər...

**Dövlət MƏMMƏDOV,**
**Heydər Əliyevin tələbəlik dostu**

Keçən ilin son qarlı, çovğunlu günlərində qocaman işçimiz Ənvər müəllimin yas yerində idim. Orada şəxsiyyətinə hörmət bəslədiyim, həmişə söhbətlərini maraqla dinlədiyim Ali Məhkəmənin keçmiş sədri Abdulla İbrahimovla görüşdüm. Abdulla müəllim Tanrıya etdiyi ibadətlərdən danışarkən dedi: "Hər dəfə namaz üstə Heydər Əliyevə dualar oxuyuram. Xüsusən, iki işinə görə: birincisi, Allah onun ömrünü uzun eləsin, atəşkəslə nə qədər balalarımızı qoruyub saxladı, ikincisi, o boyda sovet hökuməti azacıq qar düşəndə Bakını çörəklə təmin edə bilmirdi. Sən son günlərin qarına-çovğununa bax, bir də çörəyin, ərzağın bolluğuna. Şəxsən mənim üçün möcüzədir. Bu kişinin ayağı ruzuludur, çünki Allah adamıdır. O, daim Allahını ürəyində yaşadıb, mən bunun şahidiyəm. Birinci katib seçiləndən üç gün sonra məni Ali Məhkəmənin Sədri kimi kabinetinə dəvət etdi və dedi ki, Abdulla, biz səninlə peyğəmbərin kəlamları ilə işləyəcəyik".

İndiki "demokratlar" 1992-ci il oktyabrın 24-də öz əsas siyasi opponentləri Heydər Əliyevi aradan götürmək üçün onu "Salvador Alyende variantı" adlı əməliyyatla qətlə yetirmək istəyirdilər. Onların ağılları özlərinə gedirdi. Qısa müddətdə hakimiyyətdə o qədər namərdliklər, naxələfliklər, haqsızlıqlar, hətta cinayətlər törətmişdilər ki, xalq onları nəinki dəstəkləmir, onlara çox dərin nifrət bəsləyirdi. Naxçıvan camaatı Heydər Əliyevin müdafiəsinə qalxdı və cinayətkar cəbhəçi "bəy"ləri necə lazımdırsa, yerində oturtdu. O zaman Bakıdakı irtica, başda daxili işlər naziri olmaqla, Naxçıvana Heydər Əliyevi devirməyə silahlı qüvvələr göndərmək fikrinə düşdü. O "qeyrətli" desantın gözlənildiyi günün gecəsi mən Heydər Əliyevlə görüşüb əldə olan məlumatları tutuşdurduqdan sonra ondan soruşdum: "Birdən Bakıdan gələnlər istefa tələbini qoydular?!"

Əslində, bu hadisələrdə özümü də "günahkar" sayırdım. Çünki Bakıdakı "bəy"lər Heydər Əliyevə qarşı o, siyasi partiya yaratmağa razılıq verəndən sonra təzyiqi daha da artırmışdılar. Və bütün bunlara baxmayaraq, artıq biz Yeni Azərbaycan Partiyasının ilk konfransına hazırlaşırdıq. Düzü, Heydər Əliyevi partiya sədri kimi qorumaq naminə, lazım gələrsə, onun Ali Məclisin sədrliyindən əl çəkməsi variantını da götür-qoy edirdim. Çox gözəl anlayırdım ki, xalqımın, vətənimin sabahkı taleyi bu insandan asılıdır və həyəcanla sualımın cavabını gözləyirdim.

Heydər Əliyev düz gözlərimin içinə baxa-baxa sağ yumruğunu qarşısındakı masaya vuraraq qətiyyət və cəsarətlə dedi: "Məni burada xalq əyləşdirib və nə qədər ki, inanır, burada olacağam!"

**Sirus TƏBRİZLİ**

Prezident Administrasiyasından məlumat verdilər ki, Heydər Əliyevin qəbulunda olmalıyam, dövlət başçısı mənə böyük etimad göstərərək yeni yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru təyin edir. Sözün düzü, ilk anda bu vəzifənin necə məsuliyyətli bir post olduğunu heç düşünmədim də, sadəcə olaraq Heydər Əliyev kimi dahi bir şəxsiyyətin etimadına layiq görülmək səadətinin sevincini yaşadım. İşə başlamazdan öncə ulu öndərimiz məni qəbul etdi, tövsiyələrini verdi. Şübhəsiz ki, elm-təhsil milli liderimizin ən çox sevdiyi mövzu idi. O, Azərbaycan elmi, təhsili ilə bağlı düşüncələrini açıqladı, bu sahədəki inkişafı yüksək qiymətləndirdi, ancaq bunu kifayət də hesab etmədi. Qarşıdakı illərdə görüləcək böyük işlərdən iftixarla danışdı və nəhayət, mətləb üstə gəldi. Bildirdi ki, böyük planları uğurla gerçəkləşdirmək üçün yeni kadr potensialına ehtiyac var. Bu gün mövcud olan kontingent tələblərə cavab versə də, sabahkı durumu da düşünməli və bu sahədə indidən müvafiq tədbirləri həyata keçirməliyik.

"Bu məqsədlə də Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasını yaratmışam. Bu akademiyaya böyük ümidlər bəsləyirəm. Bizə müstəqil Azərbaycan üçün müasir idarəçiliyi mənimsəyən, yeni tərzdə düşünən, novator təfəkkürlü kadrlar lazımdır. Bu akademiya həmin vəzifəni yerinə yetirməli, ölkəyə lazımlı mütəxəssislər hazırlamalıdır. Bu sahədə beynəlxalq təcrübəni də öyrənməyiniz vacibdir. Ancaq ən əsası odur ki, Azərbaycanın yerli şəraitini, milli xüsusiyyətlərini də unutmamalısınız. Milli-mənəvi dəyərlərə bağlılıq, Azərbaycana sədaqət hazırlanacaq mütəxəssislərin əsas keyfiyyəti olmalıdır" - bu, dahi şəxsiyyətin qarşımıza qoyduğu tələb idi. Heydər Əliyev daha sonra dünyada gedən iqtisadi-siyasi proseslərdən, qloballaşmadan, inteqrasiyanın mənfi və müsbət məziyyətlərindən, Azərbaycanın bu proseslərdə iştirakından danışdı. Mən bir daha anladım ki, qarşısında dayandığım bu böyük şəxsiyyət tək dünyanın ən görkəmli siyasətçilərindən deyil, o, həm də bəşəriyyətin ən mükəmməl siyasi nəzəriyyəçilərindəndir!

Söhbətimizin sonunda ulu öndərimiz dedi: "Mənim kadrlarımdan həmişə bir istəyim olub: Azərbaycana ləyaqətlə xidmət etmək, xalqın qeydinə qalmaq, vəzifə borcunu düzgün yerinə yetirmək elə mənə xidmət deməkdir. Mən məmurlardan bundan artıq heç nə istəmirəm. Seyfəddin müəllim, mənim bu şərtimi, tövsiyəmi tələbələrinizə - dövlətin gələcək kadrlarına tez-tez xatırladın. Mənim işimi, Heydər Əliyevin işini davam etdirmək gələcəkdə onların vəzifəsi olacaq".

**Seyfəddin QƏNDİLOV,
Azərbaycan Respublikasının Prezidenti
yanında Dövlət İdarəçilik
Akademiyasının rektoru**

Heç unuda bilmirəm, Heydər Əliyev səhhətimdəki problemlərdən xəbər tutanda təəssüf dolu baxışlarla üzümə baxıb dedi ki, bəlkə müalicədən sonra vəzifənə qayıdasan? Mənim işdən getməyimi qətiyyən istəmirdi. Təsəvvürə gətirin, eyni vaxtda həm işdən çıxmağım haqqında fərman imzaladı, digər tərəfdən isə məni göstərdiyim xidmətlərə görə "Şöhrət" ordeni ilə təltif etdi. Əvvəlcə başqa bir xəstəlikdən əziyyət çəkirdim. Onun müalicəsindən sonra məlum oldu ki, mən mütləq ABŞ-ın Texas ştatına getməli, orada əməliyyat keçirməliyəm. Bütün bu işlərə sərf olunacaq xərclərin hamısı Heydər Əliyevin göstərişi ilə dövlət tərəfindən ödənildi. Səkkiz ay Texas şəhərində xəstəxanada yatdım. İkinci dəfə həyata qayıtmağıma, yaşamağıma, bu gün qızlarımın, nəvələrimin arasında olmağıma səbəb göydə Allahdırsa, yerdə Heydər Əliyevdir. Mən heç bir zaman onun barəsində keçmiş zamanda danışa bilmirəm, Dövləti, milləti, xalqı, adi vətəndaşları, məmurları ölümdən qurtaran, yaşadan insan özü ölümsüzdür. Mən hərdən ümummilli liderimizin müdrikliyi, uzaqgörənliyi, həssaslığı haqqında düşünəndə özümə gələ bilmirəm. İnsan nə qədər zəngin daxili aləmə, düşüncəyə, təcrübəyə, həyatın hər cür üzünə bələdliyə malik olmalıdır ki, hər şeyi zərgər dəqiqliyi ilə ölçüb-biçə bilsin. İşdən gedəndən sonra Heydər Əliyevin göstərişi ilə mənə "Servis kartı" verdilər. Bilirsinizmi bu nə deməkdir? Mən "AZAL"ın xidmətindən pulsuz istifadə edə bilərəm.

Həyatım, fəaliyyətim Heydər Əliyevin gözləri qarşısında keçib. Ən kiçik işimdən başlayıb pillə-pillə ucaldığım vəzifələr məhz onun məsləhəti, fərmanı ilə olub. Həmişə böyük qürurla bu sözləri deyirəm: Heydər Əliyev məktəbinin şagirdi olmuşam. Necə müdrik idi. Hər kəsə özündən çox bələd idi. Bizim təkcə işimiz yox, həm də daxili aləmimiz, güzəranımız, yaşayışımız ona gün kimi aydın idi. Əyri də, düz də həssas baxışlarından yayınmazdı. Hər birimizin taleyini, yaşayışını, gündəlik qayğılarını, məişət problemlərini bütün xırdalıqlarına qədər düşünərdi. Amerikadan müalicədən qayıtdıqdan sonra prezident təqaüdünə layiq görüldüm. Tez-tez səhhətimlə maraqlanardı. Bu cür qayğı, isti münasibət çoxumuzun üzərində olub.

**Lidiya RƏSULOVA**

Rayon konfransında Qusar Rayon Partiya Komitəsinin katibi təsdiq olunduqdan sonra cənab Heydər Əliyev məni qəbul etdi. Bu görüş 1974-cü ilin yanvarında olub. Ulu öndərimiz mənə yeni işimlə bağlı məsləhətlər verdi.

Sonradan Heydər Əliyevlə çox görüşürdük. 1977-ci ildə Moskvaya - Sov. İKP MK yanında İctimai Elmlər Akademiyasına göndərildim. Burada təşkilat problemləri üzrə təhsil almalı idim. O zaman Azərbaycandan seçilib göndərilən yeganə qadın idim. Qeyd etməliyəm ki, bütün dövrlərdə, işlədiyim hər bir sahədə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin əməyini, zəhmətini, nəzarətini, məsləhətlərini hər an hiss edirdim. Moskva İctimai Elmlər Akademiyasını 1979-cu ildə bitirdim. Sonuncu gün bizi Sov. İKP MK-da kuratorumuz Kondratyev qəbul etdi. Akademiyanın məzunları Sov. İKP MK-nın nomenklaturası hesab olunurdular. Ona görə də Kondratyev bizdən harada işləmək istədiyimizi soruşdu. Cavab verdim ki, mənim üçün fərqi yoxdur, Sovet İttifaqının hansı bölgəsinə göndərsəniz, məmnuniyyətlə gedib işləyərəm. Onlar mənim Moskvada saxlanılmağımın tərəfdarı idilər. Kondratyev Bakıya - Heydər Əliyevə zəng vurdu ki, Asya Manafova Rusiyada qalıb işləməyə etiraz etmir. Ümummilli liderimizin isə cavabı qəti oldu: "Onu mən göndərmişəm, o, Azərbaycana qayıtmalıdır! Asya Manafova başqa yerdə deyil, məhz Azərbaycanda işləyəcəkdir".

**Asya MANAFOVA**

Heydər Əliyevin Abşerona gəlişini xoş xatirələrlə yadıma salıram. Sosialist Əməyi Qəhrəmanı qızıl ulduzunu 1980-ci ildə Ali Sovetin binasında şəxsən Heydər Əliyev özü mənə təqdim etmişdi. Abşerona da bir neçə ay sonra gəlmişdi.

Heydər Əliyevlə görüşmək heç vaxt problem deyildi. Hətta mən hərdən ona zəng edib vəziyyəti də danışırdım. Qəbuluna düşmək də çətin deyildi. Problemimiz olanda şəxsən hər birimizi qəbul edirdi. Hətta bir dəfə qəbulunda mənə dedi ki, sən siyasi rəhbər vəzifədə çalışan yeganə qadınsan ki, Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüsən. Əslində, özü imkan yaradırdı ki, biz səmimi olaq, fikrimizi onunla bölüşək.

**Tamara HÜMBƏTOVA**

2002-ci ilin 11 apreli idi. Prezident Heydər Əliyev məni rəsmi dövlət nəşri olan "Azərbaycan" qəzetinin Baş redaktoru kimi fəaliyyətə başlamağım münasibətilə qəbul edirdi. Dünyanın ən böyük azərbaycanlısı ilə canlı təmasda olmaq, bəşəriyyətin ən görkəmli dövlət xadimlərini belə hazırcavablığı, misilsiz qabiliyyəti ilə heyrətə gətirən ali bir şəxsiyyətin suallarına cavab vermək məsuliyyətini anlayır, çox həyəcanlanırdım. Ancaq əbədiyaşar liderimizin elə xoş, səmimi aurası var idi ki, burada insan mənəvi rahatlıq tapır, böyük insan, qayğıkeş millət atası ilə həmsöhbət olduğunu ilk andan duyurdun. Heydər Əliyev jurnalistikanın ən mürəkkəb peşə xüsusiyyətləri ilə bağlı da yetərincə məlumatlı idi. Prezident mətbuatın fəaliyyətində rast gəlinən problemlərə, mediada rəsmi şəxslərə, xüsusən də dövlət başçısına qarşı kütləvi hal alan böhtan və iftiralara münasibətdə də təmkin nümayiş etdirir, bu çatışmazlıqların tədricən aradan qaldırılacağına əminliyini bildirirdi. Jurnalistlərin böyük dostu, xeyirxahı üçün Azərbaycan mətbuatının azad, peşəkar, məsuliyyətli olması əsas arzulardan idi. Mən həmin görüşdə Heydər Əliyevdən elə öz peşəmlə də bağlı xeyli tövsiyə, dərs aldım. Ən əsası isə bu böyük şəxsiyyətin etimadını, xeyir-duasını qazanmışdım.

**Bəxtiyar SADIQOV**

O vaxt maarifin vəziyyəti çox bərbad idi. 60 faiz müəllimin ali təhsili yoxdu. Respublikadan kənara - ali məktəblərə tələbə göndərilmirdi. Rayonlarda mədəniyyət sarayları, xəstəxanalar, demək olar ki, çatışmırdı. Kənd təsərrüfatında da vəziyyət ürəkaçan deyildi. Elə hey tənqid edirdilər. Sənaye də o cümlədən. Heydər Əliyev ilk gündən fəaliyyətə məhz mədəniyyət və maarifdən başladı. On ilin ərzində respublikamızın müəllim heyəti 100 faiz ali təhsilli oldu. Ali məktəblərə tələbə qəbulunun sayı artdı. Bununla bərabər, Heydər Əliyev gənclərimizi respublikadan kənara - ali məktəblərdə oxumağa göndərdi. Hörmətli Heydər Əliyevin çox gözəl xüsusiyyəti də var və əslində, bu, bütün rəhbər vəzifələrdə çalışanlarda olmalıdır. O, həmişə işləyən, çalışan, yaradan, quran insana həssaslıqla yanaşır, onun əməyini yüksək qiymətləndirir. Mən o dövrdə iki dəfə "Qırmızı Əmək Bayrağı" ordeni aldım. Bu, Heydər Əliyevin gücü idi. O, bütün varlığı ilə çalışırdı ki, insanları öz işinə fərəhləndirsin, yaxşı fəaliyyət göstərmələri üçün şərait yaradılsın. Sizə bu sözü qətiyyətlə deyirəm. Əgər Heydər Əliyevi Moskvaya aparmasaydılar, inanın, başımıza bu müsibətlər gəlməzdi. Erməninin hünəri nə idi? O, respublikadan gedəndən sonra içimizdəki fərsizlər nadanlıq etdilər. Dərdlər arta-arta yaraya döndü. O vaxt mən Ramiz Mehdiyevlə tez-tez görüşər və məsləhətləşərdik. Necə eləyək ki, Heydər Əliyev Bakıya qayıtsın. Ramiz Mehdiyev bu işdə çox ürək yanğısı göstərirdi. Biz görürdük ki, Azərbaycanda baş verən qarışıqlıq, özbaşınalıq yurdumuzu elə bir quyuya salacaq ki, yüzillərlə da onu uçurumdan çəkib çıxarmaq mümkün olmayacaq.

**Kamran HÜSEYNOV,**
**Dövlət və ictimai xadim**

Qərib şəhərdə I Pyotrun monumental heykəlinə baxdığım zaman bir nəfər hündürboy, enlikürək, gülərüz şəxs durduğum səmtə yaxınlaşdı. Məni çoxdan tanıyırmış kimi salam verib əl uzatdı. Kefimi soruşdu, təhsilimlə maraqlandı. Bir müddət sözünə ara verdi. Handan-hana dilləndi:

- Ömər, mənim adım Heydərdir. Sənin yaradıcılığına hörmətim var. Çünki əmək adamlarının obrazlarını yaradırsan. Yaxşı edirsən. Ancaq unutma, halallıq, alın təri ilə qazanılan şöhrəti təsvir edirsənsə, bu, qondarma, uydurma elementlərdən uzaq olmalıdır. Sənin "Neftçi portreti" büstünə baxmışam. İlk baxışdan pis deyil. Amma xeyli tələsmisən. Su üzərində xarüqələr yaradan insanın baxışlarında tez sahilə çıxmaq, evinə, ailəsinin yanına tələsmək arzusu da var. Sən o həsrəti, nisgili verə bilməmisən.

Onun vəfalı ömür-gün yoldaşı, mərhum Zərifə xanımın qəbirüstü abidəsi üzərində işləyirdim. Abidəyə diqqətlə baxdı. Bir qədər əvvəl sifətində olan xoş duyğulardan əlamət qalmadı. Ürəyimdən keçdi ki, yəqin işi bəyənməyib. Nə biləydim ki, son dərəcə kövrək ürəkli şəxsiyyət ötən illəri, həyat yoldaşı ilə birgə ömür sürdükləri anları xatırlayıbmış. Handan-hana: "Sağ ol, Ömər, sən Zərifə xanıma ikinci ömür vermisən" - dedi.

**Ömər ELDAROV,**
**xalq rəssamı**

6 iyul 2001-ci il bütün təfərrüatı ilə yaddaşıma həkk olunub. Həmin gün Heydər Əliyev elm, mədəniyyət, səhiyyə, bədən tərbiyəsi və idman xadimlərinin bir qrupuna müstəqil dövlətimizin ali mükafatlarını - "İstiqlal" və "Şöhrət" ordenlərini təqdim etdi. Çıxış üçün mənə söz veriləndə bərk həyəcan keçirsəm də, ürəyimdən

gələnləri dedim, 70 illik yubileyim münasibətilə "İstiqlal" ordeninə layiq görüldüyüm üçün ümummilli liderimizə qəlbən təşəkkür etdim. Əminliyimi bildirdim ki, neftçilər onun neft strategiyasını, neft siyasətini alqışlayır və bu strategiyanın həyata keçirilməsi üçün əllərindən gələni edəcəklər. Mükafatlar təqdim olunduqdan və təltif edilənlərin qısa çıxışlarından sonra söylədiyi nitqdə ulu öndərimiz neftçilərin əməyini belə qiymətləndirdi

- Bizim neft sahəsində nailiyyətimiz çox böyükdür. Hörmətli Xoşbəxt Yusifzadə də bu barədə danışdı. Ancaq bizim neft sahəsində əldə etdiyimiz nailiyyətlər bir neçə nəslin qabaqcıl insanlarının, yüksək səviyyəli alimlərin, mühəndislərin və neft sənayesində işləyən fədakar adamların sayəsindədir. Bunlar hamısı bizim tariximizdir. Tarixi heç vaxt unutmaq lazım deyildir. Çünki əgər millətin tarixi yoxdursa, o, millət deyildir.

**Xoşbəxt YUSİFZADƏ,**
**ARDNŞ-nin vitse-prezidenti**

1981-ci ildə Moskvada Nizami Gəncəvinin 840 illiyi qeyd olunurdu. O vaxt mən Azərbaycan KP MK-nın ideoloji məsələlər üzrə katibiydim, İttifaq evində keçirilən tədbirin hazırlıq işləri ilə birbaşa məşğul olurdum. Heydər Əliyevin təklifi ilə məni məruzəçi təyin etmişdilər. Siyasi Büronun bütün üzvlərinə, nazirlərə, Nazirlər Sovetinin yüksək rütbəli məmurlarına dəvətnamələr göndərilmişdi. Yubiley günü çatdı və biz mərasimə gəldik, tədbirin başlanma saatı yaxınlaşırdı. Mən Heydər Əliyevə məruzə etdim ki, artıq qonaqlar gəlib. O dedi: "İndi Siyasi Büronun iclası gedir, mənə icazə veriblər, çünki tədbir keçirirəm. Ancaq digər üzvlər, çətin ki, gəlsinlər. Odur ki, yubileyin tarixini müəyyənləşdirərkən nöqsanlara yol vermişik". Söhbətimiz başa çatmamışdı, gördük ki, Azərbaycanın daimi nümayəndəsi Ənvər Hüseynov o vaxt Sov.İKP MK-nın kənd təsərrüfatı üzrə katibi Mixail Qorbaçovu gətirir. O, içəri daxil olaraq Heydər Əliyevi salamladı. Sonra əlavə etdi: "Heydər Əliyeviç, mən Sizə görə icazə aldım. Siyasi Büronun iclasından heç kimə icazə vermirdilər, amma mən bildirdim ki, Heydər Əliyevin dəvətinə getməyə bilmərəm".

Heydər Əliyevin cavabı çox qısa oldu: "Diqqətinizə görə minnətdaram".

**Həsən HƏSƏNOV,**
**Azərbaycanın Macarıstandakı səfiri**

1994-1995-ci illər ərzində mən Ağdam Rayon İcra Hakimiyyəti başçısının səlahiyyətlərini həyata keçirirdim. Elə həftə olmurdu ki, Heydər Əiyev ağdamlı məcburi köçkünlərin vəziyyəti ilə maraqlanmasın. Hər hansı bir problemimiz olsa, ulu öndərimiz onu elə həmin an həll edirdi. Bir müşavirədə bütün dövlət strukturlarına tapşırmışdı ki, məcburi köçkünlərin problemləri ilə bağlı sizə müraciət edənlər şəxsən mənim adımdan müraciət edirlər, ona görə də onları həmin dəqiqə həll etmək lazımdır. 1995-ci ilin iyul ayının 9-da məni Ağdama icra başçısı təyin olunmağım münasibətilə qəbul edən Prezident Heydər Əliyev söylədi: "Səni elə bir rayona rəhbər təyin edirəm ki, oranın sakinlərinə xüsusi diqqət və qayğı göstərilməlidir, onların problemlərinin həlli üçün fədakarlıqla çalışmaq gərəkdir. Vaxtı ilə özümün qurub-yaratdığım, inkişaf etdirdiyim Ağdam indi işğal altında olsa da, rayonun zəhmətkeş adamları məcburi köçkünlük taleyi yaşasa da, ağdamlılar sınmamalı, yenə də dəyanətli olmalıdırlar. Dövlət başçısı kimi mənə ən yaxşı xidmət yerli nümayəndəm kimi sənin ağdamlıların qeydinə qalmağın, onların köməyinə çatmağındır. Onu da nəzərə al ki, Ağdama və ağdamlılara mənim həmişə qayğım olub, bundan sonra isə bu qayğı daha da artacaq".

**Həsən SARIYEV,**
**Ağdam Rayon İcra Hakimiyyətinin başçısı**

O, Moskvaya çağırılanda, yəni 1982-ci ildə şəxsən rəhmətlik Elçibəylə mən içki məclisi qurub bu hadisəni böyük bayram kimi qeyd etmişik. Əbülfəz bəy hakimiyyətdə olduğu zaman həmişə deyirdi:

- Hamımız bu kişinin şəklini kabinetlərimizdə divara vurmalıyıq. O bizi ermənilərin, gürcülərin, rusların və başqalarının kölgəsindən çıxarıb.

İnsan haqları, ədalətsiz hökmlərlə bağlı birbaşa Heydər Əliyevə müraciətlər etmişəm. Çox diqqətlə qulaq asır, suallar verir, özünü və məni əmin edəndən sonra deyirdi:

- Hə, burada əyintilər olub, məhkəmənin qərarı ədalətsizdir...

Az keçməmiş həmin adamları əfv edib həbsxanadan buraxdırırdı. Xəbərim olmadan məni əfv komissiyasına üzv etdi. Qısası, Azərbaycana çox lazımlı adam idi. Ancaq bəziləri elə bilirdi ki, Heydər Əliyev prezidentdir deyə kefə baxır.

Avropa Şurasında bayraq qaldırılan gün çıxış oldu, sonra Robert Koçaryanla birlikdə mətbuat konfransı keçirdi. Həm onun üçün, həm də bizim üçün çox ağır gün idi. Mətbuat konfransından çıxanda məni çağırdı, son dərəcə yorğun, bədbin vəziyyətdə əlini çiynimə qoyub dedi:

- İndi gördün nələr çəkirəm?.

Son vaxtlar bu səhnəni tez-tez xatırlayıram. Onun yorğun səsi, üzü, həqiqətən, prezidentliyin heç də asan iş olmadığından xəbər verirdi.

Azərbaycan kimi ölkədə prezidentlik çox ağır işdir.

**Vaqif SƏMƏDOĞLU,**
**xalq yazıçısı**

Biz erməni komandası üzərində böyük qələbə qazanaraq Azərbaycana dönəndən sonra Heydər Əliyevlə görüşdük. Onun sevincinin həddi-hüdudu yox idi. Bizi təbrik etdikdən sonra dedi ki, "Mən sizin bu yarışınıza böyük həyəcanla baxırdım. Axı siz orada Azərbaycanı təmsil edirdiniz. Qalib gəlməklə xalqımızın adını bir daha ucaltdınız və buna görə sizə çox minnətdaram". Bəli, Heydər Əliyev belə böyük insan idi...

Heydər Əliyev bizim qələbələrimizlə daim fəxr edirdi. Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana rəsmi səfəri zamanı "Gülüstan" sarayında ziyafət verilirdi. Ziyafətdə biz də iştirak edirdik və bir konsert nömrəsi ilə çıxış etmişdik. Prezidentlər qonaqlarla tanış olarkən cənab Heydər Əliyev bizi yanına çağırdı və Vladimir Putinlə tanış etdi. Bizim haqqımızda böyük qürur hissi ilə danışan Heydər Əliyev fəxrlə V.Putinə: "Bu uşaqlar çox istedadlıdırlar, hətta ermənilərə də qalib gəliblər" - dedi. Bu ifadələri deyərkən Heydər Əliyevin sevincdən gözləri parıldayırdı və göründüyü kimi, bu qələbədən bir müddət ötsə də, nailiyyətimiz Prezident üçün hələ də çox qiymətli idi.

**Anar MƏMMƏDXANOV,**
**"Bakılı oğlanlar" ŞHK-nın kapitanı,**
**Milli Məclisin deputatı**

Eşitdim ki, cənab Heydər Əliyev Klivlenddə ürək əməliyyatından sonra Türkiyənin Antalya şəhərində dincəlir. Mən də ora getdim. Heydər Əliyevlə görüşdüm. Axşam Heydər Əliyevlə gəzintiyə çıxarkən onun cəld yerişlərlə bizi arxada qoyduğunu gördüm. "Cənab Prezident, necə əməliyyat keçirmisiniz ki, sizə çata bilmirik?" - deyə soruşdum. Heydər Əliyev gülümsəyərək "Siz də adınızı cavan qoymusunuz" - dedi.

Ürək ağrılarım və sabahı gün "anjo" edəcəyim barədə heç kimə heç nə demədim. İstanbula qayıdıb alman xəstəxanasında müayinədən keçdim və o dəqiqə də məni xəstəxananın reanimasiya şöbəsinə göndərdilər. Bildirdilər ki, ürək damarlarının üçü kirəclənib, qan işləməsinə mane olur. Bu da qorxulu və ağır vəziyyət hesab edilir. Ona görə də iki saatdan sonra ürəyimdə şuntlama əməliyyatı aparılmalıdır. Mən də razılıq verdim. Başqa əlacım yox idi. Ailəm, konsulluğun əməkdaşları tələsməməyimi, bir qədər gözləməyimi məsləhət görsələr də, onlara fikir vermədim. Lakin ürəyimdə əməliyyat aparacaq həkimin: "Bəlkə də əməliyyatdan sağ çıxmadı, vəziyyəti çox ağırdır" - deməsini eşidəndə əməliyyat haqqında razılığımı geri götürdüm və Antalyaya, Heydər Əliyevin qaldığı iqamətgaha zəng vurdum. Telefonun dəstəyini prezidentin mühafizə xidmətinin rəisi Vaqif Axundov qaldıraraq məni dinlədi və Heydər Əliyevə məlumat verildi. Mən telefonda gözləyirdim. İki-üç dəqiqədən sonra bildirdilər, Heydər Əliyev deyir ki, Nazirlər Kabinetinə tapşıracağam, əməliyyat üçün vəsait ayırsınlar. İstəyir Klivlendə getsin, istəyirsə Londonda əməliyyat etdirsin. Mən də Londona gedib əməliyyat etdirdim. Əlbəttə, ayrılan məbləğ Azərbaycanın Londondakı səfirliyinə köçürülmüşdü və Heydər Əliyev bu yardımı göstərməsəydi, indi həyatda yox idim...

**Xeyrəddin QOCA,**
**yazıçı-publisist**

...1997-ci ilin avqust ayının ilk günləri idi. Prezident ABŞ-da rəsmi səfərdə idi. Bill Klintonla görüşdən sonra Hyustona gəldik. Və burada olanda şad xəbər aldıq: Heydər Əliyev növbəti dəfə baba olmuşdur. Prezident hədsiz sevinc içərisində idi. Nümayəndə heyətinin bütün üzvləri ilə görüşdü, onların təbriklərini qəbul etdi. Mən son illər ərzində Heydər Əliyevin bu qədər sevindiyinin şahidi olmamışdım. O, Bakıya dönərkən yolüstü Londonda dayandı və yeni doğulmuş körpənin olduğu klinikaya gəldi.

Prezident bu görüşə, sözün həqiqi mənasında, qaça-qaça gedirdi. Nəvəsini ona təqdim edəndə gözləri yaşardı və çox təntənəli, yüksək, bir qədər də kövrək səslə dedi: "Mən bu uşağın adını HEYDƏR qoyuram".

Otaqda olan hər kəsin gözləri yaşarmışdı. Həmin anlarda çox təsirli şəkillər çəkdim. Həm də onunla fəxr edirəm ki, kiçik Heydər Əliyevin ilk şəklini mən çəkmişəm.

Heydər Əliyev bütün nəvələrini hədsiz dərəcədə sevirdi. Ancaq sonuncu nəvəsinə - kiçik Heydərə daha çox bağlı idi, adını daşıyan bu körpənin mövcudluğu ilə daim fəxr edirdi

**Rafiq BAĞIROV,**
**Prezidentin şəxsi fotoqrafı**

60 yaşı ötmüşəm. Sənətim ancaq bəstəkarlıq və müəllimlikdir. Başqa qazanc yolumuz yoxdur. Prezidentimiz bunu çox yaxşı bilir və sizə deyim ki, mənim də ağır günlərim olub. Amma ömrümdə kimsəyə şikayət etməmişəm. Göydə Allah, yerdə Prezident bizə kömək göstərib. Bizi yıxılmağa, əzilməyə, açıq deyəcəyəm, ölməyə qoymayıb. 1996-cı ildə xarici ölkədə ağır cərrahiyyə əməliyyatı keçirdim. Onda Bakının musiqi salonlarında "Qəm karvanı" oratoriyam ifa olunanda Prezidentimiz soruşub ki, bəs Vasif özü hanı? Deyiblər ki, Türkiyədədir, xəstədir. Dərhal öz göstərişini verib ki, təcili maraqlanın, nə lazımdırsa, köməklik edin. Mən müalicəyə gedəndə maddi cəhətdən bilirdim ki, o xərcin altından çıxa bilməyəcəyəm. Prezidentimizin bu cür diqqəti mənə həm maddi, həm də mənəvi cəhətdən çox böyük dayaq oldu. Onun qayğısı tez sağalmağıma kömək etdi. Prezidentimizin göstərişi ilə cərrahiyyə əməliyyatına lazım olan bütün xərclər dövlət tərəfindən ödənildi. Bütün bunları yaddan çıxara bilərəmmi? Söhbət təkcə maddi köməkdən getmir, Heydər Əliyev birinci növbədə bizim mənəvi himayədarımızdır.

**Vasif ADIGÖZƏLOV,**
**Respublika Bəstəkarlar İttifaqı İdarə**
**Heyətinin birinci katibi**

4-5 il idi ki, pambıq yığırdım. Unudulmaz Heydər Əliyev Bərdəyə gələsi idi. Qəribədir, o, protokoldan kənara çıxaraq qəfildən yolunu bizim kəndə - Türkmənə saldı. Hamı özünü itirmişdi. Bilmirdilər ki, rəhbəri necə qarşılasınlar. Mən özümə nahar üçün çörək götürmüşdüm. Yuxanı süfrəyə büküb üstünə duz qoydum. Heydər Əliyevi qarşıladım. O, əlimdəki yuxaya baxaraq gülə-gülə soruşdu: "Kim bişirib bunu?" - "Nənəm" - dedim. "Hə, halal çörəkdir, mütləq yemək lazımdır. Bəs bunun pendiri hanı? - Sualdakı zarafat tonunu anlamadım. Sadəlövhcəsinə: "Var, bu saat gətirərəm" - dedim. "Yox, yox, qızım, lazım deyil" deyərək lavaşdan kəsib duzla ağzına qoydu. "Lap biz tərəflərin çörəyinə oxşayır" - dedi.

Hər dəfə pambıq yığımı mövsümü başlayanda Heydər Əliyev Bərdəyə gələr, bizimlə iş üstündə görüşərdi. O görüşlərdən biri indiki kimi yadımdadır. Rayonda hamı Heydər Əliyevin gələcəyini bilirdi. Tərslikdən həmin gün də yağış yağmışdı. Maşınla yığıma hazırlanmış sahədə dörd mexanizator (üç kişi və mən) var idi. Heydər Əliyev hamımızla əl verib görüşdü: "Maşınla yığmaq olarmı?" - deyə xəbər aldı. Cavabında mexanizatorlardan biri: "Xeyr, yoldaş Əliyev, pambıqda nəmlik var" - dedi. "Heç olmaz?" - deyə Əliyev gülümsədi. Mən bir qədər ürəkləndim: "Olar" - dedim. Pambıqyığan maşını işə salıb sahəyə girdik. Kişilərin idarə etdiyi maşınlar tarlanın ortasında qaldı. Mən isə o başa gedib geri qayıdaraq bunkeri doldurdum. Biz Heydər Əliyevə yaxınlaşanda o üzünü bayaqkı mexanizatora tutdu: "Sən yarı yolda qaldın, Tərlan gedib qayıtdı. Boynuna alırsanmı bu qız səndən qoçaqdır?" "Bəli, yoldaş Əliyev, - deyə Soltan adlı mexanizator etiraf etdi - Tərlan qız olsa da, maşınını məndən yaxşı nizamlayıb, odur ki, bacardı". Heydər Əliyev əlini əlinə vurub ürəkdən güldü. Sonra hər il bir neçə dəfə mənim sahəmə gələr, görüşərdik. Aramızda ata-övlad münasibətinə bənzər bir doğmalıq yaranmışdı.

**Tərlan MUSAYEVA**

1980-ci ili ömrüm boyu unutmaram. Bir də eşitdim ki, mənə Sosialist Əməyi Qəhrəmanı adı verilib. Ən xoş olanı isə budur ki, qızıl ulduzu şəxsən Heydər Əliyev sinəmə taxdı. Çox qayğıkeş, diqqətli insan idi. Moskvada mötəbər tədbirlərdən birində iştirak edirdim. Qış ayları idi. Naxoşlamışdım. "Moskva" mehmanxanasında qalırdıq. Hər səhər mehmanxananın qabağında Heydər Əliyev hamı ilə bir-bir əl verib görüşərdi. Növbə mənə çatanda zəndlə baxdı, gördü ki, halım o hal deyil. Həmkarlarımdan biri dedi ki, bəs Fərzalı xəstədi, gecə heç yatmayıb. Heydər Əliyev o dəqiqə yanındakılara göstəriş verdi, məni Kreml xəstəxanasına apardılar. Bir həftə müalicə olunandan sonra qayıtdım.

**Fərzalı ABBASOV,**
**prezident təqaüdçüsü**

Yevlax rayonu pambıq təhvili planına əməl edə bilməmişdi. Həmin yığıncaqda ulu öndərimiz Heydər Əliyev: "Şamama, bilirsən də, 3 faiz geridəsiniz" - deyərək fikrini bildirdi. Mən də buna əvəz olaraq beşillikdə 34 ton əvəzinə 70 ton pambıq yığacağıma söz verdim. 1970-1975-ci illər ərzində bütün gücümü səfərbər edib vədimə əməl etdim. Kimə söz verdiyimi yaxşı dərk edirdim. Ona görə də gecələr ay işığında da tarlada pambıq yığırdım. Mənim gərgin əməyim bəhrəsiz qalmadı. Heydər Əliyev 1977-ci ildə məni "QAZ-24" markalı "Volqa" avtomobili ilə mükafatlandırdı. Dövlət rəhbərinin zəhmətimi belə yüksək qiymətləndirməsi məni daha da ruhlandırdı. İldən-ilə uğur qazandım, nailiyyətlərim artdı. Heydər Əliyevin xarakterində elə bir sadəlik var idi ki, buna ancaq qibtə etmək olardı. Bir məqamı xatırlatmaq istəyirəm. Moskvada Sov.İKP-nin XXVI qurultayında Heydər Əliyev mənə yaxınlaşaraq gülə-gülə dedi ki, "Şamama, görürsən də, səni haralara gətirmişəm?" Mən onun yanında dayanmışdım, bu yaxınlıqdan, onun mənə çox səmimi və isti münasibətindən böyük qürur duyurdum. Odur ki, iftixarla dedim:

- Nə qazanmışamsa, Sizə borcluyam. Ordenlərim üçün də, Sosialist Əməyi Qəhrəmanı, pambıq ustası adı, firavan və xoşbəxt yaşayış üçün də.

**Şamama ƏLİYEVA,**
**Sosialist Əməyi Qəhrəmanı**
**prezident təqaüdçüsü**

...1994-cü ilin fevral ayında Londondan qayıdarkən təyyarədə bu söhbət təkrar olundu. Adətən belə səfərlər zamanı görüşmək istədiyi adamı Heydər Əliyev yanına özü dəvət edərdi. Növbə mənə çatanda "Respublika"nın taleyini xəbər aldı... Sonra işimlə maraqlandı, səfər təəssüratımı soruşdu. Bu yorulmaz insanın çoxcəhətli fəaliyyətinin bir epizodu xüsusilə məni valeh etmişdi. O vaxt dünya miqyasında Azərbaycan həqiqətlərini bilən hələ çox az idi. Gecənin bir vaxtı xarici işlər naziri Həsən Həsənov dedi ki, cənab Heydər Əliyev Dağlıq Qarabağın xəritəsini istəyir. Təcili hazırlandı. Gördük ki, səhər ən məsul görüşlərdə cənab Heydər Əliyev əlində bir nazik çubuq həmin xəritənin önündə Azərbaycanın dərdlərini bir-bir danışır. Eyni zamanda, ölkəmizin sərvətindən, qüdrətindən yerli-yataqlı söhbət açır, biznesmenləri respublikaya dəvət edir. Axşamüstü Londonun iş adamları ilə görüş zamanı hiss elədik ki, artıq çox adam çox şeydən xəbərdardır. Mən bu ilkin müşahidəmi yada salaraq dedim ki, Heydər Əliyevin Şərq müdrikliyi ingilis siyasətini üstələdi.

Özünəməxsus tərzdə xəfifcə gülümsündü:

- Şərq müdrikliyi həmişə üstün olub - dedi. - Sadəcə, onu Avropaya tanıda bilməyiblər.

**Əhməd İSAYEV,**
**əməkdar jurnalist**

Günlərin birində məni evlərinə çağırtdırdı. Dedi: "Aftandil, aparatını götür, bizim ata ocağına gedək. Mənim uşaqlıq və ilk gənclik illərimin yadigarı olan o köhnə binanı, uçuq-sökük divarları çək, qoy gələcək nəsillərə yadigar qalsın. Qoy görsünlər ki, Heydər Əliyev bəziləri kimi divarları qızıldan hörülmüş bər-bəzəkli sarayda yox, kasıb bir daxmada doğulub". Getdik. Əlini möhrədən tikilmiş palçıq divarın üstünə qoyub dərindən bir köks ötürdü. Bərk kövrəlmişdi. Yanaqlarında gilələnmiş göz yaşları aydın görünürdü. Hiss olunurdu ki, özünü güclə saxlayır...

- Bax, bu pəncərəni görürsənmi, - dedi. - Mən orta məktəbdə oxuyarkən hər gün burada, pəncərənin qarşısında oturub dərslərimi hazırlayırdım. Hətta axşamlar pəncərədən düşən ayın işığında belə...

Naxçıvanda Ali Məclisin ilk sessiyası keçirilirdi. Mən evdə oturub televiziya ilə nümayiş etdirilən həmin sessiyaya baxırdım. Birdən ekranda Ali Məclisin Sədri Heydər Əliyevin əzəmətli səsini eşitdim:

- Hanı fotoqraf? Hanı Aftandil Qurbanov? Axı bu, ilk sessiyadır. Bu, tarixdir. İndi salona Azərbaycanın ilk milli bayrağı gətiriləcək. Bunlar hamısı çəkilməlidir. Dərhal ayağa durub aparatımı götürdüm. Otaqdan bayıra çıxmağımla arxamca göndərilmiş maşının qapıda dayanması bir oldu.

**Aftandil QURBANOV,**
**kinooperator, fotoqraf**

Müsahibəmiz o qədər də asanlıqla baş tutmadı. Ulu öndər əvvəlcə Milli parkı gəzdi. Paytaxt sakinlərinə salamlarını çatdırdı. Müsahibə üçün cəhdlərim mühafizə xidməti tərəfindən məqsədəuyğun sayılmamışdı. Lakin bu, dövlət başçısının gözündən yayınmadı. Bizim vizual çəkiliş aparmağımız üçün maneçilik yaradılmamasını

tapşırdı. Dənizkənarı parkda gəzintisini başa vuran Prezident kortejə əyləşmək üçün yola tərəf addımlayırdı. Ümidimi itirmişdim. Elə zənn edirdim ki, müsahibə olmayacaq. Amma, deyəsən, yanılırdım. İkinci cəhdim alındı. Heydər Əliyev mühafizəçilərə göstəriş verdi: "Buraxın gəlsin..."

İlk dəfə idi ki, Prezidentlə üz-üzə dayanmışdım. Mikrofonu tutarkən əllərimin əsdiyini aydınca hiss etmək olardı. Özümü yamanca itirmişdim. Amma bu böyük şəxsiyyətin üzündəki təbəssüm bütün həyəcanımı unutdurdu. Mən Prezidenti Dövlət Müstəqilliyi Günü münasibətilə təbrik etdim. O da, öz növbəsində, xalqımıza, televiziyamızın bütün tamaşaçılarına ürək sözlərini dedi. Azərbaycanın əldə etdiyi uğurlardan danışdı, nailiyyətlərimizin daha genişmiqyaslı olacağına zəmanət verdi.

**Sahil KƏRİMLİ,**
**telejurnalist**

**"Azərbaycan"**.- 2006.- 9 may.- №101.- S.8-9

## İ. KOBZON: MƏN AZƏRBAYCAN DİLİNİ TƏKCƏ ONA GÖRƏ ÖYRƏNƏRDİM Kİ, BU DİLDƏ HEYDƏR ƏLİYEV DANIŞMIŞDIR

Böyük və kiçik millətlər yoxdur, ancaq görkəmli şəxsiyyətlər var və onlar öz millətini, deməli, həm də öz ölkəsini şöhrətləndirir, ucaldırlar. Öz fəaliyyəti ilə ölkəmizin hüdudlarından çox-çox uzaqlarda böyük hörmət qazanmış ümummilli liderimiz Heydər Əliyev bu tarixi simalar sırasında xüsusi yer tutur. Heydər Əliyevin anadan olmasının 83-cü ildönümü münasibətilə Azərbaycanın Moskvadakı səfirliyində keçirilmiş yığıncaqda bu barədə ətraflı söhbət getmişdir. Yığıncaqda iştirak edən Rusiya ictimaiyyətinin görkəmli nümayəndələri bu dahi insan barədə ən məhrəm xatirələrini və onunla görüşlərdən aldıqları xoş təəssüratı bölüşmüşlər.

Heydər Əliyevin nurlu xatirəsinə həsr olunmuş yığıncaqda səslənən bəzi çıxışlardan parçaları oxuculara təqdim edirik.

Rusiya Konstitusiya Məhkəməsinin hakimi Marat Baqlay:

– Bu gün hörmətli səfir məni təqdim edərkən haqqımda ən mühüm bir məqamı da vurğulayaraq dedi ki, mən bakılıyam. Elə bir bakılı ki, öz Vətənini unutmayıb, onu həmişə sevib və daim vurğulayıb ki, “mən Azərbaycan xalqının bir hissəsiyəm”. Çünki mən bu torpaqda boya-başa çatmışam, məni bu torpaq tərbiyə edib və onu heç vaxt unutmuram.

Həmişə Bakıya gələndə Heydər Əliyeviçlə görüşürdüm. Bəzən kabinetdə təkbətək görüşürdük, bəzən müxbirlər də iştirak edirdilər. Yadımdadır, bu görüşlər barədə yazılar dərc edilirdi. Mən bütün söhbətlərimizin məzmununu çox yaxşı xatırlayıram.

Heydər Əliyeviçi bundan əvvəl, hələ SSRİ Nazirlər Sovetində işlədiyi və nəqliyyatla məşğul olduğu vaxtlardan tanıyırdım. Onun Ali Sovetdə çıxış etdiyi məruzələrinin hazırlanmasında iştirak edirdim. Lakin bu insanın çox böyük əzəmətini artıq Bakıda, Azərbaycan müstəqilliyə qovuşduqdan sonra gördüm. Bu, çox ağır bir zəmanə idi, hələ müharibə gedirdi, indiyədək həll edilməmiş qalan Qarabağ problemi qarşıda kəskin şəkildə dururdu. Biz bu barədə çox söhbət etmişdik. Mən onu həm də bir siyasətçi və Azərbaycanda hüquqi dövlətin təşəkkülü problemlərini mənimlə müzakirə edən bir insan kimi xatırlayıram. Azərbaycanın Konstitusiya Məhkəməsi ilə də bizim çox sıx, çox mehriban, sadəcə olaraq, səmimi dostluq münasibətlərimiz yaranmışdı.

Onunla mədəniyyət haqqında etdiyimiz söhbətlər də unudulmazdır. Dünya Azərbaycanlılarının I Qurultayını xatırlayıram. Bakının ən böyük salonunda konsert verilirdi, o, məni yanında oturmağa dəvət etdi. Heydər Əliyeviç Azərbaycan xalqının mədəniyyətinin inkişafından həvəslə danışırdı və bu sahəyə necə böyük əhəmiyyət verdiyi aydın görünürdü. O, iftixar hissi ilə deyirdi ki, siz bir bu simfonik orkestrə baxın. Bilirsinizmi ki, o, az qala məhv olub gedəcəkdi, az qala fəaliyyətini dayandıracaqdı. Sonra o, indi bu orkestrin, necə deyərlər, dünya səviyyəsinə çıxması üçün gördüyü işlərdən danışdı. Azərbaycanda teatrlar da, ədəbiyyat da, təsviri sənət də, bir sözlə, hər şey məhz Heydər Əliyeviçin sayəsində yüksəldi, inkişaf etməyə başladı. Məhz onun sayəsində ölkə təkcə iqtisadi cəhətdən deyil, ümumiyyətlə, hər baxımdan tədricən çox yaxşı səviyyəyə çıxdı və indi inkişaf edir. Biz hamımız bütün bunları diqqətlə izləyirik. Hətta deyərdim ki, Azərbaycan mədəniyyətin inkişafı sahəsində bu böyük regionda hamıdan yüksəkdədir. Bu da ilk növbədə Heydər Əliyevin sayəsində mümkün olmuşdur.

Əlbəttə, keçmiş İttifaqda, Rusiyada həyat haqqında onun insanı riqqətə gətirən xatirələrini, xalqlarımız və ölkələrimiz arasında dostluğun əhəmiyyətini necə dəyərləndirdiyini heç vaxt unutmaq olmaz. O, tam əmin idi: dünya inkişafının elə bir amili yoxdur ki, bu dostluğu poza bilsin, diplomatiyanın inkişafında mürəkkəbliklərə baxmayaraq, Azərbaycan və Rusiya, iki ölkənin xalqları birlikdə olmalı, öz dövlətlərinin və bütün bəşəriyyətin tərəqqisinə, ölkələrimizdəki inqilabi dəyişikliklərin yaratdığı əlverişli şəraitin qorunub saxlanmasına kömək etməlidirlər. Bu gözəl, böyük insan haqqında xatirələrimi bölüşərək, bugünkü görüşə dəvətə görə dostum Polada təşəkkürümü bildirirəm.

İTAR-TASS-ın baş direktoru Vitali İqnatenko:

— “Çox sağ olun, Heydər Əliyeviç” demək mənim üçün böyük şərəfdir. Həyatım boyu, hələ komsomolda işləyərkən, mənə Heydər Əliyeviçlə yaxın olmaq kimi böyük xoşbəxtlik nəsib olmuşdur. O, cild-cild xatirələr, elmi əsərlər qoyub getməmişdir, lakin hər bir insanın bioqrafiyasında onun öz səhifəsi var. Mənim də bioqrafiyamda belə bir səhifə var. Çünki həyat və fəaliyyətinin bütün mərhələlərində – həm Bakıda, həm də Moskvada mənə həmişə onun tərəfindən qəbul edilmək kimi böyük şərəf nəsib olurdu. Bizim birbaşa işlə əlaqəmiz yox idi, lakin Heydər Əliyeviç mənim məşğul olduğum və özünün də məsul olduğu sahəyə çox böyük təsir göstərirdi. Zənnimcə, onun həyatının xüsusilə son illəri çox yüksək və nəcib bir məqsədə həsr olunmuşdu – yəni, biz xalqlarımızı birləşdirən əbədi dəyərləri unutmayaq. Xatirimdədir, o, bizim ilk xahişimizlə Bakıda əcnəbi jurnalistlərin böyük beynəlxalq görüşünü, rus mətbuatı konqresini təşkil etdi. Jurnalistlər Bakıya öz doğma evlərinə olduğu kimi gəlirdilər və Heydər Əliyeviç nə qədər məşğul olsa da, mütləq bizi qəbul edirdi və

ölkələrimiz arasında münasibətlərdə hər şeyin aydın və şəffaf olmasına çox böyük maraq göstərdiyini daim hiss edirdik. Bu gün biz Heydər Əliyeviçin doğum günündə nitqlər söyləyirik, onun səfirlikdə büstünü açdıq və o, Moskvada əbədi olaraq belə qalacaqdır. Mən bu təşəbbüsü irəli sürənlərin hamısına təşəkkürümü bildirirəm. Ruhu cənnətlik olsun.

RF Federal Xarici Kəşfiyyat Xidməti direktorunun müavini İvan Qorelovski:

— Əziz dostlar, Lev Tolstoyun belə bir məşhur kəlamı var ki, sevməyi bacarmaq, hər şeyi bacarmaq deməkdir. Düşünürəm ki, Heydər Əliyeviçin şərəfli həyatından danışarkən, əlbəttə, ilk növbədə, onun Azərbaycanı sevmək, xalqını sevmək, qonşularını sevmək, Moskvanı sevmək bacarığından danışmaq lazımdır. Onun nüfuzunun ən yüksək səviyyədə olmasını məhz bu təmin etmişdir. Biz 1960, 1970, 1980 və 1990-cı illərin Azərbaycanını görmüşük və son illər qazanılan nəhəng nailiyyətlərlə səmimi-qəlbdən fəxr edirik. Şübhəsiz ki, bütün bunlar Heydər Əliyeviçin qüdrəti sayəsində ərsəyə gəlmişdir. O, respublikanın inkişafının başlıca strateji istiqamətlərini çox müdrikcəsinə, məharətlə, dəqiqliklə müəyyənləşdirmişdir. Belə deməyə tam əsasımız var ki, bütün bu işlər güclü iradəyə, təpərli ürəyə və şübhəsiz, təmiz vicdana malik insan tərəfindən görülmüşdür.

Onun Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsinin rəhbəri işlədiyi böyük bir mərhələyə gəldikdə isə, bu, onun əməliyyatçı kimi fəaliyyətinin unudulmaz, maraqlı səhifələri idi. O, çox mürəkkəb əməliyyat tədbirləri keçirməyin ustası idi. Əlbəttə, bu, açıq söhbət mövzusu deyil, lakin inanın ki, onun burada, Lubyankada, SSRİ Dövlət Təhlükəsizliyi Komitəsində böyük hörməti var idi, onunla hesablaşır, onun rəyini son dərəcə qiymətləndirirdilər. Bugünkü gün, Heydər Əliyeviçin doğum günü bizim hamımız üçün əlamətdardır. 9 May bayramından sonra bu əfsanəvi, gözəl insanın doğum gününü qeyd etmək kimi çox gözəl ənənə yaranmışdır. Mən bir daha Heydər Əliyeviçə ən dərin ehtiramımı bildirmək istəyirəm. Onun ruhu şad olsun.

Keçmiş SSRİ-nin yollar naziri Nikolay Konarev:

— Əziz yoldaşlar, biz bu günü böyük ehtiramla qeyd edirik. İlk növbədə, demək istərdim ki, Heydər Əliyeviç insanları sevən çox alicənab adam idi. O, az-az adamlardan idi ki, ölkənin məruz qaldığı çoxlu problemlər arasında başlıca məsələni görməyi bacarırdı. Sözübütöv, dəqiq, diqqətli, həssas, mədəni insan idi. 1982-ci il noyabrın 29-da Yuri Vladimiroviç Andropov məni SSRİ yollar naziri təyin etdi, 1982-ci il dekabrın 12-də isə Heydər Əliyeviç SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin olundu. Heydər Əliyeviç nəqliyyatın necə işlədiyi ilə maraqlanmaq üçün dekabrın 13-də məni dəvət etdi, çünki o vaxt nəqliyyatın işi xalq təsərrüfatının tələbatından bir qədər geri qalırdı. Söhbətimiz dörd saat çəkdi. Heydər Əliyeviçə bildirdiyim problemin dərinliyini hiss etmək üçün onun öz vəzifəsinə necə can-başla təfərrüatı ilə, məsuliyyətlə yanaşdığına heyran qaldım. Söhbət açıq oldu, heç nə gizlədilmədi, görüləsi işlər araşdırıldı. Onu da deyim ki, bəzən işlətdiyim bir ifadə onun xoşuna gəldi: “Ölkənin ən yaxşı adamları dəmiryolçular ailəsindəndir”. Heydər Əliyeviç isə məhz dəmiryolçu ailəsindəndir, atası Naxçıvanda paravozları su ilə təmin edən stansiyada növbətçi işləyib. Görünür, təsadüfi deyil ki, 1990-cı ildə Heydər Əliyeviç oraya, öz vətəninə - Naxçıvana qayıtmışdı. O, atası, anası haqqında, gözəl Naxçıvan diyarı və digər məsələlər barədə danışırdı.

İş üslübu və metodları deyilən bir anlayış var. Onu bax belə bir iş üslubu fərqləndirirdi – deyilən söz əməli işlə təsdiqlənməlidir. Heydər Əliyeviçlə müzakirə edilən bütün məsələlər nə dərəcədə çətin olsa da, onun səyləri sayəsində mütləq həyata keçirilirdi. O dövr üçün, eləcə də onun özü üçün epoxal bir hadisəni xatırlamaq istəyirəm — söhbət Baykal-Amur Magistralına səfərdən gedir. Biz BAM-ın başlandığı Ust-İlimdən Komsomolsk-Amuradək, demək olar, piyada getdik. Komsomolsk-Amurda isə dünyada ən yaxşı “MiQ” qırıcı təyyarələri yığılan böyük bir zavod var. Zavodun nümayəndələri ondan təyyarələrdən birinə minib onlarla şəkil çəkdirməyi xahiş etdilər. Severo-Muysk tunelinə də getdik. İndi neft kəməri çəkilməsi ilə əlaqədar xeyli kənardan keçmək lazımdır, çünki neft kəməri BAM-la paralel gedir. Bəli, BAM indi neft kəməri kimi möhtəşəm tikintiyə başlamaq üçün dayaq, əsas oldu. BAM-ın tikintisinə Heydər Əliyeviçin töhfəsi böyük və misilsizdir. Beləliklə, gəlin, Azərbaycan xalqının şanlı oğlunun şərəfinə, Sovetlər ölkəsindəki hünərlərinin şərəfinə, onun gözəl insani keyfiyyətlərinin şərəfinə badə qaldıraq. Bu hünər və keyfiyyətlərlə həmişə fəxr etmək olar və bunlar həmişə ehtiramla yad ediləcəkdir. Heydər Əliyeviç, sağ ol.

Altay Respublikası Xalq Məclisinin sədri İvan Belekov:

— Azərbaycanın Rusiyadakı səfirliyində Heydər Əliyevin büstünün açılışı öz əhəmiyyətinə görə Moskvanın lap mərkəzində yerləşən bu binanın divarlarından çox-çox kənara çıxır. Çünki o, sözün əsil mənasında böyük, həqiqətən, dahi insandır, öz milli köklərindən heç vaxt ayrılmır, həmişə ümumbəşəri sərvət səviyyəsinə çıxır. Bu, birincisi. İkincisi isə, Heydər Əliyeviç Əliyev kimi şəxsiyyət, onun kimi “batır” öz həyatı, öz zəhməti ilə çox böyük Avrasiya məkanımızın canlı yaradıcı tarixini təcəssüm etdirir. Bəli, mən 1985-ci ildə Heydər Əliyeviçin SSRİ Ali Sovetinə deputat seçildiyi Altay torpağından gəlmişəm. Buraya gəlməzdən əvvəl Altay diyarının o vaxtkı qəzetlərini oxudum. Qəzetlər onun haqqında çox yazırdılar.

Yerli Sibir nəşrlərindən bir neçə sitat gətirim: "Altayskaya pravda"nın 1985-ci il 14 fevral tarixli nömrəsində yazılmışdı ki, ittifaq səviyyəli yüksək vəzifəli rəhbər işçilərdən birinə böyük Sibir çayı Ob üzərindən körpü salınması tapşırılanda, o demişdi ki, bu, çox iri layihədir, mənə nəsə kiçik bir iş tapşırın. Beş il sonra Heydər Əliyevə kiçik layihə təklif edəndə, o, hətta, bundan inciyərək demişdi ki, mənə sanballı bir obyekt verin. Həqiqətən, bizim böyük Ob çayı üzərindəki bu körpü Sibirin ən iri şəhərlərindən biri sayılan Barnaulun vizit kartıdır. Heydər Əliyeviçin "mən fəxr edirəm ki, ölkənin Ali Sovetinə rus əhalisi tərəfindən seçilirəm" sözlərini sitat gətirirəm. Xatirimdədir, elə o vaxtlar deyirdi ki, Altay qədim türk dilində qızıl dağlar deməkdir. Bildiyiniz kimi, Altay bir çox türkdilli xalqların beşiyidir və bu sözlər ölkəmizin siyasi rəhbərliyinin dilindən ilk dəfə idi ki, səslənirdi. Biz Altayda bununla fəxr edir, bunu əziz tuturuq. Polad Bülbüloğlu mədəniyyət naziri olanda və Bakıda türkdilli ölkələrin mədəniyyət nazirlərinin "Türksoy" çərçivəsində görüşü keçiriləndə Heydər Əliyev Altaydan deputat seçildiyi illəri, Sibirin bu nəhəng məkanında dəmir yolu çəkilişinə necə başçılıq etdiyini və buradakı fəaliyyətinin digər məqamlarını, demək olar, bütün təfərrüatı ilə xatırlamışdı. Altayda birgə gördükləri işlərə görə Heydər Əliyevə və SSRİ-nin sabiq yollar naziri N.Konarevə çox sağ olun deyirik. Bu o deməkdir ki, Rusiya, həqiqətən, Sibirin sayəsində güclənəcəkdir. Polad Bülbüloğlu bizi Bakıya dəvət edəndə Heydər Əliyev dedi ki, öz xalqının mədəniyyətini və adətlərini qiymətləndirmək, onun dilini və ənənələrini bilmək lazımdır, bunlar müqəddəsdir. Həm də deyirdi ki, məkan və zaman bölünməzdir. Onda fikirləşdim ki, vaxtilə tariximiz Gültəkin kimi böyük türk sərkərdələri, Azərbaycan xalqının Nizamisi kimi şair-filosofları dünyaya gətirmişdir. Bax, bu tarixin davamı olaraq isə, zaman Heydər Əliyeviç Əliyev kimi böyük şəxsiyyət yetirmişdir.

Rejissor Mark Zaxarov:

— Təəssüf ki, mən Heydər Əliyevlə şəxsən tanış deyildim, lakin rus mədəniyyətini qidalandıran və ona beynəlmiləl xarakterli güc verən, – hər halda bunun əsası Bakıda qoyulmuşdur, – çox qüdrətli enerji sahəsi formalaşmışdı. Nədənsə, Bakıdan həmişə olduqca çox istedadlı insanlar çıxırdı. Zənnimcə, bu təsadüfi deyil, hesab edirəm ki, bura sivilizasiyanın bizə istifadə etdiyimiz, bizi yaşadan enerjini verən xüsusi mənbəyidir. Peçyorski deyirdi ki, böyük rus milləti hər bir rusa xas olan qaşqabaqlı sifətdən formalaşmışdır, bax, oradan isə Heydər Əliyev kimi böyük insanların köməyi ilə bizə xoş əhval-ruhiyyə, şən Qafqaz enerjisi gəlmişdir və Rusiya bunsuz mövcud ola bilməz. Qoy müxtəlif suveren ölkələr olsun, bu yaxşıdır, hərçənd, bizim ümumi mədəni məkanımızı qiymətləndirənlər üçün bir o qədər də yaxşı deyildir. Zənnimcə, biz yaşayacaq, birlikdə olacaq və Azərbaycan xalqının Heydər Əliyeviç kimi böyük oğullarının enerjisini uzun müddət hiss edəcəyik. Onun nurlu siması qarşısında baş əymək və ilahi tərəfindən verilmiş qabiliyyətini gerçəkləşdirdiyi üçün ona təşəkkür etmək istəyirəm. Çox sağ olun, Heydər Əliyeviç.

Dövlət Duması Mədəniyyət Komitəsinin sədri İosif Kobzon:

— Mark Zaxarov təəssüf etdi ki, Heydər Əliyeviçlə şəxsən tanış deyildi, mən isə demək istəyirəm ki, xoşbəxtlikdən, Heydər Əliyeviçi şəxsən tanıyırdım. Mən indicə Heydər Əliyevin gözəl büstü önünə güllər qoydum. Heydər Əliyeviçi həmişə sevinclə xatırlayıram, o, çox səmimi insan idi. Həyatımdan kiçik bir məqamı xatırladacağam. Dostumuz Müslüm Maqomayevin Bakıda keçirilən yubileyinə dəvət olunmuşdum. İlahi, Heydər Əliyeviç ona necə yubiley təşkil etmişdi... Mən çox təəssüf etdim ki, azərbaycanlı yox, yəhudiyəm. Heydər Əliyeviçin səhnəyə çıxıb nitq söyləməsini eşitmək və görmək lazım idi. Əvvəla, o, çox qəşəng geyinmişdi. Onun tünd göy rəngli gözəl kostyumu indiki kimi gözümün qabağındadır. Özü də əla formada idi. Heydər Əliyev Azərbaycan milli musiqisinin tarixindən danışdı. Onunla sanki bilik, intellekt yarışına çıxmağa cəhd göstərən orkestr vardı və onu necə də yerində oturtdu. O, operanın adını, yazıldığı ili, müəlliflərin hamısının soyadlarını söylədi... Onun çox yüksək intellekti var idi. Başa düşün ki, partiya və dövlət xadiminə belə təfərrüatı bilmək heç də vacib deyildi... Bəs, Azərbaycanda müntəzəm keçirilən rus incəsənəti ongünlükləri. Zənnimcə, Heydər Əliyeviç beynəlmiləl mədəniyyəti öz xalqı üçün zənginləşdirirdi. Bizim o vaxt olduğu kimi, indi də beynəlmiləl ölkədə Azərbaycan mədəniyyətinə çox dərin hörmətlə yanaşmağımız üçün edirdi. Heydər Əliyeviç daha yoxdur, bəlkə də ona görə biz Rusiyada Azərbaycan mədəniyyəti, Azərbaycanda Rusiya mədəniyyəti ilə o qədər də tez-tez ünsiyyətdə olmuruq.

O, əlbəttə ki, özündən sonra unudulmaz xatirələr qoyub getmişdir. Nadir şəxsiyyət, görkəmli xadim idi, onunla, sadəcə, ünsiyyətdə olmaq, sadəcə, onu dinləmək, danışarkən ona baxmaq son dərəcə xoş idi. Bilirsiniz, mən, hətta, Azərbaycan dilini öyrənmək istəyirdim. Mən Azərbaycan dilini təkcə ona görə öyrənərdim ki, bu dildə Heydər Əliyev danışmışdır. Onunla bağlı hər şey əla idi, çox gözəl ailəsi vardı və onu müqəddəs sima kimi sevirdilər. Heydər Əliyevlə vidalaşdığımız kədərli günü də xatırlayıram... Biz salonda oturmuşduq. Azərbaycanın çoxsaylı qonaqları bu dahi insanın xatirəsinə ehtiramlarını heç də protokol xatirinə bildirmək üçün gəlməmişdilər. Zənnimcə, Polad Bülbüloğlu indiki xatirə gecəsini burada deyil, böyük salonda keçirsəydi,

eynilə ora da adamla dolu olardı. Çünki Heydər Əliyevin pərəstişkarları, onu qəlbən sevən, bu parlaq və nurlu şəxsiyyəti daim xatırlayan insanlar olduqca çoxdur.

Rusiya – Azərbaycan Dostluğu Cəmiyyətinin sədri Nikolay Baybakov:

— Heydər Əliyev nadir insan idi, biz bir çox illər birlikdə işləmişik, xalq təsərrüfatı problemlərini həll etmişik. Heydər Əliyeviç özünü bütünlüklə xalq təsərrüfatına həsr edən insan idi, misilsiz rəhbər və əsil peşəkar idi. Ölkə iqtisadiyyatının inkişafında və tərəqqisində onun rolu və xidmətləri əvəzsizdir. Onun sayəsində sovet dövlətinin iqtisadi göstəriciləri ilbəil artırdı. Ölkənin infrastrukturunun, nəqliyyat sistemlərinin yaradılması, Rusiyanın və hazırda bütün müstəqil dövlətlərin istifadə etdikləri nəhəng sənaye müəssisələrinin tikintisi onun adı ilə bağlıdır. Öz ölkəsi və digər ölkələr üçün etdiklərinə görə ona “Çox sağ ol!” deyirik. Böyük Vətən müharibəsi illərində Qələbə qazanmaq üçün xidmətlərinə görə də Azərbaycana təşəkkür edirik. Heydər Əliyeviçin adı hamımızın yaddaşında daim yaşayacaqdır. Onun başladığı işləri davam etdirdiyinə görə Azərbaycana təşəkkürümüzü bildiririk.

RF Prezidentinin köməkçisi Aleksandr Beqlov:

— Hörmətli dostlar, mən Heydər Əliyeviçlə ötən əsrin 60-cı illərində tanış olmuşam. Onda balaca oğlan idim, təzəcə məktəbə getməyə başlamışdım. Günlərin birində anamla Bakı bazarına getmişdik və gördük ki, çox gözəgəlimli bir kişi addımlayır və Bayıl bazarındakı vəziyyəti yoxlayır. Anam bildirdi ki, bax, bu, bizim yeni rəhbərimizdir. Mən isə dedim ki, nə olsun? Anam dedi ki, o, çox təmiz adamdır, güzəranımız yaxşılaşacaqdır. Həqiqətən də, Heydər Əliyeviç respublikada yüksək vəzifədə işləyəndə düzlük və ədalət dövrü başlandı, çünki o özü məhz belə təmiz və ədalətli insan idi. Mən burada fikirləşirdim ki, çox hörmətli insan haqqında nə deyim və insanda, xüsusilə kişidə ən başlıca keyfiyyət olan ədalətliliyi qeyd etməyi qərara aldım. Hansı vəzifəni tutmağından, nə qədər var-dövlət sahibi olmağından və harada yaşamağından asılı olmayaraq, bu, insan üçün başlıca keyfiyyətdir. Sonrakı illərdə mən Heydər Əliyeviçlə tez-tez olmasa da, hərdənbir Moskvada da, Bakıda da görüşürdüm. Bunlar çox səmimi görüşlər idi və həmişə xoş iz buraxırdı, daxilimdə yaxşılığa doğru nə isə dəyişirdi. Anamın sözlərini xatırlayaraq təsdiq etmək istəyirəm ki, o yanılmamışdı, çünki bu insan böyük ədalət sahibi idi. Bunu zaman və həyatın özü göstərdi.

Görüşlərin birində o, ömrümün axırınadək xatırlayacağım çox yaxşı sözlər dedi: “Hər bir insanın həyatında doğum günü və ölüm günü vardır, insan dünyaya ləyaqətlə gəlməli və həyatdan da ləyaqətlə getməlidir”. Zənnimcə, bu, Heydər Əliyeviçə nəsib oldu. O, özündən sonra çoxlu xeyirxah işlər, həm də təkcə işlər deyil, adi və qeyri-adi insanların ürəklərində böyük məhəbbət və hörmət qoyaraq bu həyatdan ləyaqətlə köçdü. Ən başlıcası da budur. Doğum gününüz mübarək, Heydər Əliyeviç, ürəklərdə əbədi yaşayacaqsınız.

RF Federal Mədəniyyət və Kinematoqrafiya Agentliyinin başçısı Mixail Şvıdkoy:

— Bu mötəbər yığıncaqda Heydər Əliyeviçdən danışmaq çox çətindir, çünki burada onu yaxından tanımış, onunla işləmiş insanlar var. Onlar Heydər Əliyeviçin necə bir insan olduğunu gözəl bilirlər. Lakin mən də cəsarət edib bir neçə kəlmə deyəcəyəm. Bakıda Azərbaycan Dram Teatrı ölkənin müasir həyatı haqqında tamaşa göstərmişdi. Tamaşadan sonra görüş oldu. Beş il əvvəl olan bu görüşdə Polad Bülbüloğlu da iştirak edirdi. Dövlət başçısı kimi Heydər Əliyeviç tamaşaya baxdıqdan sonra artistlərə təşəkkür etmək üçün səhnə arxasına gəldi. Düzü, düşünürdüm ki, adi təşəkkür sözləri və qısa çıxış olacaq və bununla da hər şey qurtaracaqdır. Lakin görüş bir saatdan çox çəkdi və Heydər Əliyeviç tamaşanı təhlil edərək, özünü görkəmli teatrşünas kimi göstərdi. Zənnimcə, heç də bütün tənqidçilər o gecə Heydər Əliyeviç Əliyev kimi çıxış edə bilməzdi. Bütün teatrşünaslar ona, sadəcə olaraq, pərəstiş etməli idilər. O, nəinki tamaşanı təhlil etdi, həm də bütün aktyorları adbaad xatırladı, övladlarından hal-əhval tutdu, onların nə vaxt mənzil alacaqlarını, nə vaxt ailə qurduqlarını soruşdu, kimlərin toyunda, kimlərin valideynlərinin xatirə mərasimində iştirak etdiyini söylədi. O, hər kəs barədə hər şeyi xatırlayırdı. Özü də, onun bütün bunları yazmalı olan heç bir köməkçisi əzəldən olmamışdır. O, gün-güzərandan, ancaq özünə bəlli olan məsələlərdən danışdı. Sözün düzü, lap heyran qalmışdım. Çünki onun həyatı belə başa düşdüyünü, hansı ölkədə yaşadığını, hansı ölkəyə rəhbərlik etdiyini, nə kimi insanlara rəhbərlik etdiyini başa düşdüyünü görürdüm. Bu bir saat yarım ərzində çox qeyri-adi məsələlər üzə çıxdı. Başa düşdüm ki, ölkənin xalqı xoşbəxtdir ki, onun rəhbəri insanları belə yaxşı tanıyır, səhnədə nə oynanıldığını bilir. Bilirsinizmi, həyatda faciəli, kəşməkəşli dövrlər də olmuşdur, elə dövrlər ki, çoxları, ümumiyyətlə, onun mövcud olduğunu unudurdular. Amma ən başlıcası odur ki, onun tarix üçün kim olduğunu, Azərbaycan üçün kim olduğunu, Sovet İttifaqı üçün kim olduğunu dərk edən, qiymətləndirən insanlar həmişə olmuşdur. İnanıram ki, indi təkcə azərbaycanlıların evlərində deyil, həm də bu gözəl ölkənin hüdudlarından kənarda bir çox evlərdə onu yad etmişlər. Bir halda ki, belədir, deməli, o yaşayır. Bax, ən başlıcası da budur. Məncə, bu doğum günündə o görsəydi ki, dağıdılmış və hərc-mərcliyin baş alıb getdiyi ölkəyə qayıtdıqdan

sonra özünün açdığı imkanlar sayəsində Azərbaycan da indi tərəqqidədir, çox şad olardı. Bugünkü ölkə – Azərbaycan ona ən yaxşı abidədir.

**AzərTAc**

**"Xalq qəzeti"**.- 2006.-14 may.- №106.- S.2

## MİLLİ İNTİBAHIMIZIN MEMARI

**Sadıq ELCANLI**
**yazıçı, əməkdar jurnalist**

1969-cu il iyulun 14-də Azərbaycan tarixində yeni, uğurlu dövr açan əlamətdar bir hadisə baş verdi: Heydər Əlirza oğlu Əliyev Azərbaycan Respublikasının rəhbəri seçilərək genişmiqyaslı, fədakar fəaliyyətə başladı. 46 yaşlı general ilk günlərdən elə taktiki yollar seçdi, Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il plenumunda elə fundamental strateji istiqamətlər müəyyənləşdirdi ki, keçmiş ittifaqın ucqar, geridə qalmış respublikası qısa müddətdə ayağa qalxdı. Azərbaycan ötən əsrin 70-ci illərində inkişafa, yüksəlişə nail oldu. Tarixi baxımdan ən əhəmiyyətli o idi ki, həmin inkişafın, tərəqqinin real maddi və milli-mənəvi nəticələri sonrakı müstəqillik dövrünün praktik sosial-iqtisadi bazasına, taleyüklü dayaq nöqtəsinə çevrildi. Bu, elə müdrik, uzaqgörən siyasət, elə fenomenal fəaliyyət, praqmatik hakimiyyət ustalığı idi ki, onu yalnız dahilər bacara bilərdi.

Heydər Əliyev uzun müddət müdrik rəhbər, tarixi xilaskar yolunu gözləyən Azərbaycan xalqına Tanrı töhfəsiydi, xilaskarlıq missiyasıyla göndərilən dahi idi.

Azərbaycanın yeni rəhbərinin ömür yolu gözəl bir yaz günündə — 1923-cü il mayın 10-da, qədim tarix və mədəniyyət yurdu Naxçıvanda, dəmir yolu işçisi Əlirza kişinin ailəsində başlanmışdı. Min illərlə yaşı olan ulu şəhərin özünəməxsus memarlıq mühiti, müqəddəs türbələri, kitab kimi oxunan daş naxışlar dünyası Heydər adlı bir oğlanın ilk heyrəti olmuşdu. Gənc yaşlarından müəllim olub öyrətmək, memar olub tikib-yaratmaq, tarixçi olub Azərbaycanın böyük həqiqətlərini bütün dünyaya yaymaq istəmişdi. Vətənpərvər hisslərin, Vətənə bağlı istəklərin işığında əvvəlcə Naxçıvan Pedaqoji Texnikumuna, sonra memarlıq-inşaat ixtisasına, daha sonra Azərbaycan Dövlət Universitetinin tarix fakültəsinə üz tutmuşdu.

Respublikanın yeni lideri tarixi öyrənmiş, tarixdən dərs almışdı. Heydər Əliyev Gülüstan, Türkmənçay müqavilələri ilə parçalanan, dövlətçiliyini itirən bir xalqın dərdlərini, faciələrini öyrənə-öyrənə böyümüş, xilaskar rəhbər olmuşdu.

Heydər Əliyev, nəhayət, keçmiş SSRİ adlı nəhəng dövlətdə cəsarətli söz, qətiyyətli mövqe, böyük nüfuz sahibi kimi tanınırdı. Məişət kondisionerləri zavodunun ciddi müzakirə və mübahisədən sonra məhz Azərbaycanda qurulması da, Azərbaycan sənətkarlarına, məsələn, Ukraynadan qat-qat çox sayda Sosialist Əməyi Qəhrəmanı adı verilməsi də, dünya okeanlarında “Bakı” adlı unikal hərbi təyyarədaşıyan gəminin üzməsi də, başqa neçə-neçə belə uğurlar da Heydər Əliyev qətiyyəti və nüfuzunun nəticəsi idi.

1969-cu il avqustun 5-də Azərbaycan KP MK-nın plenumunda etdiyi tarixi çıxış imperiya ağalarının çoxunu təşvişə salmışdı. Hətta, xarici radiostansiyalar, dünyanın mötəbər qəzet və jurnalları Azərbaycanın yeni rəhbərinin o vaxta qədər misli görünməyən cəsarətli, kəskin mövqeyindən, bəzi sovet gerçəkliyinə tənqidi, açıq, realist münasibətindən söz açırdı. Narahatlıq, təşviş dalğası fövqəldövlətin ali rəhbəri, Sov.İKP MK-nın Baş katibi L.İ.Brejnevə qədər gedib çatmışdı.

Uzun illərdən sonra müstəqil Azərbaycanın lideri Heydər Əliyev həmin gərgin vəziyyəti fəxrlə xatırlayırdı, Sov.İKP MK-nın Baş katibi ilə 45 dəqiqəlik telefon söhbəti zamanı Azərbaycanın o dövrdəki eybəcər reallıqları haqqında ona ətraflı məlumat verdiyini, bütünlüklə sovet cəmiyyətini bürüyən rüşvətxorluq, korrupsiya halları haqqında açıq danışmağın tarixi zərurət olduğunu necə başa saldığını xüsusi vurğulayırdı. Fövqəldövlətin ali rəhbəri Heydər Əliyevin dəmir məntiqi qarşısında geri çəkilmiş, onun yolunun düz olduğunu etriaf etmişdi. Hətta bir müddət sonra partiya qurultayında L.Brejnevin özü də H.Əliyev yoluyla gedərək sovet cəmiyyətini bürüyən rüşvətxorluq və korrupsiya halları haqqında danışmağa məcbur olmuşdu. Bu, yenicə respublika rəhbəri seçilən Heydər Əliyevin SSRİ rəhbərliyi üzərində, əslində, ilk prinsipial qələbəsi idi. Bu, nəinki Azərbaycan, SSRİ tarixində, bütövlükdə dünya tarixinə yeni bir şəxsiyyətin gəlişindən xəbər verən əlamətdar bir məqam idi.

Azərbaycan KP MK-nın 1969-cu il iyul plenumunda respublikanın rəhbəri seçilən Heydər Əliyevin genişmiqyaslı fəaliyyətində, ümummilli strateji hədəflərə istiqamətlənən siyasi xəttində milli dəyərlərimizə, xüsusilə, Azərbaycan dilinə diqqət və qayğı mühüm yer tuturdu. O, respublika rəhbəri kimi fəaliyyətə başladığı ilk günlərdən şəxsi nümunə göstərir, unudulan milli dəyərlərin bərpası və təsdiqinə, cəmiyyətdə, xüsusilə, yüksək dairələrdə Azərbaycan dilinin nüfuzunun artmasına, onun həqiqi dövlət dili statusunda əsas ünsiyyət vasitəsi olmasına, praktik işlənməsinə can atır və buna nail olurdu. Bu baxımdan bircə faktı xatırlatmaq yerinə düşər.

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyi münasibəti ilə keçirilən rəsmi mərasimdə Azərbaycan dilində çıxış edən Heydər Əliyev incə, uzaqgörən taktiki gedişlə respublikanın siyasi, elmi, ədəbi

ictimaiyyətinin, bütün ziyalı ordusunun diqqətini doğma ana dilinə yönəltdi. Bu, o dövr üçün böyük siyasi hadisə, istiqamətverici, ibrətamiz bir hərəkət idi. Heydər Əliyev ana dilinin gücünü, milli yaddaşı oyatma qüdrətini çox gözəl bilirdi, ümummilli ruhun saflaşmasında, səfərbər olunmasında ondan bacarıqla, müdrikliklə istifadə edirdi. O, doğma Azərbaycan dilinə sonsuz sevgisini heç kimdən və heç nədən qorxmadan, çəkinmədən, imperiya ağalarının əks- mövqe və münasibətlərini nəzərə almadan açıqca bildirir, fəxrlə bəyan edirdi: "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm..." Bəli, bu səmimi sözlər ümummilli liderimiz Heydər Əliyevə məxsusdur. Bütün həyatını doğma xalqının, Vətəninin inkişafına, intibahına həsr edən, bu yolda misilsiz tarixi uğurlar qazanan Heydər Əliyev istər sovet, istərsə də müstəqillik dövrlərindən Azərbaycan dilinə həmişə layiqincə diqqət yetirib, tükənməz övlad məhəbbəti, rəhbər uzaqgörənliyi ilə xüsusi qayğı göstərib. Hələ sovet dövründə, imperiya qadağalarına baxmayaraq, dilimizin dövlət dili statusu alması, Azərbaycanın dilçi alimlərinin yüksək dövlət mükafatlarına layiq görülərək daha böyük tədqiqat işlərinə ruhlandırılması, nəticədə Azərbaycan dilçiliyinin sürətli inkişafı, eləcə də dahiyanə nitq mədəniyyəti ilə hamıya şəxsi nümunə göstərməsi Heydər Əliyevin şərəfli xidməti idi.

Azərbaycan dilinə belə tarixi xidmət sonrakı mərhələdə, müstəqillik dövründə daha böyük miqyasda davam etdirildi. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli fərmanı, dahi şairimiz Məhəmməd Füzulinin 500, "Kitabi-Dədə Qorqud" eposunun 1300 illiyinin dünya miqyasında təntənə ilə qeyd edilməsi, respublikamızda Azərbaycan dili haqqında qanunun ciddi elmi-praktik müzakirələri və qəbulu bunu bir daha təsdiq etdi. Ümummilli liderimiz Heydər Əliyevin doğma Azərbaycan dili uğrunda on illər boyu necə şərəflə, cəsarətlə mübarizə aparması, real nəticələrə nail olması bu gün dünyada yaşayan bütün azərbaycanlılara, 50 milyonluq bütün Azərbaycan xalqına ən gözəl nümunədir. O layiqli nümunəni müasir mərhələdə Azərbaycan Prezidenti İlham Əliyev layiqincə davam və inkişaf etdirir.

Yeni Azərbaycan əlifbasında çox geniş çeşiddə milli ədəbiyyat örnəklərimizin kütləvi tirajla çap edilərək, pulsuz olaraq kitabxanalara, tədris müəssisələrinə paylanması, Azərbaycan milli mətbuatının 130 illiyinin layiqincə qeyd olunması və digər çoxsaylı tədbirlər dilimizə dövlət qayğısının yeni təzahürləri, bu sahədə Prezident İlham Əliyevin tarixi xidmətidir. Bu, 1969-cu ilin iyulundan sonra başlanan Azərbaycan dili siyasətinin, milli dəyərlərə qayıdış və bununla bütöv milli oyanışa, intibaha nail olmaq strategiyasının davam və inkişafıdır. Ötən əsrin 70-ci illərində Azərbaycan neft sənayesinin sürətli inkişafı ilk növbədə respubilka rəhbəri Heydər Əliyevin adı ilə bağlı idi. Onun yüksək rəhbərlik istedadı, praktik təşkilatçılıq bacarığı, keçmiş İttifaq miqyasında böyük nüfuzu bu ağır sahənin inkişafında da həlledici rol oynamışdı. O vaxt böyük kapital, gərgin səylər hesabına yaradılan dərin özüllər zavodu, tikintisi 1976-cı il iyulun 1-də başa çatdırılan "Xəzərdənizneft" yarımdalma üzən qazma qurğusu və digər texniki-iqtisadi uğurlar bir müddət sonra, müstəqillik dövründə də öz sözünü dedi. Bunlar müstəqillik dövrünə 70-ci illərin Heydər Əliyev töhfələri idi.

Həmin tarixi töhfələrin bazasında yeni dövrün neft sənayesi nəhəngləri — "Dədə Qorqud", "İstiqlal" qazma qurğuları yaradıldı ki, bunlar da Heydər Əliyev qətiyyətindən, dühasından yaranan və Azərbaycana bağışlanan misilsiz ənənələr idi. Heydər Əliyev bu neft nəhənglərinə "Dədə Qorqud", "İstiqlal" adları verməklə xalqın tarixi yaddaşını, ümidlərini, istiqlal arzularını ön plana, dünyanın diqqət mərkəzinə çəkirdi. Yalnız əsrlər, min illər miqyasında düşünə bilən, ulu keçmişlərdən böyük gələcəklərdə körpü salmağı bacaran dahi belə müdrik mövqe tuta bilərdi.

Azərbaycan KP MK-nın 1969-cu il 5 avqust tarixli plenumunda Heydər Əliyev o dövr üçün çox cəsarətli ideyalar irəli sürdü, dəqiq fəaliyyət proqramı müəyyənləşdirdi. Əsas hədəflərdən biri tikinti-quruculuq işlərinə geniş meydan verilməsi idi. Bakı, eləcə də Azərbaycanın bütün guşələrində tarixi, maddi-mədəniyyət abidələrinin elmi bərpası, bununla yanaşı yeni memarlıq komplekslərinin ucaldılması, təzə mikrorayonların salınması, əsaslı abadlıq işlərinin görülməsi mühüm vəzifə kimi irəli sürülürdü. Milli memarlıq mühitinin, tarixi yaddaşın bərpası, xalqın gizli imperiya maraqları ilə unutdurulan, bəzən itirilən tarixi gücünün, milli-mənəvi potensial imkanlarının üzə çıxarılması üçün əlamətdar ildönümlərindən, yubiley təntənələrindən vasitə kimi istifadə olunurdu.

Memar Əcəmi Naxçıvani, şair İmadəddin Nəsimi, dövlət xadimi Nəriman Nərimanov, əfsanəvi qəhrəman Mehdi Hüseynzadə kimi yüksək fikir, əməl adamlarının yubileylərinin keçirilməsi, heykəllərin ucaldılması, əslində milli tariximizin bərpasına, Azərbaycan həqiqətlərinin dünya miqyasında təsdiq və etirafına, bu yolla Azərbaycan xalqının milli-mənəvi səfərbərliyinə xidmət edirdi. 200 ildən artıq bir müddətdə parçalanan, real dövlətçiliyi əlindən alınan bir xalqın belə bir milli-mənəvi səfərbərliyə tarixi ehtiyacı var idi. Heydər Əliyev müdrik bir uzaqgörənliklə bunu bilir və məramını aşkar-gizli imperiya qadağalarına baxmayaraq qətiyyətlə, hünərlə həyata keçirirdi.

XX əsrin 70-ci illərindəki milli-mənəvi səfərbərlik, genişmiqyaslı tikinti-quruculuq işləri Qarabağdan, xüsusilə, Şuşa qala-şəhərindən də yan keçmədi. O vaxt Azərbaycana rəhbərlik edən Heydər Əliyevin xüsusi qayğısı, köməyi nəticəsində Şuşada kompleks memarlıq və heykəltəraşlıq abidələri ucaldıldı, muzeylər yaradıldı, şəhərin tarixi hissəsində ciddi elmi-bərpa işləri görüldü. Şuşa tarixi türk abidəsi, muzeylər şəhəri, kurort zonası kimi bütün dünyada məşhurlaşdı. Vaqifin, Natəvanın, Bülbülün, Üzeyir Hacıbəyovun heykəlləri, xatirə kompleksləri Şuşa qala-şəhərinə Heydər Əliyevin əliylə yazılan əbədi Azərbaycan avtoqrafları idi. Qarabağda Pənahəli xan Cavanşirdən, İbrahim xandan, Batmanqılıncdan daha çox abidələr, heykəllər ucaldan Heydər Əliyev M.P.Vaqif türbəsinin, Ü.Hacıbəyov muzeyinin, başqa onlarla milli-mədəniyyət obeyktlərinin açılışı vasitəsiylə Azərbaycanın tarixi və müasir milli, dövləti maraqlarını ön plana gətirir, ermənilərin özlərinə təsdiq və etiraf etdirirdi. Onun dahilik məqamının portret cizgilərində Qarabağın, Şuşa sevgisinin xüsusi yeri var.

"Azərbaycanın siyasi-iqtisadi, mədəni və elmi həyatında mühüm rol oynamış və oynamaqda olan Naxçıvanın qədim və çox zəngin tarixi vardır. Naxçıvan Azərbaycanın qədim torpağıdır və qədim zamanlardan Azərbaycanın ayrılmaz tərkib hissəsidir". Heydər Əliyev Azərbaycanın başqa bir tarixi vilayəti olan Naxçıvanı belə dəyərləndirirdi. Heydər Əliyev ölkənin bütün bölgələrinə, o cümlədən, Naxçıvan Muxtar Respublikasına son dərəcə həssaslıqla, diqqət və qayğıyla yanaşır, bütün sahələrdə ciddi, davamlı dirçəlişə, kompleks inkişafa nail olurdu. İndi Naxçıvan Muxtar Respublikasının hər bir bölgəsində, hər bir guşəsində o dövrün nişanələrinə — 70-ci illərdə Heydər Əliyevin təşəbbüsü, köməyi, tapşırığıyla tikilən zavod və fabriklərə, yol və körpülərə, çoxsaylı yaşayış binalarına, sosial-mədəniyyət obyektlərinə, geniş şəbəkəli meliorasiya və irriqasiya sistemlərinə rast gəlmək olar. Yerli əhali, qədirbilən insanlar bütün bunlar haqqında fəxrlə, minnətdarlıqla danışır, 70-ci illərin bütün Azərbaycanda, eləcə də Naxçıvanda xüsusi bir dövr — əsl yüksəliş, intibah dövrü olduğunu dönə-dönə qeyd edirlər.

Naxçıvan Muxtar Respublikasının 50 illik yubileyinə — 4 oktyabr 1974-cü ildə bu qədim yurda gələn Heydər Əliyev Dövlət Pedaqoji İnstitutunun müəllim-tələbə heyəti ilə görüşmüş, Naxçıvanda universitet yaratmaq ideyasını irəli sürmüşdür. Uzun illər keçəndən sonra Heydər Əliyevin bu ideyası reallaşdı, Naxçıvan Dövlət Universiteti həyata vəsiqə aldı. Bu ali təhsil ocağı Heydər Əliyevin daimi diqqəti, qayğısı, əməli köməyi ilə bütün çətinliklərə qalib gəldi, beynəlxalq standartlara cavab verən müasir universitetə çevrildi.

1990-cı ilin yayı, Naxçıvan. Azərbaycanın hər yerində olduğu kimi, bu qədim yurdda da gərgin günlər yaşanırdı. Erməni faşizminin işğalçı hücumları davam edir, kəndlər dağıdılır, hər gün qan tökülürdü. Belə gərgin bir vaxtda — 22 iyul 1990-cı ildə Heydər Əliyevin Naxçıvana tarixi qayıdışıyla qədim yurd qanlı işğaldan xilas edildi. Həmin gündən 9 iyun 1993-cü ilədək, təxminən, 3 illik davamlı, məqsədyönlü fəaliyyəti ilə Heydər Əliyev Naxçıvan Muxtar Respublikasında genişmiqyaslı tarixi işlər gördü, azadlıq, müstəqillik dövrünün əbədi, sarsılmaz əsasını qoydu . Bu dövr Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının bəlalardan, fitnəkar hücum və təxribatlardan xilas, qurtuluş dövrü kimi qiymətləndirilir.

26 may 1992-ci il. Həmin tarixi gündə Türkiyə ilə Azərbaycanı, Naxçıvanı birləşdirən "Ümid körpüsü"nün açılışı oldu. Tarix boyu bir olan, dar günün kədərini, xoş günün sevincini qardaş kimi bölüşən Türkiyə və Azərbaycan yenidən qovuşdu, blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasına yeni bir ümid yolu, yeni bir pəncərə açıldı o gün. O vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Heydər Əliyevlə Türkiyənin sabiq prezidenti Süleyman Dəmirəlin iştirak etdiyi təntənəli açılış mərasimi Naxçıvan tarixinin ən xoş, unudulmaz hadisələrindən biri idi. Körpünün açılışında Heydər Əliyev demişdi: "Bu körpü, həqiqətən, bizim ümid və arzularımızın körpüsüdür. Bu körpü türk dünyasına pəncərə açmağa imkan verəcəkdir".

İllər ötdü, dahi rəhbərin müdrik uzaqgörənliklə dediyi sözlər əsl həqiqətə döndü, təsdiqləndi: "Ümid körpüsü" bütün ümidləri doğrultdu, demək olar ki, blokada şəraitində, ağır vəziyyətdə yaşayan Naxçıvan Muxtar Respubilkasını xilas etdi. İndi "Ümid körpüsü", Sədərək gömrükxanası müasir beynəlxalq standartlar səviyyəsində yenidən qurulur. Türkiyə ilə Azərbaycan, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan daha da yaxınlaşır, bütün sahələri əhatə edən əlaqələr daha da genişlənir, bu birlik, qardaş yaxınlığı, tale bütövlüyü əbədi və dönməz xarakter alır.

Azərbaycan Dövlət Teleradio Verilişləri Qapalı Səhmdar Cəmiyyətinin, eləcə də Naxçıvan Muxtar Respublikası Dövlət Televiziyasının fondlarında 70 illik sovet dövrünün müxtəlif mərhələlərini əks etdirən külli miqdarda bədii, sənədli, xronikal kino, video materiallar qorunub saxlanılır. Bunlar hamısı bizim tariximizdir. Yeri gəldikcə, dünənə qədər yaxın və artıq dəyişmiş başqa bir cəmiyyət, başqa bir ictimai-siyasi quruluş qədər uzaq olan o dövrü xatırlatmaq da lazımdır. Ümummilli liderimiz Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti nəticəsində Naxçıvan Muxtar Respublikası ötən əsrin 70-ci illərində əsl inkişaf, intibah yoluna çıxmış, tarixi uğurlar qazanmışdır. Əslində, Naxçıvan Muxtar Respublikasında son illərdə qazanılan böyük uğurların əsası

ötən əsrin 70-ci illərində Heydər Əliyev tərəfindən qoyulmuşdur. Onun müdrik uzaqgörənliklə hələ 1970-ci illərdə təyin və təsdiq etdiyi, həyata keçirdiyi strateji istiqamət, sonradan xilaskar qayıdışla 1990-1993-cü illərdə bu bölgədə gördüyü taleyüklü işlər blokada şəraitində yaşayan Naxçıvanın bütöv yüksəliş yollarını, hərtərəfli inkişafını təmin etdi. Bu gün bütün dünya bilir, təsdiq və etiraf edir ki, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan qədim maddi və mənəvi mədəniyyət beşiyidir. Memarlığın Əcəmi zirvəsinə yüksələn, sinəsində Nəimi ruhuna yer verən, sənətin Bəhruz Kəngərli rəngləriylə öyünən bu qədim yurd zaman-zaman dahi ədiblər, şair və dramaturqlar yetirib. Elmimizin Hinduşah Naxçıvani, Nəsirəddin Tusi, Fəzlullah Nəimi kimi fatehləri, Yusif Məmmədəliyev, Həbibulla Şahtaxtinski, Zərifə Əliyeva kimi fədakarları, ədəbiyyatımızın Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məmməd Səid Ordubadi zirvələri Naxçıvandan baş qaldırıb, bütün dünyada tanınıblar. 20-ci əsrin 70-ci illərində Heydər Əliyevin qayğısı, diqqəti ilə naxçıvanlı elm və sənət adamlarına ucaldılan abidələr, açılan xatirə muzeyləri böyük bir sevginin, əsl ümumxalq məhəbbətinin təsdiqi idi. Bunlar Naxçıvan elmi-ədəbi, mədəni mühitinə, memarlığına, bütövlükdə Naxçıvanın tarix və mədəniyyətinə əsl rəhbər qayğısı, dahiyanə müdrikliklə reallaşdırılan Heydər Əliyev töhfələri idi.

Dahi Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin ruhunu nigarançılıqdan qurtarmağa, onun cənazəsini uzaq Sibirdən Vətənə qaytarmağa, doğulduğu torpaqda, müqəddəs türbələr şəhəri Naxçıvanda məqbərəsini ucaltmağa yalnız Heydər Əliyevin cəsarəti, qüdrəti çata bilərdi. Onun dahilik məqamının portret cizgilərində tarixə bütöv baxa bilmək müdrikliyi, uzaqgörənlik və qətiyyət, xalqına böyük inam, etibar və sonsuz sevgi əsas yer tutur.

1996-cı ilin 29 oktyabrı. Həmin işıqlı, nurlu payız günü Naxçıvanın müasir tarixinə əbədilik yazıldı. Dahi Hüseyn Cavidin, onun ömür-gün yoldaşı Müşkünaz xanımın və oğlu Ərtoğrulun məzarları üstündə ucaldılan məqbərənin açılışına Naxçıvan, bütün Azərbaycan, türk dünyası sevinirdi. Lakin hamıdan çox sevinən Hüseyn Cavidin qızı Turan Cavid və bu tarixi işi, şərəfli missiyanı əsl fədakarlıqla, vətəndaşlıq hünəriylə həyata keçirən Heydər Əliyev idi.

Onun Naxçıvana hər gəlişi qədim yurdla, doğma ata-baba torpağıyla görüşün böyük sevinc bayramına dönürdü. Onun gəlişinə Naxçıvanın qədim keçmişləri də, bu günü də sevinirdi. 3500 yaşlı ulu şəhər qucağını açırdı öz dahi oğlunun, xilaskar rəhbərinin hər gəlişinə. XX əsrin əvvəllərində Mustafa Kamal paşa Atatürk Naxçıvana necə qayğı və həssaslıqla yanaşır, necə önəm verirdisə, ötən əsrin 70–90-cı illərində və yeni əsrin ilk çağlarında ulu öndər Heydər Əliyev də həmin mövqeyi tutur, o yolu daha da davam və inkişaf etdirirdi. Azərbaycanın dövlət müstəqilliyinin təhlükə altında olduğu, ölkənin gizli bədnam parçalanma planlarının baş qaldırdığı bir vaxtda — 1993-cü ilin iyununda xalqın təkidli tələbiylə Heydər Əliyevin hakimiyyətə xilaskar qayıdışı, əslində, əsl müstəqillik, əbədi azadlıq dövrünün başlanğıcı oldu. "Ömrümün yerdə qalan hissəsini də xalqıma bağışlayıram" deyib, Azərbaycanın xilası, əbədi qurtuluşu naminə mübarizə meydanına atılan Heydər Əliyev tarixdə misli görünməyən fədakarlıq, siyasi müdriklik nümunəsi göstərdi.

18 oktyabr 1991-ci ildə bünövrəsi qoyulan, 15 iyun 1993-cü ildə real məhvolmadan xilas edilən müstəqil Azərbaycanın Milli Qurtuluş yolu günbəgün, aybaay, ilbəil möhkəmləndi, davam və inkişaf etdirildi.

1994-cü ilin mayında atəşkəsə nail olunması, həmin ilin sentyabrında dünyanın aparıcı neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin imzalanması, milli ordunun yenidən qurulması, ölkə daxilində dağıdıcı anarxiyaya, silahlı reket dəstələrinə, hərc-mərcliyə son qoyulması, qısa müddətdə sosial-siyasi, iqtisadi sabitliyin bərqərar edilməsi, Lissabon sammitində 53 aparıcı dövlətin dəstəyinə nail olunması, Böyük İpək yolunun bərpası istiqamətində həlledici addımlar atılması, Bakı—Tbilisi—Ceyhan layihəsinin əsl dahi qətiyyəti ilə irəli sürülməsi, çətinliklərə baxmayaraq addım-addım, mərhələ-mərhələ həyata keçirilməsi — bütün bunlar 15 iyun Milli Qurtuluş Günüylə başlayan tarixi uğurların bir hissəsidir.

Heydər Əliyevin xilaskarlıq missiyası, böyük perspektivlərə hesablanan uzaqgörən, müdrik siyasəti nəticəsində Azərbaycanın dövlət müstəqilliyi qorundu, əbədi və dönməz xarakter aldı. Heydər Əliyev xalqın içərisindən çıxmışdı, ömrü boyu xalqın arzu və ümidlərinin müdrik yol göstərəni, dahi öndəri oldu.

**"Xalq qəzeti"**.- 2006.-27 iyul.- №166.- S.3.

## HEYDƏR ƏLİYEV SİYASİ PORTRETİNİN CİZGİLƏRİ

**Ramiz MEHDİYEV,**
**Azərbaycan Respublikası Prezidenti İcra Aparatının rəhbəri, həqiqi dövlət müşaviri, akademik**

Heydər Əliyevin siyasi və mənəvi irsinə hər dəfə müraciət edəndə bu irsdə Azərbaycan xalqının mənəvi-əxlaqi həyatının necə dərin problemlərinin öz əksini tapdığının şahidi olursan. Bu məqalədə həmin çoxsaylı problemlərdən yalnız biri - Azərbaycan dili ilə bağlı problem üzərində dayanmaq istərdik. Hamıya məlumdur ki, xalqın ümummilli mənəvi birliyinin Heydər Əliyev tərəfindən yaradılmış konsepsiyasında Azərbaycan dili çox mühüm yer tutur. Heydər Əliyev özü bu dilin parlaq bilicilərindən olmuşdur. Onun nitqləri, çıxışları, müsahibələri yeni siyasi üslubu formalaşdırmış və Azərbaycan dilini o qədər əhəmiyyətli dərəcədə zənginləşdirmişdir ki, tədqiqatçıların hələ neçə-neçə nəsli natiqlik sənətinin bu nümunələrinə müraciət edəcəkdir.

Ümumfəlsəfi problem olaraq dil fenomenini bir çox dahi mütəfəkkirlər açmağa çalışmışlar. Dünyada dilin ən müxtəlif tərifləri mövcuddur. Fəlsəfə əsərlərində ona çoxlu müxtəlif təriflər verilir. Onların hamısı belə bir faktı bu və ya digər dərəcədə əks etdirir ki, dilin funksiyaları olduqca çoxdur. Bu gün biz süni, formalizə edilmiş dillər, metadillər barədə nə qədər mühakimələr yürütsək də, bir məsələ şəksizdir: insanın bütün mənəvi həyatı, hər halda, öz əksini sözdə tapır. İnsan ruhunun dildən kənarda hər hansı təzahürləri - musiqi, rəssamlıq, heykəltəraşlıq dildə özünüifadənin zəruriliyi ilə bu və ya digər şəkildə qarşılaşır. Filosoflar, sosioloqlar, psixoloqlar hələ uzun illər diskussiyalar aparacaq və mübahisə edəcək, yeni nəzəriyyələr yaradacaq və artıq təşəkkül tapmış konsepsiyalardan imtina edərək dilin bütün bəşəriyyət üçün və ayrılıqda hər bir xalq üçün nə demək olduğunu anlamağa çalışacaqlar. Lakin bu, indi bəhs etdiyimiz məsələnin mövzusu olmasa da, bir fikri - xalqın milli ruhu ilə onun doğma dili arasında qırılmaz əlaqə olmasını məhz bu kontekstdə nəzərə çarpdırmaq və qabartmaq istərdik. "Xalqın dili onun ruhudur, xalqın ruhu isə onun dilidir" kəlamı kimi hikmətli ifadələr dilin mövcudluğunun və inkişafının sirlərinə nüfuz etmək üçün göstərilən məhz bu cür cəhdlər nəticəsində yaranmışdır. Mənəviyyatla dilin əlaqəsi barədə sadə bir həqiqət bu aforizmdə son dərəcə dəqiq ifadə edilmişdir.

Heydər Əliyev epoxası bütünlüklə yüksəliş epoxasıdır. İqtisadiyyatdan tutmuş mədəniyyətədək müxtəlif sahələrdə yüksəliş epoxasıdır. Əlbəttə ki, dil mənəviyyatın məhz bu yüksəlişini özündə əks etdirməyə bilməzdi. Həm də unudulmamalıdır ki, Azərbaycan dili inkişaf üçün kifayət qədər əlverişsiz şəraitdə olduğu bir vaxtda bu problemə ilk dəfə Heydər Əliyev müraciət etmişdir. Hamıya məlumdur ki, dil ona qarşı zorakılığa dözmür, bu və ya digər dilin işlədilmə sahəsini məhdudlaşdırmaq istəyindən irəli gələn hər hansı siyasi kataklizmlərə son dərəcə həssaslıqla reaksiya verir.

Azərbaycan xalqı bir çox geosiyasi səbəblərə görə mürəkkəb tarixi proseslərin qovuşuğunda qalaraq müxtəlif etnosların, mədəniyyətlərin və konfessiyaların qarşılıqlı təsiri və qarşılıqlı zənginləşməsi şəraitində özünün bütün çoxəsrlik tarixi ərzində dilə son dərəcə qayğıkeş münasibət əxz etmişdir. Bir çox hallarda o, nisbi bilinqvizm - ikidillilik şəraitində mövcud olmuşdur, buna baxmayaraq, xalq ən ağır və qarmaqarışıq zamanlarda Azərbaycan dilinin yaşaya və inkişaf edə bilməsinə həmişə xüsusi məsuliyyət hissi ilə yanaşmışdır. Heydər Əliyev əsrlərin və minilliklərin qovuşuğunda baş vermiş bu tarixi proseslərə qiymət verərək, ilk növbədə, tarixi kataklizmlər dövrlərində Azərbaycan dilinin yox olmamasına, əksinə, inkişaf etməsinə və zənginləşməsinə görə əvvəlki nəsillərə hamımızın bəslədiyi minnətdarlıq və iftixar hissindən danışırdı. Bu zaman o, həm adlarını bilmədiyimiz və dilə müqəddəs varlıq kimi, milli sərvət kimi yanaşmış minlərlə azərbaycanlını, həm də bu dili öz yaradıcılığı ilə zənginləşdirən ədəbiyyat və mədəniyyət xadimlərini nəzərdə tuturdu.

Sovet ideologiyası çərçivəsində bu ideologiyanın qızğın məddahları milli dillərə yeni tarixi birliyin - vahid rusdilli sovet xalqının formalaşması və təşəkkülü yolunda ancaq əngəl kimi baxırdılar. Biz Heydər Əliyevin Azərbaycan dilinin inkişafı və zənginləşməsi ilə bağlı fədakarcasına fəaliyyətinə məhz belə mürəkkəb tarixi şərait prizmasından yanaşmalıyıq.

Mübaliğəsiz demək olar ki, XX əsrin son qərinəsi ərzində Azərbaycan dilinin hərtərəfli inkişafı və zənginləşməsi, dövlət dilinə, rəsmi sənədlər dilinə çevrilməsi, gündəlik həyatda, praktikada işlənilməsi, beynəlxalq münasibətlər, dünya diplomatiyası səviyyəsinə çıxması və özünə hörmət qazanması - bütün bunlar Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yorulmaz və çoxşaxəli fəaliyyətinin, daimi diqqət və qayğısının nəticəsidir. O, Azərbaycan dilinin inkişafı üçün, bu dilin insanların mənəvi-əxlaqi və siyasi dünyagörüşünün əsası olması, cəmiyyətimizdə layiqli yer tutması üçün nə etmək lazım gəldiyini gözəl bilir və duyurdu.

Etiraf etməliyik ki, dilimizin bugünkü səviyyəsi Heydər Əliyevin apardığı son dərəcə dəqiq, uzaqgörən dil siyasətinin - Azərbaycan xalqı və Azərbaycan dövləti üçün taleyüklü siyasətin nəticəsidir.

1960-cı illərin axırlarından respublikaya rəhbərliyə başlayan Heydər Əliyev özünün zəngin siyasi təcrübəsi, yüksək intellektual qabiliyyəti, milli mədəniyyətimizə, mənəvi meyarlarımıza dərindən bələdliyi sayəsində uzunmüddətli siyasət - milli dilin inkişafına və tətbiqinə təkan vermiş siyasət hazırlamış və bütün əngəllərə baxmayaraq, onu dönmədən həyata keçirmişdir.

Ötən əsrin 20-ci illərindən başlayaraq, Azərbaycan Xalq Cümhuriyyətinin qısamüddətli mövcudluğu dövrü də daxil olmaqla, milli dövlətçiliyimizin tarixində ana dili ilə bağlı məsələlərə Heydər Əliyev qədər dərindən maraq göstərən, bu məsələləri daim diqqət mərkəzində saxlayan ikinci bir dövlət başçısı olmayıbdır. Onun görkəmli dövlət xadimi Nəriman Nərimanovun fəaliyyətinə verdiyi qiymət də məhz Azərbaycan dilinə münasibət prizmasından formalaşmışdır. Sovet ideologiyası üçün son dərəcə sirli şəxsiyyət olmuş Nəriman Nərimanova millətçi damğası vurulduğu dövrdə Heydər Əliyev onun fəaliyyətinə müraciət etmiş və Azərbaycan dilindən respublikada daha geniş istifadə edilməsi üçün Nərimanovun atdığı addımların mahiyyətini başa düşməyə çalışmışdır. Lakin tarixi reallıqlar elə idi ki, Nərimanov dil siyasəti sahəsində az-çox nəzərəçarpacaq uğurlara nail ola bilməmişdir. Sonralar Heydər Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Nərimanovun qarşılaşdığı çətinliklər o dərəcədə qlobal idi ki, onları aradan qaldırmaq mümkün deyildi. O, Nərimanovun uğursuzluğunun səbəblərini sadalayaraq göstərirdi ki, əvvəla, xalqın milli özünüdərki kifayət qədər yüksək deyildi, ikincisi isə, Moskva rus dilini bütün sovet respublikalarında dövlət dilinə çevirmək xətti yeridərək SSRİ-nin tərkibinə daxil olan milli qurumlarla zorakılıq və məcburiyyət dilində danışırdı.

Əslində, bu, tariximizin sovet dövründə İttifaq tərkibindəki respublika kimi, Azərbaycanın malik olduğu məhdud səlahiyyətlər çərçivəsində Azərbaycan dilinə yeni status vermək üçün göstərilmiş ilk cəhd idi. Bir tərəfdən, qeyd etmək lazımdır ki, Bakıda türkoloji qurultayın keçirilməsi, Azərbaycanın türkdilli ölkələr arasında birinci olaraq latın qrafikasına tarixi keçidi dil siyasəti sahəsində çox böyük irəliləyiş olmuşdur. Lakin bundan dərhal sonra həmin xətdən fəlakətli surətdə uzaqlaşma baş verdi və sonrakı onilliklərdə Azərbaycan dili, xüsusən əlifbamız bir sıra dağıdıcı eksperimentlər obyektinə çevrildi. Azərbaycan dilini ünsiyyət və dövlət idarəçiliyi sahəsindən sıxışdırıb çıxarmaq üçün sovet dövlətinin yüksək dairələrində və respublika daxilində xeyli əməli tədbirlər görülürdü.

1950-ci illərin ortalarında İosif Stalinin vəfatı və Nikita Xruşşovun elan etdiyi "siyasi mülayimləşmə" ilə əlaqədar Azərbaycan dilinin hüquqlarını özünə qaytarmaq üçün bir sıra cəhdlər göstərildi. Ancaq tələskənlik və problemə səthi yanaşma üzündən bu cəhdlər nəinki siyasi nəticələr verdi, əksinə, dilimizin statusunun həlli məsələsində əlavə əngəllər yaratdı.

Beləliklə, Azərbaycan cəmiyyətində onillərlə yığılıb qalmış iqtisadi, siyasi və sosial problemlərlə yanaşı, Azərbaycan dilinin dövlət dili statusu alması məsələsi də yalnız ötən əsrin 60-cı illərinin sonlarında Heydər Əliyevin ölkəyə rəhbərliyə gəlməsindən sonra tam kəskinliyi və aktuallığı ilə gündəliyə çıxarıldı.

1906-cı ilin dekabrında "Molla Nəsrəddin" jurnalında ciddi düşüncələr doğuran son dərəcə ibrətamiz karikatura dərc edilmişdi: azərbaycanlını yerə yıxaraq və "Ay qardaşlar, mən ki dilsiz xalq olmamışam, bu dilləri ağzıma soxursunuz", - deyə nalə çəkməsinə məhəl qoymayaraq, onun ağzına bir tərəfdən ərəb, digər tərəfdən fars, üçüncü tərəfdən isə rus dilini təpirlər.

Nə qədər kədərli də olsa, real vəziyyət belə idi. 1994-cü ildə böyük Azərbaycan yazıçısı Cəlil Məmmədquluzadənin yubileyi qeyd olunarkən Heydər Əliyev onun "Anamın kitabı" əsərinə müraciət etdi. O, acı təəssüf hissi ilə deyirdi ki, Cəlil Məmmədquluzadənin XX əsrin əvvəlində qaldırdığı problemlər bizi bütün yüzillik ərzində izləmiş və əsrin sonunda da öz aktuallığını itirməmişdir. Ananın üç oğlu var: onların biri Rusiyada, digəri Türkiyədə, üçüncüsü isə İranda təhsil almışdır. Onların hər biri anaya yad olan mədəni-dil mühitinin yetirməsidir. Lakin onlar təkcə anaya deyil, bir-birinə də yaddırlar. Üç doğma qardaş öz aralarında, sözün əsl mənasında, ümumi dil tapa bilmir, odur ki, ana dilinin və doğma dilin xəzinəsi onlar üçün bağlı və gərəksiz olmuşdur.

Heydər Əliyev xüsusi olaraq vurğulayırdı ki, bu ananın hisslərini hər bir azərbaycanlı yaxşı başa düşür. Öz oğullarının doğma dilə belə münasibətini görən ananın keçirdiyi ürək ağrıları Heydər Əliyevə də yaxşı tanış idi. Heydər Əliyev özünün bu çıxışını son dərəcə nikbin ruhda bitirdi, lakin bu nikbinliyə zəmin yaratmaq üçün o, uzun illər ərzində titanik fəaliyyət göstərməli olmuşdu. Kədərli də olsa, bu, real gerçəklik idi.

Bəzi istisnalar olmaqla, ancaq rus dilinin əsas ünsiyyət vasitəsi olduğu dövrün irəli sürdüyü təshihlərlə birlikdə bu məyusedici mənzərə XX yüzilliyin 70-ci illərinədək davam etdi. Yaşlı nəslin yaxşı yadındadır ki, keçmiş sovet respublikalarında olduğu kimi, Azərbaycanda da onillər ərzində bilinqvizm - ikidillilik məcburi surətdə tətbiq edilirdi. Dövlət idarələrində isə rus dilindən geniş istifadə edilməsi hər vasitə ilə təşviq olunurdu ki, bu da milli dilin dövlət dili kimi inkişafı yolunda ciddi əngəllər törədirdi. "Belə olmuşdur, ancaq həmişə belə olmamalıdır". Keçmiş sovet respublikalarının rəhbərləri arasında birinci olaraq Heydər Əliyev milli məsələdə bu cür qətiyyətli mövqe tutdu. O, Mərkəzdən asılı olan, qapalı sistemdə yaşayan və üstəlik, müsəlman-türk

respublikası olan Azərbaycanda milli dil siyasətini çox ölçülüb-biçilmiş və hərtərəfli düşünülmüş surətdə həyata keçirirdi. Heydər Əliyev heç vaxt ötəri imic yaradan tələm-tələsik addımlar atmırdı. Bu keyfiyyət hər bir vətəndaşın, ilk növbədə, yaradıcı ziyalıların nümayəndələrinin həddindən artıq həssaslıq göstərdiyi milli dilə onun münasibətində özünü xüsusilə aydın şəkildə təcəssüm etdirirdi. O, hər bir kəsin diqqətini bu problemə cəlb etməklə onu gündəliyə çıxarır və təkcə rəhbərlik səviyyəsində deyil, həm də zəngin tarixə və mədəniyyətə malik olan bütün xalq səviyyəsində həll edirdi.

Ötən əsrin 70-ci illəri dövlətimizin tarixinə iqtisadiyyatın, sənayenin, tikintinin, rabitənin, nəqliyyatın, sosial və mənəvi həyatın, bütün mədəniyyətin sürətli inkişaf illəri kimi daxil olmuşdur. Bu dövr həm də onunla səciyyəvidir ki, ölkədə qanuniləşdirilmiş ikidillilik şəraitində Azərbaycan dili tədricən rus dilinin kölgəsindən çıxmağa başlayaraq ictimai şüurda və milli dövlətçilik quruculuğunda öz yerini tuturdu. Bu proses təkamül yolu ilə gedirdi və onu dayandırmaq, yaxud geri döndərmək mümkün deyildi. O vaxtadək yalnız nominal olaraq Azərbaycan Respublikasının dövlət dili hesab edilən Azərbaycan dili artıq kağız üzərində deyil, real həyatda özünə layiq yer tutmağa başlamışdı.

Şübhəsiz ki, bu, ilk növbədə, milli mənlik şüurunun sürətlə inkişafına kömək edir, milli özünüdərk prosesini tezləşdirirdi.

Ana dilinə münasibətin son dərəcə siyasiləşdirildiyi və bir çox hallarda əsassız siyasi ittihamlar üçün zəmin olduğu illərdə Heydər Əliyev Azərbaycan dilinin məişət dili və ədəbi dil səviyyəsindən dövlət dili səviyyəsinə qaldırılmasına yönəldilmiş fəaliyyəti ilə kifayətlənmir, həm də özünün şəxsi nümunəsi ilə dilimizin nüfuzunu artırır, onun elmi şəkildə öyrənilməsi və geniş yayılması üçün stimullar yaradırdı. Məhz Heydər Əliyevin rəhbərliyi və iştirakı ilə 1970-ci illərin əvvəllərindən etibarən Azərbaycan dilindən dövlət əhəmiyyətli tədbirlərdə istifadə edilməyə başlandı. Heydər Əliyev yaradıcılıq təşkilatlarının, xüsusən Yazıçılar İttifaqının qurultaylarında, genişmiqyaslı yubiley tədbirlərində çıxış edərək Azərbaycan dilində səlis və gözəl danışmaq məharəti nümayiş etdirir, bununla da ziyalılarımızın diqqətini ana dilinin inkişafına yönəldirdi.

Azərbaycan Milli Elmlər Akademiyasının tərkibində ayrıca Dilçilik İnstitutu olan tək-tük sovet respublikasından biri idi. Heydər Əliyev dilçilik elminə, Azərbaycan dilinin problemlərinin öyrənilməsinə, onun mükəmməl qrammatikasının yaradılmasına, milli terminologiyanın inkişafına xüsusi qayğı göstərirdi. Onun yaxından iştirakı və dəstəyi sayəsində Azərbaycan dilçilərinin bir sıra əsərləri, o cümlədən dördcildlik "Müasir Azərbaycan dili" kitabı respublika Dövlət mükafatına layiq görüldü. Türk dillərinin müqayisəli şəkildə öyrənilməsi üçün məhz Heydər Əliyevin fəal dəstəyi ilə 1970-ci ildə Bakıda mötəbər "Sovetskaya tyurkologiya" Ümumittifaq jurnalı təsis olundu.

Jurnalı Azərbaycan Elmlər Akademiyası SSRİ Elmlər Akademiyası ilə birlikdə nəşr edirdi. Sovet respublikaları arasında ilk dəfə olaraq Azərbaycan Dövlət Universitetində türkologiya kafedrası yaradıldı. Heydər Əliyevin təşəbbüsü və səyləri sayəsində Azərbaycan Yazıçılar İttifaqının qurultayında (1981-ci il) Cənubi Azərbaycan ədəbiyyatı haqqında xüsusi məruzə dinlənildi, Yazıçılar İttifaqının Cənubi Azərbaycan ədəbiyyatı üzrə katibi ştatı yaradıldı, Elmlər Akademiyasında müvafiq şöbə açıldı, ədəbiyyat və mədəniyyətimizin bu ayrılmaz hissəsinin tədqiqi, öyrənilməsi və sistemli şəkildə nəşri sahəsində iş başlandı.

Əlbəttə, respublikalarda milli özünüdərk və inkişaf prosesinin sovet rəhbərliyinin müqaviməti ilə qarşılaşdığı, milli mənlik şüurunun yüksəlişinə kömək edən yeni meyillərin və təşəbbüslərin qarşısının sərt şəkildə alındığı bir şəraitdə bütün bu sadaladıqlarımızın həyata keçirilməsi Heydər Əliyevdən böyük cəsarət, qətiyyət, prinsipiallıq və yenilməzlik tələb edirdi. Lakin Azərbaycanda Heydər Əliyevin ölkəyə rəhbərliyə gəlməsindən sonra başlanmış milli-mədəni dirçəliş heç də həmişə müsbət qiymətləndirilmirdi və müəyyən dairələr tərəfindən, xüsusən İttifaq rəhbərliyini Azərbaycanın əleyhinə qaldırmaq, türk azərbaycanlılara qarşı etimadsızlıq və şəkk yaratmaq üçün dəridən-qabıqdan çıxan ermənilər tərəfindən əsassız siyasi ittihamlarla, yalan və böhtan kampaniyaları ilə müşayiət olunurdu.

Ana dili məsələsində məhz Heydər Əliyevin tutduğu prinsipial, qətiyyətli mövqe sayəsində və qızğın fəaliyyəti nəticəsində Azərbaycan Respublikasının 1977-ci ildə qəbul edilmiş Konstitusiyasına Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili olduğu barədə məşhur 73-cü maddənin daxil edilməsinə nail oldu. Həmin dövrdə Azərbaycan milli dilə Konstitusiya qanunu səviyyəsində dövlət statusu vermiş üç keçmiş sovet respublikasından biri və yeganə türk-müsəlman respublikası idi.

Şübhəsiz ki, bu uzaqgörən tarixi addım Heydər Əliyevin ana dilinə dövləti münasibətinin və siyasi əzmkarlığının parlaq təzahürü idi. Heydər Əliyevin özü o vaxtı belə xatırlayırdı: "Bu maddə Moskvada çox böyük etiraza səbəb oldu. Belə izah edirdilər ki, başqa respublikalarda bu yoxdur, buna ehtiyac yoxdur... Ancaq o vaxt mən Sovetlər İttifaqının rəhbərliyi ilə, Kommunist Partiyasının rəhbərliyi ilə çox gərgin danışıqlar apardım. Sübut etməyə çalışırdım ki, biz dövlət dilinin Azərbaycan dili olduğunu öz Konstitusiyamıza yazmalıyıq və yazacağıq".

İndi inamla təsdiq etmək olar ki, Heydər Əliyevin 1970-80-ci illərdə milli dil sahəsində apardığı fəal siyasət Azərbaycanda milli dirçəliş, milli mənlik şüurunun inkişafı prosesini sürətləndirdi və əslində, Azərbaycan xalqını milli müstəqillik və milli dövlətçilik əldə etməyə hazırladı.

Müstəqil Azərbaycan dövlətinə rəhbərliyinin ilk günlərindən Prezident Heydər Əliyevin, yeni tarixi şəraitin ruhuna və tələblərinə uyğun olaraq, Azərbaycan dilinə göstərdiyi qayğı və diqqət həm siyasi, həm də əməli baxımdan fərqlənir. Əvvəla, Azərbaycan dilinin şərtsiz və şəriksiz dövlət dili olması faktı göz qabağındadır. Müstəqillik illəri ölkə Prezidentinin öz ana dilini necə mükəmməl bildiyini və istər çıxışlarında, istərsə də əhali ilə görüşlərində bu dilin imkanlarından necə məharətlə istifadə etdiyini göstərdi. Digər tərəfdən, Prezident Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində Azərbaycan dili dövlətlərarası münasibətlər dili, siyasi dialoqlar və diplomatik danışıqlar dili oldu, onlarca ölkədə səslənərək hər yerdə dövlət başçısının öz doğma dilinə məhəbbətini əks etdirdi. Nəhayət, müstəqil dövlət quruculuğunun bütün çətinliklərinə və mürəkkəbliyinə baxmayaraq, Heydər Əliyev ana dilinə diqqət və qayğını bir an belə unutmurdu.

1992-ci ildə Azərbaycanda bir çox Konstitusiya və hüquq normaları pozularaq Azərbaycan dilinin adının dəyişdirilməsi haqqında qərar qəbul edildi. Bununla əlaqədar səsini çıxarmağa və qəti etirazını bildirməyə cürət etmiş Azərbaycan alimlərinin kiçik bir qrupu, sadəcə, həbs olundu və xuliqanlıq edən ünsürlər kimi polis şöbəsinə aparıldı. Əslində, Azərbaycan dilinə qarşı mənəvi vandalizm aktı törədildi. Məktəb dərsliklərinin adları tələm-tələsik dəyişdirilməyə başlandı ki, bu da böyüməkdə olan nəslin şüurunda çox böyük dolaşıqlıq və çaşqınlıq yaradırdı. O vaxt Heydər Əliyev Naxçıvanda öz yaxın silahdaşlarının məhdud dairəsində həmin qərarın qeyri-elmiliyini və siyasi nadanlığını məyusluqla və təəssüflə izah edirdi. Lakin o vaxt həmin düşünülməmiş qərarı qəbul edən şəxslərə hər hansı bir təsir göstərmək imkanı yox idi.

On-on beş adam məsələni bütün Azərbaycan xalqı adından həll etmək ixtiyarını öz əllərinə keçirmişdi. Ancaq xalq öz seçimi ilə Heydər Əliyevə Azərbaycan dövlətində ən yüksək hüquqlar verdikdə də o, səhvlərin düzəldilməsi üçün birbaşa inzibatçılıq yolu ilə getmədi. Elmi-tədqiqat müəssisələrində, ali məktəblərdə, Elmlər Akademiyasında çoxlu müzakirələr aparıldı.

Bu müzakirələrin gedişində sırf elmi dəlillər öncül əhəmiyyət kəsb edirdi. Həmin tədbirlərdə az-çox maraq doğuran hər bir fakt barəsində dövlət başçısının məlumatının olması, alimlərin hər bir fikrinə - hətta onun öz mövqeyinə uyğun gəlməsə də - diqqət və qayğı ilə yanaşması adamı heyran edir. O, bir neçə müzakirədə şəxsən iştirak etmişdi. Lakin son sözü deməyi xalqın ixtiyarına buraxdı. Dilin adı yeni Konstitusiya layihəsində öz əksini tapdı və referenduma çıxarıldı. Beləliklə, dünyada geniş yayılmış "Azərbaycan dili" anlayışının qanuni haqqı özünə qaytarıldı. Dövlətimizin başçısı haqlı olaraq vurğulamışdı ki, bu qərarın qəbul edilməsi "həm keçmişimizə hörmət, həm də gələcək nəsillər üçün böyük bir sərvətdir. Mən hesab edirəm ki, biz çox düzgün və əsaslı qərar qəbul etmişik".

Qeyd etmək lazımdır ki, Azərbaycan cəmiyyətində son dərəcə geniş və müsbət əks-səda doğurmuş bu qərarı Prezident avtoritar, inzibati-bürokratik yolla deyil, bilavasitə elmi və inandırıcı dəlil-sübutlarla reallaşdırmışdır. Konstitusiya komissiyasının iclaslarında, Azərbaycan Elmlər Akademiyasında və Prezident sarayında keçirilən müşavirələrdə Heydər Əliyevin Azərbaycan dilinin mənşəyi və qaynaqları, tarixi inkişaf yolları, türk dilləri ailəsində yeri, sovet hakimiyyəti illərində dilimizə qarşı törədilmiş zorakılıqlar və dilimizin müasir inkişaf yolları haqqında söylədiyi və yüksək peşəkarlığı, dərin elmi məzmunu ilə seçilən mülahizələri onun dövlət dilinə məhəbbətinin və qayğısının daha bir təzahürü idi.

Beləliklə, Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasında millətin özünütəsdiqi üçün çox vacib olan siyasət, onun hələ ötən əsrin 70-ci illərində başladığı siyasət uğurla həyata keçirildi - dilimizə tam dövlət dili statusu verilməsi və dövlət idarəçiliyinin bütün sahələrində fəal istifadə edilməsinin təmin olunması vəzifəsi gerçəkləşdirildi. Azərbaycan dili cəmiyyətdə öz həqiqi yerini tutdu. Bu isə yalnız və yalnız çoxillik ardıcıl, ən başlıcası isə, ölçülüb-biçilmiş və dərindən düşünülmüş dövlət tədbirlərinin görülməsi nəticəsində mümkün olmuşdu.

Biz son illərdə dünyada Heydər Əliyev şəxsiyyətinə böyük marağın olduğunun şahidiyik. Azərbaycanın sabiq Prezidentinin şəxsiyyəti, həyat yolu, dövləti və siyasi fəaliyyəti haqqında müxtəlif ölkələrdə ayrı-ayrı dillərdə kitablar nəşr edilmişdir və edilir, məqalələr dərc olunur. Bunların bir çoxunda əsas diqqət onun tam siyasi portretinin yaradılmasına verilir. Heydər Əliyev dərin zəkalı, ensiklopedik biliyə, son dərəcə geniş dünyagörüşünə malik şəxsiyyət kimi səciyyələndirilir. Tamamilə haqlı olaraq vurğulanır ki, onun genişmiqyaslı fəaliyyətini təkcə siyasi mübarizə ilə məhdudlaşdırmaq olmaz. Onun başlıca keyfiyyəti quruculuq fəaliyyətidir. Heydər Əliyevin heyranedici uzaqgörənliyi, titanik fəaliyyəti sayəsində müasir müstəqil Azərbaycan dövləti yaradılmışdır. O, ölkənin dövlət müstəqilliyinin sarsılmazlığını və dönməzliyini, Azərbaycanın siyasi, iqtisadi və mədəni inkişafını təmin etmişdir. Heydər Əliyev Azərbaycanın bu gün də irəlilədiyi yolu açmışdır.

Zəmanəmizin bu dahi ictimai-siyasi xadimi və mütəfəkkirinin zəngin irsi, şübhəsiz, hələ gələcək tədqiqatçılarını gözləyir.

Bu şəxsiyyəti son 30 ildən çox bir zaman ərzində Azərbaycanda və ümumiyyətlə, bütün postsovet məkanında baş vermiş hadisələrdən kənarda təsəvvür etmək mümkün deyildir. Onun Azərbaycanın inkişafındakı müstəsna rolu, dəyərli fikir və mühakimələri gələcəkdə "Heydər Əliyev və Azərbaycan elm və təhsili", "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı və mədəniyyəti", "Heydər Əliyev və Azərbaycanda ictimai-siyasi fikrin inkişaf mərhələləri", "Heydər Əliyev və azərbaycanlıların milli dirçəlişi" və digər mövzularda dərin tədqiqat əsərlərinin yaranacağına şübhə doğurmur.

Bu baxımdan, zənnimizcə, "Heydər Əliyev və Azərbaycan dili məsələləri" mövzusu daha geniş və çoxsəpkilidir.

Mənə uzun illər ərzində Heydər Əliyev ilə birlikdə, onun rəhbərliyi altında işləmək kimi çox böyük şərəf nəsib olmuşdur. Şəxsi müşahidələrimə və gəldiyim nəticələrə, şahidi olduğum faktlara və hadisələrə əsaslanaraq deyə bilərəm ki, Azərbaycan xalqının bu dahi oğlu ilə bağlı tədqiqatlar aparmaq dərin bilik, yaradıcılıq axtarışları və əsl vətənpərvərlik tələb edir.

Heydər Əliyevin natiqlik istedadı, Azərbaycan dilinin imkanlarından özünə xas olan məharətlə istifadə etməsi, onun şifahi nitqinin kamilliyi və üslub xüsusiyyətləri hətta mütəxəssisləri də heyran edir. Dövlət quruculuğu, ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatına rəhbərlik sahəsində gərgin və misilsiz fəaliyyəti, beynəlxalq həyatda aktiv iştirakı ilə ümumxalq hörməti və məhəbbəti qazanmış Prezident Heydər Əliyev həm də əvvəlcədən hazırlanmış mətn olmadan ən mürəkkəb, çətin mövzular barədə parlaq çıxışları və nitqləri ilə məşhurdur. Onun natiqlik məharəti, dərin zəkası və möhkəm məntiqi şəkkakların müqavimətini qırır, onları bu və ya digər qərarın düzgünlüyünə inandırırdı.

Bəzi siyasi qruplaşmalar və onların liderləri silah gücünə, xarici qüvvələrin dəstəyi ilə hakimiyyətə gələndən sonra hətta həmin qüvvələrin köməyi ilə də hakimiyyətdə qala bilmədikləri halda, Heydər Əliyev öz sözü ilə milyonları səfərbər edir, dəmir məntiqi ilə düşmənləri susmağa vadar edir, natiqlik istedadı, özünün haqlı olduğuna sarsılmaz inamı ilə xalqı Azərbaycanın tərəqqisi naminə sıx birləşdirirdi. Bu baxımdan ikicə misal çəkəcəyəm.

1993-cü ilin iyunu. Respublika dağılırdı, hakimiyyət tam iflic vəziyyətində idi. Siyasi fəlakət və yalnız formal surətdə hakimiyyətdə olan insanların tam fərsizliyi göz qabağında idi. Belə bir şəraitdə Heydər Əliyev parlamentin sədri seçildi. Onun siyasi düşmənləri və bədxahları cidd-cəhdlə belə bir şayiə yayırdılar ki, onların vəziyyəti sabitləşdirmək üçün əl atmağa məcbur olduqları bu son tədbir də, görünür, uğurla nəticələnməyəcək, çünki sərəncamında bürokratik maşını, idarəetmə mexanizmləri olmayan Heydər Əliyev ölkəni böhrandan çıxara bilməyəcəkdir. Onlar faktları təsbit etməkdə, bəlkə də, haqlı idilər. Heydər Əliyevin şəxsiyyətinin və onun imkanlarının qiymətləndirilməsinə gəldikdə isə, büsbütün yanılırdılar.

Heydər Əliyev qaynar fəaliyyəti ilə yanaşı, təmiz Azərbaycan dilində söylədiyi dərin məzmunlu nitqləri ilə 1993-cü ilin ortalarında, sanki həlledilməz məsələni həll etdi. Bu, ən yüksək parlamentarizm dərsləri, nadir natiqlik məharəti, bənzərsiz siyasi müdriklik dərsləri idi. Azərbaycan xalqı bir neçə ay ərzində Heydər Əliyevin və onun opponentlərinin parlament iclaslarından televiziya ilə yayımlanan çıxışlarını izlədi. Heydər Əliyevin çıxışları elə bir təsir gücünə malik idi ki, sözə bu gücü onun düzgünlüyündən savayı heç nə verə bilməz.

İkinci misal - 1994-cü ilin oktyabrında onun televiziya ilə xalqa müraciəti. Dövlət çevrilişi cəhdi haqqında xəbəri eşidən on minlərlə insan həmin müraciətdən sonra Prezident sarayının qarşısına toplaşdı, Heydər Əliyevi fəal surətdə dəstəklədi.

Müasir dövrdə siyasi mübarizədə, dövlətin idarə olunmasında dil amilindən Heydər Əliyev qədər məharətlə istifadə edə bilən ikinci bir dövlət başçısının, siyasi xadimin adını çəkmək çətindir. Bu, ilk növbədə onun ana dilinə, öz xalqının arzu və istəklərinə dərindən bələd olması ilə bağlıdır. O, çıxışlarının birində demişdir: "Mən hər bir dilə öz hörmət və ehtiramımı bildirirəm. Amma hesab edirəm ki, öz dilimizlə, Azərbaycan dili ilə hər birimiz fəxr edə bilərik. Çünki bu, zəngin dildir, artıq dünyada tanınmış dildir. Xalqımızın adı da tanınıb, respublikamızın adı da tanınıb, dilimizin adı da tanınıb. Bu, reallıqdır". Tam əminliklə deyə bilərik ki, o özünün çoxillik yorulmaz, titanik fəaliyyəti ilə təkcə Azərbaycan dövlətinin deyil, həm də Azərbaycan xalqının nüfuzunu yüksəltmişdir.

Heydər Əliyev öz şəxsi nümunəsi ilə Azərbaycan dilini sevməyi, qoruyub saxlamağı öyrədirdi. Neçə illər Azərbaycandan kənarda, rusdilli mühitdə yaşaması və işləməsinə baxmayaraq, o öz xalqına, dilinə diqqət və qayğısını bir an belə unutmamışdır. Yuxarıda dediyimiz kimi, dil öz varlığına görə xalqa borcludur, lakin ədəbiyyat və mədəniyyətin inkişafı xeyli dərəcədə dövlət başçısı tərəfindən formalaşdırılan münasibətlər sistemindən və mühitdən asılıdır. Bu mənada, Heydər Əliyev hətta ən çətin vəziyyətlərdə də dilin varlığı və

inkişafı üçün ən əlverişli şərait yaradılmasına çalışırdı. Müstəqil dövlət şəraitində isə bu fəaliyyət nəinki onun şəxsi nəzarətində idi, həm də hüquqi xarakter və daha geniş miqyas almışdır.

İndi biz Azərbaycan vətəndaşlarının mənəvi birliyinin əsası kimi azərbaycançılıq ideologiyasını, cəmiyyətin həyatında, ölkə əhalisinin vətənpərvərlik və Azərbaycana məhəbbət ruhunda tərbiyəsində onun birləşdirici rolunu təbliğ edir, haqqında elmi məqalələr yazırıq. Lakin unutmamalıyıq ki, bu ideologiyanın ideya ilhamçısı və yaradıcısı Heydər Əliyev olmuşdur. 1992-1993-cü illərdə ölkəyə rəhbərlik edənlərdən fərqli olaraq, Heydər Əliyev obyektiv surətdə cəmiyyətin sosial problemlərə və münaqişələrə qiymət verən, cəmiyyətin və dövlətin proqram məqsədlərini əhatə edən ideyalar sisteminə ehtiyacı olduğuna bir an belə şübhə etmirdi. Nə qədər paradoksal olsa da, faktdır ki, SSRİ adlandırılan sovet dövlətinin liderlərindən biri olan Heydər Əliyev daim öz vətəninin gələcək taleyini düşünmüş, Sovet İttifaqı rəhbərliyinin azərbaycanlılara heç də birmənalı münasibət bəsləmədiyi şəraitdə öz xalqının həyatda qalmasının yollarını və formalarını axtarmışdır. Cənubi Qafqazın tarixinə gözəl bələd olan Heydər Əliyev Azərbaycan xalqının keçmişdə necə ağır sınaqlara məruz qaldığını, xalqının tarixi torpaqlarından çıxarılması üçün nə kimi tədbirlərə və cəhdlərə əl atıldığını yaxşı bilirdi. Heydər Əliyev ötən əsrin 70-ci illərindən etibarən həyatını bütünlüklə öz vətəninin tam sahibi kimi Azərbaycan xalqının dirçəlişinə həsr etmişdir. Ona görə də əminliklə demək olar ki, bu gün biz bünövrəsi hələ ötən əsrin ikinci yarısında qoyulmuş işlərin bəhrəsini görürük.

Heydər Əliyev azərbaycançılığı bir ideologiya olaraq irəli sürməklə, ölkənin dağılması, ərazisinin etnik əlamətlərə görə parçalanması təhlükəsinin qarşısını almaq vəzifəsini həll etdi. Bu, onun çox böyük vətəndaş hünəri idi və şübhəsiz, aktual milli vəzifələrin həlli üçün bütün dünya azərbaycanlılarının öz vətənləri - Azərbaycan ətrafında birləşməsinə töhfəsini verəcəkdir.

Türk yazılı abidələrinin birində millətin, dövlətin mövcudluğunu təmin edən üç əsas şərtdən bəhs olunur: dilin qorunub saxlanması, xalqın qorunub saxlanması və ənənələrin qorunub saxlanması. Heydər Əliyev bu şərtlərə dönmədən sadiq qalmışdır. Onun müdrik siyasəti sayəsində Azərbaycan dili dünyanın siyasi xəritəsində öz layiqli yerini tutan dövlətimizin rəsmi dili olmuş, ölkəmizin müstəqilliyi dönməz xarakter almışdır, xalqımız isə mənəvi irsini göz bəbəyi kimi qoruyur və inkişaf etdirir. Mübaliğəsiz demək olar ki, Heydər Əliyevin zəngin irsi XXI əsrin müstəqil dövləti kimi Azərbaycanın gələcək inkişaf və tərəqqi yolunu müəyyən edən etibarlı səmt göstəricisidir və daim belə olacaqdır.

**"Azərbaycan"**.- 2007.-10 may.- №100.- S.5-6

# ƏSL VƏTƏNDAŞ, BÖYÜK ŞƏXSİYYƏT VƏ QÜDRƏTLİ LİDER HAQQINDA BƏZİ DÜŞÜNCƏLƏR

**REDAKSİYADAN:** Xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana həsr edilən mənalı ömür yolu və misilsiz fəaliyyəti haqqında söz demək, bu barədə fikir yürütmək böyük məsuliyyət tələb edir. Ulu öndərin şəxsiyyət ucalığının, liderlik bacarığının obyektiv təhlili və bu fenomenin yürütdüyü şərəfli missiyanın mükəmməl elmi, fəlsəfi araşdırılması sahəsində son illərdə mühüm işlər görülmüşdür. Bununla belə ölkə ictimaiyyəti bir fikirdə həmrəydir ki, 30 ildən artıq müddətdə ümummilli liderimizin siyasi komandasının üzvü olmuş və bu gün də ulu öndərin şah əsəri sayılan müstəqil Azərbaycanın dövlət quruculuğu prosesində fəal iştirak edən akademik Ramiz Mehdiyevin əsərləri Heydər Əliyev irsinin tədqiqatına ən böyük töhfələrdən olmaqla yanaşı, bu sahədə ideoloji istiqamətverici funksiyasını da yerinə yetirir.

2003-cü ilin iyun ayında Ramiz Mehdiyevin "Azərbaycan" qəzetində dərc edilən "Əsl vətəndaş, böyük şəxsiyyət və qüdrətli lider haqqında bəzi düşüncələr" əsəri Heydər Əliyev dühası haqqında müasir zamanda da aktuallığını saxlayan ən fundamental və konseptual əsərdir. Odur ki, ulu öndərin 85 illik yubileyinə həsr edilən "Azərbaycanın özü qədər əbədi" silsiləsinə də məhz görkəmli dövlət xadiminin bu əsəri ilə başlayırıq.

**Ramiz MEHDİYEV,**
***Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının rəhbəri,***
***həqiqi dövlət müşaviri, akademik***

Bu günlərdə mən "Azərbaycan-İRS" jurnalının növbəti nömrəsi ilə tanış oldum. O, bütünlüklə Azərbaycan prezidenti Heydər Əliyevə həsr edilmiş xüsusi buraxılışdır. Ona heyran qaldığımı gizlətməyəcəyəm: jurnal həqiqətən də çox gözəl tərtib olunub, Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif mərhələlərini əks etdirən nadir fotoşəkillər verilmişdir. Buradakı məqalələr də belə yüksək səviyyədədir. Zəngin faktiki material və gözəl ifadə tərzi bir-birini son dərəcə ahəngdar şəkildə tamamlayır. "Həyat dərsi" məqaləsi diqqətimi xüsusilə cəlb etdi. Jurnalın bu nömrəsi də elə həmin məqalə ilə açılır.

Həcmcə çox da böyük olmayan bu məqalədə bütün varlığını doğma xalqına xidmətə həsr edən müdrik siyasətçi və dövlət rəhbəri Heydər Əliyevin fəaliyyətinin geniş mənzərəsi dolğun və dəqiq ifadələrlə canlandırılır. Müəllif Mehriban Əliyeva yazır ki, onun həmyaşıdları Heydər Əliyevin həyat dərslərinin mahiyyətini bu gün də öyrənirlər. Onun hər bir dərsi insan ruhunun qüdrətinə, iradənin yenilməzliyinə, xarakterin gücünə inama parlaq nümunədir, İnsanın məğlubedilməzliyinə inam dərsidir. Müəllif yazır: "XX əsr Azərbaycan tarixinin önəmli, əlamətdar bir mərhələsi var: 60-cı illərin sonundan başlanan və XXI əsrə adlayan tarixi zaman. İlk baxışda quru statistika və faktlarla dolu, möhtəşəm, ziddiyyətli, enişli-yoxuşlu bir dövrün mənzərəsi yaranacaq. Lakin ikicə kəlmə söz tarix səhifələrini canlandırıb, uğurları, itkiləri, tərəqqi və inkişafı onlarca müfəssəl cədvəldən, araşdırmalardan qat-qat tutumlu əks etdirə bilər. Heydər Əliyev - tarix salnaməsinin XX əsr üçün taleyüklü səhifələrinin iştirakçısı, yaradıcısı, aparıcısı. 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Lider.

Tərəqqisi üçün çalışdığı, mədəniyyəti, keçmişi ilə fəxr etdiyi, nəsillərinin gələcəyi üçün düşündüyü Vətən

- Azərbaycan taleyi onun adi insan taleyi ilə əbədi olaraq bağlandı".

Məqalənin müəllifi ilə razılaşaq: Heydər Əliyevin Azərbaycan üçün varlığı "talenin Tanrı payıdır".

Franklin Ruzvelt, Uinston Çörçill, Şarl de Qoll kimi, Heydər Əliyev də hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Onun qeyri-adi şəxsiyyəti, siyasətçi və dövlət xadiminə xas böyük istedadı bizim hamımıza, onun müasirlərinə və həmvətənlərinə dərin təsir bağışlayır və siyasətçilərin, tədqiqatçıların və jurnalistlərin diqqətini ona cəlb edir. Heydər Əliyev fenomeninə maraq illər ötdükcə azalmır, əksinə, getdikcə daha da artır. Ölkəmizdə və xaricdə çap edilən bir çox yazılarda, tədqiqatçıların əsərlərində biz Heydər Əliyevin həyat və fəaliyyətinin, siyasətinin və mahir idarəçilik bacarığının yeni-yeni cəhətlərini görürük. Bir çox jurnalistlər onu hakimiyyət ustadı adlandırmağı xoşlayır və təsdiqləyirlər ki, ondakı hakimiyyət duyumu digər bütün duyumlarla üzvi şəkildə çulğaşmışdır və onun təbiətinin ayrılmaz tərkib hissəsini təşkil edir. Bir çox tədqiqatçıların fikrincə, məhz bu hakimiyyət magiyası ona artıq otuz ildən çoxdur ki, sadəcə, hakimiyyətin zirvəsində qalmağa deyil, həm də milyonlarla insanın sevimlisi, idealı kimi qalmağa imkan verir.

Belə böyük tarixi simanın öyrənilməsinə müxtəlif cür - onun şəxsiyyət kimi və dövlət xadimi kimi öyrənilməsi baxımından, yaxud da siyasi lider kimi formalaşdığı və təşəkkül tapdığı mühitin son dərəcə dəqiq və hərtərəfli təhlili baxımından yanaşmaq olar. Onun dövlətçilik fəaliyyətinin müxtəlif mərhələlərinin təsviri

kimi çox geniş yayılmış yanaşma da haqlı ola bilər. Bütün bu yazılarda onun gördüyü işlərin çox böyük əhəmiyyətini hiss edirik. Bir çox müəlliflər qeyd edirlər ki, onun gördüyü bütün işlər və söylədiyi sözlər heyrət doğurur, eləcə də bu şəxsiyyəti başa düşməyə çalışan hər bir kəs onun yaratdıqlarına ürəkdən valeh olmaq üçün səbəb axtarıb tapır.

Deyirlər ki, ölkələr də insanlar kimidir. Tale bəzən onları sevinc və səadətdən məhrum edir, sərt sınaqlara çəkir. Ölkələr məzlum vəziyyətə düşür, xalqlar təhqir və həqarətin acısını dadır, məhvedici parçalanma mərhələsinə daxil olur, hansı səmtə gedəcəyini bilmir. Bu deyilənlər sanki Azərbaycanın ən yeni tarixinin səhifələrindən köçürülmüşdür.

1993-cü ilin iyununda Azərbaycan xalqı müstəqilliyə qovuşmuş dövlətin idarə olunmasını Heydər Əliyevə etibar etdikdə, bu dövlətin taleyi Tanrının ümidinə qalmışdı. Ölkədə hakimiyyətsizlik, qarmaqarışıqlıq və hərc-mərclik baş alıb gedirdi: manatın məzənnəsi sürətlə aşağı düşür, sənaye və kənd təsərrüfatı istehsalının səviyyəsi günbəgün azalır, çörək və digər ən zəruri ərzaq məhsulları üçün alçaldıcı növbələr düzülür, bir sıra bölgələrdə separatçılıq əhval-ruhiyyəsi güclənir, cinayətkar ünsürlər meydan sulayır, insanlar etnik zəmində təqiblərə məruz qalır, şəhər və rayonlarda qətl-qarətlər törədilir, ziyalılar baş götürüb ölkədən qaçır, hakimiyyət iddiasında olan qruplaşmalar arasında silahlı toqquşmalar baş verir, Ermənistan silahlı birləşmələri ilə bəsit özünümüdafiə səviyyəsində müharibə aparılırdı, Xalq Cəbhəsi hökumətinin və ayrı-ayrı şəxslərin yaratdığı silahlı dəstələr arasında cəbhə xəttində adicə hərbi nizam-intizam və tabeçilik yox idi.

Bütün bunların nəticəsi olaraq, Azərbaycanın yaşayış məntəqələri və rayon mərkəzləri bir-birinin ardınca düşmənə təhvil verilir, Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağı və ona bitişik rayonları işğal edirdilər və sair. Adama elə gəlirdi ki, bu ümumi fəlakətdən, hakimiyyəti zor gücünə ələ keçirən, lakin bu yükün bütün ağırlığını və məsuliyyətini dərk etməyən adamların cinayətkarcasına məsuliyyətsizliyi nəticəsində ölkənin düşdüyü çox ağır vəziyyətdən çıxış yolu yoxdur.

Heydər Əliyev heyrətamiz iradə və məqsədyönlülüklə ölkəni bu şəksiz fəlakətdən xilas etməyə girişdi. O, belə bir sadə və eyni zamanda böyük həqiqəti rəhbər tuturdu: nə qədər ki, insanlar özlərinin həyatı və yaşamaq hüququ uğrunda, müstəqillik və milli dövlətçilik uğrunda mübarizə aparmağa qadirdirlər, onlar üçün nə ictimai əmin-amanlığın və barışığın bərqərar olmasında, nə də yaranmış siyasi, sosial və iqtisadi böhrandan çıxış yollarının tapılmasında dəfedilməz maneələr yoxdur və ola da bilməz. Azərbaycan vətəndaşları bu taleyüklü dövrdə də Heydər Əliyevin sadiq müttəfiqləri oldular, ilk növbədə özlərinə hörməti bərpa etmək üçün bütün iradəsini və həyat enerjisini səfərbər edə bildilər. Məhz Heydər Əliyevin qayıdışı sayəsində Azərbaycan xalqında ruh yüksəkliyi yarandı, xalq sanki ümidsiz olan bir vəziyyətdə perspektivləri gördü, onda öz gələcəyinə inam oyandı. Ölkə dərin ictimai, siyasi və iqtisadi böhranı aradan qaldıra bildi. Azərbaycan təcrid vəziyyətindən çıxdı və dünya birliyinin üzvü oldu, mötəbər beynəlxalq təşkilatlara qəbul edildi. Dağlıq Qarabağ üstündə Ermənistan-Azərbaycan qanlı münaqişəsi məhz Heydər Əliyevin dövründə beynəlxalq hüquq prinsipləri əsasında həlli üçün sülh danışıqları mərhələsinə keçdi. Məhz onun dövründə ölkə quruculuq, demokratik cəmiyyət və hüquqi dövlət yaradılması yoluna qədəm qoydu. Məhz onun dövründə Azərbaycan özünün coğrafi-siyasi vəziyyətinin nadir imkanlarından istifadə edə bildi. Bu yol nə qədər enişli-yoxuşlu olsa da, Azərbaycan xalqı öz gələcək inkişafının üfüqlərini məhz Heydər Əliyevin həyata keçirdiyi sistemli fundamental dəyişikliklər çərçivəsində görür.

Şübhəsiz ki, Heydər Əliyev öz xalqının psixologiyasının xüsusiyyətlərini, mentalitetini çox gözəl bilən xarizmatik liderdir. Onun həyatında hadisələrin sanki öncədən müəyyənləşdirilmiş gedişini təkcə sözün gücü ilə dəyişdirə bildiyi hallar çox olmuşdur. Heydər Əliyevin şəxsi nümunəsi bizim hamımızı, onun həmvətənlərini ruhlandırır və qurub-yaratmağa həvəsləndirir. O, Azərbaycana otuz ildən çox rəhbərlik edərək, sözü və əməli ilə yeni gerçəklik yaradır, Azərbaycan üçün dünyaya yol açır, onu ən sivilizasiyalı və çiçəklənən ölkələrdən birinə çevirməyə çalışır. Buna görə də xalq öz millətinə təmənnasız xidmət etməyin misilsiz nümunəsinə heyran olmaqla yanaşı, həm də başa düşür ki, indi Azərbaycana məhz belə lider lazımdır.

Heydər Əliyev iki əsrin ayrıcında öz ölkəsinin dövlət adlı gəmisini qlobal sarsıntılar dövrünün fırtınalarından sağ-salamat və uğurla keçirərək, ölkənin milli dəyərlərinin, insanların mənəvi sağlamlığının, özlərinə inamının qorunub saxlanılmasına müvəffəq olmuşdur. Siyasətin ön səhnəsində olduğu otuz dörd il ərzində o, XX və XXI əsrlərin görkəmli siyasətçilərindən biri kimi, müasir dövrün böyük siyasi lideri kimi bütün dünyada tanınmışdır. Görkəmli siyasi xadim, ABŞ prezidentinin milli təhlükəsizlik üzrə sabiq köməkçisi Zbiqnev Bjezinski dövlətimizin başçısı haqqında bu fikirdədir: "Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə, şəksiz liderdir".

Yeni minilliyin astanasında biz dönüb hadisələrlə zəngin olan yaşadığımız əsrə nəzər salır, bu hadisələrdən bir çoxunun həqiqi əhəmiyyətini dərk edir və ictimai inkişafın hərəkətverici qüvvəsinə çevrilə

bilmiş siyasi xadimlərin tarixə verdikləri töhfəni sanki yenidən qiymətləndiririk. Müasir dövrün görkəmli siyasətçilərindən biri kimi Heydər Əliyev, şübhəsiz ki, həmin tarixi simalar sırasında xüsusilə seçilir.

Öz tənqidçilərindən və siyasi opponentlərindən fərqli olaraq, Heydər Əliyev ölkənin bir çox problemlərinin - siyasətin, iqtisadiyyatın və ictimai həyatın məğzini və mahiyyətini müəyyənləşdirən problemlərin həllinin açarını tapmışdır. Yalnız həmin problemlərin həllindən sonra Azərbaycan üçün gələcək inkişafın perspektivləri açılmış və bu perspektivlər bizdən ötrü nikbinlik və daha yaxşı gələcək üçün ümidlər mənbəyi olmuşdur. Onun şəxsiyyətinin və fəaliyyətinin mahiyyətinin dərk olunması on illərlə Azərbaycan ətrafında cərəyan etmiş hadisələrin təbiətinə, son dərəcə mürəkkəb ümummilli problemlərin həlli yollarına işıq salır. Dövlətimizin tarixində o, iki dəfə siyasətdə və dövlət idarəçiliyində səviyyəsizliyə, səriştəsizliyə və bəsitliyə qətiyyətlə son qoya bilmişdir. O, işdə sübuta yetirmişdir ki, dünyanı təkcə böyük dövlətlər idarə etmir, kiçik xalqlar da var və onların rəyi ilə hesablaşmaq lazımdır. O, azərbaycanlıların necə güclü iradəyə və ruha malik olduqlarını, onun xalqının necə böyük enerji potensialına və intellektual potensiala sahib olduğunu öz timsalında bütün dünyaya nümayiş etdirmişdir.

Heydər Əliyev birinci dəfə də, ikinci dəfə də eyni şəraitdə - ictimai münasibətlərin kəskin şəkildə gərginləşdiyi, dövlət idarəçiliyinin fundamental əsaslarının dağıldığı, cəmiyyətin zehnində dolaşıqlıq və mənəvi dayaqlarında hərc-mərclik yarandığı dövrlərdə ölkəyə rəhbərlik etməyə başlamışdır. 1993-cü ilin iyununda Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək həddinə çatmışdı. Zaman və hadisələr, həyatın özü tələb edirdi ki, kimsə öz xalqına inamı qoruya, ölkəni viranedici fəlakətlərdən xilas edə bilsin. O, ölkəyə həqiqi milli dövlətçilik yaratmağın mümkün olması barədə yeni inam verdi və bununla da Azərbaycan tarixində öz misilsiz yerini bəri başdan müəyyənləşdirdi. Həmin taleyüklü günlərdə onun tükənməz enerjisi, nikbinliyi və milli amallara sadiqliyi - bütün bu şəxsi keyfiyyətləri, əslində, milli dirçəliş konsepsiyasının həyata keçirilməsi üçün tam səfərbər olunmuşdu.

Ankaradakı Bilkənd Universitetinin banisi, dünya şöhrətli alim İhsan Doğramacı Heydər Əliyev şəxsiyyətini qiymətləndirərkən demişdir: "Heydər Əliyev zəmanəmizin nadir yetişdirdiyi dövlət xadimlərindəndir. Heydər Əliyev yaşadığı fırtınalı həyatı boyu hər zaman xalqını, Vətənini düşünmüşdür. Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və öz xalqının xoşbəxtliyi üçün çırpınmışdır. Azərbaycanın ən çətin anlarında Vətəni xilas etmək üçün misilsiz fədakarlıqlar göstərmişdir... O, ölkəsini bəlalardan qurtaran dövlət başçısıdır".

Heydər Əliyevin dövründə Azərbaycanı onun hüdudlarından çox-çox uzaqlarda tanıdılar. Mübaliğəsiz deyə bilərik ki, o, ölkəni siyasi təcriddən çıxararaq, xarici siyasətdə çox böyük irəliləyiş yaratdı. Azərbaycanın səsi mötəbər beynəlxalq təşkilatların və dövlət başçıları sammitlərinin tribunalarından getdikcə daha tez-tez və gur eşidilməyə başladı, Azərbaycan beynəlxalq strukturlara üzv qəbul edildi.

Heydər Əliyev həmvətənlərinə sabahkı günə olan inamsızlığı, vahiməni və ümidsizliyə qapılmaq hissini aradan qaldırmağa kömək etdi. Şəkkakların əksinə olaraq, o, bəyan etdi ki, biz bu tənəzzüldən çıxacağıq, ümumi böhrana son qoyacağıq, milli müstəqilliyi və dövlət müstəqilliyini qoruyub saxlayacaq və möhkəmləndirəcəyik, ölkə iqtisadiyyatını qaldıracağıq, insanların maddi vəziyyətini yaxşılaşdıracağıq, hüquqi dövlət və demokratik cəmiyyət quracağıq. Azərbaycanın sivilizasiyalı və çiçəklənən ölkə olacağına onun bəslədiyi sarsılmaz inama indi dövlətimizin bütün layiqli vətəndaşları şərikdirlər.

Heydər Əliyev Azərbaycana elə xidmət edir ki, bizlərdən hər biri də ölkəmizə onun kimi öz ağıl-zəkasının tam gücü ilə, xalqın milli tarixinə və mənəvi dəyərlərinə qayğıkeş münasibətlə, Azərbaycanın milli sərvətlərini artırmaq və hər bir vətəndaşa layiqli yaşayış təmin etmək istəyi və əzmi ilə xidmət etməlidir. O, ümumxalq məhəbbəti və hörmətini ancaq belə qazana bilmişdir. Onun bütün həyatı milli tarixin salnaməsinə düşməyə layiq olan seçmə nümunədir.

O, sözə münasibətdə çox həssasdır, sözün həm yerini, həm də gücünü bilir, öz zəmanəsinin ən yaxşı natiqlərindən biri kimi tanınmışdır, öz xalqının xarakterini dərindən öyrənmişdir, bilir ki, ümummilli vəzifələrin həyata keçirilməsi üçün onun çox böyük qüvvəsini necə səfərbərliyə almaq lazımdır. Belə demək ədalətli olardı ki, o, bir çox həmvətənlərindən, eləcə də cilov bilməyən hikkələri ilə hakimiyyət iddiasında olanlardan həmişə daha bəsirətli, uzaqgörən olmuşdur. O, Dağlıq Qarabağ üstündə gedən Ermənistan-Azərbaycan müharibəsinin Azərbaycan üçün perspektivsizliyini lap əvvəldən başa düşmüşdü: ölkə müharibəyə hazır deyildi, təpədən-dırnağadək silahlanmış və əvvəlcə sovet, sonra da Rusiya qoşunlarından kömək alan erməni birləşmələrinin hücumlarına tab gətirə bilmirdi. O, Azərbaycana zor gücünə qəbul etdirilmiş münaqişənin dinclikə həllinin labüdlüyünü hamıdan əvvəl başa düşərək dərk etmişdi ki, Cənubi Qafqaz regionunda sülhə və sabitliyə tərəfdar olan dünyanın aparıcı ölkələri problemin hərbi yolla həllinin əleyhinədirlər. Öz ərazi bütövlüyünün bərpası baxımından bu müharibə Azərbaycan üçün ədalətli sayılardı, lakin hər bir müharibə kimi, o da inkişafa doğru

yolda dəfedilməz maneə olardı. Heydər Əliyev son dərəcə mürəkkəb və çətin bir şəraitdə ölkəyə sosial sülh verə bildi, əvvəlki nəsillərin nail olduqları yaxşı nə varsa, hamısını qoruyub saxlayaraq ölkəni yeniləşdirdi.

Həyat sübut edir ki, sınaqlara tab gətirməyənlər iflasa uğrayır, özünü dəf edə bilənlər isə xalqın rəğbətini qazanır. Heydər Əliyev istər fiziki, istərsə də ictimai baxımdan ciddi sınaqlardan keçmişdir. Bu sınaqlar onda cəsarət və səbirlə yanaşı, dəyişiklikləri həssaslıqla hiss etmək, iti tarixi duyum kimi keyfiyyətlər də aşılamışdır. O, dönüş məqamının başlandığını əvvəlcədən duymaq və qarşıdakı işlərin zəruriliyini buna uyğun olaraq əsaslandırmaq üçün kifayət qədər uzaqgörəndir. Öz liderinin dövlətçilik istedadına və müdrikliyinə güvənən xalq həmişə bilir ki, o, sabitliyi qoruyub saxlamaq, ölkəni dəyişmək, zamanın tələblərinə layiqli cavab vermək üçün nə kimi tədbirlər görəcəkdir. Məhz buna görə də insanlar indiki çətinliklərə dözməyə hazırdır, çünki inanırlar ki, onlar dönmədən daha gözəl həyata doğru aparan prosesin iştirakçılarıdır.

Təbiət Heydər Əliyevə nadir keyfiyyətlər - iş qabiliyyəti, qətiyyət, özünün haqlı olduğuna əminlik, ətrafındakı adamların məziyyətlərini və imkanlarını müəyyənləşdirmək bacarığı kimi keyfiyyətlər bəxş etmişdir. Onun fenomenal yaddaşı barədə rəvayətlər söylənir: neçə illər əvvəl olmuş və çoxları üçün əhəmiyyətsiz görünmüş faktları və hadisələri bütün təfərrüatı ilə xatırlaya bilir. Çoxdan və ötəri görüşdüyü adamların adları da yadındadır.

Bir şəxsiyyət kimi Heydər Əliyev nə qədər açıq olsa da, müasirləri üçün sirr olaraq qalır. Bu gün Heydər Əliyev fenomenindən çox yazırlar. Bu məqalə, kitabça və əsərlərin müəllifləri onun - ölkəmizin tarixində bütöv bir dövrü təcəssüm etdirən əsl Vətəndaşın, böyük Şəxsiyyətin və qüdrətli Liderin, İnsanın müxtəlif cəhətlərini açıqlayırlar. Lakin onların hamısının yekdil rəyi belədir ki, Heydər Əliyev Azərbaycan xalqının milli sərvəti, onun bəxtinə düşmüş Tanrı payıdır.

Bununla belə, hesab edirəm ki, bu məqalə və kitablarda müəlliflər Heydər Əliyevin səciyyəvi keyfiyyətlərini tam açmağa, onun istedadını və parlaq şəxsiyyətini bütünlüklə göstərməyə müvəffəq olmamışlar. Ən əvvəl ona görə ki, bu, olduqca çətindir. Heydər Əliyevin siyasi portretini tam dolğunluğu ilə yaratmaq müşkül işdir. Çünki bu, bütöv bir dövrü təsvir etməyə cəhd göstərmək demək olardı. Bütöv bir dövrü təsvir etmək isə son dərəcə çətin bir vəzifədir. Bu məqalədə biz onun çoxşaxəli fəaliyyətinin ancaq bir cəhətindən, yəni azərbaycançılıq ideologiyasında öz təcəssümünü tapan milli ideyanı gerçəkləşdirməsindən danışmağa çalışacağıq.

Heydər Əliyev dövrünə müraciət edən istənilən tədqiqatçı belə bir suala cavab tapmalıdır ki, dövlətçiliyimizin çoxəsrlik tarixində nə üçün məhz Azərbaycan Respublikasının prezidenti Heydər Əliyev müstəsna yer tutur. Axı, indi onun adı da, elə özü də bu dövlətçiliyi təcəssüm etdirir. Əlbəttə ki, öz əhəmiyyətinə görə Heydər Əliyevin fəaliyyətinin Azərbaycanın hüdudlarından çox-çox uzaqlara çıxdığını deyən siyasətçi və politoloqlarla razılaşmaq lazımdır. Bu da doğrudur ki, müasir dövrdə Azərbaycanda da, bütün postsovet məkanında da, hətta deyərdik, bütün dünyada da gedən prosesləri Heydər Əliyevin fəaliyyət dairəsindən kənarda təsəvvür etmək mümkün deyildir. Lakin bu, hansısa bir fenomenin, olsa-olsa, nəzərə çarpdırılmasıdır, bizim məqsədimiz isə bu fenomenin mahiyyətinə varmaqdır.

Əgər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında son onilliklər ərzində yazılanların hamısını nəzərdən keçirsək, onda ən əvvəl demək lazımdır ki, müxtəlif ölkələrdə, bir çox dillərdə Azərbaycan prezidentinin şəxsiyyətindən, həyat yolundan, siyasi baxışlarından bəhs edilən kitab və məqalələr nəşr olunur. Bütün bu nəşrlərdə əsas diqqət Heydər Əliyevin siyasi fəaliyyətinin konkret cəhətlərinin təhlilinə yetirilir. Bu baxımdan qeyd etmək yerinə düşərdi ki, nadir istedada, ensiklopedik biliyə, genişmiqyaslı dünyagörüşünə malik olan bu tarixi şəxsiyyətin fəaliyyətini yalnız əməli fəaliyyətlə, gerçəkləşdirdiyi konkret layihələrlə məhdudlaşdırmaq olmaz.

Müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, ictimai-siyasi və sosial həyatda tərəqqinin otuz ildən artıq dövrünü əhatə edən bütöv bir epoxa Heydər Əliyevin adı ilə bağlıdır. Bütün bunlar onun həm əməli fəaliyyətində, həm də inkişafımızın paradiqmasının fəlsəfi anlamında öz əksini tapmışdır. Onun yaratdığı fəlsəfi konsepsiya Azərbaycanın müasir dünyada özünəməxsus yerini müəyyənləşdirmiş, milli dövlətçiliyimizin bünövrəsini təşkil etmiş və dünya azərbaycanlılarının həmrəyliyi prosesinin ideya əsasını yaratmışdır. Lakin çox vaxt bütün bunlar Heydər Əliyevin konkret fəaliyyətinin kölgəsində qalır. Buna görə də Heydər Əliyev fenomeninin mahiyyətini başa düşmək üçün göstərilən cəhdlər diqqətimizi onun dünyagörüşünün tərkib hissəsini təşkil edən fəlsəfi cəhətlərə yönəldir.

Hamıya məlumdur ki, Heydər Əliyev son dərəcə savadlı və yüksək erudisiyaya malik insandır. Bu savadlılıq akademik xarakter, hansısa cərəyan və konsepsiyaların həyatdan təcrid olunmuş halda dərk edilməsi xarakteri daşımır, onda ümumbəşəri dəyərlər Azərbaycan ziyalılarının bir çox nəsillərinin yaratdıqları milli ideallar sistemi ilə ahəngdarlıq təşkil edir. Məhz buna görə də o, dövlət quruculuğunun elə bir konsepsiyasını işləyib hazırlaya bilmişdir ki, burada sosiologiya və fəlsəfənin bır çox mücərrəd problemləri ideyalar və elm

sahəsindən əməli siyasət müstəvisinə keçmişdir. Mirzə Fətəli Axundovdan başlayaraq Hüseyn Cavidə və Səməd Vurğunadək Azərbaycan xalqının görkəmli nümayəndələrinin yaradıcılığında ümummilli dəyərlər və ən müqəddəs cəhətlər haqqında təsəvvürlərin mahiyyətini təşkil etmiş hər şey Heydər Əliyevin fəlsəfi görümündə dövlət quruculuğunun konkret konsepsiyasında öz ifadəsini tapmışdır. Heydər Əliyevin siyasi taleyinin mahiyyətini dərk etmək üçün müxtəlif hadisələrin fəlsəfi məğzini araşdırmaq və onun həyata keçirdiyi möhtəşəm planların izahı üçün açar olan ideyaları başa düşmək lazımdır.

Heydər Əliyev həm özünün nadir siyasi istedadı sayəsində, həm də milli dirçəlişin mükəmməl fəlsəfi konsepsiyasına əsaslanaraq, müasir Azərbaycan adlandırdığımız bir məmləkəti, onun bugünkü həqiqətini, sabahkı gününün etibarlı bünövrəsini yarada bilmişdir. Formal səbəblərə görə deyil, ilk növbədə məhz buna görə Azərbaycan tarixinin 1969-cu ildən bəri bütün dövrü Heydər Əliyevin adı ilə bağlıdır. Azərbaycan xalqı üçüncü minilliyə də məhz Heydər Əliyevin adı ilə qədəm qoymuşdur. Azərbaycanın gələcək taleyi baxımından bu tarixi dövrün başlıca məzmunu isə milli dirçəliş fəlsəfəsinin gerçəkləşdirilməsindən ibarət olmuşdur. Onun fəlsəfəsi sırf ehkamlaşdırılmış əsərlərdə təsvir edilən hər hansı təlim olmaqdan və ya buna çevrilməkdən uzaqdır. Əslində, bu fəlsəfə bizim hamımızın gözləri qarşısında yaradılmışdır və onun mahiyyəti Heydər Əliyevin əksər halda bədahətən söylədiyi bir çox nitq və çıxışlarında son dərəcə aydın ifadə olunmuşdur. Məhz natiqlik istedadı ona ilk baxışdan qeyri-mümkün görünən məsələni reallaşdırmağa - öz fəlsəfi və siyasi əqidəsini böyük auditoriyalar qarşısında şifahi çıxışlar çərçivəsində formalaşdırmağa imkan vermişdir.

Gerçəkliyin özünün obyektiv qanunlarını əks etdirən elmi metodologiyaya uyğun olaraq, Heydər Əliyev XX əsr Azərbaycan tarixini özünəxas peşəkar tarixçi dəqiqliyi ilə dörd mərhələyə bölür. Birinci mərhələ ötən əsrin əvvəlindən oktyabr inqilabınadək olan tariximizdir. İkinci tarixi mərhələ 1918-1920-ci və 1920-1922-ci illəri - Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu və Azərbaycan Sovet Respublikası SSRİ-nin tərkibinə daxil olanadək dövrü əhatə edir. Üçüncü mərhələ 1922-ci ildən Azərbaycanın öz milli müstəqilliyini bərpa etdiyi 1991-ci ilədək olan dövrdür. Dördüncü mərhələ isə 1991-ci ildən bu günədək olan dövrü əhatə edir. Əgər diqqət yetirsək görərik ki, son mərhələlər - üçüncü və onun bilavasitə nəticəsi olaraq, dördüncü mərhələlər Heydər Əliyevin adı ilə birbaşa bağlıdır. Həqiqətən də, Azərbaycanı müstəqil dövlət qurmağa doğru aparan yol, əslində, 1969-cu ildən - məhz onun hakimiyyətə gəlişindən sonra başlanır.

Heydər Əliyevin respublikanın rəhbəri vəzifəsində fəaliyyətinin ilk günlərindən aydın oldu ki, onun simasında Azərbaycan xalqı əsl milli liderini tapmışdır. Bir tərəfdən, o, keçmiş SSRİ-də, sovet və partiya həyatında hakim olan bütün normalara son dərəcə dəqiq və nəzakətlə əməl edirdi. O dövrdəki nitqləri ilə tanış olarkən başa düşürsən ki, onun özü də kommunizm amallarına ürəkdən inanırdı. Lakin bununla yanaşı, o, sovet mədəniyyətinin ənənəvi formuluna - formaca milli və məzmunca sosialist mədəniyyəti formuluna tamamilə yeni bir məna verə bilmişdir. Onun gördüyü bütün işlər formal surətdə marksizm-leninizm ideologiyasının tələblərinə uyğun gəlirdi. Buna baxmayaraq, o, əvvəlki, standart stereotipləri qırır, hansısa yeniliklər daxil edə bilirdi ki, bunları da o illərdə başa düşmək və dəqiq formalaşdırmaq çətin idi. Əslində isə bunlar olduqca aydın nəticələrə gətirib çıxarırdı. O, milli ruhun dirçəldilməsinə, öz zəmanəsinin Azərbaycan mədəniyyətinin inkişafına və çiçəklənməsinə nail olmaqla yanaşı, həm də bütün ziyalıların, bütün Azərbaycan xalqının diqqətini tarixi və mədəni qaynaqlara yönəltmişdir. O illərdə biz Azərbaycan dilini, Azərbaycan ədəbiyyatını, Azərbaycan tarixini, Azərbaycan musiqisini - nadir milli mədəniyyətimizin bütün qatlarını özümüz üçün sanki təzədən açır və yenidən qiymətləndirirdik.

Məhz bu baxımdan Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövrünü milli özünüdərkin oyanmasının, öz kökümüzə qayıdışın və müraciətin yeni mərhələsinə doğru aparan proseslərin başlanğıcı kimi qəbul etmək lazımdır. Məsələ bundadır ki, Heydər Əliyevin bütün fəlsəfi konstruksiyası xalqın milli dirçəlişi, milli qürur hisslərinin oyanması ideyasına əsaslanırdı. Qalan hər şey, o cümlədən də iqtisadi inkişafın sürətli strategiyasının həyata keçirilməsi milli şüurun yüksəlməsinə təkan verməli, milli dirçəlişin təməlinə çevrilməli idi.

Heydər Əliyev öz fəlsəfi konsepsiyasını əməli siyasət məcrasında gerçəkləşdirmək üçün olduqca mürəkkəb mexanizmdən istifadə etmişdir. Lakin onun atdığı ilk addımlar son dərəcə sadə idi - o, Azərbaycanın görkəmli şəxsiyyətlərinin yubileylərini müntəzəm qeyd etmək ənənəsinin bünövrəsini qoydu. Bu, formal bir hadisə deyildi. Bu, Azərbaycan mədəniyyəti klassiklərinin yaradıcılığının tarixinə və mahiyyətinə həqiqi müraciət idi, milli düşüncənin dərin qatlarını üzə çıxarmaq idi.

İlk baxışdan adama elə gəlir ki, Cəfər Cabbarlı qədər ikinci bir sovetpərəst dramaturq təsəvvür etmək çətindir. Təsadüfi deyil ki, o, sovet ədəbiyyatının bütün dərsliklərinə Azərbaycan sovet dramaturgiyasının banisi kimi daxil olmuşdur. Lakin Heydər Əliyev dövründə respublikamızda keçirilmiş ilk yubileylərdən birinin necə məna kəsb etdiyini yada salaq. Zahirən hər şey o dövrün qaydalarına uyğun idi -1969-cu il oktyabrın 10-da görkəmli Azərbaycan dramaturqu Cəfər Cabbarlının anadan olmasının 70 illiyinə həsr edilmiş təntənəli yığıncaq

keçirildi. Cəmi on gün sonra isə müasir dramaturgiyamızın banilərindən biri olan bu ustadın yubileyi ümumittifaq səviyyəsində, Azərbaycan incəsənət xadimləri nümayəndələrinin iştirakı ilə Moskvada İttifaqlar Evinin Sütunlu salonunda keçirildi.

Lakin ona diqqət yetirək ki, bir tərəfdən Azərbaycan sovet dramaturgiyasının banisi Cəfər Cabbarlının yubileyi ənənəvi sovet qanun-qaydalarına uyğun olaraq keçirildi, digər tərəfdən isə burada tamamilə "qeyri-ənənəvi cəhətlər" vardı. Sovet ədəbiyyatşünaslığının adətən fikir vermədiyi əsərlər ictimaiyyətin diqqət mərkəzinə çıxarılırdı. Yeni nəsil özü üçün tamamilə yeni bir Cabbarlını kəşf etdi, o Cabbarlını ki, rəsmi ideologiya çərçivəsində bəzən ezop dili ilə elə məsələlərə toxunurdu ki, bu, Azərbaycanın keçdiyi tarixi yolun nadirliyi barədə hamını düşünməyə vadar edirdi. Dərk edirdik ki, biz hamımız olduqca böyük tarixi sərvətlərin, çox yüksək tolerantlıq, dini və etnik dözümlülük şəraitini qoruyub saxlamış və zəmanəmizə, bizə gətirib çatdırmış əcdadlarımızın yaratdıqları misilsiz mənəvi xəzinənin varisləriyik. Bu yubiley tədbirlərinin bütün iştirakçıları fikrən Azərbaycan tarixinin zərdüştilik və atəşpərəstlik dövrünə qayıdır, XX yüzilliyin başlanğıcındakı mürəkkəb sosial prosesləri gözlərinin qarşısına gətirir, milli teatrın, dünyəvi təhsil sisteminin təşəkkülünün təfərrüatına vaqif olurdular.

Bakının mərkəzində Cəfər Cabbarlıya abidə ucaldılanda, Azərbaycan kinostudiyasında onun büstü açılanda, əsərləri yenidən səhnəyə qoyulanda aydın oldu ki, Cabbarlı dramaturgiyası və poeziyası bədii obrazlar sistemi vasitəsilə məhz Heydər Əliyevin siyasətinin öncül qayəsi olan ümummilli dəyərlərin bərqərar edilməsinə yönəlmişdir. Məhz bu baxımdan həmin yubileyin son dərəcə rəmzi mənası oldu.

Azərbaycan mədəniyyətinin yubileyləri təntənə ilə qeyd edilən bir çox nümayəndələrinin xalqın taleyüklü problemləri, keçmişi və gələcəyi ilə bağlı olan mühüm konseptual fikirləri bu və ya digər formada şərh edilir, araşdırılır və sistem halına salınır, nəticədə isə böyüməkdə olan nəslin sərvətinə çevrilir, onların dünyagörüşünün əsasını formalaşdırırdı.

Daha bir misal. 1969-cu ildə bəziləri Azərbaycan tarixini saxtalaşdıraraq, Bakı Dövlət Universitetinin açılmasını respublikamızda sovet hakimiyyətinin qurulmasının nəticəsi kimi qələmə verməyə çalışır, müxtəlif bəhanələr gətirərək, universitetin 50 illik yubileyini 1970-ci ildə, yəni Azərbaycanda sovet hakimiyyəti qurulmasının yubileyi ilə bir vaxtda qeyd etmək istəyirdilər. Heydər Əliyev çıxışlarından birində bu barədə deyir: "Bu, dözülməz bir hal idi. Elə həmin 1969-cu il noyabrın 1-də biz universitetin 50 illiyini qeyd etdik. Mən özüm bu mərasimdə çıxış etdim. Bakı Dövlət Universitetinin sonrakı yubileylərində dəfələrlə qeyd olunmuşdur ki, bu çıxışın universitetdə böyük əks-sədası oldu. Çünki bu çıxış Azərbaycan dilində idi və universitetin qarşısında qoyulan məsələlər bizim ümummilli problemlərimizlə sıx bağlı idi".

O yubiley günlərində çoxları, ümumiyyətlə, bəlkə də ilk dəfə düşünürdü ki, görəsən, əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətini yaradanların məqsəd və məramları nə idi. Axı, sovet elmində Azərbaycan Xalq Cümhuriyyətinin həmin nümayəndələrinə ancaq rüsvayçılıq damğası vurulurdu, əslində isə Bakıda universiteti məhz onlar açmışdılar və respublikada ali təhsilin bünövrəsini də məhz bu universitet qoymuşdur.

**“Azərbaycan”**.- 2008.- 2 aprel.- S. 2-3.

# TARİX YARADAN ŞƏXSİYYƏT

***İradə Hüseynova** - təhsil nazirinin müavini, tarix elmləri doktoru, professor,YAP Siyasi Şurasının üzvü*

Liderlik institutunun cəmiyyətdəki rolunu aydınlaşdırmağa çalışmış böyük mütəfəkkirlər daim bu fenomeni dərindən öyrənməyə, konkret və obyektiv elmi-politoloji nəticələr çıxarmağa çalışmışlar. Fərqli nəzəri konsepsiyalara, fikir müxtəlifliyinə rəğmən ümumi qənaət bundan ibarətdir ki, dünyanın hansı qütbündə yerləşməsindən və iqtisadi potensialından asılı olmayaraq, hər bir dövlətin inkişaf səviyyəsini müəyyən edən başlıca meyarlardan biri də məhz milli lider amili ilə şərtlənir. Milli lider fenomeninin müəyyən etdiyi düzgün yol ölkənin inkişaf potensialını hərəkətə gətirir, bu potensialın realizə edilməsi üçün zəruri əsasları, prioritet istiqamətləri müəyyənləşdirir. Ümumiliklə, liderlik anlayışının başlıca mahiyyətini reallığı adekvat qiymətləndirmək, qarşıda duran vəzifələrin həlli yollarını düzgün müəyyənləşdirmək, hansısa qərarın yerinə yetirilməsi naminə insanların zəkasına və enerjisinə pozitiv təsir göstərmək, onları konkret ideya, fikir və məqsəd ətrafında səfərbər etmək, idarə olunanların liderin qəbul etdiyi qərarları fəal müdafiə etməsinə nail olmaq kimi mühüm keyfiyyətlər təşkil edir.

Hər bir xalqın milli inkişaf yolunun banisinə çevrilən, onu dünya miqyasında tanıdaraq layiqli mövqelərə çıxaran xarizmatik liderlər həm də pozitiv rakursda siyasi varislik ənənələri formalaşdıraraq böyük müdrikliklə irəli sürdükləri mütərəqqi ideyaların davamlılığını təmin edirlər. Belə siyasi liderlər dövlət hakimiyyətini ölkənin, sadəcə, bugünkü mənafeyi baxımından deyil, həm də gələcək mənafeyi baxımından təşkil etməyə, dövlətçiliyin ideoloji-siyasi və iqtisadi əsaslarını formalaşdıraraq optimal dövlət modeli yaratmağa çalışırlar. Müstəqil Azərbaycanın milli inkişaf modelinin banisi, ulu öndər Heydər Əliyev də təkamülə əsaslanan demokratik tərəqqi yolunun alternativsizliyini real əməli nəticələrlə sübuta yetirməklə bərabər, dövlətçiliyin ideoloji, siyasi, hüquqi və iqtisadi əsaslarını fundamental elmi-praktik prinsiplər əsasında müəyyənləşdirmişdir.

Tarixi təcrübə göstərir ki, yalnız milli iradənin, irs və ənənələrin, düşüncə sisteminin parlaq təzahürü kimi yaranmış dövlət modeli tarixin sərt sınaqları qarşısında duruş gətirə bilir və milli inkişafın əsasına çevrilir. Müəyyən obyektiv səbəblərdən Azərbaycanda XX əsrin ikinci yarısınadək milli irs əsasında dövlətçilik ideallarını reallaşdıraraq xalqın qanı, canı bahasına qazanılan müstəqilliyi qoruyub saxlayan, möhkəm ideoloji-siyasi təməllər, oturuşmuş ənənələr üzərində gələcək nəsillərə ötürən şəxsiyyətlər olmamışdır. Yalnız ötən əsrin 60-cı illərinin sonunda - ulu öndər Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə gəlməsi ilə xalqımız tarixən formalaşmış zəngin dövlətçilik ənənələrini birləşdirmək və gələcək müstəqilliyinə etibarlı zəmin formalaşdırmaq şansı qazanmışdır.

Ümummilli lider ölkə rəhbərliyinə gəlişinin ilk illərindən etibarən mərkəzin ideoloji maneələrini aradan qaldırmaqla daşlaşmış milli şüuru oyatmağa çalışmış, Azərbaycan xalqının dünyanın ən sivil xalqları cərgəsinə çıxması üçün bütün imkanlardan istifadə etmişdir. Heydər Əliyev fenomeninin Azərbaycana uzunmüddətli rəhbərliyinin ən sanballı göstəricisi də məhz Azərbaycançılıq məfkurəsinin, milli ruhun hədsiz yüksəlməsi, milli özünüdərkin inkişafı, xalqın tarixi yaddaşının özünə qaytarılması kimi fundamental prinsiplər əsasında dövlətçilik arzularının və hisslərinin güclənməsi, real siyasi amilə çevrilməsidir. Ulu öndərimizin vətənpərvər fəaliyyətinin nəticəsi olaraq ictimai şüurdakı istiqlal duyğuları aşkara çıxaraq yeni məzmun kəsb etmiş, respublikada milli ruhlu ziyalı təbəqəsi formalaşmışdır.

Böyük strateq Heydər Əliyev hələ Azərbaycana rəhbərliyinin birinci dövründə ölkənin inkişafı istiqamətində gördüyü işlərlə, qəbul etdiyi cəsarətli qərarlarla, həyata keçirdiyi tikinti-quruculuq tədbirləri, habelə bir neçə onillikdən sonra müstəqillik nemətinə qovuşacaq respublikamızın sabahına hesablanmış digər məqsədyönlü addımları ilə özünün ümummilli lider obrazını yaratmış, tarix isə böyük öndərin bu statusunu bütün mərhələlərdə qorumuşdur. Azərbaycan xalqı özünün müstəqil inkişaf yolunda məhz ulu öndər Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə əsası qoyulmuş zəngin iqtisadi-siyasi, mənəvi və intellektual potensiala istinad etmişdir. Heydər Əliyev o illərdə respublikanı nəhəng tikinti meydançasına çevirərkən, irimiqyaslı obyektlərin, strateji əhəmiyyətli sənaye müəssisələrinin inşasına xüsusi əhəmiyyət verərkən, bir sıra yeni təhsil ocaqları, o cümlədən Cəmşid Naxçıvanski adına hərbi məktəbi yaradarkən, mədəniyyətin, fundamental və tətbiqi elmlərin sıçrayışlı inkişafına nail olarkən məhz bugünkü və gələcək tərəqqinin, dinamik sosial-iqtisadi inkişafın möhkəm təməlini qoymuşdur. Ulu öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrü Azərbaycan tarixinə siyasi, sosial-iqtisadi və mədəni yüksəliş dövrü kimi daxil olaraq xalqın milli mənlik şüurunun, müstəqillik ideallarının oyanışına güclü təkan vermişdir. Bu nöqteyi-nəzərdən, Azərbaycan xalqının müstəqil dövlətdə yaşamaq idealının real, dayanıqlı əsaslar üzərində

gerçəkləşərək əbədiləşməsi çağdaş tariximizin unudulmaz dühası - ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ulu öndər o çətin dövrdə belə, fəaliyyətində yüksək daxili "Mən"inin təcəssümü olan ədalətlilik, insanpərvərlik, humanizm kimi ali dəyərlərə sadiqliyini nümayiş etdirmişdir. Düzgünlük, haqqı nahaqqa qurban verməmək, hər bir fərdin mənafeyini önə çəkmək Heydər Əliyevin idarəçilik fəlsəfəsinin əsas mahiyyətini təşkil etmişdir. Ulu öndərin ötən əsrin 70-80-cı illərində kasıb və imkansız ailələrin övladlarının respublikada və onun hüdudlarından kənarda yüksək təhsil almasına, ixtisaslı kadr kimi yetişməsinə hər cür kömək göstərməsi də məhz bu xeyirxahlığın ifadəsidir. Yalnız bir faktı xatırlatmaq yerinə düşər ki, Heydər Əliyev respublikaya rəhbərliyinin birinci dövründə Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə imkansız və "adamsız" ailələrin övladlarının daxil olmasına yol açan xüsusi qərar imzalamış, beləliklə, bu sahədə ədalət və şəffaflıq prinsipini təmin etmişdir.

Ulu öndər hələ o dövrlərdən milli inkişafın yeganə yolunu xalqın yüksək təhsil almasında, maariflənməsində görmüş, respublikada elmin inkişafı üçün bütün zəruri tədbirləri həyata keçirmişdir. Ulu öndər yaxşı bilirdi ki, cəmiyyətin tərəqqisinə, elmin, mədəniyyətin inkişafına təsir göstərən ən qüdrətli vasitələrdən biri də təhsildir. Heydər Əliyev dühasının böyüklüyü məhz onda idi ki, o, bütün fəaliyyəti boyu bu sahələrə diqqət və qayğısını əsirgəməmiş, cəmiyyətdə yüksək bilikli, intellektual və elitar təbəqənin formalaşmasına çalışmışdır. Təsadüfi deyildir ki, 1969-1982-ci illər həm də Azərbaycan elminin, təhsilinin intibah dövrü kimi xatırlanır. Heydər Əliyev öz fəaliyyəti və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni, mütərəqqi nailiyyətlərindən faydalanmış, cəmiyyətin, xalqın inkişaf zəminini elmdə, maariflənmədə görmüşdür. Heydər Əliyev dühası həm də elmimizin, mədəniyyətimizin, ədəbiyyatımızın gözəl bilicisi, araşdırıcısı, ən əsası, böyük hamisi olmuş, elmə, alimə həmişə yüksək qiymət vermişdir.

Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüskarlığı, qətiyyəti və iradəsi nəticəsində 1969-1982-ci illərdə 700-dən artıq məktəb binası tikilərək istifadəyə verilmişdir. Bu illərdə respublikada ali təhsil müəssisələrinin sayı 12-dən 17-yə, təhsil alan tələbələrin sayı isə 70 mindən 100 minə çatmışdır. Heydər Əliyevin böyük uzaqgörənliklə əsasını qoyduğu dəyərli ənənələr sırasında azərbaycanlı gənclərin keçmiş SSRİ-nin qabaqcıl elm və təhsil mərkəzlərinə göndərilməsi təcrübəsi mühüm yer tutur. Ümummilli lider təhsil sistemində saflıq, obyektivlik, ədalət prinsiplərinin qorunmasını da daim diqqətdə saxlamışdır. Ümummilli liderin birbaşa nəzarəti altında ali və orta ixtisas məktəblərinə qəbul olunan tələbələrin, həmçinin istehsalatın müxtəlif sahələrinə, eləcə də elm-təhsil mərkəzlərinə təyinat alan məzunların sosial tərkibi imkansız ailələrin hesabına daim sağlamlaşdırılmışdır.

Ulu öndər Heydər Əliyev Azərbaycan mədəniyyətinin inkişafında ədəbiyyatın rolunu yüksək qiymətləndirdiyi qədər, dilin də ictimai həyatımızdakı müstəsna mövqeyinə daim böyük əhəmiyyət vermişdir. Öz xalqını və dilini dərindən sevən ümummilli lider ölkədə rəhbərliyə gəldiyi ilk günlərdən başlayaraq, respublika iqtisadiyyatının, mədəniyyətinin yüksəlişi, xalqın güzəranının yaxşılaşması uğrunda apardığı mübarizədə Azərbaycan dilinin fəaliyyət dairəsinin genişlənməsinə və inkişafına xüsusi diqqət yetirmişdir. Məhz Heydər Əliyevin prinsipiallığı və qətiyyəti sayəsində 1978-ci ildə Azərbaycan dili Konstitusiyada dövlət dili kimi təsbit olunmuşdur.

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanda cərəyan edən mürəkkəb və ziddiyyətli ictimai-siyasi proseslərə qətiyyən biganə qalmayan ulu öndər Heydər Əliyev hələ Naxçıvan Ali Sovetinə rəhbərlik etdiyi vaxtlarda əsil vətənpərvərliklə, lider təəssübkeşliyi ilə müstəqilliyin qazanılması və milli özünüdərkin təmin olunması prosesində yaxından iştirak etmişdir. Respublikamızda geniş vüsət almış milli azadlıq hərəkatı ilə eyni dövrdə xalqda milli heysiyyatı, özünüdərki daha da gücləndirən, milli dövlət rəmzlərinə hörmət təlqin edən genişmiqyaslı addımlar da məhz ulu öndər Heydər Əliyevin Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına rəhbərlik etdiyi dövrdə atılmışdır. Muxtar respublikanın ali orqanının 1990-cı il noyabrın 17-də keçirilmiş birinci sessiyasında Azərbaycanın milli dövlət dirçəlişi prosesinin həyata keçirilməsi məsələsi geniş müzakirə olunmuş və Naxçıvan MSSR-in adının dəyişdirilərək Naxçıvan Muxtar Respublikası adlandırılması barədə tarixi qərar verilmişdir. Həmin sessiyada həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin rəmzi olan üçrəngli dövlət bayrağının bərpa edilməsi, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında da yekdilliklə qərar qəbul edilmişdir.

Tarixi təcrübə təsdiqləyir ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından daha ağrılı və çətin prosesdir. Belə bir ziddiyyətli və mürəkkəb mərhələdə dövlətin xilası məhz xarizmatik liderlərdən asılı olur. 1991-ci ildə Azərbaycan özünün dövlət müstəqilliyini elan etsə də, bu, əslində, 1993-cü ilin ortalarına qədər formal xarakter daşımışdır. Ulu öndərin 1993-cü ilin oktyabrında dövlət başçısı seçilməsindən sonra müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi daha da sürətlənmişdir. Ümummilli lider ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası istiqamətində gərgin iş aparmış, qeyri-

qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Ulu öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Böyük strateq Heydər Əliyev bu iqtisadi inkişaf modelini irəli sürərkən heç də dünya ölkələrinin təcrübəsini Azərbaycana köçürməmiş, respublikamızın zəngin təbii resurslarını, Şərqlə Qərbi qovuşduran əlverişli coğrafi-siyasi mövqeyini, geniş tranzit-kommunikasiya imkanlarını, habelə tarixi təsərrüfatçılıq ənənələrini, spesifik xüsusiyyətlərini, sosial-iqtisadi gerçəkliklərini nəzərə almışdır. Ulu öndər qısa müddətdə özəl mülkiyyətçiliyə, sahibkarlığa, sərbəst rəqabətə meydan açan, dövlətsizləşdirməni özündə ehtiva edən, sosialyönümlü mahiyyət daşıyan, habelə xarici iqtisadi əlaqələrin gücləndirilməsi və münbit biznes mühitinin formalaşdırılması yolu ilə ölkəyə investisiya axınını stimullaşdıran liberal inkişaf modelinin praktik surətdə gerçəkləşdirilməsinə nail olmuşdur. "Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır"- deyən Heydər Əliyev demokratik düşüncə və həyat tərzinin bütün dünyada diktə etdiyi bu meyarlara hər zaman sadiqlik göstərmiş, milli inkişaf naminə bu yolun alternativsizliyi fikrinin ictimai rəyə aşılanmasına nail olmuşdur. Ümummilli lider mərkəzi planlaşdırma və bölgü sistemindən sərbəst bazar münasibətlərinə əsaslanan iqtisadi modelə keçid prosesinin aztəminatlı təbəqənin maraqlarına toxunmaması üçün dövlət büdcəsində sosial müdafiə tədbirlərinə geniş yer ayrılmasını da təmin etmişdir.

Böyük siyasət ustadı Heydər Əliyev hər bir fərdin maraq və mənafelərini təmin etmədən, ədalət meyarını qorumadan güclü dövlət yaratmağın mümkünsüzlüyünü çıxışlarında hər zaman vurğulamış, vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsinin müntəzəm surətdə artırılmasının əsas təşəbbüskarı kimi çıxış etmişdir. Ulu öndərin rəhbərliyi altında hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının Konstitusiyası dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Demokratik tələblərə tamamilə cavab verən bu ali sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixilik qazanmışdır.

1995-ci ildə müstəqil Azərbaycanın parlamentinə keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır. Bu hadisə dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynamışdır. Bununla da Azərbaycanın dünya dövlətləri sırasında özünəlayiq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində ardıcıl fəaliyyətin əsası qoyulmuşdur.

1996-1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Həmin memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir. 1998-ci ilin 22 fevralında ümummilli lider Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası səhih şəkildə müəyyən edilmişdir. Bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyul tarixdə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. Dövlət Proqramına əsasən, Azərbaycanın qoşulduğu konvensiyalara və qəbul etdiyi qanunvericilik aktlarına, eyni zamanda Konstitusiyanın müddəalarından irəli gələn tələblərə müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyi daha da artırılmışdır.

Ulu öndər 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərara imza atan ilk ölkə olmuşdur. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu

yüksəltmiş, 2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Təşkilatla səmərəli əməkdaşlıq Azərbaycanın qanunvericiliyinin Avropa standartlarına uyğun təkmilləşdirilməsinə, mütərəqqi məhkəmə-hüquq islahatlarının aparılmasına ciddi təkan vermişdir.

Heydər Əliyev dövlətçilik irsinin əsas istiqamətlərindən biri də dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması sahəsində kompleks tədbirlərin görülməsidir. Ölkənin hərbi qüvvələrinin yaradılması dövlətçiliyin əsas atributu və qarantı hesab olunsa da, təəssüf ki, SSRİ dağıldıqdan sonra Azərbaycanda hakimiyyəti ələ keçirməyə müvəffəq olmuş qüvvələrin səbatsız siyasəti nəticəsində bu amil ölkənin dövlətçiliyi üçün təminata deyil, təhlükəyə çevrilmişdi. Ordu quruculuğunda və ölkənin milli təhlükəsizlik sisteminin formalaşdırılmasında yol verilən kobud səhvlər son nəticədə Azərbaycanda qanunsuz hərbi birləşmələrin timsalında vətəndaş müharibəsinin subyektlərinin meydana çıxmasına səbəb olmuşdu. Ordunun siyasiləşməsi, dövlətçilik prinsiplərinə əsasən deyil, şəxsi siyasi maraqlara nəzərən formalaşdırılması sonda Azərbaycanın müstəqilliyi üçün ciddi təhlükə mənbəyi idi. Yalnız ulu öndər Heydər Əliyev 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə gəldikdən sonra bu tendensiyaya qarşı ciddi mübarizə aparmış, dövlətin milli təhlükəsizliyinin və ərazi bütövlüyünün təminatçısı funksiyasını yerinə yetirən sabit və güclü silahlı qüvvələrin yaradılmasına nail olmuşdur.

Son 15 ildə Azərbaycanda milli mənafelərə əsaslanmaqla həyata keçirilmiş xarici siyasət kursunun prioritet istiqaməti müstəqil və güclü dövlət modelinin praktik surətdə reallaşdırılmasına yönəlmiş, respublikamız beynəlxalq normalara istinad edərək sivil dünyanın hüquqi-siyasi atmosferini müəyyənləşdirən aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətlərini yüksək dinamizmlə inkişaf etdirmək xəttinə üstünlük vermişdir. Ulu öndər Heydər Əliyevin möhkəm təməllər üzərində əsasını qoyduğu balanslaşdırılmış xarici siyasət uzaq hədəflərə hesablanmış strateji fəaliyyət konsepsiyası olmaqla, müstəqil Azərbaycanın beynəlxalq arenada nüfuz və mövqelərinin güclənməsinə, ümummilli problemlərinin həllinə yönəlmişdir.

İnamla deyə bilərik ki, bu siyasət 2003-cü ilin oktyabrından Heydər Əliyev siyasi kursunun ən layiqli davamçısı - cənab İlham Əliyevin rəhbərliyi altında uğurla həyata keçirilir. Ulu öndər Heydər Əliyevin demokratik dövlətçilik strategiyasını ləyaqətlə davam etdirən Azərbaycan Prezidenti müəyyənləşdirilmiş möhkəm ənənələr üzərində özü də yeni bir dövlətçilik məktəbinin banisinə çevrilmişdir. Cənab İlham Əliyev respublikamızı uğurlu inkişaf yoluna çıxarmaqla, Cənubi Qafqaz bölgəsində həyata keçirilən qlobal enerji-kommunikasiya layihələrinin başlıca təminatçısına çevrilmişdir. Xalqa layiqli xidmət andını əməli işi ilə doğrultmuş dövlət başçısı Azərbaycanın iqtisadi inkişaf prioritetlərini dəqiq müəyyənləşdirmiş, hər bir vətəndaşın maraq və mənafeyinin yüksək səviyyədə təminatına yönəlmiş demokratiya kursunu inamla davam etdirmişdir. Respublikamız hazırda inkişafının elə mərhələsindədir ki, qazanılmış makroiqtisadi nailiyyətlər cəmiyyət həyatının ən müxtəlif sahələrində tərəqqi və intibaha, vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğuna xidmət edən, hər bir vətəndaşın həyatında kardinal dəyişikliklərlə müşayiət olunan islahatları əzmlə gerçəkləşdirmək imkanı yaradır. Prezident İlham Əliyevin rəhbərliyi altında inamla irəliləyərək Avratlantik məkana inteqrasiya kursunu davam etdirən, qlobal enerji və kommunikasiya layihələrinin mərkəzinə çevrilən, ümumi daxili məhsulun artım tempinə görə dünyanın lider dövlətləri sırasında yer tutan respublikamızda xalqın inamlı sabahı baxımından strateji əhəmiyyət daşıyan demokratikləşmə prosesinin sürətləndirilməsi xüsusi diqqət mərkəzindədir.

Cənab İlham Əliyev prezident seçkisindən sonra bəyan etmişdi ki, "Mən hər bir Azərbaycan vətəndaşının Prezidenti olacağam, hər bir Azərbaycan vətəndaşının qayğı və problemlərinin həlli yolunda bütün bacarıq və qabiliyyətimi əsirgəməyəcəyəm". Prezident İlham Əliyevin bu bəyanatı ulu öndər Heydər Əliyev ideallarına sadiqlikdən irəli gəlmişdir. Bu siyasi irs Azərbaycanda milli dövlətçiliyin dini, siyasi və etnik tolerantlığı imperativ kimi qəbul edən müasir modelini, dünyanın mövcud reallıqları kontekstində inkişaf tapmış demokratik idarəetmə fəlsəfəsini, mənəvi dəyərlərimizin qorunmasını, cəmiyyətin bütün potensialının milli maraqlar kontekstində səfərbər edilməsini, ictimai-siyasi sabitlik faktoruna istinad edən yeni iqtisadi inkişaf strategiyasını, habelə hakimiyyətlə cəmiyyət arasında daimi həmrəyliyin yaradılmasının elmi əsaslarını kifayət qədər təkmil formada özündə əks etdirir.

Dövlət başçısı İlham Əliyev son 5 ildə ölkədə milli birliyin möhkəmləndirilməsi, azərbaycançılıq ideologiyasının milli həmrəyliyin aparıcı faktoruna çevrilməsi istiqamətində mühüm işlər görmüşdür. Dövlətə qarşı ağır cinayətlərdə ittiham olunub adı qondarma "siyasi məhbus" siyahısından çıxmayan cinayətkarların əfv olunması böyük qəlbin və humanizmin nişanəsi, cəmiyyətdə iqtidar əleyhinə qeyri-sivil mübarizəni dövlət və dövlətçilik əleyhinə müharibəyə çevirən insanlara milli barış mesajıdır. Ölkədə kadr siyasəti və dövlət idarəçiliyi məsələlərində Azərbaycanın bütün vətəndaşlarının iştirakının təmin edilməsi, müxalifətin sağlam, konstruktiv dialoqa dəvət olunması, əldə edilən iqtisadi nailiyyətlərdən hamının öz bacarıq, zəhmət və əqli

imkanlarına görə bəhrələnməsi Prezident İlham Əliyevin milli birliyin möhkəmləndirilməsi istiqamətində atdığı addımlardır. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın istəyilə hakimiyyətə qayıdışı ilə Azərbaycanda əldə edilmiş milli birlik ölkəmizin ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir və 5 ilə yaxın müddətdə cənab İlham Əliyev ümumxalq həmrəyliyinin möhkəmləndirilməsi xəttini davam etdirmiş, bu siyasi xətti özünün konkret addımları ilə kamil elmi-nəzəri konsepsiya səviyyəsinə qaldırmışdır.

İnsan hüquqlarının maksimal müdafiəsini nəzərdə tutan bu addımlar özündə həm də humanist dəyərləri, mütərəqqi prinsipləri ehtiva edir. Buna əyani misal kimi, cənab İlham Əliyevin qısa müddətdə 10-dan artıq əfv fərmanı imzalamasını və 1500-dən artıq məhkumu əfv etməsini vurğulamaq olar. Bu fərmanların hətta ağır dövləti cinayətlərdə iştirak etmiş bir sıra məhkumlara da şamil edilməsi Azərbaycanda kifayət qədər demokratik siyasi sistemin mövcudluğunu təsdiqləyir. Bu məqam cənab İlham Əliyevin idarəçilik fəlsəfəsində humanizm və insanpərvərlik ideyalarının parlaq bir xətt təşkil etdiyini göstərir. Dövlət başçısı bu addımların mahiyyətini ölkə ictimaiyyətinə çox düzgün, dürüst şəkildə izah edir: "Mənim üçün hər bir vətəndaş əzizdir. Mən keçmişlə bugünün arasında görünməyən bir xətti görürəm. Keçmişdə çox səhvlər olub, Azərbaycan vətəndaş müharibəsi həddində olub. Mən cinayət törətmiş şəxsləri də azad etmişəm. Ona görə yox ki, hesab edirəm onlar siyasi məhbusdur. Mən Azərbaycanda qarşıdurma əhval-ruhiyyəsinin aradan götürülməsini istəyirəm. Bizim qarşımızda yeni vəzifələr durur, ölkəmizi inkişaf etdirməliyik, insanlarımızı səfərbər etməliyik. Biz milli barışığa nail olmuşuq və gərək bunu gücləndirək. Keçmiş ədavət və ziddiyyətlər tarixdə qalsın. Bu, mənim niyyətimdir.

Dövlət başçısı İlham Əliyev Azərbaycanın sosial-iqtisadi inkişafına paralel gedən demokratikləşmə proseslərini bir-birindən təcrid olunmuş şəkildə götürmədən hər iki xətti Azərbaycanın gələcək yüksəlişinin vahid istinad nöqtəsi kimi əsaslandırmışdır. Cənab İlham Əliyevin bununla bağlı irəli sürdüyü fikirlər təkcə Azərbaycanın yox, ümumilikdə demokratiya yoluna yenicə qədəm qoymuş bütün müstəqil ölkələrin gələcək inkişafının təməl prinsipi kimi tətbiq edilə bilər: "Demokratikləşmə prosesi və sosial iqtisadi inkişaf. Bunlar hamısı vahid bir prosesin tərkib hissələridir. Birini o birindən ayırmaq mümkün deyildir. Əgər biz diqqətimizi ancaq iqtisadi məsələlərə yönəltsək, siyasi proseslər kənarda qalsa, demokratikləşmə getməsə, ölkədə siyasi islahatlar getməsə, uğur qazana bilmərik. Biz bütün bu işləri paralel şəkildə aparmalıyıq. Eyni zamanda, əgər iqtisadiyyat inkişaf etməsə, onda demokratikləşmə prosesi də təhlükə altına düşər. Çünki kasıb ölkədə, çoxlu sosial problemləri olan olkədə insanlar demokratiya, siyasi proseslər haqqında düşünmürlər. İnsanları ancaq gündəlik məsələlər düşündürür. Ona görə paralel şəkildə, hərtərəfli inkişaf Azərbaycanı yaxın zamanlarda çox güclü dövlətə çevirəcəkdir".

Bu gün İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli islahatlar Azərbaycan dövlətinin siyasi xarakterini və inkişaf yolunu müəyyən edir. Bu müəyyənləşmə Azərbaycanın qısa müddət ərzində iqtisadi inkişaf göstəricilərinə görə bütün dünyada liderə çevrilməsi faktıdır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars kimi nəhəng layihələrin gerçəkləşməsi, respublikamızın ümumilikdə Avropa regionunun gələcək enerji təhlükəsizliyi missiyasını üzərinə götürməsi xalqımızın dünya arenasında layiqli yerini təmin edir. Azərbaycan insanının gün-güzəranı yaxşılaşır, şəhər, kənd və qəsəbələr abadlaşır, respublikamızda işsizlik-yoxsulluq kimi ağır sosial bəlalar artıq həllini tapır. Bütün bunlarla yanaşı, Azərbaycanda demokratiyanın təntənəsi, qanunların aliliyi, haqq-ədalətin zəfəri üçün bütün lazımi tədbirlər həyata keçirilir. Azərbaycanın mövcud iqtisadi potensialının insan kapitalına çevrilməsi istiqamətində atılan addımlar elmi inkişafa doğru sürətli kurs götürüldüyünü təsdiqləyir.

Hazırkı mərhələdə neft gəlirlərindən əldə olunan külli miqdarda vəsaitin respublikamızda vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu prosesinin daha da sürətləndirilməsinə, ümumilikdə, insan amilinin yüksəlişinə yönəldilməsi demokratiya sahəsində böyük təcrübəsi olan dövlətlər, ayrı-ayrı beynəlxalq təşkilatlar, nüfuzlu ekspertlər tərəfindən müsbət qarşılanır. Dövlət başçısı həyata keçirdiyi islahatları məhz ulu öndər Heydər Əliyevin müəllifi olduğu möhkəm təməl üzərində davam etdirir və yeni dövrün tələblərinə uyğun zənginləşdirməyə çalışır.

Milləti Heydər Əliyev ideyaları ətrafında birləşdirən cənab İlham Əliyev özünü azərbaycanlı sayan, bu mənsubiyyətdən qürur duyan hər kəsi ulu öndərimizin işıqlı, nurlu arzularının, ideyalarının həyata keçirilməsi istiqamətində səfərbər edir. Bütün bunlar tam mənada deməyə əsas verir ki, Prezident İlham Əliyevin dövlətçilik təcrübəsində siyasi varislik ənənələrinin davamı, üstəlik, mütərəqqi inkişaf meyillərinin gücləndirilməsi ideyası üstünlük təşkil edir. Alternativsizliyi ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illər ərzində dəfələrlə öz təsdiqini tapmış bu siyasi kursun davamlılığının təmin olunması Azərbaycanın dövlətçilik əsaslarının daha da möhkəmləndirilməsinə, müstəqilliyimizin əbədiliyinə, dövlətin hərtərəfli yüksəlişinə ən etibarlı təminatdır.

**“Azərbaycan”**.-2008.- 8 may.-№98.-S.11.

# HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİL DÖVLƏTİN MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR SİSTEMİ

**Səlahəddin Xəlilov**
Fəlsəfə elmləri doktoru

Ötən hər bir il sübut edir ki, sözün hər mənasında, böyük və ibrətamiz ömür yaşamış ümummilli lider Heydər Əliyevin ideya dünyasının, təməlini qoyduğu siyasi kursun, strateji inkişaf xəttinin ömrü daha böyükdür. Hisslər, xatirələr heykəllərdə və muzeylərdə rəmzləşdiyi kimi, ideyalar, fikirlər də gerçək ictimai-siyasi proseslərdə təcəssüm olunur. Həm də bu, daha rəmz deyil, həyatın özüdür – reallıqdır. Bu mənada Heydər Əliyevə ən böyük abidə onun siyasi kursunun saxlanması və inkişaf etdirilməsidir ki, bu missiya da Prezident İlham Əliyevin rəhbərliyi ilə böyük uğurla həyata keçirilir.

Ulu öndərin bu gün də yaşamaqda olan ideya-siyasi varlığına öz münasibətimizi təkcə iftixar hissi keçirməklə deyil, həm də bu ideya dünyasını öyrənmək, tədqiq etmək və həyata keçirməklə ifadə edirik. Əsas məsələ bu ideyalarla silahlanmış yeni nəslin yetişdirilməsidir. Bizim nəsil təkcə ictimai həyatda yox, həm də mənəvi-ideoloji həyatda keçid dövrünü yaşadığı halda, gənc nəsil artıq təməli Heydər Əliyev tərəfindən qoyulmuş yeni ideologiyanın, azərbaycançılıq məfkurəsinin təsiri altında formalaşır. Ona görə də bu gün yeni siyasi reallığın, yeni iqtisadi münasibətlərin mahiyyəti və məzmunu ilə yanaşı, yeni ideoloji kursun, yeni mədəni-mənəvi dəyərlər sisteminin də mahiyyətinin açılmasına və təbliğinə böyük ehtiyac vardır.

Müstəqillik əldə etmiş, öz xarici və daxili siyasətini milli maraqlara, ümumxalq, ümumdövlət mənafeyinə uyğun olaraq qurmaq imkanı qazanmış xalq, heç şübhəsiz, birinci növbədə öz dilini, milli mədəniyyətini, adət-ənənələrini də inkişaf etdirməyə çalışır. Lakin bu işi görməyə budaqdan deyil, kökdən, gövdədən başlamaq lazımdır. İlk növbədə dövlətçiliyi möhkəmləndirmədən, xarici ölkələrlə münasibətləri ümumbəşəri dəyərlər və beynəlxalq normalar əsasında quraraq, dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmadan, yeni iqtisadi münasibətlərə keçid strategiyasını müəyyənləşdirmədən, ancaq və ancaq milli mədəniyyəti, dili, mənəviyyatı inkişaf etdirmək mövqeyi real ictimai tərəqqi üçün təməl ola bilməz.

Kommunist ideologiyasından imtina etmiş xalqın bu boşluğun yerini nə iləsə doldurmağa ehtiyac hiss etdiyi bir vaxtda dinçilik də, millətçilik də, qərbçilik də və hətta bazar iqtisadiyyatına sürətli keçidin təsiri ilə baş alıb gedən “alver psixologiyası” da ideologiyada mərkəzi yer tutmaq iddiasında ola bilər.

Lakin ideologiya ayrıca fərdlər, onların ruhu, mənəviyyatı haqqında yox, cəmiyyətin siyasi təşkili, optimal siyasi-iqtisadi strukturu və ictimai həyatda mədəni-mənəvi meyarlar haqqında təlim olduğundan burada nə din, nə də milli spesifiklik mərkəzi yer tuta bilməz. Din və millətlə əlaqə əsasən sonrakı mərhələdə - ictimai müstəvidən fərdi müstəviyə keçəndə ortaya çıxır. Cəmiyyətin elə təşkilati struktur, elə dəyərlər və meyarlar sistemi optimal sayıla bilər ki, şəxsi mənafe ilə ictimai mənafe, əxlaqla hüquq arasında ciddi ziddiyyət ortaya çıxmasın, insanların vicdan azadlığı hər hansı formada məhdudlaşdırılmasın. Bu baxımdan, dövlət siyasəti və hüquq normaları, qanun və məcəllələr işlənib hazırlanarkən onların əhalinin dini və milli hissləri ilə uzlaşması, ahəngdarlığı məsələsi nəzərə alınmalıdır. Yəni cəmiyyətin inkişaf strategiyası, sosial ideal elə seçilməlidir ki, o, adamların mənəvi idealı və əqidəsi ilə ahəngdar ola bilsin. Lakin burada yeganə məqbul metod - deduktiv metoddur.

Adamların hər birinin istək və arzularının, şəxsi mənafelərin, dini və milli hisslərin toplanmasından cəmiyyətin optimal modeli hasil ola bilməz. Əksinə, ümumi ictimai inkişaf qanunauyğunluqlarının öyrənilməsindən hasil edilən cəmiyyət modeli, sosial ideal və ona çatmaq üçün həyata keçirilən siyasi, iqtisadi və hüquqi islahatlar sistemi ilkin olaraq müəyyənləşdirilir və bu modelin, islahatların hər bir adamın həyatında öz əksini necə tapması sonrakı mərhələdə ortaya çıxır. Sosial idealın düzgün seçilməsi kütlələrdən yox, tarixi keçid mərhələsində sükan arxasında necə bir şəxsiyyətin oturmasından - milli liderin uzaqgörənliyindən asılıdır. Sosial nəzəriyyələrin həqiqiliyi və pozitivliyi, adətən, ictimai praktika ilə təsdiq olunur və deməli, nəzəriyyə ictimai gerçəkliyin tələblərinə uyğun olmalıdır. Heydər Əliyevin dövlət idarəçiliyi praktikası göstərir ki, bütün sahələrdə olduğu kimi, ideya-siyasi məsələlərdə də bu tələb həmişə nəzərə alınmışdır.

Heydər Əliyevin hakimiyyəti dövründə ölkənin daxili siyasətindən doğan, öz vətəndaşlarına yönəldilmiş ideoloji kursla ölkənin xarici siyasətinə, digər ölkələrlə qarşılıqlı əlaqəsinə istiqamət verən ideoloji kurs arasında bir uyğunluq, qarşılıqlı tamamlama olmuşdur. Əsas məsələ sosial idealın və inkişaf strategiyasının məlum olması və onlardan irəli gələn xarici siyasət kursunun düzgün seçilməsidir. Beynəlxalq vəziyyətin dəyişməsi ilə əlaqədar xarici siyasətdə hər dəfə dəyişiklik edilərkən ideoloji kursa uyğunluq şərtlərinin də həmişə nəzərə alındığı məlum olur.

Beləliklə, Heydər Əliyevə görə, milli ideologiyanın üzərinə düşən bir vəzifə də daxili və xarici siyasətin ortaq məxrəcə gətirilməsi, dövlətin hər iki istiqamətdə ahəngdar fəaliyyəti üçün zəmin hazırlanmasıdır. Burada ideologiyanın milli-fəlsəfi fikirlə əlaqədar olması və dövlət idarəçiliyinin elmə və ictimai fikrə söykənməsi də mühüm şərtdir. İctimai fikrin formalaşmasında dini şüur, əxlaq və adət-ənənə ilə yanaşı, bədii ədəbiyyat, teatr, kino və incəsənətin digər növlərinin də iştirak etdiyi nəzərə alınmalıdır. Bu məsələdə kütləvi informasiya vasitələrinin də üzərinə böyük yük düşür. Müasir qloballaşma və demokratiya şəraitində informasiya dövlətin nəzarətindən kənara çıxdığından, milli ideologiya prinsipinə əməl edilməsi və onun yad ünsürlərdən qorunması vəzifəsi bütün ictimaiyyətin, hər bir vətəndaşın üzərinə düşür.

Azərbaycanda milli ideologiyanın əsas aspektləri müəyyənləşdiriləndən sonra qarşıda duran başlıca vəzifə bu müxtəlif sahələr arasında daxili əlaqəni üzə çıxarmaq, ideologiyanı bütöv, mükəmməl sistem kimi formalaşdırmaqdan ibarətdir. Bu vəzifənin həyata keçirilməsində əsas birləşdirici amillərdən biri dildir. Təsadüfi deyildir ki, Heydər Əliyev "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanda dilin ictimai mahiyyətinə, sintetik funksiyasına böyük önəm vermişdir. Azərbaycan dili həm azərbaycançılıq konsepsiyasında, özünüdərk prosesində mərkəzi yer tutmaqla, həm də müxtəlif tarixi mərhələlər arasında körpü rolunu oynamaqla milli ideologiyanın formalaşmasında fəal iştirak edir. Mənəviyyatımızın ən etibarlı daşıyıcısı olan şifahi xalq ədəbiyyatı da, milli-fəlsəfi fikir də dilə sıx bağlı olduğundan Azərbaycan dilinə və yeni əlifbaya keçidlə əlaqədar məsələlərə xüsusi diqqət verilməsi eyni zamanda milli ideologiyanın inkişafına xidmət edən addımlar kimi qiymətləndirilməlidir.

Bəli, Heydər Əliyev ideologiyanın formalaşdırılması və mütəşəkkil şəkildə həyata keçirilməsinə böyük önəm verirdi: "Bizim milli ideologiyamızın konsepsiyası olmalıdır. Şübhəsiz ki, bu konsepsiya tarixi keçmişimizin, milli, mədəni, dini ənənələrimiz üzərində qurulmalıdır. Biz XX əsrdə cürbəcür mərhələlərdən keçdik, ayrı-ayrı ideologiyaların təsiri altında qaldıq. İndi xalqımız hər cəhətdən azaddır. Ona görə də lazımdır ki, ümumiyyətlə, düşünən beyinlərimiz, alimlərimiz və o cümlədən, təhsil sahəsində çalışan müəllim ordusu milli ideologiyamızın formalaşması üçün öz fəaliyyətini göstərsin. Bu ideologiyanı qurmaq, yaratmaq, təşkil etmək, eyni zamanda əməli surətdə həyata keçirmək lazımdır."

Heydər Əliyevin təsnifatında ideologiyanın tərkib hissələrindən biri kimi milli mədəniyyətə böyük önəm verilir. Bu problemin kulturoloji aspekti ilə yanaşı, etnik-milli aspektinin də araşdırılmasına böyük ehtiyac vardır. Etnik-milli xüsusiyyətlər qısa müddətdə, birdən-birə formalaşmır. Əsrlər boyu davam edən ənənəviləşən, qərarlaşan ünsiyyət formaları tədricən cəmiyyətdə stabil sosial normalar, əxlaqi və estetik meyarlar sistemi yaradır və düşüncə tərzinin özünə də təsir edir. Əvvəlki nəsillərin həyat tərzi və qiymətləndirmə meyarları bilavasitə ötürülməklə yanaşı, bədii ədəbiyyat və incəsənət vasitəsi ilə də yeni nəslə çatdırılır. Nəticədə milli varislik müxtəlif kanallar və vasitələrlə təmin edilir.

Bu gün milli özünüdərk problemi həm də ona görə aktualdır ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra xalqımız öz mədəni-mənəvi köklərinə qayıtmağa, öz milli mentalitetinə adekvat olan həyat tərzi qurmağa çalışır. Lakin buna nail olmaq üçün ilk növbədə əsrlərdən və nəsillərdən bizə miras qalmış milli sərvətlərimizi qoruyub saxlamağı və onları dəyərləndirməyi bacarmalıyıq. "Xalqımızın mənəviyyatını qorumağı və zənginləşdirməyi" başlıca məqsədə çevirməliyik. Heydər Əliyev milli-mənəvi dəyərlərimizi bir rəmz edərək real proseslərə formal surətdə əlavə etmək yox, milliliklə müasirliyin məzmun müstəvisində vəhdətinə nail olmaq prinsipindən çıxış edirdi.

Qloballaşma şəraitində milli-mənəvi dəyərlərimiz böyük təhlükələrlə üzləşir və milli fəlsəfi fikrə istinad etmədən, milli ideologiyanın formalaşmasını təmin etmədən və milli-sosial özünüqoruma şüuru formalaşdırmadan bu təhlükədən xilas olmaq çox çətindir. İndi hər bir millət, hər bir xalq, hər bir məmləkət özünün ən böyük fikir sahiblərinin simasında, bir tərəfdən bəşəriyyətdə, planetdə gedən proseslərin anlaşılmasına çalışır, digər tərəfdən öz millətinin, xalqının, dövlətinin bu yeni mənzərədə, planetin bu yeni coğrafi, iqtisadi, siyasi xəritəsində yerini müəyyənləşdirməyə çalışır. Bu bir şansdır. Lakin, kimlərsə bu yeni şansı vaxtında dərk edir və qloballaşan cəmiyyətə şüurlu surətdə daxil olmağa çalışır, kimlərsə hələ də qəflət yuxusundadır.

Belə tarixi sınaq məqamında əhalinin çoxluğu, məmləkətin böyüklüyü deyil, onun sükanı arxasında kimin dayanması daha önəmlidir. Əsas məsələ həmin tarixi sınaq məqamında, xalqın içərisindən çıxmış, onun milli-mənayefini dərk etmək və qoruyub saxlamaq iqtidarında olan mütəfəkkir liderin mövcud olmasındadır. Heydər Əliyevin göstərdiyi tarixi xidmət onun məhz belə məsuliyyətli bir məqamda hakimiyyət başında olması və düzgün seçim edə bilməsi sayəsində daha parlaq surətdə nəzərə çarpır.

Planetin bugünkü mənzərəsi heç də yalnız siyasi və iqtisadi maraqların kəsişməsi ilə səciyyələnmir. Bu meydanda həm də milli ideyalar qarşılaşır. Ən böyük qabiliyyət də siyasi, iqtisadi maraqlarla yanaşı, milli maraqların da qorunub saxlanmasına nail olmaq və Millətlər Birliyinə öz simasını itirmədən daxil olmağı

bacarmaqdır. Düzdür, bunu əngəlləyən qüvvələr çoxdur, lakin şəxsiyyətin böyüklüyü də, özünü məhz belə çətin vəzifələrin həllində göstərir. Heydər Əliyev ilk dəfə azərbaycançılıq ideyasını dövlətin strateji xətti kimi irəli sürəndə, bu ideyanın həqiqi böyük mənası çoxları üçün anlaşılmaz idi. Bu gün də qismən belədir. Çünki bu ideya adi şüur səviyyəsində üzə çıxmayıb, deklarativ şüar olmayıb, çox dərin köklərə malik olan mükəmməl bir fəlsəfi konseptual sistemin ifadəsidir.

Ən doğru yol yeni ümumbəşəri mədəniyyətin milli mədəniyyətlərin fövqündə deyil, onlarla sintez halında formalaşmasıdır. Bu baxımdan, Heydər Əliyevin milli ideologiyamızın əsas prinsipi kimi irəli sürdüyü "milliliklə ümumbəşəriliyin vəhdəti" ideyası əsas götürülməlidir. Biz başqalarından öyrəndiyimiz kimi, başqaları da bizdən öyrənməlidir. Həm də burada "ortaq məxrəc" prinsipi əsas tutulmamalıdır. Hansı millətdə hansı milli-mənəvi keyfiyyət üstündürsə, onun bütün bəşəriyyət tərəfindən qəbul olunması ideal qloballaşma modelinə daha çox uyğundur.

Bizim bəzi kütləvi informasiya vasitələri isə hüquqi məhdudiyyətlərin aradan götürülməsindən sui-istifadə edərək və daha varlı olan və daha çox qonorar və reklam haqqı vermək iqtidarında olan kosmopolit ruhlu, qərbpərəst şəxslərin və təşkilatların təsiri altında fəaliyyət göstərirlər. Bununla, guya, Qərbə, Qərb mədəniyyətinə qovuşduqlarını zənn edənlər əslində yanılırlar. Çünki Qərb dünyası ilkin kapital yığımı dövrünü, "mənəviyyatsızlıq" dövrünü arxada qoymuşdur və indi yüksək mənəvi inkişaf uğrunda mübarizə aparır. Biz isə bəzən əsl yüksək Qərb mədəniyyətindən xəbərsiz halda bizə məqsədyönlü surətdə və böyük səxavətlə transfer olunan "vulqar kütləvi mədəniyyət" nümunələrini az qala Qərbin əsas göstəricisi kimi qəbul edirik. Bu səhv təsəvvürdən daşındırmaq üçün Heydər Əliyev bu məsələni xüsusi qeyd edirdi: "Ayrı-ayrı jurnallarda, qəzetlərdə pornoqrafiya səviyyəsində fotoşəkillər nümayiş etdirənlər nə düşünürlər? İndi ən inkişaf etmiş Avropa ölkələrində, Amerikada, başqa ölkələrdə belə şeylər yoxdur. Vaxtilə, nə vaxtsa olubdur. Amma indi belə şeylər yoxdur". Bəli, başqa xalqlardan, xarici ölkələrdən öyrənmək qəbahət deyil. Lakin başqa xalqların mədəniyyətini, mənəviyyatını təhrif olunmuş şəkildə, biznes məqsədilə çəkilmiş filmlərdən və ya ancaq xüsusi publika üçün, məhdud miqyasda adamlar üçün nəzərdə tutulmuş qəzet və jurnallardan deyil, onların klassik əsərlərindən, yüksək bədii nümunələrdən öyrənmək lazımdır.

Keçid dövrünün ən mühüm problemlərindən biri də cəmiyyətin strukturunda öz iqtisadi imkanlarına görə seçilən müxtəlif təbəqələrin birgə yaşayışı və bu zaman ortaya çıxan mənəvi problemlərdir. Məsələ burasındadır ki, Qərb ölkələrində milli burjuaziya neçə əsrlər ərzində formalaşmış və onların mənəvi-əxlaqi keyfiyyətləri və buna uyğun həyat tərzi də yaranmışdır. Lakin hələ müvafiq mənəvi təkamül keçməmiş insanların birdən-birə çoxlu qazanc əldə etməsi, hələ cəmiyyətdə bu artıq pulların ictimai mənafe baxımından faydalı surətdə xərclənməsi, yeni iş yerlərinin açılması, bütövlükdə milli-ictimai tərəqqiyə xidmət edilməsi istiqamətində ənənənin müəyyən çətinliklər doğurur. Artıq pulların ən asan xərclənmə üsulu onun eyş-işrətə sərf olunmasıdır. Ona görə də, qarşıda həm də milli burjuaziyanın mənəvi keyfiyyətlərinin formalaşdırılması kimi çətin bir vəzifə durur. Həm də milli burjuaziyadan fərqli, məhz keçid dövrü üçün səciyyəvi olan sosial qruplar da vardır ki, onlar maddi istehsalın və halal biznesin çətin yolları ilə deyil, bir sıra əyri yollarla asanlıqla böyük pullar qazanırlar. Onlarda milli mənəviyyatın formalaşdırılması ümumiyyətlə, mümkün deyil. Çünki onların iş üsulu özü mənəviyyatla bir araya sığmır. Məhz belə mürəkkəb bir şəraitdə cəmiyyət daxilində böyük təzadlar yaranır. Heydər Əliyev diqqəti məhz bu problemə yönəldərək demişdir: "Bir qütbdə həddindən artıq zənginləşmiş, bəzi hallarda qanunsuz zənginləşmiş, öz vəzifələrindən sui-istifadə edərək zənginləşmiş, harınlaşmış insanlar və onların övladları eyş-işrət içərisindədir, o biri tərəfdən, çadırlarda yaşayan insanlar inildəyirlər, nə qədər əziyyətlər çəkirlər". Doğrudan da böyük təzaddır. Və təbii ki, cəmiyyətin strukturundakı bu təzadlar mənəvi həyatımızda da təzahür edir. Heydər Əliyev məhz bu məsələdə də Qərbin yaxşı nümunələrini öyrənməyə çağırırdı. Avropada, Amerikada zəngin adamların, böyük biznesmenlərin real həyat tərzinin nə dərəcədə işgüzar, səmərəli və sadə olduğunu yada salır.

Bizim mətbuat da, televiziya da bədii ədəbiyyat da məhz bu yaxşı nümunələrin təbliğinə yer verməlidir, həqiqətdən uzaq olan və ancaq ideoloji və mədəni-mənəvi təxribat məqsədi daşıyan bayağı nümunələrə isə nə mətbuatda nə də efirdə yer verilə bilməz. "Biz buna dözə bilmərik. Azərbaycanın milli-mənəvi dəyərlərinə qarşı, Azərbaycanın milli mentalitetinə qarşı yönəldilmiş hərəkətlərin hamısının qarşısı alınacaqdır və qanun çərçivəsində lazımi ölçülər götürüləcəkdir". Heydər Əliyevin bu qətiyyətli mövqeyi bütün Azərbaycan xalqı tərəfindən dəstəkləndi və heç şübhəsiz, hamılıqla həyata keçiriləcəkdir.

Milli-mənəvi dəyərlərə dövlətçilik mövqeyindən qiymət verilməsi ölkəmizdə azərbaycançılığın qorunub-saxlanması və inkişaf etdirilməsi baxımından xüsusi əhəmiyyətə malikdir. Heydər Əliyev azərbaycançılığın bütün tərkib hissələrini milli ideologiyamızın strukturuna daxil etməklə mənəviyyat və dövlətçiliyin sintezindən çıxış edirdi. Bu ideologiyanın ilk müddəaları və əsas istiqamətləri Yeni Azərbaycan Partiyasının Nizamnaməsi və Məramnaməsində ifadə olunmuşdur. Heydər Əliyev özü YAP-ın yaradılmasının 6-cı ildönümü münasibəti ilə

təntənəli yığıncaqda belə demişdir: "Azərbaycanın müstəqil dövlət kimi milli ideologiyası... Yeni Azərbaycan Partiyasının məramnaməsində öz əksini tapıbdır. Bizim həm xarici siyasətdə, həm daxili siyasətdə, həm ictimai-siyasi sahədə, həm sosial-iqtisadi sahədə gördüyümüz işlər həmin milli ideologiyanın üzərində qurulur.

Bu milli ideologiya nədən ibarətdir?

Birincisi, dövlətçilik. Dövlətçilik bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaqdır. Azərbaycanın müstəqilliyini möhkəmləndirməkdir. Dövlətçilik hər bir vətəndaşın qəlbində olmalıdır. Ona görə, hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır və bizim partiyamız bütün dövlət orqanları bütün təbliğatımız Azərbaycanda dövlətçiliyi inkişaf etdirmək üçün hər bir vətəndaşda milli vətənpərvərlik hisslərini yaratmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, hər bir vətəndaş milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından - hər şeydən üstün tutsun".

Elə həmin çıxışda Heydər Əliyev milli-mənəvi dəyərlərimizi milli ideologiyamızın ikinci əsas komponenti kimi təqdim etmişdir. Beləliklə, Heydər Əliyevə görə milli ideologiyanın əsas komponentləri, bir tərəfdən, milli dövlətçilik, digər tərəfdən, milli-mənəvi dəyərlərdir. Dövlətçilik ideologiyası insanların bir vətəndaş kimi formalaşdırılmasını, vətənə sevgi hissini, dövlət mənafeyini üstün tutmaq, şəxsi mənafeyi dövlət mənafeyi prizmasından keçirmək vəzifələrini əhatə edir. Heydər Əliyevə görə, dövlətçilik ənənələri dövlətçilik ideologiyası, dövlətçilik psixologiyası və dövlətçilik praktikasının vəhdətindən yaranır.

Dövlətçilik ideologiyası hüquqi və siyasi şüurun yüksəldilməsini, insanın şəxsi həyatının, şəxsi maraqlarının cəmiyyətdə gedən proseslərlə əlaqələndirilməsini, dövlət idarəçiliyindən hər bir şəxsin bilavasitə və ya bilavasitə iştirakının təmin olunmasını nəzərdə tutur. Dövlətçilik ideologiyası habelə iqtisadi təfəkkürün və iqtisadi mədəniyyətin inkişaf etdirilməsini, dövlət tərəfindən qanunvericilik aktları ilə aparılan iqtisadi islahat proseslərinin məqsədyönlü surətdə insanların şəxsi mənafeyi, rifahı və həyat tərzi ilə əlaqələndirilməsini, uyğunlaşdırılmasını əhatə edir. Beləliklə, yeni iqtisadi doktrina, yeni iqtisadi münasibətlərə keçidin əsas prinsipləri, həyata keçirilən sosial-iqtisadi proqramların əsasında duran ideyalar milli ideologiya kontekstinə daxil edilməlidir.

Heydər Əliyev keçid dövründə iqtisadi islahat proqramının reallaşdırılması ilə milli-mənəvi dəyərlərin qorunub saxlanması arasında uyğunsuzluqlar ortaya çıxa biləcəyini də nəzərə alırdı. Məlumdur ki, ictimai sabitlik ancaq hüquq-mühafizə orqanlarının işi hesabına əldə edilə bilməz. Bütün stabil cəmiyyətlərdə, inkişaf etmiş kapitalist ölkələrində daxili müvazinət ilk növbədə iqtisadi və sosial-mənəvi həyatın tarazlaşdırılması hesabına əldə edilir. Lakin bu müvazinət artıq qərarlaşmış cəmiyyətlər üçün səciyyəvidir. Bir sosial-iqtisadi durumdan yenisinə keçid zamanı ölkədə daxili müvazinət təbii ki, pozula bilər və bunun qarşısını almaq üçün xüsusi məqsədyönlü fəaliyyət göstərilməlidir. Heydər Əliyev "bazar iqtisadiyyatı münasibətlərindən irəli gələn yeni növ cinayətlərdən" danışarkən, məhz ölkəmizin çağdaş sosial-iqtisadi durumundan, bazar iqtisadiyyatının keçid dövrü üçün səciyyəvi olan mənfi nəticələrindən bəhs edirdi.

Heydər Əliyevin ümumən bazar iqtisadiyyatına münasibəti müsbət idi və bu münasibət onun çıxışlarında dəfələrlə aydın şəkildə qeyd edilmişdir: "Bizim iqtisadi siyasətimiz məlumdur və o, Azərbaycanda bazar iqtisadiyyatı yolu ilə getmək və bu yol ilə Azərbaycan iqtisadiyyatını dünya iqtisadiyyatına sıx surətdə bağlamaq məqsədi daşıyır". Lakin bazar iqtisadiyyatına keçid müxtəlif formalarda və müxtəlif templərdə ola bilər. Bu zaman elə bir yol seçilməlidir ki, milli-mənəvi ənənələrə, əxlaqi dəyərlərə ziyan dəyməsin.

Bəli, istəsək də, istəməsək də müasir sivilizasiyaya qovuşmaq üçün inkişaf etmiş Qərb ölkələrinin keçdiyi yolu biz də keçməli olacağıq. Lakin bizim əlimizdə bu ölkələrin keçdiyi yolların xəritəsi var və biz tarixin ibrət dərslərini nəzərə alsaq ilk yol açanların bütün səhvlərini təkrar etmərik. Bunun üçün, əlbəttə, tarixi də, iqtisadiyyatı da, müasir dünyanın inkişaf meyllərini də gözəl bilmək tələb olunur. Belə çətin bir zamanda həm dünya iqtisadiyyatına inteqrasiya olunmaq üçün düzgün inkişaf strategiyası seçmək, həm də milli-mənəvi dəyərləri qoruyub saxlamaq yaxşı ölçülüb-biçilmiş mükəmməl siyasi plan tələb edir.

Heydər Əliyevin milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli-mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Burada Heydər Əliyev üç tərkib hissəsini xüsusi qeyd edirdi: dil, din, adət-ənənə. Və bunların şüur müstəvisində proyeksiyası olan milli mentalitet.

Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bunlarsız millət yoxdur. Bunları qoruyub saxlamış xalq isə həmişə müstəqillik yolu ilə getmək, müstəqilliyini qorumaq əzmindədir. Çünki milli dövlətçilik və milli-mənəvi dəyərlər arasında sıx bir daxili əlaqə vardır. Milli müəyyənliyi olmayan və özünü bir millət kimi dərk etməyən xalqın milli dövlətə də ehtiyacı ola bilməz. Belə ki, milli dövlət, bir tərəfdən ərazinin və iqtisadi sərvətlərin

qorunmasına xidmət edirsə, digər tərəfdən və daha çox dərəcədə milli-mənəvi dəyərlərin qorunması və nisbi müstəqil inkişafının təmin olunması məqsədi daşıyır.

Heç bir dövlət başçısı, heç bir siyasi lider və hətta heç bir millətçi ziyalı dövlət quruculuğu və idarəçiliyi ilə yanaşı milli ideologiyanın əsas istiqamətlərinin müəyyənləşdirilməsi, bu sahədə yeni mükəmməl elmi konsepsiyasının yaradılması və onun həyata keçirilməsi sahəsində Heydər Əliyev qədər şəxsi əzmkarlıq göstərməmişdir.

Milli ideologiyanı bir qayda olaraq yaradıcı şəxslər, milli ziyalılığın təmsilçiləri, alimlər, filosoflar, yazıçılar və s. formalaşdırır və inkişaf etdirirlər. Siyasətşünaslar, siyasi liderlər və dövlət başçıları milli ideologiyanın bir komponenti olan milli dövlətçilik konsepsiyasının işlənib hazırlanmasında iştirak edirlər. Milli-mənəvi dəyərlərin də dövlət quruculuğu və sosial-iqtisadi inkişaf strategiyası ilə yanaşı ümummilli inkişaf strategiyasına, milli ideologiyanın strukturuna daxil edilməsi üçün bir qayda olaraq milli ziyalılar dövlət başçısına, siyasi rəhbərliyə təsir göstərməyə çalışırlar.

Azərbaycanda isə bu proseslərin mənzərəsi xeyli dərəcədə fərqlidir. Ziyalılarımızın milli tərəqqi prosesində rolunu azaltmadan və onların milli hissiyyatına toxunmadan qeyd etməliyik ki, bizdə milli dəyərlər uğrunda mübarizənin önündə həmişə Heydər Əliyev özü getmiş və əksinə, milli ziyalılarımızı da bu istiqamətdəki fəaliyyətə səfərbər etməyə çalışmışdır. Ona görə yox ki, Azərbaycan ziyalıları millətini az sevirlər. Sadəcə olaraq, Heydər Əliyev millət sevməyin, millətə xidmətin yüksək ali nümunəsini, yollarını və üsullarını hətta alimlərimizdən, yazıçılarımızdan da yaxşı mənimsədiyinə görə təşəbbüs ondan çıxırdı. O hətta rəsmi sərəncamlarla, xüsusi qərarlarla böyük milli-mədəni abidələrimizin fiziki və ya mənəvi cəhətdən restavrasiyasına, milli yaddaşın bərpa olunmasına, milli köklərə qayıdışın sürətləndirilməsinə rəvac verirdi.

Məsələn, Füzulinin 500-illik yubileyinin, "Kitabi-Dədə Qorqud"un 1300 illik yubileyinin böyük təntənələrlə, ziyalılarımızın verdiyi təkliflərdən də yüksək səviyyədə keçirilməsi məhz Heydər Əliyevin şəxsi təşəbbüsü idi.

Milli ideologiyamızın Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş ən mühüm istiqamətlərindən biri azərbaycançılıq xəttidir. Bu xətt, bir tərəfdən, Azərbaycanda vahid milli-dövlətçilik hissiyyatının formalaşmasını, etnik-milli yetkinləşmə və bütövləşməni nəzərdə tutursa, digər tərəfdən, Azərbaycan dilinin bir dövlət dili olaraq inkişafını və bütün ölkə miqyasında, bütün fəaliyyət sahələrində mövqeyinin möhkəmlənməsini nəzərdə tutur. Heydər Əliyevin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" verdiyi fərman ölkəmizdə Azərbaycan dilinin inkişafı üçün yeni perspektivlər açmışdır.

Fərmanda Azərbaycan dilinin xalqımız üçün ən mühüm milli dəyər olduğu vurğulanır və ona yüksək qiymət verilir: "Azərbaycan dili bu gün dərin fikirləri ən incə çalarlarınadək olduqca aydın bir şəkildə ifadə etmək qüdrətinə malik dillərdəndir. Düşüncələrdəki dərinliyi, hisslərdəki incəlikləri bütünlüklə ifadə etmək kamilliyinə yetişə bilməsi üçün hər hansı xalqa bir neçə minillik tarix yaşaması lazım gəlir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi göstərir ki, Azərbaycan xalqı dünyanın ən qədim xalqlarındandır". Bəli, dilimizin zənginliyi tariximizin qədimliyi üçün də bir sübutdur. Belə yüksək dərəcədə təşəkkül tapmış bir dil, heç şübhəsiz xalqımızın ən böyük sərvətidir və onu inkişaf etdirmək hər birimizin borcudur.

Maraqlıdır ki, dilimizin müqəddəratı da dilçilərimizdən öncə məhz Heydər Əliyevi düşündürürdü. O, dilimizlə bağlı hər hansı bir problemə olduqca həssaslıqla yanaşır və fərmanda da diqqətini bu məsələlərə yönəldirdi: "Çox qəribə görünsə də, Azərbaycan dilçiliyinin sovet dövründə əldə edilmiş sürətli inkişaf tempi son illərdə aşağı düşmüşdür və bu sahədə bir durğunluq müşahidə olunur. Azərbaycanda nitq mədəniyyəti məsələlərinin tədqiqinə və nizamlanmasına kəskin ehtiyac duyulur". Dilimizin inkişafı ilə bağlı yol verilmiş nöqsanlar kəskin surətdə tənqid olunurdu: "Azərbaycan Respublikasının xarici siyasət sahələrində, xüsusilə, ölkəmizdə fəaliyyət göstərən səfirlik, xarici nümayəndəlik və şirkətlərdə Azərbaycan dilinin işlənməsi yarıtmaz vəziyyətdədir. Azərbaycan dili dərslikləri, tədris vəsaiti, ana dilində elmi və bədii ədəbiyyat mətbuat və sairə ilə təmin olunması qənaətbəxş deyildir".

Millət öz poeziyası, ədəbiyyatı, hətta elmi ilə nə qədər qabağa getsə də, onun dövlətçilik təcrübəsi yoxdursa, deməli dövlət dili də hələ formalaşmayıb. Yaxşı bələdçilər, yolaçanlar olmasa, dövlətçiliyin və milli dövlət dilinin formalaşması prosesi uzun çəkə bilər. Yalnız milli dövlətçilik ənənələrimizin tarixinə yaxşı bələd olan və irəlicədən neçə onilliklər ərzində başqa bir dövlətin tərkibində müasir dövlətçilik təcrübəsini mənimsəmiş olan yaradıcı dövlət xadimi qısa bir tarixi dövrdə müstəqil milli dövlət formalaşdırmağa nail ola bilərdi. Təsadüfi deyil ki, məhz Heydər Əliyev bu vəzifəni az bir müddətdə çox böyük uğurla həyata keçirdi və rəsmi dövlət dilinin inkişaf etdirilməsi işini də dövlətçiliyin atributlarından biri kimi ön plana çəkdi. Bu gün dilimizin inkişafının əsas qarantı dövlətimizdir. Lakin həm tarixilik, həm də müasirlik baxımından kifayət qədər inkişaf etmiş və "dünya dilləri içərisində öz layiqli yerini tutmuş" (Heydər Əliyev) Azərbaycan dili də, öz növbəsində dövlət müstəqilliyimizin mühüm qarantlarından biridir.

Prezident İlham Əliyevin bədii ədəbiyyatın klassik nümunələrinin latın qrafikası ilə kütləvi tirajla çap olunması haqqında sərəncamı bir daha sübut etdi ki, Heydər Əliyev siyasi kursu bütün aspektlərdə olduğu kimi, mədəni sərvətlərimizə, dilimizə, ədəbiyyatımıza münasibətdə də saxlanılır və uğurla davam etdirilir. Azərbaycan Milli Ensiklopediyasının Rəyasət Heyətinin yığıncağında Prezidentin göstərdiyi prinisipial mövqe bunu bir daha təsdiq etdi.

Heydər Əliyev Azərbaycanla, onun tarixi və bu günü ilə bağlı biliklərin tədrisinə böyük önəm verir və bunu vətənpərvərlik tərbiyəsinin ən mühüm amili hesab edirdi. Bununla əlaqədar Heydər Əliyev belə demişdir: “... Müstəqil Azərbaycanın hər bir gənci məktəbdə milli təhsil alaraq, öz xalqının, millətinin qədim zamanlardan indiyə qədər olan tarixini gərək yaxşı bilsin. Əgər bunu bilməsə o, həqiqi vətəndaş ola bilməz. Əgər bunu bilməsə o, millətini qiymətləndirə bilməz. Əgər bunu bilməsə o, millətinə olan münasibəti ilə istənilən səviyyədə fəxr edə bilməz”.

Beləliklə, Heydər Əliyev milli ideologiyamızın əsas prinsiplərini müəyyənləşdirməklə bərabər, onların həyata keçirilməsinə şəxsən özü nəzarət edirdi ki, bu da onun dövlət başçısı olmaqdan əlavə, bir milli lider kimi üzərinə götürdüyü missiyaya böyük məsuliyyətlə yanaşmasından irəli gəlirdi. Siyasi liderliklə milli liderlik keyfiyyətlərinin bir şəxsdə birləşməsi, əlbəttə, unikal haldır. Məhz bu cəhət keçid dövrləri üçün bir qayda olaraq səciyyəvi olan siyasi və iqtisadi islahatlarla milli ənənəçilik arasında uyğunsuzluqlar və qarşıdurmalardan xilas olmağa, milli və ümumbəşəri dəyərlərin vəhdətinə nail olmağa imkan vermişdir. Məhz bunun sayəsində dövlətin başçısı, eyni zamanda, milli məfkurənin ən böyük daşıyıcısı və istiqamətləndiricisi kimi çıxış edə bilmiş, milli ideologiyamızın əsasını təşkil edən azərbaycançılıq ideyasını mükəmməl bir konsepsiya səviyyəsinə qaldırmışdır.

Bəli, azərbaycançılıq həyat tərzində, əxlaqda, mənəviyyatda, dildə, dində, ədəbiyyatda - mənəvi mədəniyyətin bütün sahələrində əsas istiqamətləndirici məfkurə olmalıdır. Şifahi xalq ədəbiyyatı, el sənəti, milli musiqi, millətin mədəni-mənəvi mövcudluğunun bütün təzahürləri bu gün vahid bir ideya ətrafında sıx surətdə birləşməlidir. Əsrlərdən bizə miras qalmış milli-mənəvi dəyərlər nəinki təkcə müasir milli mövcudluğumuzun, həm də siyasi mövcudluğumuzun, dövlətçiliyimizin qarantına çevrilməlidir. Və əksinə, milli-mənəvi varlığımızın qorunub saxlanması da dövlətin ən əsas funksiyalarından biri olmalıdır. – Heydər Əliyevin qarşıya qoyduğu tələb belə idi. Məhz onun iradə və əzmi sayəsində bu gün azərbaycançılıq Azərbaycan dövlətinin milli-siyasi məfkurəsinə çevrilmişdir.

Bütün bunları bizə müasir Azərbaycan dövlətinin banisi Heydər Əliyev öyrətmişdir. Sözləri və əməlləri ilə. Bu xətti qoruyub saxlamaq və inkişaf etdirmək harada yaşamasından asılı olmayaraq, hər bir azərbaycanlının milli borcu, şərəf işidir.

**“Xalq qəzeti”**.- 2008.- 10 may.- №100.- S.6.

# XALQIN İNAMINI DOĞRULDAN LİDER

Azərbaycanda və ölkə hüdudlarından kənarda ciddi maraqla izlənilən 2008-ci ilin 15 oktyabr prezident seçkiləri demokratik, azad, şəffaf keçməklə respublikamızın davamlı inkişafında keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Hakimiyyətin yüksək siyasi iradə nümayiş etdirərək seçkiqabağı mühitin demokratikliyinin təmin edilməsi istiqamətində həyata keçirdiyi təşkilati-hüquqi tədbirlərin məntiqi yekunu olaraq səsvermə prosesi sakit, sərbəst, azad, ədalətli keçmiş, seçicilərin yüksək fəallığı müşahidə edilmişdir. Seçkilərin yekun nəticələri xalqın xoş gələcəyi naminə iradə və qətiyyət nümayiş etdirdiyini, eyni zamanda Heydər Əliyev siyasi kursunun alternativsizliyini bir daha təsdiqləmişdir.

Dövlət başçısı İlham Əliyevin son prezident seçkilərində xalqın böyük rəğbət və etimadını qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilk növbədə onun cəmiyyətdə yüksək idarəçilik keyfiyyətlərinə malik lider kimi qəbul olunduğunu nümayiş etdirdi. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu strateji siyasi kursu ötən 5 ildə inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev qurucu lider olaraq çoxşaxəli fəaliyyəti ilə ona bəslənilən ümidləri tam doğrultmuş, cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışmaqla, hər bir fərdin marağına cavab verən qətiyyətli qərarlar qəbul etmişdir. Dəqiq və elmi əsaslara söykənən sosial-iqtisadi strategiya əsasında qarşıda duran hədəfləri düzgün müəyyənləşdirən dövlət başçısı həm də cəmiyyətin davamlı inkişafına xidmət edən məqsədləri reallaşdırmağa nail olmuşdur.

Cənab İlham Əliyevin prezident seçkilərində iştirakı bir tərəfdən ölkəmizdə gedən ictimai-siyasi proseslərin məntiqi, digər tərəfdən Heydər Əliyev siyasi kursunun varisliyi axtarışında olan Azərbaycan cəmiyyətinin sosial sifarişi, istəyi kimi zərurətə çevrilmişdir. Cənab İlham Əliyev bu seçkilərdə vətəndaşlarımız qarşısına Heydər Əliyevin idarəçilik sistemində formalaşmış və ona rəhbərlik missiyasını məharətlə davam etdirməyə qadir alternativsiz lider, eyni zamanda dövlətin tərəqqisinə böyük töhfələr vermiş nüfuzlu siyasi xadim kimi çıxmışdır. Son 5 il ərzində ölkədə qazanılan uğurlar 2008-ci ilin 15 oktyabr seçkilərində İlham Əliyevin şəxsində ulu öndər Heydər Əliyevin layiqli varisinə, ümummilli liderin siyasi kursuna, sülhə, sabitliyə, tərəqqiyə səs verən Azərbaycan xalqının seçimində qətiyyən yanılmadığını göstərir. Azərbaycan Prezidenti dövlətə rəhbərlik etdiyi müddətdə ulu öndərin banisi olduğu milli dövlətçilik ənənələrinə nəinki sadiq qalmış, daha böyük əzmlə davam etdirdiyi bu kursun Azərbaycanın dövlət müstəqilliyi qədər əbədiliyini, dönməzliyini təmin etmişdir.

Cənab İlham Əliyevin fəaliyyətinin üstün cəhəti bundan ibarətdir ki, o, mövcud gerçəklikləri operativ və obyektiv qiymətləndirməyi, milli maraqlar naminə cəsarətli addımlar atmağı, yaranmış ekstremal şəraitdə ən optimal, düzgün qərar qəbul etməyi, habelə ölkənin taleyüklü problemlərinə həssaslıqla yanaşmağı bacarır. Heydər Əliyevin zəngin dövlətçilik fəlsəfəsini dərindən mənimsəmiş cənab İlham Əliyev ulu öndərin möhkəm təməllər üzərində formalaşdırdığı idarəçilik ənənələrini uğurla davam etdirmək üçün zəruri liderlik keyfiyyətlərinə malikdir.

Azərbaycan Prezidentinin son beş illik məqsədyönlü fəaliyyəti nəticəsində ilk növbədə respublikanın qüdrətli dövlətə çevrilməsi yolunda mühüm amil olan ictimai-siyasi sabitlik, vətəndaş sülhü və həmrəyliyi qorunub saxlanılmışdır. Ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi balanslaşdırılmış xarici siyasət kursunun davamlığının təmin olunması nəticəsində ölkəmizin sivil dünyanın siyasi-iqtisadi konturlarını cızan aparıcı dövlətlər və beynəlxalq təşkilatlarla münasibətləri yeni müstəvidə daha da inkişaf etdirilmişdir. Dəqiq müəyyənləşdirilmiş prioritetlər, elmi əsaslara söykənən fundamental qərarlar, xalqın mənafeyinə uyğun sosial-iqtisadi siyasət, çevik idarəçilik mexanizminin formalaşdırılması, diplomatik münasibətlərdə balanslaşdırma prinsipinin qorunması, mövcud imkanlardan Azərbaycan vətəndaşlarının rifahı naminə maksimum istifadə müasir tariximizin son 5 illik dövrünü səciyyələndirən xarakterik xüsusiyyətlərdəndir.

Yeni neft strategiyasının uğurla davam etdirilməsi, Azərbaycanın xarici sərmayələr üçün cəlbedici ölkəyə çevrilməsi, milli iqtisadiyyatın müxtəlif sferalarına yönələn investisiyaların qeyri-neft sektoruna, regionların inkişafına doğru istiqamətləndirilməsi, sahibkarlıq fəaliyyəti üçün münbit şəraitin yaradılması, vətəndaşların sosial müdafiəsinin möhkəmləndirilməsi cənab İlham Əliyevin iqtisadi siyasətinin başlıca qayəsini təşkil etmişdir. Ötən 5 il müddətində atılan məqsədyönlü addımlar, imzalanan çoxsaylı dövlət proqramları, fərman və sərəncamlar dövlət başçısının xalqın mənafeyinin daim qorunmasını öz fəaliyyətinin başlıca prinsipi kimi götürdüyünü bir daha təsdiqləmişdir. Cənab İlham Əliyev vətəndaşlar qarşısında verdiyi bəyanatlara sadiqliyini, yürütdüyü siyasətin reallığa adekvat olduğunu əməli işi ilə sübuta yetirərək formalaşdırdığı işlək mexanizmlər əsasında islahatların davamlığını, ardıcıllığını təmin etmiş, Azərbaycan həyatında yeni bir intibah mərhələsinin başlanmasına nail olmuşdur.

Ötən dövrdə qazanılan sosial-iqtisadi nailiyyətlərdən söhbət gedərkən, cənab İlham Əliyevin dövlətə rəhbərliyinin ilk aylarına təsadüf edən 24 noyabr 2003-cü il tarixli "Azərbaycan Respublikasında sosial-iqtisadi

inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanının əhəmiyyətini xüsusi qiymətləndirmək lazımdır. Çünki keçid dövrünə xas bir sıra köklü problemlərin həlli prosesinə məhz bu fərmanla start verilmişdir. Sözügedən sənəd sonrakı mərhələlərdə imzalanaraq bu gün də uğurla icra edilən dövlət proqramları üçün bir növ baza rolunu oynamış, qısa zaman ərzində ölkə iqtisadiyyatında mütərəqqi inkişaf meyllərinə böyük təkan vermişdir. Bu istiqamətdə atılan ardıcıl addımlar Azərbaycanda işsizlik probleminin aradan qaldırılması, regionların tarazlı inkişafı, qeyri-neft sektoruna diqqətin artırılması, yeni iş yerlərinin açılması sahəsində konkret nəticələrlə müşayiət olunmuşdur.

Prezident İlham Əliyevin 11 fevral 2004-cü il tarixdə təsdiqlədiyi "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı (2004-2008-ci illər) Dövlət Proqramı" isə Azərbaycan regionlarının tarazlı və davamlı inkişafı, sosial infrastrukturun yenidən qurulması, mərkəzdə və əyalətlərdə özəl sektorun yüksəlişi, milli iqtisadiyyatın neft amilindən asılılığının qeyri-neft sektorunun inkişafı hesabına aradan qaldırılması üçün kompleks tədbirlər müəyyənləşdirmiş, uğurlu nəticələrlə yadda qalmışdır. İcrası bu il yekunlaşacaq Dövlət Proqramı çərçivəsində görülən işlər indiyə qədər respublikanın regionlarının sosial-iqtisadi tərəqqisinə mane olan köklü problemləri nəzərəçarpacaq səviyyədə aradan qaldırmış, yerlərdə infrastrukturun yeniləşdirilməsinə zəmin yaratmışdır. Dövlət kənd təsərrüfatının inkişafına diqqəti artırmış, hər regionun malik olduğu təbii resurslardan məqsədyönlü istifadə, sərmayələrin qeyri-neft sektoruna cəlb edilməsi, yeni emal müəssisələrinin yaradılması, xidmət və digər infrastruktur obyektlərinin fəaliyyətə başlaması, turizmin inkişafı yerlərdə çoxlu sayda yeni iş yerlərinin açılmasına imkan vermişdir. Respublikamızın mərkəzində olduğu kimi, əyalət şəhərlərində, hətta ən ucqar rayonlarda, kəndlərdə belə nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, qaz, su, təchizatında, rabitə xidmətində problemlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual yüksəlişə yol açmışdır.

Nazirlər Kabinetinin 2008-ci ilin 9 ayının sosial-iqtisadi yekunlarına həsr edilmiş iclası respublikamızın bu sahədə inkişafının ciddi elmi əsaslara söykəndiyini, reallığa adekvat olduğunu bir daha təsdiqləmişdir. Yalnız bir faktı vurğulamaq kifayətdir ki, ilin əvvəli ilə müqayisədə Azərbaycanın valyuta ehtiyatları 10,3 milyard ABŞ dolları və ya 2,4 dəfə artaraq 17 milyard dollara çatmışdır.

Hökumətin iclasında dərin məzmunlu nitq söyləyən dövlət başçısı İlham Əliyev Azərbaycanın bütün sahələrdə dinamik inkişaf etdiyini vurğulamışdır: "Son doqquz ay ərzində Azərbaycan iqtisadiyyatı öz dinamik inkişafını davam etdirmişdir. Bizim iqtisadi artım sürətimiz, həmişəki kimi, çox yüksək olmuşdur və ümumi daxili məhsul doqquz ay ərzində 15 faiz artmışdır. Nəzərə alsaq ki, son dörd il ərzində Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyada bir nömrəli ölkədir, bu, çox yüksək göstəricidir. Bizim iqtisadi inkişafımız çox sürətli olubdur və belə yüksək sürətin saxlanılması onu göstərir ki, bizim bütün islahatlarımız həm konkret məsələlərin həllinə yönəldilib, həm də ölkəmizin uzunmüddətli inkişafını təmin edir. Dörd il ərzində iqtisadi inkişaf sürətinə görə dünya miqyasında birinci olmaq çox böyük nailiyyətdir. Azərbaycan dövləti öz siyasətini bu istiqamətdə davam etdirəcək və əminəm ki, ölkəmizin uğurlu iqtisadi inkişafı bundan sonra da davam etdiriləcəkdir".

Müasir qloballaşma dövründə hər bir dövlətin iqtisadiyyatının davamlı inkişafının mühüm və həlledici şərtlərindən biri də investisiya qoyuluşunun həcmi və keyfiyyətidir. Qürur doğuran haldır ki, bu gün Azərbaycan xarici investisiya cəlbediciliyinə görə dünya ölkələri sırasında ön sıralardadır. 2003-2008-ci illərdə Azərbaycan iqtisadiyyatına təxminən 44 milyard dollar investisiya qoyulmuşdur. 2008-ci ilin dövlət büdcəsinin, əsasən, investisiyayönümlü olması ölkəmizə xarici sərmayələrin cəlbi baxımından vacib əhəmiyyət daşıyır. Adətən, dövlətin payı və birbaşa sərmayəsi olan qlobal biznes layihələri iş adamları, xüsusilə xarici sərmayədarlar üçün daha cəlbedici görünür. Prezident İlham Əliyevin vurğuladığı kimi, Azərbaycanın artan iqtisadiyyatı ona həm də xarici ölkələrdə investisiyalar yatırmaq imkanı verir.

Dövlət başçısı ötən beş ildə yüksək siyasi qətiyyət göstərərək Azərbaycan üçün bəzi taleyüklü məsələlərin də həllinə nail olmuş, xüsusən də enerji-kommunikasiya layihələrinin icrası prosesində yeni mərhələ yaranmışdır. Ümummilli liderin yeni neft strategiyasının tərkib hissəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri istifadəyə verilmiş, Asiya ilə Avropanı birləşdirəcək Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin inşasına başlanılmışdır. Azərbaycanın bu gün Avropanın enerji təhlükəsizliyi sisteminin əsas təminatçısı qismində çıxış etməsi də danılmaz reallıqdır. Enerji təhlükəsizliyi məsələsinin müstəqil dövlətlər üçün nə dərəcədə böyük problem olmasını qonşu dövlətlərin nümunəsində dəfələrlə müşahidə etmişik. Bu problem bir çox halda ölkələrin müstəqilliyini təhdid edən, demokratik inkişafına maneə yaradan çox ciddi əngələ çevrilir. Azərbaycan isə nəinki belə problemlərdən uzaqdır, üstəlik respublikamız Avropa regionunun enerji təhlükəsizliyinin təminatında əsas söz sahiblərindən biri kimi çıxış edir. Bu fakt Azərbaycanın dünya üçün önəmini daha da artırır, ölkəmizin Avratlantik strukturlara inteqrasiya prosesini sürətləndirir. Nazirlər Kabinetinin iclasında dövlət başçısı ölkəmizdə enerji təhlükəsizliyinin, habelə

qazlaşdırma istiqamətində mühüm irəliləyişlərin olduğunu vurğulamışdır: "...2003-cü ildə qaz hasilatı 5,5 milyard kubmetr idi. 2007-ci ilə qədər biz xaricdən qaz alırdıq və böyük məbləğdə vəsait ödəyirdik. Ancaq ondan sonra görülən tədbirlər nəticəsində biz idxaldan tamamilə imtina etdik. Baxmayaraq ki, bunu etmək o qədər də asan məsələ deyildi. Biz xaricdən 4,5 milyard kubmetr qaz alırdıq. Bir gündə mən qərar verdim ki, biz bu idxaldan imtina etməliyik. Ancaq, əlbəttə, bilirdim ki, biz vəziyyətdən çıxacağıq. Çətin də olsa, vəziyyətdən çıxdıq. Bu gün Azərbaycanda qaz hasilatı artır və biz nəinki özümüzü təmin edirik, qazlaşdırmanı uğurla aparırıq, həm də xaricə qaz ixrac edirik. Yəni 2003-cü ildə Azərbaycanda qaz hasilatı 5,5 milyard kubmetr idi, 2008-ci ildə isə 26 milyard kubmetr qaz hasilatı gözlənilir. Qazlaşdırma 2003-cü ildə 62 faiz idi, 2008-ci ildə 84 faiz təşkil edir. Son beş il ərzində 14 rayonun qaz təchizatı təmin olunmuşdur. Onlardan bir neçəsi heç vaxt, heç sovet dövründə də qaz almamışdır. Böyük xərc çəkərək o ucqar rayonlara qaz xətləri çəkildi. Bu gün Azərbaycanda, işğal olunmuş rayonlardan başqa, elə rayon yoxdur ki, oraya qaz verilməsin. Hər bir rayona qaz verilir. Növbəti illərdə daha çox kəndlərə qaz veriləcəkdir".

Azərbaycan Prezidentinin xarici siyasəti müstəqil respublikamızın milli mənafelərinə hörmətlə yanaşan bütün beynəlxalq təşkilatlar və xarici dövlətlərlə əməkdaşlıq əlaqələrinin daha da genişləndirilməsi müstəvisi üzərində qurulmuşdur. Avropa ailəsinə inteqrasiya edən Azərbaycanda cəmiyyət bütün liberal dəyərləri mənimsəmiş, insan hüquq və azadlıqları başda olmaqla, demokratik dəyərlər tam bərqərar edilmişdir. Avropa Şurası qarşısında götürülən öhdəliklər son 5 ildə uğurla yerinə yetirilmiş, ölkəmiz Avropa Birliyinin "Yeni Qonşuluq Siyasəti" proqramına qoşulmuş və bu proqram çərçivəsində fərdi tərəfdaşlıq layihəsi artıq təsdiqlənmişdir. Bütün bunlar eyni zamanda dünya ictimaiyyətinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə münasibətinə də müsbət mənada dəyişikliklər etmişdir. Artıq dünya birliyi Azərbaycanın problemlərinə daha ədalətlə yanaşmağa başlamışdır. Münaqişənin sərhədlərin toxunulmazlığı və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə yönələn səylər intensivləşir. Çünki dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatlar tərəfindən yaxşı dərk olunur ki, Avropanın enerji təhlükəsizliyinin təminatı Azərbaycanın böyük potensialından istifadədən və bunun üçün ilk növbədə, Azərbaycanın özünün təhlükəsizliyinin təminatından keçir.

Dövlət başçısı ötən 5 ildə müasir qloballaşma dövrünün yeni geosiyasi reallıqlarından irəli gələn mənzərənin əsas cizgilərinə cavab verən siyasət yürütmüş, bu siyasətin mahiyyətində insan hüquqları və demokratikləşmə məsələləri prioritet kəsb etmişdir. Cənab İlham Əliyevin ötən 5 ildə prezidentlik fəaliyyəti sabit iqtisadi və siyasi sistemin yaradılması, sosial problemlərin həlli, əhalinin alıcılıq qabiliyyətinin və rifahının yüksəldilməsi məsələləri ilə yanaşı, cəmiyyətdə ictimai konsensusun əldə edilməsinə yönəlmişdir. Azərbaycan Prezidenti ötən 5 ildə respublikamızda qanunun aliliyinin təmin olunmasını, vətəndaş hüquq və azadlıqlarının yüksək səviyyədə qorunmasını özünün başlıca fəaliyyət prinsiplərindən hesab etmiş, bu ali məqsədlərin gerçəkləşdirilməsinə yönəlmiş çoxşaxəli tədbirlərin həyata keçirilməsini diqqətdə saxlamışdır. Hər bir dövlətdə ictimai münasibətlər sisteminin qanunamüvafiq surətdə tənzimlənməsinin ən fundamental şərti məhkəmələrin müstəqilliyinin təmin edilməsidir və dövlət başçısının həyata keçirdiyi islahatların əsasında da məhz bu amil dayanır. Beynəlxalq təcrübədən çıxış edən cənab İlham Əliyev məhkəmələrin, ümumilikdə, hüquq-mühafizə orqanlarının insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunduğu dövlət təsisatlarına çevrilməsinə, cəmiyyətdə yüksək etimad qazanmasına çalışır.

"Vətəndaş cəmiyyəti quruculuğu, demokratik proseslərin möhkəmləndirilməsi, hüquqi dövlətin formalaşdırılması heç də şüar və arzu deyil, Azərbaycanın hərtərəfli inkişafının başlıca şərtidir. Bizim təcrübəmiz göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur" - deyən dövlət başçısı hesab edir ki, yeni dünya nizamında demokratiya həqiqi mahiyyətini qoruyub saxlamaq üçün vətəndaşların sosial-siyasi, mədəni və iqtisadi rifahına, bu sahələrdə baş verən müsbət dəyişikliklərə adekvat reaksiya verməlidir. Demokratik dövlətin bir təsisat kimi başlıca vəzifəsi bütövlükdə cəmiyyətin və ayrılıqda hər bir vətəndaşın maddi rifah halının yüksəldilməsi, onların sosial müdafiəsi və layiqli həyat səviyyəsinin təmin olunması, habelə şəxsiyyətin azad inkişafı üçün bərabər imkanların yaradılmasıdır.

Respublikamızda formalaşmaqda olan yeni makroiqtisadi mühit - ümumi daxili məhsulun artımı, iqtisadiyyatda sahibkarlar sinfinin mövqelərinin əsaslı şəkildə güclənməsi, beynəlxalq iqtisadi münasibətlər sisteminə uğurlu transformasiya, qlobal enerji-kommunikasiya, innovasiya layihələrinin həyata keçirilməsi nəticə etibarilə demokratikləşmə və vətəndaş cəmiyyəti təsisatlarının sürətli inkişafına, tətbiq olunan mütərəqqi yeniliklərin total şüurda mənimsənilməsinə imkan yaratmışdır. Müasir mərhələdə demokratik inkişafı şərtləndirən başlıca amillərdən biri də insanların iqtisadi azadlıqlarının, səmərəli təşəbbüskarlığının artması, mülkiyyət münasibətlərinin yeni forma və məzmun kəsb etməsidir. İqtisadi azadlıqlarını təmin edən vətəndaşın siyasi cəhətdən yetkinləşməsi, tədricən cəmiyyətin demokratikləşməsi xəttinin fəal iştirakçısına çevrilməsi də qaçılmaz prosesə çevrilir.

Keçid cəmiyyətlərində demokratiyanın mərhələli səciyyə daşıması da iqtisadi inkişaf və demokratikləşmə xəttinin biri-birini tamamlaması ilə şərtlənir. Daha dəqiqi, iqtisadi problemlər məngənəsində sıxılan kasıb dövlətlərdə demokratik dəyərlərin sürətli inkişafından danışmaq mümkün deyildir. Dövlət nə qədər varlı olsa, onun sabit demokratiyaya nail olmaq şansları da bir o qədər yüksəkdir. "Bizim təcrübəmiz onu göstərir ki, Azərbaycanın seçdiyi yol düzgün yoldur. İqtisadi, siyasi və sosial islahatların paralel şəkildə aparılması Azərbaycanı hərtərəfli inkişaf etdirir, ölkəmiz üçün çox lazım olan sabitliyi möhkəmləndirir, ictimai-siyasi vəziyyətə müsbət təsir göstərir. Ona görə də siyasi və iqtisadi islahatların davam etdirilməsi zəmanənin tələbidir. Əgər biz doğrudan da müasir, güclü ölkə yaratmaq istəyiriksə, bunu etməliyik. Bu işdə dövlətin üzərinə böyük vəzifələr düşür... Biz buna birlikdə nail olmalıyıq" - deyə dövlət başçısı praqmatik və realist baxışlı siyasətçi olduğunu təsdiqləyir.

Ötən beş ildə elm və təhsilin milli inkişafda həlledici amil kimi önə çıxması ilk növbədə respublikamızın sürətli iqtisadi inkişaf yolunda olması, geniş maliyyə imkanları qazanması ilə şərtlənir. Belə mühüm mərhələdə mövcud uğurların qorunub saxlanılması üçün idarəçilikdə yüksək elmi-intellektual səviyyənin təmin edilməsi son dərəcə vacibdir. Dövlət büdcəsinin vəsaitlərinin ildən-ilə artması təhsil sahəsində məhz maliyyə çatışmazlığı səbəbindən uzun illərdən bəri yığılıb qalmış bəzi problemlərin məhz hazırkı mərhələdə həlli məsələsini aktuallaşdırır, dövlət investisiyalarının həcmcə artımını təmin edir, bu sahənin dünya standartları səviyyəsinə qalxmasına geniş imkanlar açır.

Təhsilə qoyulan sərmayə Azərbaycan xalqının bugünkü və gələcək mənafeyinə xidmət etdiyindən bu sahəyə yönəldilən investisiyalar ildən-ilə artır. 2006-cı ildə dövlət büdcəsindən bu məqsədlə ayrılan vəsait 2005-ci ilə nisbətən 33 faiz, 2007-ci ildə 47 faiz artmışdır. 2008-ci ildə təhsil xərcləri üçün 974 milyon manat nəzərdə tutulmuşdur və bu da 2007-ci ilə nisbətən 28,5 faiz çoxdur. 2008-ci il büdcəsindən təhsilə ayrılan investisiya xərclərinin 243 milyon manat təşkil etməsi də qarşıda duran bir sıra məqsədlərin həllinə, ilk növbədə yeni məktəblərin inşasına və mövcud məktəblərdə təmir-tikinti işlərinin aparılmasına yaxşı imkanlar açır.

Dövlət başçısının son 5 ildə imzaladığı fərman və sərəncamlar həm də ölkənin inkişafı baxımından strateji sahə olan elm və təhsilə qayğı nümunələri ilə zəngin olmuşdur. Bu müddətdə elmin inkişafına diqqət artırılmış, bu sahənin maddi-texniki bazasının möhkəmləndirilməsi, maliyyə təminatı, əsas fundamental və tətbiqi elmlərin inkişafı üzrə görüləcək tədbirlər müəyyənləşdirilmişdir. Elmin, təhsilin inkişafı üçün dövlət büdcəsində nəzərdə tutulan vəsaitlərin ildən-ilə artırılması, bu sahədə çalışan müəllimlərin əməkhaqlarında, tələbə, magistr və aspirantların təqaüdlərində özünü göstərən əsaslı artımlar, habelə məktəblərin dərsliklərlə pulsuz təminatı dövlət rəhbərinin bu sahəyə xüsusi diqqət və qayğısının bariz ifadəsidir. Azərbaycan və dünya klassiklərinin əsərlərinin latın qrafikalı Azərbaycan əlifbası ilə nəşrini nəzərdə tutan daha bir sərəncam imzalamış Prezident İlham Əliyev milli irsə sadiqliyini nümayiş etdirmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin 2008-ci ilin 15 yanvarında Bakıda M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin filialının açılması barədə sərəncamı da ümumilikdə ölkə təhsilinin inkişafı və beynəlxalq aləmə inteqrasiyası baxımından vacib əhəmiyyət kəsb etmişdir. Universitetin Bakı filialı 2008-2009-cu tədris ilində filologiya elmləri doktoru, professor Nərgiz xanım Paşayevanın rəhbərliyi altında strukturlaşaraq fəaliyyətə başlamış, ilk tələbələrini qəbul etmişdir.

Elmə, təhsilə göstərilən diqqət və qayğı nəticəsində Azərbaycan Milli Elmlər Akademiyası özünün yeni inkişaf mərhələsini yaşayır. Cənab İlham Əliyev elm adamlarının - alim və aspirantların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində bir sıra mühüm addımlar atmışdır. Dövlət başçısının 23 yanvar 2007-ci il tarixdə imzaladığı sərəncamla AMEA sistemində çalışan vətəndaşların məvacibləri 50 faiz qaldırılmış, eləcə də fevral ayının 1-dən aspirantların təqaüdündə əsaslı artım olmuşdur. Cənab İlham Əliyevin 18 aprel 2007-ci il tarixdə imzaladığı daha bir sərəncamla AMEA-nın həqiqi üzvlərinin aylıq rütbə maaşları 1000 manat, müxbir üzvlərin aylıq rütbə maaşları isə 700 manat civarında müəyyənləşdirilmişdir.

İqtisadi inkişafın elmi sütunlar üzərində aparılması, ölkənin gələcək sosial-iqtisadi inkişafı ilə bağlı proqnozların irəli sürülməsi vacib məsələlərdən biridir. Elm proqnozlarsız inkişaf edə bilməz - elmi tövsiyələr, proqnozlar Azərbaycan iqtisadiyyatının dinamik və davamlı inkişafına xidmət etməlidir. Azərbaycan Prezidenti İlham Əliyevin 10 aprel 2008-ci il tarixli "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında" sərəncamı da məhz bu zərurətlə şərtlənir.

Yarandığı gündən indiyədək daim mütərəqqi ictimai düşüncənin əsas mərkəzinə çevrilən Bakı Dövlət Universitetinin milli təhsil sistemindəki müstəsna yeri və rolu, milli kadr hazırlığı prosesindəki əvəzsiz xidmətləri ölkə rəhbərliyi tərəfindən daim dəyərləndirilir. Son illərdə ali məktəblərə qayğı siyasətinin mühüm tərkib hissəsi olaraq universitetin inkişafına xüsusi diqqət yetirilməsi, onun maddi-texniki bazasının gücləndirilməsi istiqamətində əməli addımların atılması bunu bir daha təsdiqləyir. Ötən ay Azərbaycan Prezidenti İlham Əliyevin Bakı Dövlət Universitetinin müasir standartlara cavab verən tədris korpusunun açılış

mərasimində iştirakı və dərin məzmunlu nitq söyləməsi bu ali təhsil ocağının tarixində əlamətdar hadisələrdən birinə çevrilmiş, yeni dərs ilində çoxsaylı professor-müəllim və tələbə heyətində böyük ruh yüksəkliyi doğurmuşdur. Dövlət başçısı təntənəli mərasimdəki çıxışı zamanı Azərbaycanın ali təhsil sistemində özünəməxsus yeri, nüfuzu, sanbalı ilə seçilən Bakı Dövlət Universitetinin fəaliyyətinə bir daha yüksək dəyər vermiş, onun inkişafına bundan sonra da lazımi diqqət və qayğının göstəriləcəyini vurğulamışdır: "Bu gün universitetin yeni gözəl korpusu açılır və bu münasibətlə də sizi ürəkdən təbrik edirəm. Bakı Dövlət Universiteti Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada çox güclü professor-müəllim heyəti vardır və bütün dövrlərdə universitet Azərbaycanda peşəkar kadrların hazırlanması işində çox böyük işlər görmüşdür. Bu gün isə universitet inkişafının yeni mərhələsini yaşayır. Həm təhsilin keyfiyyəti artır, həm də universitetin maddi-texniki bazası möhkəmlənir. Bir sözlə, bizim - Azərbaycanın yerləşdiyi bu bölgədə Bakı Dövlət Universitetinin xüsusi çəkisi vardır".

Elm və təhsil ictimaiyyətinə göstərilən yüksək diqqət və qayğını, ümumilikdə, ölkəmizin bütün sahələrdə qazandığı böyük nailiyyətləri respublikamızın nüfuzlu ali təhsil ocağı olan Bakı Dövlət Universitetinin professor-müəllim heyəti və çoxsaylı tələbə kollektivi də yaxından hiss edir və dərin rəğbət hissi ilə qarşılayır. Birmənalı qənaət bundan ibarətdir ki, Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyevin prezident seçkilərindəki böyük qələbəsi Azərbaycanın bundan sonrakı möhtəşəm uğurlarına ən ciddi təminatdır. İnanırıq ki, Azərbaycan xalqını firavan gələcəyə aparan bu siyasətin davamlılığı qarşıdakı illərdə də təmin olunacaq, müstəqil respublikamız cənab İlham Əliyevin rəhbərliyi altında inkişaf tempini sürətləndirərək dünyanın qabaqcıl dövlətləri sırasında layiqli yerini tutacaqdır.

**Abel MƏHƏRRƏMOV**

“**Azərbaycan**”.-2008.-23 oktyabr.-N 236.-S.3.

# HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİ MÜASİR ELİTOLOGİYA KONTEKSTİNDƏ

**Azər BAYRAMOV,**
AMEA-nın İnsan Hüquqları İnstitutu

"Siz Azərbaycanın bu günü və gələcəyisiniz. Sizin üzərinizə böyük vəzifələr düşür, bu vəzifələr gələcəkdə daha da böyük olacaqdır ".

**Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Respublika gənclərinin II forumundakı çıxışından**

Tarixi analogiya baxımından 1789-cu il Böyük Fransa inqilabının maarifçilik, respublikaçılıq ideyalarından bəhrələnən, lakin özündən əvvəlki quruluşun sinfi və siyasi fərq çalarlarından azad ola bilməyən, bununla belə sosioloji və politoloji kateqoriya kimi mütərəqqi amillərlə zənginləşən "elita" anlayışı yalnız ötən əsrin əvvəllərindən etibarən mahiyyət baxımından transformasiyaya məruz qalaraq cəmiyyətdaxili sinfi və sosial qütbləşmə müstəvisindən nisbətən ayrılmış, nəzəri cəhətdən də olsa yeni, perspektivli sosioloji məfhuma çevrilmişdir. Bununla belə, bu, hələ də sosiologiyanın və sosial psixologiyanın az öyrənilən tədqiqat istiqaməti olaraq qalmaqdadır. Halbuki. müasir ictimai elmlər arasında məhz elitologiya və onun bazası üzərində qurulan personologiya kimi tədqiqat sahələrinin cəmiyyət daxilində gedən proseslərin öyrənilməsində və proqnozlaşdırılmasında, xüsusilə də Gənclər arasında gələcəyin yeni, müasir tələblərə cavab verən liderlərinin aşkarlanmasında və formalaşdırılmasında mühüm rolu vardır.

İlk dəfə olaraq tanınmış tədqiqatçı V. Paretto tərəfindən elmi terminologiyaya gətirilərək cəmiyyətin həm sosial-siyasi, həm də sosioloji baxımdan dərk olunmasına, şəxsiyyətlərin yetişməsi, liderardıcıllar prinsipinin araşdırılmasına, ictimai-sosial proseslərin tənzimlənməsinə, demokratik prinsiplərin, o cümlədən insan hüquqları və əsas azadlıqları kimi dəyərlərin reallaşdırılmasına yönəldilən elitologiya unikal və perspektivli tədqiqat sahəsi olaraq istənilən konkret cəmiyyət və ya sosial qrup daxilindən çıxıb formalaşan, sosiumu məqsədli şəkildə inkişafa aparan fenomenal liderlər intellektual şəxsiyyətlər qrupunu toplum və fərdi qayda halında öyrənən elmdir. Lakin ayrı-ayrı siyasi və sosial qrupları təmsil edərək V. Parettonun mövqeyinin əleyhinə çıxan opponentlərinin fikrincə, guya elitologiya prinsipcə insanların cəmiyyət daxilində hüquq bərabərliyinə xələl gətirərək, onların əsas hüquq və azadlıqlarına zidd mövqedə dayanır və müxtəlif sosial qruplar daxilində, eləcə də onlar arasında qarşıdurmanı kəskinləşdirir, sinfi təbəqələşmənin dərinləşdirilməsinə şərait yaradır. Məsələn. Q. Moska, S. Morr və B. Xendriksin qənaətlərinə görə, elitologiya totalitarizmə hüquqi, siyasi və mədəni bəraət verməklə cəmiyyətin idarə olunmasında ayrı-ayrı sosial təbəqələrin aparıcı rolunu inkar edir.

Aşkar göründüyü kimi, "elita" termininə və "elitologiya" anlayışına belə yanlış münasibətin kökündə obyektiv elmi yanaşma deyil, ilk növbədə müxtəlif və əsas etibarilə bir-birinə qarşı antaqonist mövqedə dayanan sosial sistemlərin, siyasi ideyaların daşıyıcıları olan tədqiqatçıların siyasi mövqeləri dayanır. Məsələn, kommunizm ideologiyasına söykənən sosioloqlar, "elita" qrupunu kapitalizm cəmiyyətində bir ovuc şəxsin dövlət sərvətlərini zəbt edərək ölkənin maddi nemətlərini öz əllərində cəmləşdirib inhisarlaşdıran, sıravi vətəndaşları dövlətin idarə olunmasından kənarlaşdıran "mənəviyyatsız zümrə" adlandırırdılarsa, Qərb tədqiqatçıları adekvat olaraq bu fikrə alternativ mövqe nümayiş etdirirmişlər. Onlar "kommunist cəmiyyətinin psevdo-elitası" anlayışını irəli sürərək kommunizm ideoloqlarının yozumunu siyasi səhv adlandırır və "saxta elitar təbəqə" dedikdə SSRİ məkanında zor gücünə hakimiyyətə yiyələnmiş partiya-sovet nomenklaturasını misal çəkirdilər.

Müasir radikal "demokratlar" isə öz növbələrində. görkəmli fransız maarifçisi Jan Jak Russonun fikirlərini təhrif edərək elitanı "mövcud hakimiyyət" anlayışı ilə eyniləşdirir, onun mahiyyətcə "xalqın suveren hüquqlarını qəsb edən qrup" olduğunu göstərirdilər.

Göründüyü kimi, sosial-siyasi mənsubiyyət, ideoloji mövqe müxtəlifliyi termininin izahında tərəflər arasında ciddi fikir ayrılığına səbəb olmuşdur. Belə olan təqdirdə əsl obyektiv meyarı müəyyənləşdirmək üçün filosof B. Rasselin münaqişəli məsələlərin həllinə dair universal və rasional görünən fikirlərinə müraciət edək: "Hər hansı bir anlayışa dair mübahisəyə son qoymağın ən düzgün yolu bu müzakirələrə səbəb olan terminin həqiqi mənasını tapıb dəqiqləşdirməkdir".

"Elita" termininin kökündə fransız kəlməsi olan və "ən yaxşı", "seçilmişlər" mənasını verən "elita" sözü dayanır. Müasir dünyanın gerçəkliklərinə. demokratik prinsiplərə söykənən politologiya elmində "elita" termini özünün şəxsi keyfiyyətləri, bilik və bacarığı, fitri istedadı sayəsində ən yüksək peşəkarlıq həddinə çatan,

başqalarına nümunə ola bilən, bütövlükdə cəmiyyəti və ya ayrı-ayrı qrupları (siyasi, iqtisadi, mədəniyyət və s.) inkişafa doğru aparmaq keyfiyyətlərinə yiyələnən liderləri nəzərdə tutur. Bu baxımdan, müasir demokratik hüquqlar müstəvisindən yanaşılanda etimoloji anlamda "elita" kəlməsinin arxasında nə antihumanist, nə də antidemokratik mahiyyət dayanır. Məsələn, tez-tez sahə terminologiyalarında, mətbuatda "elit toxumlar", "elit bitkilər", "elit idmançılar", "elit qoşunlar", "elit məhsullar" və s. bu kimi hər hansı siyasi çalarlardan tamamilə uzaq olan saysız ifadələrə rast gəlirik və bu, "seçilmişlər", "üstün olanlar" kimi deyil, "ən yaxşılar", "ən bacarıqlılar", son olaraq "ən layiqlilər" kimi izah olunur.

Hələ XVII əsrdə Avropada bu kəlmə ilkin olaraq ən yüksək keyfiyyətli ticarət məhsullarına şamil edilmişdi. Yüz il sonra bu ifadə öz mənasını zənginləşdirərək sosial sferalara, cəmiyyətdaxili münasibətlərə geniş nüfuz edərək sosial təbəqələşmənin göstəricisinə çevrilmiş, əvvəlcə ali silkə məxsus monarx ailələrinə, zadəganlara, geniş səlahiyyətə malik din xadimlərinə, ali rütbəli zabitlərə şamil edilərək leksik vahid kimi "əsilzadələr", "təmiz qanlılar", "nəciblər", " övliyalar" və s. anlamlarda öz yerini tutmuşdur.

Yuxarıda göstərilən mövqelərlə yanaşıldıqda Azərbaycanda da tarixən elita zümrəsinə daxil edilən şəxsiyyətlər və konkret sosial qruplar mövcud olmuşdur. Bu sosial zümrələrə hökmdarlar və onların ailə üzvləri, zadəganlar, din xadimləri, Seyidlər, əxilərin - peşə qruplarının liderləri və s. şamil edilirdilər.

SSRİ dönəmində "siyasi elita" kəlməsi rəsmən işlədilməsə də, ölkəni idarə edən Moskvanın ali partiya-sovet nomenklaturası cəmiyyət arasında belə adlandırılırdı.

Bununla belə, Qərbdə maarifçilik ideyalarının təsiri altında XIX əsr Avropasında bu termin ictimai-siyasi mahiyyətini bir qədər zəiflədib əsasən, kənd təsərrüfatı terminologiyasında istifadə olunsa da. sonralar ilk növbədə Böyük Britaniyanın konservativ və imperiyapərəst mühitində yenidən ictimai-siyasi çalar daşımağa başlamışdır. Məsələn, 1823-cü ildə Londonda nəşr olunan Oksford lüğətində bu terminin izahı "sosial təbəqələşmə sistemində ali sosial qrupa verilən ad" kimi təqdim olunmuşdur.

Cəmiyyətdaxili sosial proseslərə sinfi mübarizə müstəvisindən yanaşan tədqiqatçılardan Q. Moska "siyasi elita" dedikdə onu "heç bir səlahiyyəti olmayan kütləni idarə edən siyasi sinif". V. Paretto isə "azlığın çoxluq üzərində hakimiyyəti" kimi şərh edirdilər. Beləliklə, "elita" kəlməsi sosial-siyasi mühitə daxil olaraq sinfi ziddiyyətlərin göstəricisinə çevrilmişdir. Lakin Q. Moska eyni zamanda dəqiqləşdirirdi: "elita" zadəganlıq sayəsində deyil, intellektual keyfiyyətlər, bacarıq və eyni zamanda şəxsi sərvət hesabına formalaşa bilər.

Yuxarıda qeyd edildiyi kimi, tarixi şərait, o dövrün ictimai-siyasi təfəkkürü mövqeyindən çıxış edib "elita" anlayışını hələ də sosial təbəqələşmə müstəvində saxlayaraq ona ibtidai və haradasa primitiv demokratik çalar verməyə səy göstərmiş Fransa burjua inqilabına qədərki "ən yaxşılar", "seçilmişlər" qrupuna münasibəti dəyişməyə başlamışdır. Eyni zamanda, xristianlıq dininin mahiyyətindən doğan məcburi mütilik, tale ilə barışmaq hissi, sosial təbəqələşmənin təbiiliyi və zəruriliyi prinsipi qismən pozularaq yeni məna kəsb etmişdir. Belə ki, zadəgan elitasının mövcudluğuna bəraət verən dini dayaqlar ləğv edildikdən və Qərb maarifçilərinin ideyaları əsasında qurulan "Ağlın hakim olduğu din" və ya "intellektə pərəstiş" ideyası "elita" terminınə yeni çalar vermiş və bu adın qanadlan altına şərti olaraq "boqema" adlandırılan intellekt sahibləri - aparıcı siyasətçilər, dövlət məmurları. iqtisadçılar, filosoflar, hüquqşünaslar, yazıçı və rəssamlar daxil edilmişlər. Lakin "elita" anlayışının belə sadəlövh və qüsurlu yozumu sonralar Fransada avtoritarizmə, totalitarizmə, Napoleon kimi "yeni intellektual dahilərə" arzuolunmaz və zərərli sitayişlə nəticələnmişdir. Yeri gəlmişkən. tarixi təcrübənin təhlili göstərir ki, Adolf Hitler. İosif Stalin kimi totalitar rejim "dahiləri" dini dayaqları dağıdıb intellekt daşıyıcıları olan azadfikirli elitanı məhv etdikdən sonra Almaniya və SSRİ-də "şəxsiyyətə pərəstiş" kultunun təməlini qoymuşlar.

Müasir demokratik cəmiyyətlərdə də elitologiya elminin inkişafı özünün əsas tədqiqat obyektlərindən biri kimi perspektivi gəncliyi götürməklə. "elita" terminınə demokratik çalar verməklə yanaşı, onun forma və mahiyyətini kəskin şəkildə dəyişmişdir. "Siyasi elita", "humanitar elita", "iqtisadi elita" və s. anlayışların tətbiq sahələri əsas etibarı ilə məhdudlaşdırılaraq cəmiyyəti irəliyə aparmağa, dövlət daxilində demokratik prinsiplərin qorunmasına. sosial-iqtisadi, mədəni tərəqqiyə qadir olan cəmiyyətin içərisindəki qabaqcıl gənc qüvvələr arasından məhz sağlam rəqabət nəticəsində aparıcı intellektual zümrəyə çevrilən sosial qrupla əvəzlənmişdir. Bu zümrədə sosial və siyasi mənsubiyyət anlayışları tamamilə silinərək, kommunist ideologiyasından qalma kollektiv şüur və kollektiv fəaliyyətin yerini cəmiyyətin mənafeyinə yönəldilmiş fərdiçilik tutmuşdur. Nəticədə, müasir dövrdə rusiyalı professor Gennadi Aşinin təbirincə desək, "elita" termini "mənəvi. əxlaqi. intellektual baxımdan mükəmməl olan. öz fəaliyyət sahəsində yüksək peşəkar göstəricilərə malik şəxsiyyətlərə" aid edilməyə başlamışdır.

Hər hansı bir formasiyaya, dövlət quruluşuna xas elitalar mövcuddur və hakimiyyət dəyişkənliyi zamanı köhnə və yeni elitalar arasında ziddiyyətlər bir çox hallarda siyasi qarşıdurmalarla nəticələnirdi. Fransa burjua inqilabından, 1917-ci il Böyük Oktyabr sosialist inqilabından. Almaniyada faşizmin qələbəsindən,

Kompuçiyada Pol Potun psevdomarksist ideyalarının "təntənəsindən" və s. sonra bu ölkələrdə baş vermiş qanlı olayların, kütləvi insan qırğınlarının kökündə eyni zamanda, köhnə elitanın fiziki məhvi və zorən yenisilə əvəzlənməsi dururdu. SSRİ məkanında kommunizm diktaturasının əsl mahiyyətini göstərən 37-ci il kommunist repressiyaları dalğasında məhz ziyalıların, azad fikirli elitanın hədəfə götürülməsi deyilənlərə sübutdur.

1991-ci ildə Azərbaycan xalqı öz dövlət müstəqilliyini bərpa etdikdən sonra hakimiyyətə gələn və "psevdodemokratik" prinsipləri rəhbər tutan naşı siyasətçilər sosial, ictimai-siyasi proseslərə münasibətdə kommunist yanaşma tərzindən zahirən uzaqlaşsalar da, məhz partiyalı mövqedən çıxış edərək yeni sosial təkliflərini və onların icrası mexanizmlərini köhnə ideologiyanın qüsurlu təməli üzərində təqdim etməyə başlamışdır. Ayaz Mütəllibovun, sonralar AXCP-Müsavat cütlüyünün funksionerləri sosial münasibətlərin qurulub tənzimlənməsində təkamülü deyil, qüsurlu inqilab yolunu seçərək dövlətin və cəmiyyətin idarə olunmasında hər hansı bir ideoloji konsepsiyanın zəruriliyi amilini bir kənara atmış, guya demokratik cəmiyyətdə ideologiyanın mövcudluğunun yolverilməzliyi prinsipini əsas götürmüşlər.

Əslinə qalsa, bütün postsovet məkanında müstəqillik əldə etmiş dövlətlərdə xaricdən təlqin edilən belə qüsurlu və problematik mövqe sonralar həmin ölkələrdə ideoloji boşluğun, sosiumda ictimai-siyasi passivliyin yaranmasına, labüd xaosa və siyasi zəmində qarşıdurmaların baş qaldırmasına səbəb olmuşdur. Bu, ilk növbədə həmin coğrafi-siyasi məkanda öz geosiyasi maraqlarını arzuolunmaz fəaliyyət metodları ilə ödəməyə cəhd edən fövqəldövlətlərin mənafelərinə cavab verən proses idi. Nəticədə, mövcud aktiv elita - qabaqcıl fikir daşıyıcıları və ölkənin gələcək intellektual elitasını təşkil edə biləcək yüksək potensiallı fəal sosial qrup nümayəndələrinin fəaliyyəti məqsədli şəkildə məhdudlaşdırılır, onların yerini cəmiyyəti inkişafa aparmağa qadir olmayan psevdoliderlər tutur, cəmiyyətə postsovet məkanında şərti olaraq "obıvatel təfəkkürü" adlandırılan seyrçi istehlakçı münasibət aşılanırdı. Məhz bu mürəkkəb mərhələdə xarici və daxili destruktiv qüvvələr tərəfindən vətəndaşların diqqətini taleyüklü məsələlərdən yayındırmaq məqsədilə süni olaraq etnik, dini. siyasi və digər separatçılıq meylləri baş qaldırır, nəticədə, dövlət hərbi-siyasi, iqtisadi və ideoloji asılılıq təhlükəsi ilə üzləşirdi. Azərbaycan Respublikası da müstəqilliyinin ilk illərində bu təhdidlərlə üzləşmişdi.

Azərbaycan xalqının iradəsi ilə ümummilli lider Heydər Əliyevin hakimiyyətə növbəti gəlişindən sonra ilk növbədə məhz zərərli istehlakçı təfəkkürün formalaşdırılması prosesinə ciddi və qəti zərbə vuruldu. Sosial bazaya malik olmayan, mahiyyətcə anarxist Bakuninin ideyalarını davam etdirən "elitanın" zərərli fəaliyyətini üzdəniraq "ideologiyasız cəmiyyət quruculuğunu" perspektivli, praqmatik təfəkkürü, yeni sosial münasibətləri. özünün mükəmməlliyi, konkret tarixi şərait üçün zəruriliyi ilə seçilən, xüsusilə də Azərbaycan üçün olduqca əhəmiyyətli olan azərbaycançılıq ideyası əvəzlədi, dövlətin ictimai-siyasi, sosial-mədəni inkişafının konseptual prinsipləri formalaşdırıldı.

Heydər Əliyev praqmatik düşüncəli dövlət xadimi, mahir siyasətçi və mükəmməl siyasi texnoloq kimi aydın dərk edirdi ki. Azərbaycanın siyasi və sosial sferalarda inkişafı yalnız iqtisadi yüksəlişdən, demokratik prinsiplərin bərqərar olmasından, ölkənin ərazi bütövlüyünün bərpasına qadir olan ordu quruculuğundan keçmir. Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu seçən respublikanın tərəqqisi, daxili və xarici problemlərinin çevik həlli, onun dünya birliyinə fəal inteqrasiyası paralel olaraq, totalitar kommunizm ideologiyası daşıyıcıları olan elitanın qabaqcıl bilik və təcrübəyə yiyələnən yeni intellektual potensial - gənc nəsillə tədricən əvəzlənməsi ilə aparılmalıdır. Azərbaycan xalqının müasir elitasının davamlı əvəzedicilik, sağlam rəqabət prinsipləri ilə formalaşmasında gənclərin rolunu həmişə yüksək qiymətləndirən dövlət başçısı bu fəaliyyətə hələ SSRİ dövründən başlamışdır.

Heydər Əliyev hələ 70-ci illərin əvvəllərində SSRİ-nin bir fövqəldövlət kimi süqutunu proqnozlaşdıra bilmişdir. Və onu da aydın dərk edirdi ki, bu süqutun səbəblərindən biri mövcud elita - partiya-sovet nomenklaturası ilə xalqın istək və arzularının ziddiyyət təşkil etməsi və bu qarşıdurmanın tədricən kəskinləşməsidir. Artıq o dövrlərdə SSRİ-də baş qaldırmış dissident hərəkatı, dissident ədəbiyyatı, azad düşüncə tərzi, intellektual sahədə "60-cı illərin nəsli" adlandırılan gənc liderlər qrupunun yaranması kommunizm rejiminin tənəzzülünün işartıları idi. Heydər Əliyev Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinə rəhbərlik etdikdə belə, Azərbaycanda fikir azadlığına görə siyasi təqibləri aradan qaldırmış, xalqın müstəqillik ideyalarının daşıyıcıları olan bir çox ziyalını sovet cəza maşınından qorumuşdur. Bu baxımdan 70-ci illərin əvvəllərindən etibarən Azərbaycanda yeni müstəqil düşüncəli Gənclər Hərəkatının, gələcəyin gənclik elitasının təməlinin qoyulması da məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Onun vətənpərvərlik hisslərinin gücləndirilməsinə, milli dəyərlərə sədaqət prinsipinin aşılanmasına, intellektual və peşə hazırlıq səviyyəsinin yüksəldilməsinə yönəldilən praqmatik və perspektivli addımlarından biri də Azərbaycan gənclərinin böyük bir qrupunun ölkədən kənarda yerləşən ali təhsil müəssisələrində yüksək səviyyəli mütəxəssislər kimi hazırlanmasıdır. Bu baxımdan Azərbaycanda C. Naxçıvanski adına hərbi məktəbin

yaradılması, Azərbaycan gənclərinin bir qrupunun SSRİ-nin ali hərbi məktəblərində hərb sirlərinə yiyələnməsi sayəsində müstəqil Azərbaycan Respublikasının ilk zabitlər korpusu formalaşmışdı.

Heydər Əliyevin müasir Azərbaycan elitasının təşəkkülündə və formalaşdırılmasında tətbiq etdiyi metodologiyanı şərh etmək üçün ilk növbədə yaranmış şəraiti nəzərdən keçirək. Elitologiya prinsiplərinə əsasən, 1991 - 1993-cü illər ərzində Azərbaycanda yeni, qabaqcıl və demokratik siyasi elitanın zəruriliyi aşağıdakı amillərlə şərtləndirilirdi:

* Ermənistanın yürütdüyü işğalçılıq siyasəti nəticəsində Azərbaycan torpaqlarının işğalı;
* qaçqın və məcburi köçkünlərdən ibarət sosial təbəqənin yaranması;
* iqtisadi infrastrukturun dağıdılması;
* dərinləşməkdə olan siyasi böhran;
* ölkə rəhbərliyinin fəaliyyətsizliyi;
* əhalinin əksər hissəsinin sosial-psixoloji və iqtisadi aspektdən qeyri-bərabərliyi;
* onların natamam ictimai-siyasi fəallığı;
* vətəndaşların cəmiyyətin həyatında passiv iştirakı;
* dövlətin siyasətinə ictimai nəzarətin zəifliyi;
* milli və dini zəmində qarşıdurmaların süni şəkildə qızışdırılması;
* xarici dövlətlərin arzuolunmaz geosiyasi maraqları;
* zərərli dini və siyasi ideologiyaların ölkə ərazisinə nüfuz etdirilməsi.

SSRİ-nin ictimai-siyasi münasibətlər modelindən, hakim kommunist ideologiyasından miras qalmış belə bir şəraitdə Heydər Əliyev yuxarıda göstərilən problemlərin aradan qaldırılması üçün yeni tipli, ilk növbədə, cəmiyyət tərəfindən birmənalı şəkildə qəbul edilə biləcək yüksək hazırlıqlı gənc və perspektivli intellektuallar qrupunun formalaşdırılması prosesini öz çiyinlərinə götürmüşdür.

Sovet İttifaqının antidemokratik fövqəldövlət kimi süqutundan, vahid dövlət ideologiyası olan kommunizm siyasətinin tam iflasından sonra müstəqillik əldə etmiş dövlətlərdə, o cümlədən Azərbaycanda ideoloji müstəvidə xaos, vakuum hökm sürürdü. Yaranmış boşluqdan və əhalinin çaşqınlığından istifadə edən xarici dövlətlər öz geosiyasi mənafelərinin kobud müdaxilə yolu ilə ödənilməsi. respublikanın siyasi-iqtisadi təsir altına salınması üçün fəaliyyətə başladılar. Hədəf olaraq Azərbaycan əhalisi, xüsusilə də Gənclər götürülmüşdü. Xaricdən ixrac olunan siyasi baxışlar, qeyri-ənənəvi destruktiv dini hərəkatların ölkəyə nüfuz etdirilməsində məqsəd burada milli və vətəndaş birliyini pozmaq, etnik, dini və siyasi zəmində qarşıdurmalar yaratmaq, Azərbaycanı xarici köməkdən tam asılı vəziyyətə salmaq idi. Belə təhdidlərin əsas qurbanları kimi ölkənin gənc vətəndaşları nəzərdə tutulmuşdular.

Britaniyalı professor K. Uilyams istənilən halda demokratik cəmiyyət quruculuğu yolunu tutan lakin daxili və xarici amillər nəticəsində ciddi problemlərlə üzləşən dövlətlərdə gəncləri sosiumun risk qrupu adlandırır. Belə ki, problemiərin süni və kəskin şəkildə dərinləşdirilməsi, gəncliyin düzgün istiqamətləndirilməməsi sayəsində yarana biləcək qeyri-sabitlik və böhran permanent prosesə çevrilərək risk amilini daha da genişləndirə və arzuolunmaz nəticələrə gətirib çıxara bilər.

Uzun illər boyu sovet xüsusi xidmət orqanlarında rəhbər vəzifələrdə çalı-şan, təbliğat, əks-təbliğat, sosial psixologiya sahəsində zəngin təcrübə toplayan Heydər Əliyev bu xaosun törədə biləcəyi sosial. iqtisadi və siyasi fəsadları uzaqgörənliklə hiss edirdi. Yaranmış mürəkkəb və böhranlı vəziyyətdə ilk növbədə gənclər siyasi və sosial-psixoloji cəhətdən kəskin problemlərlə üzləşirdilər. Həmin şəraiti aşağıdakı kimi qruplaşdırmaq olar:

* ideoloji baxımdan qeyd edildiyi kimi, xaricdən təlqin olunan zərərli ideologiyalardan. eyni zamanda xarici xüsusi xidmət orqanlarının sifarişləri ilə fəaliyyət göstərən destruktiv və totalitar dini təriqətlərdən əsas məqsəd keçmiş dövrün qeyri-müəyyənliklərini yaşayan gənclik arasında dövlətə. onun hakimiyyət strukturlarına qarşı inamsızlıq aşılamaq, Ermənistan-Azərbaycan və Dağlıq Qarabağ münaqişəsinə münasibətdə təslimçilik əhvalı-ruhiyyəsi yaymaq, gənc nəsildə dövlətin və xalqın problemlərinə biganəlik yaratmaqdır;

* təhsil və elmi biliklərə yiyələnmə - SSRİ dağıldıqdan sonra uşaq və gənclərin təlim-tərbiyəsinə diqqətin azalması, sovet təhsil sisteminin prinsipcə çökməsi, iqtisadi və məişət problemləri üzündən məktəblilərin və tələbələrin təhsildən yayınması, psevdo-iqtisadi münasibətlər yarandıqca təhsilə marağın sönməsi və s. amillər gələcək nəslin intellektual səviyyəsini təhlükə qarşısında qoyurdu;

* mənəvi-əxlaqi dəyərlər - yad təhsil nəticəsində ölkə gəncləri arasında zorakılıq kultu, "seksual azadlıq", ifrat kosmopolitizm, milli-mənəvi dəyərlərə hörmətsizlik ideyalarının yayılması üçün külli miqdarda vəsait qoyulur, ideoloji cəhətdən zərərli filmlər, kitablar, qəzet və jurnallar, "azad qərb cəmiyyətinin nümunəsi kimi təqdim olunan vulqar, bayağı verilişlər televiziya kanallarına yol alırdı.

Universalizm mövqeyindən yanaşılarsa. demokratik cəmiyyətin hərəkətverici qüvvəsi olan elitar təbəqə sonralar elitar cəmiyyətin, elitar dövlətin təşəkkülünə səbəb olur. Bu baxımdan gənclik elitası cəmiyyətin maddi-mənəvi, siyasi maraqlarına daha dolğun cavab verən, onun mənafeyini əhatəli ifadə edən. qabaqcıl və praqmatik sosial qrup kimi təmsil olunduqları cəmiyyətin içərisindən məhz bilik və bacarıqları, fitri qabiliyyətləri sayəsində ortaya çıxan liderlər zümrəsidir. Rusiyalı professor Yuri Yakovetsin hesablamalarına əsasən. gənc intellektual elita hər hansı bir ölkənin əhalisinin ən yaxşı halda 5-10 faizini təşkil edir. İlk baxışda böyük göstəricidir. Lakin bu rəqəmdə reallıq heç də tam əhatə olunmur. Elitar gənclik fəaliyyət imkanları baxımından fəal və passiv qruplara bölünür. Burada əsas vəzifə müasir metodologiya vasitəsilə fəal sosial qrupun say tərkibini artırmaq, digər qrupu aktivləşdirmək. keyfiyyətini davamlı şəkildə yaxşılaşdırmaqdır.

Professor V. Çuprovun və sosiologiya doktoru Y. Zubkovun qənaətinə görə, dövlət müstəqilliyini əldə etmiş və ictimai-siyasi sabitlik baxımından həssas olan dövlətlərdə gənclərin ictimai strukturlara fəal inteqrasiyasının və nəsillərarası ziddiyyətlərin aradan qaldırılmasının iki əsas yolu mövcuddur: onlardan birincisi, konsensus və həmrəylik əldəetmə yolu, ikincisi isə. bu ziddiyyətlərin dərinləşməsi nəticəsində münaqişə obyektlərindən birinin tam təcrid olunmasıdır.

Nəsillərin təbii əvəz olunması prosesi bir sıra sosial-psixoloji amillərlə müşayiət olunur. İnkişaf edən cəmiyyətdə hər bir növbəti nəsil qarşıya yeni tələblər. yeni vəzifələr. etik normalar və mənafelər qoyur. Bu baxımdan gəncliyə münasibətdə İ. Turgenevin məşhur "atalar və oğullar" prinsipinin şamil edilməsi yolverilməzdir. Heydər Əliyevin yürütdüyü Gənclər siyasətinin etik üstünlüklərindən biri də məhz köhnə və yeni nəsil arasında ideya müxtəlifliyindən doğan təbii mövqe fərqlərini kəskinləşdirmədən əvvəlki nəslin müsbət fəaliyyətinə hörmət və ehtiram hissini aşılamaqla onların əməyinə müsbət qiymət vermək, gənc əvəzedici heyətin inkişafı istiqamətində bürokratik əngəlləri və sosial diskomfort hissini aradan qaldırmaq, onları ölkənin idarə olunmasına cəlb etməklə dövlət strukturlarının səmərəli işini yüksəltməkdir. İqtisadi-sosial vəziyyət, qlobal məsələlər, yeni sosial və istehsal münasibətləri və informasiya texnologiyaları, ictimai həyatın artan tələbləri və dəyişən sosial reallıqlar "köhnə-yeni nəsil" münasibətlərini dərinləşdirməməli, əksinə ictimai sferada təkamülün sosial sifariş olmaqla labüdlüyünü çatdırmaqla hər iki qrupun potensialını dövlətin və xalqın mənafeyinin təminatına yönəltməyə əlverişli şərait yaratmalıdır.

Yuri Yakovetsin fikrincə, elitar əvəzedici heyətin hazırlanmasında və nəsillər arasındakı fikir müxtəlifliyinin aradan qaldırılmasında ən vacib amil dövlətin bu münasibətləri tənzimləmək bacarığıdır. Praqmatik təfəkkürün üstünlük təşkil etdiyi dövlətdə yeni və köhnə elitalar arasında ziddiyyətlər, mənəvi-psixoloji məsələlərə yanaşmalar sivil yollarla həll olunur və ehtimal olunan ziddiyyətlər proqnozlaşdırılaraq konsensus qaydasında aradan qaldırılır.

İmperiyapərəst mövqeyi ilə seçilən rusiyalı ekspert N. Sorokin müasir dünyada inqilabların ixracı məsələsinə toxunarkən etiraf etmişdir ki, SSRİ ərazisində 60-cı illərdən etibarən müxtəlif "rəngli inqilabların" pilot proseslər şəklində nüfuz etdirilməsi məqsədli xarakter daşıyırdı. Bu hərəkatı "yeni intellektuallar üçün Marşall planı" adlandıran Sorokin qeyd edir ki, məhz SSRİ-nin mövcudluğunun son dövrlərində gənclərə diqqətin azaldılması onların "kommunist təfəkkürlərində ciddi transformasiyalara səbəb olmuşdur.

Nəticədə, yeni nəsil sovet imperiyasının süqutunu alqışlamışdır".

Azərbaycanın gələcək nəslinə ölkənin ictimai-siyasi, mədəni və iqtisadi həyatında fəal iştirak edən, yeni təfəkkürə. müasir biliklərə malik olan, eyni zamanda milli kökə bağlılığını saxlayan, xalqın mədəni-mənəvi irsinə mükəmməl yiyələnən yeni nəslin tərbiyəsi Heydər Əliyevin həmişə diqqət mərkəzində olmuşdur. O, öz çıxış və görüşlərində müstəqil Azərbaycanın gələcəyinə qayğını dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu dəfələrlə vurğulamışdır.

Heydər Əliyev tərəfindən təməli qoyulan Gənclər siyasətinin təhlili belə bir fikir yürütməyə imkan verir: bu siyasət təkamülə və intellektual seleksiyaya, azad və sağlam rəqabətə əsaslanır. Azərbaycanın gənclik elitasının formalaşmasının Heydər Əliyev metodologiyası aşağıdakı tələbləri özündə əks etdirir:

- özünüdərketmə:
- milli, dini mənsubiyyəti əxzetmə;
- dövlətçilik hissi;
- vətənpərvərlik:
- yüksək mənəvi-əxlaqi dəyərlər;
- tolerantlıq;
- yüksək peşəkarlıq; təşəbbüskarlıq.

Statistik hesablamalara görə, Azərbaycan Respublikası əhalisinin 60%-dən çoxu gənclərdir. Bu isə o deməkdir ki. ölkənin ictimai-siyasi, sosial və iqtisadi həyatı bu və ya di-gər baxımdan gəncliklə əlaqəlidir. Məhz bu baxımdan Heydər Əliyevin Gənclər siyasəti və bu siyasətdən doğan dövlət proqramı cəmiyyət həyatının

praktiki olaraq bütün sahələrini əhatə edir, eyni zamanda ölkənin taleyüklü məsələlərində, bilavasitə fəal iştirakını təmin etməklə, prioritet istiqamət rolunu oynayır.

Uşaq və Gənclər probleminin uğurlu həlli, elitoloji baxımdan qabaqcıl intellektual heyətin yetişdirilməsi istiqamətində başlanan fəaliyyət qısa vaxt ərzində nəticələrini verməyə başlamışdır. Belə ki, 1994-cü il iyun ayının 26-da Prezident Heydər Əliyevin Fərmanı ilə ölkədə yeni dövlət qurumu - Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi təsis olunmuşdur. 2001-ci il aprel ayının 18-də isə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Xarici Turizm İdarəsi ləğv edilərək. onun funksiyaları yeni yaradılmış nazirliyə verilmişdir. Hazırda adı çəkilən qurum Gənclər və İdman Nazirliyi kimi fəaliyyət göstərir.

Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin yaradılması həm də onunla əlamətdardır ki, bu təsisat postsovet məkanında ilk təsisat olmaqla yanaşı, Azərbaycan dövlətinin Gənclər siyasətinə verdiyi bariz nümunənin göstəricisidir. Bu tipli strukturlar Fransa, Bolqarıstan, İtaliya və digər dövlətlərdə mövcud olduğu üçün yeni yaradılmış nazirlik ilk növbədə qabaqcıl təcrübənin öyrənilməsi üçün səmərəli, işgüzar əlaqələrin qurulmasına başlamışdır. Təsadüfi deyil ki, bir müddət sonra Avropa İttifaqı ona üzv olan bütün dövlətlərdə bu tipli nazirliklərin yaradılması məsələsini önə çəkmişdir.

Yeni dövlət təsisatının uğurlu fəaliyyət göstərməsi, gənclər siyasətinin icrasında aparıcı və əlaqələndirici təsisata çevrilməsi xüsusilə də müasir gəncliyin təlim-tərbiyəsi istiqamətində vəzifələrin uğurla yerinə yetirilməsi üçün müvafiq qanunvericilik baza fəaliyyət göstərməkdədir. Bu baxımdan 2002-ci ildə qəbul edilmiş "Gənclər siyasəti haqqında" Qanun əsas tənzimləyici sənəd kimi götürülmüşdür. Bundan başqa, icrası 2009-cu ilədək nəzərdə tutulan "Azərbaycan gəncliyi" məqsədli dövlət proqramı da yeni nəslin yetişdirilməsi, onların vətənpərvərlik, intellektual, sosial-iqtisadi, mənəvi-əxlaqi və fiziki inkişafını nəzərdə tutmuşdur. Həmin uzunmüddətli proqramın icrası üçün təqribən 10 milyon ABŞ dollarına yaxın vəsait ayrılmışdır.

1996-cı il fevral ayının 22-də Bakı şəhərində Azərbaycan Gənclərinin I forumu öz işinə başlamışdır. Gənclərin ideya-siyasi, intellektual baxımdan inkişafına dair məsələləri müzakirəyə çıxaran həmin forum sonrakı illərdə də təşkil edilmişdir. 1997-ci il fevral ayının 2-də Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin əmri ilə 2 fevral Azərbaycan gəncləri günü elan edilmişdir. Bu əlamətdar hadisədən 2 il sonra 1999-cu il iyul ayının 29-da ölkə başçısının "Dövlət Gənclər siyasəti haqqında" Fərmanı imzalanmışdır. Bu sənəddə uşaq, yeniyetmə və gənclərin üzləşdikləri sosial-iqtisadi problemləri həll etmək. gənclərin daha geniş təbəqələrini dövlət idarəetmə sisteminə cəlb etmək sahəsində müvafiq tədbirlərin görülməsi nəzərdə tutulmuşdur. Eyni zamanda, ölkə gəncliyinin inkişafı məqsədilə 2002-ci ilin aprel ayında "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası Qanunu qüvvəyə minmişdir. Həmin qanuna əsasən, respublika gənclər siyasətinin məqsədləri, prinsipləri, təşkilati-hüquqi bazası müəyyən edilərək tənzimlənir. 1995-ci il noyabr ayının 25-də Azərbaycan Respublikası Gənclər Təşkilatının Milli Şurası yaradılaraq fəaliyyətə başlamışdır. Qurumun məqsədi uşaq və gənclər təşkilatlarının fəaliyyətini əlaqələndirməklə yanaşı, onlar arasında müxtəlif sahələr üzrə istedada malik olanları inkişaf etdirməkdir. Təməli ümummilli lider tərəfindən qoyulan bu dövlət siyasəti aşağıdakı istiqamətlər üzrə həyata keçirilməkdədir:

- gənc nəslə dair mükəmməl, beynəlxalq hüquqi normalara cavab verən qanunvericilik bazasının davamlı olaraq formalaşdırılması;
- gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi;
- ölkənin gənc vətəndaşlarında yaradıcı istedadın üzə çıxarılması;
- uşaq və gənclərin asudə vaxtlarının səmərəli təşkili;
- gənclərin sosial inkişafı, onların məşğulluq problemlərinin həlli;
- gənc ailənin müdafiəsi;
- ölkənin gənc vətəndaşlarının ictimai-siyasi həyatda fəal iştirakı üçün müvafiq şəraitin yaradılması;
- gənc iş adamlarına yardım;
- sağlam həyat tərzinin təbliği istiqamətində fəaliyyət və profilaktik tədbirlər;
- qaçqın və məcburi köçkünlər arasında gənclərin sosial reabilitasiyası;
- əmək qabiliyyətini itirmiş və əlil olmuş gənclərlə iş;
- tələbə və tələbə təşkilatları ilə iş;
- beynəlxalq əməkdaşlıq;
- milli-mənəvi dəyərlərə. Azərbaycan xalqının tarixinin öyrənilməsinə diqqət:
- tolerantlıq keyfiyyətinin aşılanması.

Bu baxımdan yuxarıda adı çəkilən istiqamətlər üzrə gənclər siyasətinin uğurla reallaşdırılması və bu prosesə daha çox gənclərin cəlb edilməsi. onların arasından daha layiqli və bacarıqlılarının seçilməsi məqsədilə müntəzəm olaraq aşağıdakı müvafiq tədbirlər həyata keçirilir:

- gənclərin ümumrespublika forumları, gənc tələbələrin, yaradıcı gənclərin qurultayları;

- məktəblər arasında hərbi vətənpərvərlik oyunları;
- bədii yaradıcılığın müxtəlif sahələri üzrə sərgi və müsabiqələr;
- istedadlı gənclərin həvəsləndirilməsi və mükafatlandırılması;
- Gənclər siyasətinin ayn-ayrı istiqamətləri üzrə konfranslar, "dəyirmi masa"lar, treninq kursları;
- gənc şair və yazıçıların əsərlərinin nəşri;
- gənc liderlər məktəbləri;
- intellektual oyunlar üzrə milli çempionatlar:
- audiovizual festivallar;
- qaçqın və məcburi köçkünlər arasında yaradıcı festivallar;
- elm və yaradıcılıq həftələri;
- gənclik təşkilatlarının layihələrinə dair müsabiqələr.

Azərbaycan Prezidenti Heydər Əliyev Respublika gənclərinin ikinci forumunda qarşıya qoyulan vəzifələrin qısa vaxt ərzində icrası məsələsinə toxunaraq demişdir: "Məlumdur ki. keçmişdə hamımızın yaşadığı sovet hökuməti dövründə gənclərin təşkilatları komsomol və pioner təşkilatları idi. Sovet hakimiyyəti dağıldı: Azərbaycan dövlət müstəqilliyini əldə etdi. Qarşımıza bir çox problemlər çıxdı. Bunların biri də gənclərin problemidir. Doğrudur, dövlət müstəqilliyini əldə edəndən sonra birinci illərdə bunlarla məşğul olmaq mümkün olmamışdır, yaxud da ki, buna diqqət verilməmişdir. Ancaq hesab edirəm ki, Azərbaycanda son dörd ildə gənclər probleminin nizama salınması və həll olunması üçün vacib tədbirlərin həyata keçirilməsi ilə əlaqədar olaraq lazımi işlər görə bilmişik, indi də bu əməlin nəticəsini görürük. İndi tam qətiyyətlə demək olar ki, Azərbaycan gəncləri cəmiyyətdə öz yerini tutub və müstəqil Azərbaycanın inkişaf etməsi üçün lazımi işlər görür".

Heydər Əliyevin elitoloji metodologiyasının əsasmı qeyd edildiyi kimi, təkamül, sağlam rəqabət və millilik prinsipləri təşkil edir. O, yeni və qabaqcıl nəslin yetişdirilməsini, onun intellektual inkişafının təməlinin qoyulmasını, müsbət xüsusiyyətlərin və liderlik keyfiyyətlərinin məhz uşaq yaşlarından formalaşdırılmasının vacibliyini həmişə önə çəkmişdir. Bu baxımdan Azərbaycan Respublikasında uşaqların hüquqlarının müdafiəsi məsələləri, onlara sosial qayğı xüsusi əhəmiyyət kəsb etməkdədir.

Belə ki, Azərbaycan Respublikası 1992 - 1993-cü illərdə uşaq hüquqlarına dair bir sıra beynəlxalq sənədlərə, o cümlədən BMT-nin Uşaq Hüquqları Konvensiyasına, Uşaqların yaşaması, müdafiəsi və inkişafının təmin edilməsi barədə Ümumdünya Bəyannaməsinə fəal qoşularaq öz üzərinə müvafiq öhdəliklər götürmüşdür. Xüsusilə qeyd etmək lazımdır ki. Azərbaycan Respublikasında uşaqların sosial. hüquqi müdafiəsi ilə əlaqədar məsələlər Azərbaycan Respublikası Konstitusiyasında dəqiq və geniş əhatə olunmaqla yanaşı. "Vətəndaşlıq haqqında", "Xarici vətəndaşların hüquqi vəziyyəti haqqında". "Dövlətin Gənclər siyasəti haqqında" Azərbaycan Respublikası qanunlarında. Əmək. Mülki, Nikah və Ailə məcəllələrində, digər qanunverici və normativ aktlarda öz həllini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1998-ci il 24 avqust 761 saylı Fərmanı ilə Azərbaycan Respublikasının "Uşaq hüquqları haqqında" Qanunu təsdiq edilmişdir. Qeyd edilməlidir ki, bu qanun beynəlxalq hüquq normalarının, xüsusilə də İnsan hüquqları haqqında Ümumdünya Bəyannaməsinin (1948), Uşaq Hüquqları Bəyannaməsinin (1959), BMT-nin Uşaq Hüquqları Konvensiyasının (1989) və digər sənədlərin tələblərinə tam cavab verir.

1999-cu il dekabrın 12-də Uşaqların Beynəlxalq Televiziya və Radio günü münasibətilə Bakıdakı Teleteatrda "Uşaqlar dünyanın sevincidir" devizi altında keçirilən tədbirdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev iştirak edərək müstəqil Azərbaycan dövlətinin öz gələcəyinə diqqət və qayğısından danışmış və gənc nəslə dəyərli tövsiyələrini vermişdir.

Qeyd etmək lazımdır ki. statistik məlumatlara görə, hazırda Azərbaycanda 2 milyondan çox uşaq vardır və onların hüquqlarının müdafiəçisi kimi Azərbaycan Respublikası çıxış edir. "Uşaq hüquqları haqqmda" Azərbaycan Respublikası Qanununun 3-cü maddəsində deyilir: "Uşaqlar barəsində dövlət siyasəti hər bir uşağın zəruri maddi və məişət şəraitində böyüyüb tərbiyə olunmasının, mütərəqqi tələblər əsasında təhsil almasının. layiqli vətəndaş kimi formalaşmasının təmin edilməsinə yönəldir".

Heydər Əliyevin yürütdüyü gənclər siyasətinin bu gün də davamlı inkişafının bariz nümunəsi 1999-cu il iyun ayının 22-də imzalanmış "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum uşaqların sosial müdafiəsi haqqmda" Azərbaycan Respublikasının Qanunudur.

Ölkədə uşaqların müdafiəsinin təmin edilməsinə dair mütərəqqi və perspektivli hüquqi bazanın yaradılması istiqamətində müvafiq dövlət strukturlarının məqsədli fəaliyyəti sayəsində Azərbaycan Respublikası bir sıra ixtisaslaşdırılmış beynəlxalq təşkilatlara üzv qəbul olunmuşdur. Ölkədə uşaqların təlim-tərbiyəsi ilə əlaqəli dövlət siyasəti bu gün öz miqyasını genişləndirir. Azərbaycanın təhsil, səhiyyə müəssisələrində uşaqların sosial müdafiəsinə cəlb olunan dövlət və qeyri-hökumət təşkilatları onların düzgün inkişafında əhəmiyyətli rol

oynamaqla yanaşı, gələcəkdə dövlətin idarəetmə orqanlarında, elm və təhsil müəssisələrində çalışacaq yeni aparıcı qüvvənin - Azərbaycan elitasının formalaşmasında əhəmiyyətli işlər görür.

Azərbaycan Respublikasında gəncliyin intellektual inkişafı həmişə Heydər Əliyevin diqqət mərkəzində olmuşdur. Prezident Heydər Əliyevin təhsil sahəsində dövlətin irəli sürdüyü və reallaşdırmağa başladığı geniş islahat proqramı layihəsinə verdiyi əhəmiyyət yüksək dəyərləndirilmişdir. Belə ki, dövlət başçısının təhsil sahəsində dövlət islahat proqramının təsdiq edilməsi haqqında 1999-cu il 15 iyun tarixi sərəncamı bu baxımdan böyük əhəmiyyətə malikdir. 1999-cu il avqust ayının 31-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti respublikanın ali təhsil ocaqlarına daxil olmuş tələbələrlə keçirilən görüşdə gənclərin təlim-tərbiyəsi və onların gələcək peşə fəaliyyəti sahəsində islahatların aparılmasına dair əhatəli söhbət aparmışdır. Görüşdə Azərbaycan Prezidenti Heydər Əliyev qeyd etmişdir ki, təhsildə, xüsusilə orta təhsildə keçmiş stereotiplərdən uzaqlaşaraq milli ruhlu vətəndaşların, milli ruhlu şəxsiyyətlərin tərbiyəsi təhsil müəssisələrinin fəaliyyətinin əsas məqsədinə çevrilməlidir. Uşaqlarda, şagirdlərdə və bütün gənclərdə Azərbaycan dövlətinə, Azərbaycan xalqına, Azərbaycan dilinə, xalqımızın adət-ənənələrinə. milli dövlətçiliyə sədaqət və vətənpərvərlik tərbiyəsi aşılanması daim diqqət mərkəzində saxlanılmalıdır. Bütün bunlara nail olmaq üçün isə təhsilin məzmunu - tədris proqramları, dərsliklər, dərs vəsaitləri keyfiyyətcə yaxşılaşdırılmalı, müasir tələblərə cavab verməli. öz milli spesifikasını qorumaqla yanaşı, beynəlxalq standartlara uyğunlaşdırılmalıdır. Azərbaycan tarixinin gənclər tərəfindən diqqətlə öyrənilməsini həmişə önə çəkən Prezident Heydər Əliyev orta və ali məktəb dərsliklərində xalqımızın qədim tarixə malik tarixinin geniş və düzgün əhatə olunmasını zəngin maarifçilik pedaqogikası. o cümlədən xalq pedaqogikasına əsaslanmasını vurğulamışdır.

1999-cu il mart ayının 17-də Prezident sarayında Azərbaycanın dövlət başçısı Heydər Əliyevin yanında ölkənin təhsil sistemində islahatlar üzrə Dövlət Komissiyasının iclası keçirilmişdir. Dünya Bankının nümayəndələri və ekspertlərinin də iştirakı ilə həmin Komissiyanın fəaliyyəti müzakirə edilmişdir. Qeyd edək ki, 1998-ci ilin aprelində təhsil sahəsinin aparıcı mütəxəssislərindən ibarət yaradılan işçi qrupun və Dövlət Komissiyasının iş planı təsdiq edilmişdir. Komissiya Azərbaycanın təhsil sistemində yaranmış vəziyyətə dair məlumatları toplayaraq onları təhlil etmiş, dünyanın bir çox ölkələrinin qabaqcıl təhsil sistemlərinin təcrübələrini öyrənmiş, təhsil islahatlarının həyata keçirilməsinə dair tövsiyələrini hazırlamışdır. Ötən bir il ərzində görülən işlər sayəsində 3 mühüm baza sənədinin - təhsil konsepsiyasının, təhsil haqqında qanunun və təhsil islahatı haqqında proqramın layihələri işlənib hazırlanmışdır. Xüsusilə vurğulanmalıdır ki, həmin proqramın əsas məqsədi məktəbəqədər, orta, ali və ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq, inkişafına nail olmaq, Azərbaycan Respublikasında təhsil sistemini tənzimləyən zəruri normativ-hüquqi baza yaratmaq, cəmiyyətin tələblərinə, onun siyasi-iqtisadi və sosial həyatının demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdir.

Gənc nəslin təkcə intellektual baxımdan deyil. fiziki cəhətdən də inkişaf etməsi salamlığının qorunması Azərbaycan Respublikasının Gənclər siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur. Hələ ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə başlanan, sonralar isə Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə davam etdirilən bu siyasət bu gün uğurla davam etdirilməkdədir.

Azərbaycan Respublikasında genişmiqyaslı idman sağlamlıq fəaliyyəti, olimpiya hərəkatının təməli 1993-cü ildə qoyulmuşdur. Ölkənin müxtəlif regionlarında gənc nəslin fiziki inkişafı, ölkə idmançılarının müxtəlif beynəlxalq yarışlarda iştirakı məqsədilə xeyli olimpiya mərkəzləri. idman sağlamlıq mərkəzləri tikilib istifadəyə verilmişdir. Belə komplekslər yalnız Bakıda və Abşeronun bir sıra yaşayış məntəqələrində deyil, Naxçıvanda, Gəncədə, Qubada, Lənkəranda, Bərdədə, Şamaxıda tikilib istifadəyə verilmişdir. Bu proses bu gün də ardıcıl olaraq davam etdirilməkdədir. Təsadüfi deyil ki, məhz belə məqsədli siyasət nəticəsində idmançılarımız 27-ci Sidney Olimpiadasında 2 qızıl. 1 bürünc medal, 28-ci Afina yay Olimpiya oyunlarında isə bu uğurlarını daha da artırmış. bir qızıl, 4 bürünc medal əldə etmişlər. Son on il ərzində Azərbaycan idmançıları Avropa və dünya çempionatlarında 800-dən çox medala, o cümlədən 291 qızıl medala sahib olmuşlar. Azərbaycanda idmanın uğurları Milli Olimpiya Komitəsinin Prezidenti cənab İlham Əliyevin fəaliyyəti sayəsində mümkün olmuşdur. Azərbaycanda idmanın inkişaf etdirilməsi və gənclər arasında kütləvi xarakter alması MOK-un məqsədyönlü fəaliyyətinin bariz nümunəsidir.

Azərbaycan Prezidenti Heydər Əliyev 2002-ci il iyunun 15-də Naxçıvanda Olimpiya Kompleksinin açılışına həsr olunmuş təntənəli mərasimdə çıxış edərək idmançılarımızın beynəlxalq səviyyəli yarışlarda əldə etdiyi hər bir uğurun Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə səbəb olan əməl olduğunu vurğulayaraq ölkə gənclərini idmanla ciddi məşğul olmağa çağırmışdır.

Hazırda Azərbaycan Respublikasında gənclərin sayca 150-dən çox qeyri-hökumət təşkilatı fəaliyyətdədir. Bu təşkilatlar mərhələli şəkildə Azərbaycan gəncliyinin intellektual və mənəvi inkişafına əlverişli zəmin yaratmaqdadır. Ümummilli lider Heydər Əliyevin yeritdiyi gənclər siyasətinin uğurlu icrası sayəsində

hazırda Azərbaycanda təqribən 170 gənclər təşkilatı mövcuddur. "Azad Gənclər" İctimai Birliyi, Azərbaycanın Gənc Diplomatları Birliyi, Bizim Gənclik İctimai Birliyi, Azərbaycan Gənclər İttifaqı, Gənclər üçün Təhsil Mərkəzi, Bakı Gənclər Klubu, "Gənc liderlər" İctimai Birliyi, Yaradıcı gənclərin "İstedad" İctimai Birliyi, "İrəli" Ümumrespublika Gənclər Hərəkatı, Azərbaycan Respublikası Gəncliyə Yardım Fondu, Gəncliyin İnkişafı İctimai Birliyi, Azərbaycan və Avropa Şurası Gənclərinin Əməkdaşlıq Təşkilatı, "Gələcəyə körpü" İctimai Birliyi (bu təşkilat Avropa Şurasının "İlin gənclik təşkilatları" siyahısına daxil olan 5 birlikdən biridir), Dünya Azərbaycanlıları İctimai Birliyi, "Yaşlek" Azərbaycandakı Tatar Gəncliyi Mərkəzi, Azərbaycanın Maarifçi Gənclər Təşkilatı, Azərbaycan Gənclərinin Avratlantika Təşkilatı, Gənc İş Adamları Assosiasiyası, Gənc Kinematoqrafçılar Assosiasiyası və bu kimi təşkilatlar Azərbaycanın gənc nəslinin inkişafında mühüm rol oynamaqdadırlar.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Respublika Gənclərinin II forumunda (4 mart 1999-cu il) çıxışında ölkənin gələcək aparıcı qüvvələrinə nə dərəcədə önəm verdiyini göstərərək onlara öz tövsiyələrini vermişdir. Qeyd etmək lazımdır ki, məhz həmin forumda çıxış edən Gənclər nümayəndələri müvafiq dövlət strukturlarının gənclərin problemlərinə günün tələbləri səviyyəsində yanaşmadığını qeyd etmişdilər. Heydər Əliyev bu qeydləri yüksək qiymətləndirərək demişdir: "Siz bizim hakimiyyət orqanlarını tənqid etdiniz. Mən sizin bu cür çıxışlarınızı xüsusi qiymətləndirirəm. Eyni zamanda, təəssüf edirəm ki, sizin burada göstərdiyiniz nöqsanları və həll olunmamış problemləri müvafiq orqanlar indiyədək həll edə bilməmişlər. Ancaq güman edirəm ki, sizin də nöqsanınız ondan ibarətdir ki. bu məsələləri siz vaxtında kəskin olaraq qaldırmamısınız. Mən bəyan edirəm ki, sizin tənqidi çıxışlarınızdan hamımız nəticə çıxarmalıyıq". Bu kiçik sitat Azərbaycan Prezidentinin gənclərə, onların ictimai-siyasi fəaliyyətinə nə dərəcədə böyük qiymət verməsi ilə yanaşı, eyni zamanda onun bir lider kimi məsuliyyətinin, uzaqgörənliyinin, ağsaqqallığının, liderliyinin bariz nümunəsidir. Həmin çıxışında Heydər Əliyev üzünü gənc nəslə tutaraq bildirmişdir: "Siz müasir Azərbaycanı XXI əsrdə yaşadanlarsınız, quranlarsınız, inkişaf etdirənlərsiniz. Biz müstəqil Azərbaycanın taleyini gələcəkdə sizə etibar edəcəyik, sizə tapşıracağıq. ona görə də Azərbaycan dövlətini yaşatmaq, inkişaf etdirmək üçün hazır olun".

Bu baxımdan Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2002-ci il dekabr ayının 31-də Respublika sarayında keçirilmiş uşaqlar üçün yeni il şənliyindəki nitqində dediklərini bir daha xatırladaq: "Siz müstəqil Azərbaycanın övladlarısınız. Siz müstəqil Azərbaycan vətənində doğulmusunuz, dünyaya gəlmisiniz və indi ilk addımlarınızı atırsınız. Bu. böyük bir xoşbəxtlikdir. Bizim nəsillər, bizdən əvvəlki nəsillər Azərbaycanın milli azadlığı, dövlət müstəqilliyi uğrunda çalışıblar, mübarizə aparıblar və nəhayət, 11 il bundan öncə Azərbaycanın dövlət müstəqilliyini əldə ediblər. Biz bu dövlət müstəqilliyini əldə etdiyimizə görə və ən əsası. onu 11 il ərzində qoruyub saxlaya bildiyimizə görə, günü-gündən möhkəmləndirdiyimizə, inkişaf etdirdiyimizə görə fəxr edirik".

13 oktyabr 2003-cü ildə keçirilmiş Azərbaycan Respublikası gənclərinin üçüncü forumunda da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev gənclərin varislik, əvəzedicilik missiyasını bir daha vurğulayaraq, elitar nəslin təşəkkülü məsələsini ortaya qoymuş və qarşılarına yeni vəzifələr qoymuşdur: "Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəsillə bağlayır. Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması onun mənsub olduğu xalqın rifahının, ölkənin çiçəklənməsinin rəhnidir. Bu gün iftixar və qürur hissi ilə bildirmək istəyirəm ki. müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərimizi, doğma ana dilimizi, ata-babalardan qalan gözəl adət-ənənələrimizi göz bəbəyi kimi indi də qoruyub yaşadır. O. öz həyatmı qurarkən ilk öncə müstəqil Azərbaycanın bu günü və gələcəyi haqqında düşünür, öz fəaliyyətində yüksək vətəndaşlıq hisslərinə malik olduğunu nümayiş etdirir".

Heydər Əliyevin Gənclər siyasətinin hüquqi bazası dedikdə. aşağıdakı sənədləri önə çəkmək olar, təkcə 1994-cü ildən 2007-ci ilədək 20-dən çox normativ-hüquqi sənəd qəbul edilmişdir. Buraya müvafiq qanun və dövlət proqramı, Prezidentin və Nazirlər Kabinetinin sərəncamları daxildir. Gənclər siyasətini tənzimləyən, eyni zamanda, ölkənin gənc vətəndaşlarının hüquq və azadlıqlarmı müdafiə edən, onların inkişafına zəmin yaradan həmin baza bu gün də təkmilləşməkdə, beynəlxalq hüquq normalarına unifikasiya edilməkdədir.

Gənclər siyasətinə dair qanun yaradıcılığı prosesi də davamlı olaraq təkmilləşdirilir. Azərbaycan Respublikası Milli Məclisi "Gənclər siyasəti haqqında" qanunun beynəlxalq-hüquqi normalara unifikasiyasi və daha da təkmilləşdirilməsi məqsədilə müvafiq düzəliş və əlavələrini etmişdir. Əgər ötən müddət ərzində "gənclər" dedikdə, 16-35 yaşınadək olan vətəndaşlar nəzərdə tutulurdusa, indi bu gənc 14-29 yaşadək endirilmişdir. Gəncliyin bu cür yaş təsnifatı Avropa Şurasının gənclərə dair tələblərinə tamamilə uyğundur. Digər tərəfdən, Azərbaycan parlamenti Gənclər Siyasətinin Müdafiəsi Fondunun yaradılması barədə də əlavələrini etmişdir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Əfəndiyev M. Siyasi və hüquqi təlimlər tarixi. Bakı: Azərnəşr, 2002. 603 s.
2. Dahl R. Demokratiya haqqmda. Bakı: Azərnəşr, 2004, 248 s.
3. Demokratiya - dövlət və cəmiyyət. Bakı: Elm, 1999, 278 s.
4. Musabəyov R. Elitalar və hakimiyyət. Bakı: Elm, 1998, 24 s.
5. Temurlu M. Politologiya. Bakı: Azərbaycan, 2005, 267 s.
6. Ащин Г. Элитология в системе политических наук. // Общественные науки и современность, 2003, №4, с. 124 - 134
7. Васильева Л. Теория элит (синкретический подход) Общественные науки и современность, 2005, с. 75 - 85
8. Вдовина И. Французская персонология. М. : Наука. 1990, с. 190
9. Карабушенко П. Антропологическая элитология. Астрахань.: Мир, 1999, с. 250

**HEYDAR ALIYEV'S YOUTH POLICY IN ELITOLOGICAL CONTEXT.**
*Azer Bayramov.* The article interpretates a term of "elite" and considers Elitology as part of political science. The author considers National Leader Heydar Aliyev's methods to form modern Azerbaijani political elite that reflects the demands of informational society and globalization.

**МОЛОДЕЖНАЯ ПОЛИТИКА ГЕЙДАРА АЛИЕВА В ЭЛИТОЛОГИ-ЧЕСКОМ КОНТЕКСТЕ.** *Азер Байрамов.* В статье разъясняется политическая трактовка термина "элита" и, в связи с этим, элитология представляется как раздел исследований в политических науках. Автор рассматривает методологию, примененную общенациональным лидером Гейдаром Алиевым, в формировании современной политической элиты Азербайджана, отвечающей требованиям нового информационного общества и эпохе глобализации.

**“Dirçəliş-XXI əsr”**.-2008.-№126-127.-S.70-86

# QLOBAL İQTİSADİ LAYİHƏLƏRİN REALLAŞMASI ÜMUMMİLLİ LİDERİMİZİN MÜSTƏSNA XİDMƏTLƏRİNDƏNDİR

İPƏK YOLU STRATEGİYASI HEYDƏR ƏLİYEVİN
GƏRGİN ƏMƏLİ FƏALİYYƏTİ SAYƏSİNDƏ
YENİDƏN HƏYATA VƏSİQƏ ALDI

**Ziya MƏMMƏDOV,**
Azərbaycan Respublikasının nəqliyyat naziri

***Azərbaycan xalqının ümummilli lideri, dünya səviyyəli dövlət başçısı və siyasi xadim Heydər Əliyev çoxəsrlik dövlətçiliyimiz tarixində yeni parlaq səhifə açan nadir, bənzərsiz şəxsiyyətdir. Tarixin yaddaşında əbədi iz qoymaq hər insana nəsib olmayan böyük xoşbəxtlikdir. Bu yalnız Heydər Əliyev kimi dahi şəxsiyyətlərin qismətinə düşən müstəsna taledir. Bütün həyatını xalqının xoşbəxt gələcəyinə, qüdrətli Azərbaycan dövlətinin yaradılmasına və inkişafına həsr etmiş bu dahi şəxsiyyətin Vətən və xalq qarşısındakı xidmətləri misilsizdir.***

Azərbaycanda müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlət quruculuğu prosesinin geniş və dönməz vüsət alması, milli, mənəvi və əxlaqi dəyərlərimizin qorunub saxlanması, bu dəyərlərin ümumbəşəri ideyalarla daha da zənginləşdirilməsi, ilk milli Konstitusiyamızın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması və yeni iqtisadi kursun müəyyənləşdirilməsi prosesinin müvəffəqiyyətli həlli məhz ümummilli liderimiz Heydər Əliyevin xidmətləridir.

Təsadüfi deyil ki, ulu öndərimizin fəaliyyəti öz miqyası və əhəmiyyəti etibarilə Azərbaycanın hüdudlarından çox-çox kənara çıxıb. Dünya miqyasında ən nüfuzlu dövlət başçıları, politoloqlar tərəfin-dən dəfələrlə bəyan edildiyi kimi, Azərbaycan və böyük türk dünyasının dahi oğlu Heydər Əliyev dühası zəmanəmizin ən yüksək zirvəsində duran tanınmış siyasi xadimlər sırasında öz layiqli yerini tutub.

Bu dahi şəxsiyyət həyatı boyu üzərinə düşən bütün tarixi missiyaları şərəflə yerinə yetirib. Xalqımızın yaddaşında yaradıcı, qurucu və xilaskar obrazını daim yaşadıb, qəlblərdə özünə əbədi məhəbbət qazanıb. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi ötən əsrin 70-80-ci illəri yaddaşlarda təkcə iqtisadi yüksəliş, təsərrüfatın bütün sahələrinin inkişafı dövrü kimi deyil, həm də elmin, təhsilin, mənəviyyatın, mədəniyyətin misilsiz tərəqqisi illəri kimi qalıb. Məhz həmin dövrdə gələcək müstəqilliyimizin təməl daşları hörülüb, iqtisadi, sosial və mədəni potensialı formalaşıb. 1969-1982-ci illərdə həyatımızın bütün sahələrində köklü islahatlar aparılmış, köklü dəyişikliklər baş vermişdir. Bu nəhəng işlər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir.

XX əsrin son onilliyində sovet imperiyasının süqutu, dünyanın bloklara bölünməsinin aradan qaldırılması, bir qütblü siyasi sistemin formalaşması dünyada geosiyasi vəziyyətin kökündən dəyişmə-sinə, postsovet məkanında və Şərqi Avropada müstəqil dövlətlərin yaranmasına səbəb oldu.

Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra o vaxt hakimiyyətdə olan səriştəsiz insanların günahı üzündən çox ağır duruma düşmüşdü. Siyasi və iqtisadi böhran dərinləşdikcə ölkədə xaotik vəziyyət yaranırdı. Özbaşınalıq və hərc-mərclik, vətəndaş qarşıdurması öləni dağılmaq, müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Belə çətin və ümidsiz bir vaxtda xalqımız öz ta-leyini yalnız dahi oğlu Heydər Əliyevə etibar etdi. Xalqımızın təkidi və xahişi ilə Azərbaycanda hakimiyyətə qayıdan Heydər Əliyev onu başının üstünü almış bütün bəlalardan hifz edib qorudu.

Qısa vaxt içərisində iqtisadiyyatdakı dərin böhranın qarşısı alındı, inkişaf mərhələsi başlandı. Müstəqilliyimiz dönməz prosesə çevrildi. Müstəqil Azərbaycan dövləti demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolu ilə inamla irəliləməyə başladı. Təsadüfi deyil ki, dünya siyasətçiləri və tanınmış iqtisadçılar, nüfuzlu beynəlxalq təşkilatlar və maliyyə qurumları Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın qısa zaman kəsiyində əldə etdiyi möhtəşəm uğurları fenomenal sıçrayış adlandırıblar. Bu, sözün həqiqi mənasında iqtisadi «inqilab», sıçrayışlı dönüş idi.

Ümummilli liderimiz deyirdi ki, iqtisadiyyatı güclü olan dövlət qüdrətli dövlətdir. Odur ki, ilk növbədə məhz bu sahədə köklü islahatlar aparıldı, qlobal iqtisadi konsepsiyalar işlənib hazırlandı və uğurla icra edilməyə başlandı.

Belə bir şəraitdə müstəqilliyini əldə etmiş Azərbaycan xalqı dövlətçiliyini iqtisadi və siyasi cəhətdən möhkəmləndirmək, keçmişdən miras qalmış nəqliyyat-iqtisadi blokadanın aradan qaldırılması, zəngin sərvətlərini müasir texnologiyalar əsasında hasil edib dünya və Avropa bazarlarına çıxarılması, ümumbəşəri dəyərlərə inteqrasiya etmək, Qərb demokratiyasına uyğun dövlətin yaradılması istiqamətində əsaslı addımlar

atdı. Bu prosesin reallaşmasında görkəmli dövlət xadimi Heydər Əliyevin uğurlu iqtisadi siyasətinin mühüm tərkib hissəsi olan neft və İpək Yolu strategiyası xüsusi rol oynadı. Bəzi daxili və xarici qüvvələr bu qlobal iqtisadi layihələrin reallaşmasına mane olmağa çalışsalar da, Heydər Əliyev qətiyyəti sayəsində bu cəhdlərin qarşısı alınmış, ölkəmizin sosial-iqtisadi tərəqqisində mühüm əhəmiyyəti olan neft və İpək Yolu strategiyası həyata vəsiqə almışdır.

Yeni neft və İpək Yolu konsepsiyası Azərbaycanın inkişafının ümumi strateji xətti, onun milli maraqları kontekstində hərəkətə gətirilmişdi. Əgər o dövrdə bu mühüm amillər ön plana çəkilməsəydi, qloballaşan dünya şəraitində Azərbaycan labüd olaraq çətin sınaqlarla üzləşəcəkdi.

1994-cü ilin sentyabrında Azərbaycanın bütün həyati əhəmiyyətli sahələrində inkişafın əsasını qoyan «Əsrin müqaviləsi»nin imzalanması ilə respublikanın iqtisadi qüdrəti və tranzit potensialı xeyli dərəcədə artdı. Şərqlə Qərb arasında strateji körpü rolunu oynayan Azərbaycan əlverişli tranzit əhəmiyyətli dövlətlərdən biri kimi bölgədəki lider statusunu təmin etdi.

Milli neft strategiyasının reallaşması ölkəmizin qeyri-neft sektorunun da inkişafına güclü təkan verdi. Bu uzaqgörən siyasətin qlobal əhəmiyyəti daha böyükdür. Artıq Azərbaycan dünyanın və Qərbin mühüm yanacaq-energetika regionlarından birinə çevrilərək öz inkişafının keyfiyyətcə yeni, daha mühüm mərhələsinə qədəm qoyur. Bütün bunlar ulu öndərimiz Heydər Əliyevin zərgər dəqiqliyi ilə işləyib hazırladığı və mərhələ-mərhələ uğurla reallaşdırdığı möhtəşəm iqtisadi konsepsiyanın, milli neft strategiyasının təntənəsidir.

İqtisadiyyat nəhəng mürəkkəb sistem olduğu üçün normal fəaliyyəti bütün sahə və istiqamətlərin bir-birilə üzvi şəkildə nizamlanmasını, birgə inkişafını zəruri edir.

Hər bir dövlətin iqtisadi potensialı, gücü və qüdrəti həm də onun malik olduğu nəqliyyat kommunikasiyalarının inkişaf səviyyəsi ilə ölçülür. Geniş və çoxşaxəli, mükəmməl infrastruktura malik, dövrün tələblərinə cavab verən nəqliyyat-yol şəbəkəsi olmayan hansısa dövlətin dinamik inkişafından söz açmaq qeyri-mümkündür.

Qərblə Şərqin qovuşuğunda, qədim İpək Yolunun üstündə yerləşən Azərbaycan əlverişli geosiyasi və geostrateji məkan kimi dünya nəqliyyat sisteminin birləşdirilməsində də olduqca mühüm rola malikdir, Təbii ki, nəqliyyat, ilk öncə Azərbaycanın müstəqilliyinin, iqtisadi təhlükəsizliyinin möhkəmləndirilməsində də əhəmiyyətli amildir. Ümummilli liderimiz Heydər Əliyevin tarixi xidmətlərindən biri də Azərbaycanı başlıca iştirakçı dövlət kimi Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinə cəlb etməsidir. Heydər Əliyevin uzaqgörənliklə irəli sürdüyü Böyük İpək Yolunun dirçəldilməsi ideyası dünya ölkələri tərəfindən maraqla qarşılandı.

Heydər Əliyevin uğurlu iqtisadi strategiyasının mühüm tərkib hissəsinin bir istiqamətini də «Avropa-Qafqaz-Asiya» nəqliyyat dəhlizinin - Yeni İpək Yolunun yaradılması təşkil edir. Ulu öndəri-mizin təşkilatçılıq fəaliyyəti və Avropa Birliyinin yaxından köməyi sayəsində tarixi İpək Yolunun bərpası istiqamətində mühüm işlər görüldü. Belə ki, 1993-cü ilin mayında Brüsseldə Avropa Birliyinin təşkil etdiyi 5 Mərkəzi Asiya və 3 Qafqaz respublikasının nəqliyyat və ticarət nazirlərinin iştirak etdiyi konfransda qeyd olunan ölkələr üçün İpək Yolunun bərpasını nəzərdə tutan Traseka Proqramı qəbul edildi. 1996-cı ilin mayında Azərbaycan, Gürcüstan, Türkmənistan və Özbəkistan dövlət başçılarının iştirakı ilə Türkmənistanın Sərəxs şəhərində tranzit yükdaşımanın tənzimlənməsi, dəmir yol nəqliyyatının əlaqələndirilməsi haqqında saziş imzalanmışdır. Sazişdə yükdaşımada hüquqi və tarif əsaslan, tranzit daşımalarına maksimum kömək göstərilməsi, tariflərin 50 faiz azaldılması, yüklərin maneəsiz keçməsi, qorunması kimi məsələlər nəzərdə tutulmuşdur. Traseka Proqramının reallaşdırılması istiqamətində region ölkələrinin həyata keçirdiyi tədbirlərdən biri də 1996-cı ilin dekabrında Odessada Azərbaycan, Gürcüstan, Ukrayna respublikaları dövlət başçılarının Avrasiya nəqliyyat dəhlizinin yaradılması haqqında saziş imzalaması oldu. 1997-ci ilin sentyabrında Azərbaycan Prezidenti Heydər Əliyev və Gürcüstan prezidenti Eduard Şevardnadze görüşüb 1998-ci ildə Qafqazda prezidentlər səviyyəsində konfrans çağırılması təşəbbüsü ilə çıxış etdilər. Traseka Proqramının həyata keçirilməsi istiqamətində növbəti addımlardan biri də 1998-ci ilin sentyabrında Bakıda İpək Yolunun bərpasına dair beynəlxalq konfransın keçirilməsi oldu. Dünyanın 32 ölkəsinin, 13 beynəlxalq təşkilatının iştirak etdiyi bu konfransın mühüm nəticələrindən biri «Avropa-Qafqaz-Asiya» nəqliyyat dəhlizinin inkişaf etdirilməsi üzrə beynəlxalq nəqliyyat haqqında çoxtərəfli əsas saziş və onun beynəlxalq ticarət gəmiçiliyi, gömrük proseduru və sənədlərin işlənməsi üzrə texniki əlavələr haqqında sənədin, həmçinin «Bakı Bəyannaməsinin» qəbul edilməsi oldu. Xəzər hövzəsinin, Asiyanın, Qara dəniz hövzəsi ölkələrinin Avropa ilə iqtisadi, ticarət əlaqələrinin inkişaf etdirilməsinə kömək göstərilməsi, beynəlxalq avtomobil, dəmiryol nəqliyyatı və ticarət gəmiçiliyi bazarına çıxışın əldə edilməsi, nəqliyyat növləri hərəkətinin təhlükəsizliyinin, yüklərin qorunmasının, ətraf mühitin mühafizəsinin təmin edilməsi, nəqliyyat siyasətinin və onun hüquqi strukturunun əlaqələndirilməsi, nəqliyyat üçün bərabər rəqabət şəraitinin yaradılması bu çoxtərəfli sazişin əsas mahiyyətini təşkil edirdi.

Belə bir cəhəti qeyd etmək lazımdır ki, 1993-1995-ci ildə həyata keçirilən layihələr başlıca olaraq dəhlizin fəaliyyətinə, Qara dəniz və Xəzər regionunda əlaqələrin möhkəmlənməsinə yönəlmişdisə, 1998-ci ilin beynəlxalq Bakı konfransında çoxtərəfli əsas sazişin imzalanması ilə Traseka Proqramı Avrasiya nəqliyyat sahəsində əməkdaşlığa çevrildi. Çoxtərəfli əsas sazişin 9-cu maddəsinə və VII bölməsinə uyğun olaraq 2000-ci il martın 10-11-də Gürcüstanda keçirilmiş konfransda qəbul edilmiş qərara uyğun olaraq Traseka Hökumətlərarası Komitəsinin Bakıda Daimi Katibliyinin yaradılması qərara alındı. 2000-ci il fevralın 21-də Daimi Katibliyin Bakıda iqamətgahı açıldı, həmin ilin iyul ayından isə Daimi Katiblikdə ekspert qrupu fəaliyyətə başladı.

Əsas Çoxtərəfli Sazişin müddəalarına uyğun olaraq, TRASEKA Hökumətlərarası Komissiyasının Daimi Katibliyinin Bakı şəhərində yerləşdirilməsi qərara alınıb və 2001-ci ilin 21 fevral tarixində rəsmi açılışı baş tutub. Açılış mərasimində ümummilli liderimiz Heydər Əliyev, İsveçin xarici işlər naziri, Avropa İttifaqına sədrlik edən ölkənin təmsilçisi xanım Anna Lund, Avropa İttifaqı Şurasının Baş katibi, ümumi xarici və təhlükəsizlik siyasəti üzrə ali nümayəndə Havyer Solana və Avropa Komissiyasının xarici əlaqələr üzrə komissarı Kristofer Patten iştirak ediblər. Mərasimdə çıxış edən ümummilli liderimiz Heydər Əliyev Avropa İttifaqı tərəfindən görülən və TRASEKA Proqramının həyata keçirilməsinə yönəldilmiş işləri yüksək qiymətləndirdiyini bildirib. Eyni zamanda, Azərbaycan Respublikası tərəfindən bunun gələcəkdə görüləcək böyük işlərin başlanğıcı kimi qəbul edildiyi qeyd olunub.

Keçən dövrdə respublikamızda TRASEKA Proqramı çərçivəsində Əsas Çoxtərəfli Sazişin şərtlərinin həyata keçirilməsi məqsədilə nəqliyyat infrastrukturunun inkişafı istiqamətində mühüm işlər görülüb. Belə ki, TRASEKA nəqliyyat dəhlizi üzrə yük axınının artırılması üçün son illər ərzində nəqliyyat sektorunun texniki təchizatının yaxşılaşdırılması sahəsində bir sıra tədbirlər görülüb, avtomobil magistrallarının, dəmir yolu xətlərinin və körpülərin bərpası və tikintisi, dəmir yolu nəqliyyatı vasitələrinin, gəmilərin, bərələrin, liman qurğularının təmiri üzrə müəyyən işlər görülüb. Bakı şəhərində ildə 10 milyon ton neft məhsullarının boşaldılıb-yüklənməsinə imkan verən neftboşaltma limanı istifadəyə verilib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının bərə terminalında yenidənqurma işləri yekunlaşdırılıb.

Avropa İttifaqı tərəfindən proqramın reallaşdığı dövr ərzində Azərbaycan Respublikasına investisiya layihələrinin maliyyələşdirilməsi üçün təxminən 16 milyon avro həcmində vəsait ayrılıb. TRASEKA Proqramının bu layihələrinin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının nəqliyyat-yol kompleksi üçün müxtəlif maliyyə institutlarından (Avropa Yenidənqurma və İnkişaf Bankı, Küveyt İqtisadi İnkişaf Fondu, İslam İnkişaf Bankı, Dünya Bankı və s.) 255 milyon ABŞ dolları həcmində kreditlər alınıb.

TRASEKA Proqramı və Böyük İpək Yolunun bərpa edilməsi bu gün və XXI əsr üçün ən böyük proqramlardan biridir. Bu proqramın hərtərəfli inkişafının təmin edilməsi nə qədər tez mümkün olsa, Cənubi Qafqaz və Orta Asiya ölkələrinin Avropaya inteqrasiyası bir o qədər sürətli olacaqdır.

Nəqliyyat dəhlizinin böyük strateji əhəmiyyət kəsb etməsi Traseka Proqramı iştirakçı dövlətlərinin sayının artmasına geniş imkanlar açdı. 1996-1998-ci illər ərzində Ukrayna, Monqolustan, Moldova TRaseka Proqramına qoşuldular. 2000-ci ilin martında Traseka Hökumətlərarası Daimi Komissiyasının Tbilisidə keçirilən müşavirəsində isə Bolqarıstan, Rumıniya, Türkiyə Avropa Komissiyasına müraciət edərək Traseka proqramına qoşulmaq arzusunda olduqlarını bildirdilər. İpək Yolunun bərpası prosesində Avropa Birliyinin hazırladığı və həyata keçirdiyi layihələr xüsusi yer tutmuşdur. 1993-2002-ci illər ərzində Traseka Proqramı çərçivəsində 53 layihə hazırlanmışdır ki, bunların da 39-u texniki yardım layihəsi, 14-ü isə investisiya yardım layihələri olmuşdur. Bu layihələrin maliyyələşdirilməsi üçün Avropa Birliyi tərəfindən 110 milyon avro ayrılmışdır ki, bunun da İpək Yolu proqramına qoşulmuş ölkələrin infrastruktur və kommunikasiya sistemlərinin dünya standartlarına uyğun yenidənqurulmasında, dəmiryol, dəniz nəqliyyatının maddi-texniki bazasının yeniləşdirilməsində, region ölkələrinin iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsində, xalq təsərrüfatının ümumi inkişafında mühüm rolu olmuşdur. Hazırda İpək Yolunun bərpası tam başa çatmasa da, bu yolla nəqliyyatın müxtəlif növləri üzrə yükdaşıma yüksələn templə davam edir və əldə olunan gəlirlərin həcmi də ilbəil artmaqdadır. Belə ki, əgər 1998-ci ildə dəhlizlə nəqliyyatın bütün növləri üzrə yükdaşımanın həcmi 21 milyon 161 min ton olmuşdusa, 2003-cü ildə bu göstərici 2 dəfədən çox artaraq 40 milyon 929,3 min tona çatmışdır. Əldə olunan gəlirlərin həcmi də müvafiq olaraq artmışdır. Belə ki, əgər 1998-ci ildə nəqliyyatın bütün növləri üzrə əldə olunan mənfəətin ümumi həcmi 405 milyard 368 min manat olmuşdursa, 2003-cü ildə bu göstərici 833,1 milyard manata çatmışdır ki, bu da 2 dəfədən çox artım deməkdir. Ekspertlərin qeyd etdiyinə görə, İpək Yolu bərpa olunduqdan, tam gücü ilə işə düşdükdən sonra ölkə iqtisadiyyatına ildə 1 milyard dollar gəlir daxil olacaqdır.

Şübhəsiz ki. həm «neft strategiyası», həm də «Qədim İpək Yolunun fəaliyyətinin genişləndirilməsi» ulu öndərimiz Heydər Əliyevin uğurlu iqtisadi strategiyasının mühüm tərkib hissəsi olaraq xalqların sosial-iqtisadi

tərəqqisinə, region ölkələrində sülhün, sabitliyin təmin edilməsinə, inteqrasiya proseslərinin genişlənməsinə, qloballaşan dünya problemlərinin həllinə xidmət edir. Hazırda bu iqtisadi strategiya Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir və respublikamızın Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsində böyük əhəmiyyətə malikdir.

1998-ci ildən etibarən Qədim İpək Yolunun bərpası istiqamətində həyata keçirilmiş kompleks tədbirlər əlverişli coğrafi mövqedə yerləşən respublikamızın geostrateji əhəmiyyətini daha da artırdı. Xüsusi vurğulamaq lazımdır ki, beynəlxalq əhəmiyyətli bu layihənin reallaşması ulu öndərimiz Heydər Əliyevin gərgin fəaliyyətinin və qətiyyətinin nəticəsi idi. İndi haqlı olaraq Qədim İpək Yoluna qitələrarası yol deyirlər.

Ümummilli lider Heydər Əliyevin 1998-ci il 5 avqust tarixli 743 saylı fərmanı ilə Nəqliyyat Nazirliyinin yaradılması respublikada idarəetmə sisteminin təkmilləşdirilməsi istiqamətində aparılan məqsədyönlü struktur islahatlarının tərkib hissələrindən biri oldu. Azərbaycan Prezidenti İlham Əliyevin 2003-cü il 10 iyun tarixli 880 saylı fərmanı ilə Azərbaycan Respublikasının Nəqliyyat Nazirliyi haqqında Əsasnamə təsdiq olundu və nazirlik fəaliyyətə başladı.

Əsasnaməyə görə, nazirlik dəmir yolu, su, avtomobil, mülki hava nəqliyyatı və avtomobil yolları sahələrində vahid dövlət siyasətini formalaşdıran və həyata keçirən, sahələrarası münasibətləri tənzimləyən mərkəzi icra hakimiyyəti orqanıdır. Nazirlik öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Prezidentinin fərman və sərəncamlarını, Nazirlər Kabinetinin qərar və sərəncamlarını, həmçinin Nəqliyyat Nazirliyi haqqında Əsasnaməni rəhbər tutur.

Azərbaycan Respublikasının TRASEKA Proqramında iştirakı ölkəmiz üçün strateji əhəmiyyət kəsb edir və Azərbaycanın Avropa ilə iqtisadi əlaqələrinin möhkəmləndirilməsi və genişləndirilməsi, dünya iqtisadiyyatına inteqrasiyası və beynəlxalq nəqliyyat qovşağına çevrilməsi üçün böyük imkanlar yaradır. Belə ki, keçən dövr ərzində TRASEKA Proqramı çərçivəsində «Nəqliyyatın idarə edilməsinin treninqi», «Nəqliyyatın hüquqi və tənzimləyici çərçivəsi», «TRASEKA nəqliyyat dəhlizində vahid tarif siyasətinin tətbiqi», «Sərhəd-keçid prosedurlarının sadələşdirilməsi», «Qafqaz dəmir yollarının bərpası» və onlarca digər texniki yardım və investisiya layihələri həyata keçirilib.

Azərbaycan nəinki region əhəmiyyətli, eləcə də dünya miqyaslı bütün iri layihələrin əsas iştirakçısıdır. Ümummilli liderimiz Heydər Əliyevin müdrik siyasi kursu ölkəmizi dünya əhəmiyyətli bütün layihələrə cəlb etməklə Azərbaycanın zaman-zaman bəşəri proseslərə təsir etmək imkanını artırmaq kimi çox uzaqgörən məqsədləri özündə əxz edib. Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizində Azərbaycanın iştirakı ölkəmizin milli və iqtisadi maraqlarının təminatı üçün zəruri amil kimi reallaşıb.

Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi haqqında razılaşma Rusiya Federasiyası, İran İslam Respublikası və Hindistan arasında 2000-ci il sentyabrın 12-də Sankt-Peterburq şəhərində bağlanılıb. Razılaşmanın əsas məqsədi yük və sərnişin daşımalarının təşkilində nəqliyyat əlaqələrinin səmərəliliyinin yüksəldilməsi, üzv ölkələrin dəmir yolu, avtomobil, dəniz, çay və hava nəqliyyatı xidmətləri beynəlxalq bazarına girişi üçün şəraitin yaradılması, beynəlxalq daşımaların həcminin artırılmasına yardım göstərilməsi, nəqliyyat vasitələrinin hərəkətinin təhlükəsizliyinin təmin olunması, razılaşdırılmış nəqliyyat siyasətinin həyata keçirilməsidir.

Razılaşma bütün nəqliyyat növlərinə: dəmir yolu, dəniz, avtomobil yolları, çay və hava nəqliyyatı ilə daşımaları təmin edən nəqliyyat infrastrukturuna və nəqliyyat vasitələrinə aiddir. 2005-ci il sentyabrın 20-də imzalanmış Azərbaycan Respublikasının Qanunu ilə respublikamız Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi haqqında» sazişə qoşulub. Şimal-Cənub dəhlizi ilə daşımaların iki marşrut variantı mövcuddur.

Dəhlizə aid edilən bu marşrutlarda daşımaların həcmi son nəticədə ən sərfəli texniki, istismar, tarif və digər şərtlərdən asılı olacaqdır. İstənilən halda, Şimal-Cənub dəhlizinin Azərbaycan ərazisindən keçməsi variantı daha cəlbedici görünür. Burada məsafənin qısalığı, daşımalara daha az vaxt sərf olunması, mövcud nəqliyyat infrastrukturu və bir tranzit ölkə faktoru əsas rol oynayır.

Hazırda Azərbaycan Respublikası nəqliyyat sektorunun müxtəlif sahələrinin iştirakı ilə bir çox beynəlxalq təşkilatlarda təmsil olunur.

Bunlar Birləşmiş Millətlər Təşkilatının Avropa İqtisadi Komissiyasının Daxili Nəqliyyata dair Komitəsi, BMT-nin Avropa üzrə İqtisadi Komissiyası (UNEÇE) və BMT-nin Asiya və Sakit Okean üzrə İqtisadi və Sosial Komissiyası (UNESCAP), GÜAM və digər təşkilatlardır.

Göründüyü kimi, Azərbaycan nəqliyyat sektoru bu gün sürətlə inkişaf edərək öz fəaliyyətini beynəlxalq standartlar səviyyəsində qurur.

Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi onun qarşısında qoyulan bütün vəzifələrin uğurla həll edilməsinə çalışır, bunun üçün bütün qüvvələr səfərbərliyə alınıb. Biz yaxşı bilirik ki, Azərbaycanın daha da inkişafı, dünyada nüfuzunun daha da artması digər bütün sahələr kimi, ölkənin əsas arteriyası sayılan nəqliyyat

sektorunun yüksək tələblərə cavab verməsindən, öz fəaliyyətini dünya standartları səviyyəsində qurmasından çox asılıdır.

Bu sahənin inkişafı həmişə dövlətimizin xüsusi diqqət mərkəzində olub. Qeyd etmək yerinə düşər ki, ötən müddət ərzində Azərbaycan Respublikasının «Nəqliyyat siyasəti»nin və «Tranzit strategiyası»nın layihələri tərtib edilib, «Avtomobil nəqliyyatı haqqında», «Dəmir yolu nəqliyyatı haqqında» qanun layihələri işlənib hazırlanıb, «Aviasiya haqqında» yeni qanun qüvvəyə minib, bir sıra digər normativ-hüquqi aktların layihələrinin hazırlanması isə davam etdirilir.

Bu gün qürur hissi ilə deyə bilərik ki, respublikam dinamik inkişafa, tərəqqiyə, davamlı sabitliyə və yüksəkliyə aparan Heydər Əliyev siyasi kursunu layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı iqtisadiyyatın bütün sahələrində olduğu kimi, nəqliyyat-yol kompleksinin dinamik inkişafı üçün böyük imkanlar yaradır. Çıxışlarının birində möhtərəm Prezident İlham Əliyev demişdir: «Neft sektorundan sonra nəqliyyat ölkə üçün ən mühüm sahədir və burada inkişaf perspektivləri çox gözəldir. Biz bütün imkanlarımızdan istifadə edərək nəqliyyat sektorunu daha sürətlə inkişaf etdirəcəyik. Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri layihələrinin həyata keçirilməsində fəal rol oynayır. Hesab edirəm ki, gələcəkdə tranzit ölkə kimi bizim bölgədəki və dünyadakı mövqelərimiz daha da güclənəcəkdir. Beləliklə, indi Azərbaycanda bütün sferaların, o cümlədən də nəqliyyatın inkişafı üçün kifayət qədər münbit şərait var».

Azərbaycan hazırda hərtərəfli və dinamik inkişaf yolu ilə inamla irəliləyir. İl ildən uğurlu gəlir. Azərbaycanın iqtisadi qüdrəti yüksəlir, dünyadakı mövqeləri möhkəmlənir. Ulu öndərimiz Heydər Əliyevin qurub-yaratdığı müasir Azərbaycan onun layiqli siyasi varisi Prezident İlham Əliyevin rəhbərliyi ilə daha yüksək zirvələrin fəthinə doğru qətiyyətli addımlar atır.

***Mənbə:*** *«Respublika» qəzeti,*
*1 may 2008-ci il.*

**“Nəqliyyat hüququ”.** - 2008. - №2.- S. 10-17.

# HEYDƏR ƏLİYEVİN SOVET DÖVRÜNDƏKİ DÖVLƏT VƏ İDARƏÇİLİK TƏCRÜBƏSİ

**Selahattin DİKMEN,**
Bakı Dövlət Universiteti
(Türkiyə)

XX əsrdə Azərbaycanın yetişdirdiyi və türk dünyasının da haqlı olaraq fəxr etdiyi böyük şəxsiyyətlər arasında Heydər Əliyevin özünəməxsus və təkrarolunmaz yerinin olduğu şübhəsizdir. Bu səbəbdəndir ki, Azərbaycan xalqının ümummilli liderinin keçdiyi olduqca zəngin və maraqlı həyat yolunun hər bir mərhələsi müstəqil bir araşdırma mövzusu olmağa kifayət edər.

Təbii ki, Heydər Əliyevin həyatının 1941-1969-cu illər arasındakı zaman kəsiyinə təsadüf edən dövrü və onun dövlət təhlükəsizliyi orqanlarında peşə fəaliyyəti də bu mənada istisna deyildir. Belə ki, qeyd etdiyimiz dövrün siyasət elminin və siyasət tarixinin, diplomatiyanın səbəb-nəticə münasibətləri baxımından nəzərdən və təhlili məntiq süzgəcindən keçirildiyi təqdirdə bu dövrün gələcəyin böyük siyasət və dövlət xadiminin həyatında son dərəcə əhəmiyyətli bir mərhələ olduğu aydınlaşır.

Milli liderin həyatından da xatırladığımız kimi, 1941-ci ildə müharibənin başlanması və zərurət səbəbindən mühüm bir vəzifənin icrası üçün Heydər Əliyev Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) memarlıq fakültəsində təhsilini başa vurmadan Naxçıvana qayıtmışdı.

Həmin dövrdən etibarən Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında və Naxçıvan MSSR Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmiş Heydər Əliyev təyinatla 1944-cü ildə dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmişdir. Məhz bu dövrdən təhlükəsizlik orqanları sistemində çalışan Heydər Əliyev müxtəlif məsul vəzifələri yerinə yetirmiş və general-mayor rütbəsinə qədər yüksəlmişdir.

Həmin illərdə o, Leninqradda (indiki Sanki-peterburq) xüsusi ali təhsil almış, 1957-ci ildə isə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini bitirmişdir. Beləliklə, Heydər Əliyevin 1941 - 1969-cu illər arasındakı peşə fəaliyyətinin onun gələcəyin böyük siyasət və dövlət xadimi kimi yetişməsi baxımından həyatında ciddi hazırlıq mərhələsi olduğunu söyləmək mümkündür.

1964-cü ildə o dövr üçün son dərəcə strateji bir qurum sayılan Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsi sədrinin müavini təyin edilməsi və üç il bu məsul vəzifədə fəaliyyət göstərdikdən sonra 1967-ci ildən etibarən general-mayor rütbəsinə yüksələrək komitənin sədri vəzifəsində işləməsi faktı onun heç də sıravi bir insan olmadığına. gələcəkdə ölkənin taleyüklü məsələlərində ciddi söz sahibi olan bir lider olacağına dəlalət edirdi.

Sovet dövründə Heydər Əliyevin Azərbaycanda Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilən ilk milli kadr olması yuxarıda qeyd edilən fikrin əyani təcəssümü oldu.

Növbəti uğur isə, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Heydər Əliyevin Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilərək respublikanın ali rəhbəri olması ilə əldə olundu.

Sovet dövründəki mövcud ənənəyə əsasən. artıq Heydər Əliyev Azərbaycan SSR-in rəhbəri və lideri idi. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinin icrasına başladığı ilk gündən etibarən Heydər Əliyev o zamana qədər bu vəzifədə olmuş rəhbərlərdən ciddi surətdə fərqlənən yeni bir yanaşma tərzi göstərərək diqqəti respublikanın gələcəyinə dair təxirəsalınmaz məsələlərin həllinin vacibliyinə yönəltmişdi.

Xüsusilə, vəzifəyə başladığı vaxtdan qısa bir müddət keçməsinə baxmayaraq, respublika vətəndaşları tərəfindən böyük rəğbətlə qarşılanan nitqlərində son dövrlərdə iqtisadi və sosial tənəzzülün girdabına yuvarlanmış Azərbaycanın problemlərini hərtərəfli təhlil edir və çıxış yolları göstərirdi.

Heydər Əliyevin zəngin siyasi irsinə müraciət etdikdə onun nitqlərində aşağıdakı əsas müddəaların öz əksini tapdığını görmək mümkündür:

- Azərbaycan Respublikasının üzləşdiyi ağır vəziyyətin elmi təhlili və mövcud vəziyyətdən mümkün çıxış yollarının işlənib hazırlanması;
- respublikanın malik olduğu mövcud imkanlardan, zəngin enerji mənbələrindən və bu potensialdan Azərbaycanın inkişafı üçün istifadə edilməsi üçün müvafiq mexanizmin təsbit edilməsi;
- Azərbaycan xalqının sosial rifah səviyyəsinin yüksəldilməsi yollarının axtarıb tapılması;
- cəmiyyətdə milli özünüdərketmə prosesinin və tarixi şüurun, milli varlığın, adət-ənənələrin. formalaşdırılması;

- Azərbaycanın gələcəyinin təminat altına alınması üçün hər bir şəxsin üzərinə düşən tarixi məsuliyyət hissinin və bu istiqamətdə görüləcək işlərin müəyyənləşdirilməsi;

- nəzərdə tutulan strateji inkişaf planı ilə yaxın və uzunmüddətli proqramın mütləq uğur qazanması üçün əlaqəli şəkildə fəaliyyət göstərməsi tələb olunan müəssisələr arasında harada, nə zaman və necə bir səlahiyyət və yaxud məsuliyyət bölgüsünün həyata keçirilməsinin vacibliyi;

- Heydər Əliyev artıq öz doğma yurdu Azərbaycan üçün illərlə arzuladığı möcüzəvi inkişaf planını məqsədyönlü və ardıcıl şəkildə həyata keçirmək fürsəti əldə etmiş və bunu böyük bir uğurla yerinə yetirməyə müvəffəq olmuşdur.

Beləliklə. istər öz həyatında dönüş nöqtəsi və ya məhək daşı olan, istərsə də Azərbaycan xalqı üçün taleyüklü dövr kimi tarixin yaddaşında həkk olunmuş bu vəzifəni təxminən 14 il böyük uğurla və məharətlə yürüdən Heydər Əliyev bu müddət ərzində Azərbaycan haqqında mövcud təsəvvürləri müsbət mənada dəyişdirməyə və onu müttəfiq respublikalar arasında ən yüksək mövqeyə yüksəltməyə nail ola bilmişdir,

Şübhəsiz, onun bu vəzifəyə gəlişindən sonra əldə etdiyi uğurlar mənsub olduğu Azərbaycan xalqı və rəhbəri olduğu Azərbaycan Sovet Sosialist Respublikasının tərəqqisi naminə gerçəkləşdirdiyi xidmətlər hər hansı bir təsadüfün nəticəsində deyil, əksinə, uzaqgörən bir siyasətin, yüksək səviyyədə dövlət idarəçiliyinin, peşəkar hazırlığın və strateji bir planlaşdırmanın bəhrəsi idi.

Bununla da görkəmli dövlət idarəçiləri və nüfuzlu siyasətçilərin dedikləri kimi, "Möcüzələr, ya da böyük uğurlar sıravi insanların rəhbərlik etdikləri ölkələrdə, müəssisələrdə və yerlərdə əsla mövcud olmaz" həqiqəti bir daha Heydər Əliyev örnəyində öz təsdiqini tapmış olurdu.

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 14 illik dövrdə;

- Azərbaycan Respublikasında milli gəlirin ümumi həcmi 2.5 dəfə artmışdır;

- 14 ildə istehsal olunan sənaye məhsullarının həcmi əvvəlki 50 ilin ümumi miqdarına bərabər olmuşdur;

- 250-dən çox böyük fabrik, zavod və sənaye mərkəzi tikilərək istifadəyə
verilmişdir;

- kənd təsərrüfatı məhsullarının ümumi həcmi əvvəlki illərlə müqayisədə 2.7 dəfə artaraq nəzərə çarpacaq inkişafa nail olunmuşdur;

- iki milyondan çox insanın həyat şəraiti yaxşılaşdırılmış, əhalinin sosial rifah səviyyəsi yüksəldilmişdir;

- Azərbaycanın 14 şəhər və rayonunda yaşayış evləri, sosial-məişət obyektləri inşa edilmişdir;

- Bakı şəhəri yeni inşa edilən evləri ilə sanki böyük bir tikinti meydançası halına gəlmiş və az qala yeni bir Bakı inşa edilmişdir;

- bu müddət ərzində Azərbaycan neft məhsulları, neft avadanlığı, polad borular. sintetik kauçuk, elektrik cihazları, inşaat materialları. məişət kondisionerləri, maşın şinləri. mineral gübrə istehsalı sahəsində aparıcı mövqe tutmuşdur;

- respublikada istehsal olunan 350 çeşid məhsul dünyanın 65 ölkəsinə ixrac edilmişdir;

- Azərbaycanda qurulan neft emalı institutu və müəssisələrində gündə 41 min ton benzin, 37 milyon kubmetr qaz istehsal edilmişdir:

- Azərbaycan kiçik miqyaslı sənaye məhsulları istehsal edən bir ölkədən inkişaf etmiş sənaye ölkəsi mövqeyinə çıxmışdır;

- ali təhsil almaq məqsədilə hər il minə yaxın azərbaycanlı gənc, Moskva daxil olmaqla, SSRİ-nin ən nüfuzlu universitetlərinə göndərilmiş və beləliklə, ölkənin ali təhsil müəssisələrində Azərbaycan üçün milli kadr hazırlığı aparılması ənənəsinin əsası qoyulmuşdur;

- bu dövrdə Azərbaycan ittifaq büdcəsindən ən çox maliyyə vəsaiti ayrılan respublika statusunu qazanmışdır;

- mərkəzdən ayrılan maliyyə vəsaitləri hesabına bu yaxınlarda 40 illik yubileyini təntənəli surətdə qeyd etdiyimiz Bakı şəhəri metrosunun inşaatı başa çatdırılmışdır;

- onun Sov. İKP Mərkəzi Komitəsinin baş katibi Leonid Brejnevlə yaxın dostluq münasibətində olması sayəsində Azərbaycan yüksələn xətlə inkişaf etmiş və müttəfiq respublikalar arasında nüfuzu nəzərə çarpacaq dərəcədə yüksəlmişdir;

- rəhbərlik etdiyi dövrdə ölkə ictimaiyyətində Azərbaycan haqqında mövcud təsəvvürlər müsbət mənada dəyişmiş və sovet respublikaları arasında inkişaf sürətinə görə qabaqcıl respublika olmuşdur;

- ittifaq miqyasında ən strateji əhəmiyyətə malik müəssisələrin Azərbaycanda qurulması təmin edilmişdir.

Heydər Əliyevin zaman-zaman müxtəlif yerlərdə ifadə etdiyi kimi, onun Azərbaycana rəhbərlik etdiyi dövrdə uzaqgörənliklə atılmış addımlar, Azərbaycanda əsası qoyulan güclü sosial, mədəni, iqtisadi və

intellektual sərmayələr gələcəkdə Azərbaycan xalqının istiqlaliyyət qazanması üçün zəmin hazırlayan vacib milli potensial rolunu oynamışdır.

Məhz bu düşünülmüş və ardıcıl siyasət, formalaşdırılmış milli potensial sayəsində 1985-ci ilin mart ayında hakimiyyətə gələn Mixail Qorbaçovun səriştəsiz, qeyri-prinsipial, subyektiv və qərəzli siyasəti, dövlət idarəçiliyində buraxdığı kobud səhvləri nəticəsində Azərbaycanda misli görünməmiş vəhşiliklərlə həyata keçirilən 20 Yanvar faciəsi və soyqırımına qarşı Azərbaycan və azərbaycanlılar ciddi müqavimət göstərməyə başlanmış, milli istiqlaliyyətin qazanılmasında digər müttəfiq respublikalara örnək ola bilmişdir.

Heydər Əliyev respublikaya birinci dəfə rəhbərliyə başlayandan qısa müddət sonra Azərbaycan və Ermənistan arasında uzun illər davam edən gizli mübarizəni başqa bir istiqamətə yönəltməyi bacarmış, Azərbaycanla qonşu respublikaların mədəniyyət və elm xadimləri arasında daha yaxın münasibətlərin qurulmasını təmin etmişdi. O. bölgənin iqtisadi problemlərini həll etmək məqsədilə Dağlıq Qarabağın ərazisində sənaye müəssisələrinin yerləşdirilməsinə nail olmuşdu.

Qarabağda yaşayan vətəndaşlar arasında heç bir milli ayrı-seçkiliyə yol vermədən Azərbaycan. rus və erməni dillərində ali təhsil verən Pedaqoji İnstitutun yaradılmasına, bölgənin pedaqoji kadrlara olan ehtiyacını təmin etməyə müvəffəq olmuşdu.

Heydər Əliyevin respublikaya, bilavasitə rəhbərlik etdiyi dövrdə Ermənistanda heç bir siyasi güc Qarabağ kartını işə salmağa cəsarət edə bilməmiş və erməni şovinistləri Azərbaycan torpaqlarına qarşı hər hansı ərazi iddiası irəli sürməyə cəsarət edə bilməmişdi.

Onun özünəməxsus böyük siyasi və idarəçilik təcrübəsi, vətən sevərliyi, ermənilərə qarşı prinsipial, güzəştsiz mövqe tutması ilə səciyyələnən diplomatik məharəti bunun üçün kifayət etmişdi.

1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü seçilərək SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildikdən az sonra özünəməxsus ciddi nizam-intizam anlayışı, tələbkarlığı, məhsuldar fəaliyyət vərdişi sayəsində SSRİ Nazirlər Sovetinin ən nüfuzlu və aparıcı rəhbərlərindən birinə çevrilmişdi.

Həmçinin, Moskvada vəzifəsinin icrasına başladıqdan sonra qısa müddət ərzində xalq təsərrüfatının bir sıra sahələrində nəzərə çarpan irəliləyişə nail olması diqqəti cəlb etmiş və ölkə ictimaiyyətində onun haqqında "Heydər Əliyevin gəlişi Kremlin ab-havasını dəyişmişdir" fikrinin formalaşmasına səbəb olmuşdur.

SSRİ-nin o dövrdəki siyasi liderlərindən A. Qromıko və K. Çernenkodan sonra Sov. İKP Mərkəzi Komitəsinin baş katibliyinə mümkün namizədlər arasında ən çox diqqət mərkəzində duran Heydər Əliyev olmuşdur. İllərlə Heydər Əliyevin zəngin təcrübəsindən istifadə edən və çətinliklə üzləşdikləri zaman ondan yardım istəyən opponentləri Heydər Əliyevin SSRİ Nazirlər Sovetinin rəhbərliyində təmsil olunduğu müddətdə nəinki Azərbaycanın əleyhinə hər hansı bir qərar qəbul edə və ya bir iş görə bilməmiş, hətta bu istiqamətdə təşəbbüs belə göstərməyə cəsarətləri çatmamışdır.

Bununla belə, sosialist rejimində ifrat rus şovinistləri ilə erməni daşnakları mənşəcə yeganə türk və müsəlman olan Heydər Əliyevin baş katib vəzifəsinə gedən yolunu bağlamaq üçün bir siyasi sui-qəsd planı hazırlamışdılar.

Heydər Əliyevə qarşı hazırlanan bu siyasi sui-qəsdin baş aktyoru rolunda ermənipərəst mövqeyi, fikir və davranışları ilə tanınan Mixail Qorbaçovla onun ətrafındakı bir qrup ermənipərəst qüvvələr dururdu.

Maraqlıdır ki, belə bir məqamda Zərifə xanım özünün güclü şəxsi məziyyətləri və dərin zəkası ilə istər Mixail Qorbaçov, istərsə də Boris Yeltsinin Heydər Əliyevə qarşı səmimi olmadıqlarını sezmiş və zamanında bu qənaətini onunla bölüşmüşdü.

Təsadüfi deyil ki, Azərbaycanın ən görkəmli alimlərinin belə, cəmiyyətin təbibi adlandırdıqları Zərifə xanımın atası Əziz Əliyev qızı haqqında danışarkən öz məziyyətlərinin ən çox onda təcəssüm etdiyini iftixarla söylərmiş. Xalqımızın məşhur "Aslanın erkəyi, dişisi olmaz" atalar sözü bu qənaəti bir daha təsdiq edir.

Onun yeritdiyi müvazinətli siyasətdən narahat olan ermənilər də Siyasi Büro üzvlüyü dövründə açıq şəkildə əleyhinə kampaniya apara bilmədikləri Heydər Əliyevə qarşı hücuma keçməyin zamanı gəldiyinə qərar vermişdilər.

Qorbaçov özünün mənfur əməllərinə çatmaq və yaxından əməkdaşlıq etdiyi erməni mənşəli opponentlər ilə birlikdə Azərbaycana qarşı tətbiq etmək fürsəti əldə edə bilmədikləri xəbis planı həyata keçirmək məqsədilə 1987-ci il oktyabr ayının 21-də Heydər Əliyevin səhhəti ilə əlaqədar "öz xahişi ilə" Siyasi Büro üzvlüyündən və tutduğu vəzifədən istefaya göndərilməsinə nail oldu.

Hətta bununla da kifayətlənməyərək Heydər Əliyevi təqaüdə göndərdikləri 1987-ci ilin oktyabr ayından 1990-cı ilin 20 yanvar faciəsinə qədər məqsədyönlü şəkildə onu ictimai həyatdan təcrid etmiş, heç bir mətbuat orqanı ilə görüşməsinə və fikirlərini ifadə etməsinə imkan verməmişdilər. Bəli, Heydər Əliyevin ictimai

həyatdan tamamilə təcrid edildiyi, partiyadaşları tərəfindən haqsızlığa düçar olduğu dövrdə yenə ona ən çox dəstək verən şəxsiyyət vəfalı ömür-gün yoldaşı Zərifə xanım olmuşdur.

Təbii ki, bir Azərbaycan türkü və müsəlman olaraq Heydər Əliyevin istər Azərbaycan Kommunist Partiyasının birinci katibi, istərsə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu dövrdə yeritdiyi çoxşaxəli və uğurlu siyasəti düşmənlərinin içində bir dərd olaraq qalmış və bu böyük şəxsiyyətə qarşı bəslədikləri kini neçə illər sonra açıq şəkildə dilə gətirmələrinə səbəb olmuşdur.

1987-ci ildə erməni millətçilərinin təşkil etdikləri "Qarabağ Komitəsi" - nin üzvü İqor Muradyanın Moskvada yaşayan Heydər Əliyevə göndərdiyi və zəhər dolusu sözlərlə münasibətini bildirdiyi məktubunun əvvəlində aşağıdakı ifadələrə yer verilmişdir:

"Əliyev, mən sizi Naxçıvanda. Dağlıq Qarabağda və Azərbaycan Respublikası ərazisində erməni xalqına qarşı yürüdülmüş soyqırımı siyasətini həyata keçirənlərdən biri olaraq ittiham edirəm".

Həmin məktubda onun "Sizin Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsini yerinə yetirdiyiniz dövrdə erməni əhalisinə qarşı gerçəkləşdirilən planlı genosid siyasəti o dövrə qədər misli görünməmiş bir miqyas almışdır" ifadəsini işlətməsi Heydər Əliyevin Azərbaycan Respublikası Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi və 1982-ci ildə seçildiyi Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun üzvü. SSRİ Nazirlər Soveti sədrinin birinci müavini olduğu müddət ərzində ermənilərə qarşı tətbiq etdiyi diplomatiyanın nə qədər düzgün olduğunun ən bariz dəlilidir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT

1. Abdullazadə F. Heydər Əliyev. Siyasi Portret. Bakı: Azərnəşr, 1998, 114 s.
2. Abbasbəyli A. Beynəlxalq münasibətlərin proqnozlaşdırılmasının nəzəri problemləri. Bakı: Şirvannəşr, 2006, 345 s.
3. Ağaoğlu S. Sovet Rusiya İmperatorluğu. İstanbul, 1967, 217 s.
4. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. I - XII kitablar. Bakı: Azərbaycan, 1996-2005, 520 s.
5. Əliyev İ. Müdrik Heydər Əliyevin əsəri olan müasir Azərbaycan dövləti bundan sonra da güclənəcək, zənginləşəcək və hərtərəfli inkişaf edəcəkdir// “Dirçəliş - XXI əsr”, 2003, № 67-68, s. 11-15
6. Heydər Əliyev və Azərbaycan Parlamenti. Bakı: Azərbaycan Respublikasının Milli Məclisi, 2003, 214 s.
7. Heydər Əliyev və Şərq. III cild. Bakı: Şərq Araşdırmalar Mərkəzi, 2004, 757 s.
8. Xəlilov S. Lider dövlət, cəmiyyət. Bakı: Azərbaycan Universiteti yayını, 2001, 357 s.
9. Qaralov Z. Əbədiyyətə gedən yollar. Bakı: Elm, 2005, 575 s.
10. Məhərrəmov A. Bakı Dövlət Universiteti dünya şöhrətli məzunu ilə hər zaman fəxr edəcəkdir // “Dirçəliş - XXI əsr”, 2003, №62, s. 57-66
11. Mehdiyev R. Azərbaycan: qloballaşma dövrünün tələbləri. Bakı: Azərnəşr, 2005, 448 s.
12. Novruzov V. İnkişaf və tərəqqinin Heydər Əliyev modeli. Bakı: Azərnəşr. 2004, 243 s.
13. Heller R. Mükemmele Ulaşanlar. İstanbul: Modern Yönetim Diz.isi. 1989, 387 s.
14. Kouzes M. James. BARRY, Z. Posner, Örnek Alınacak Liderler. Exucutive, Excellence Dergisi, 5 (58), 2002. 131 s.
15. Ükü İ. Kızıl Yıldızdan Hilale. İstanbul, 1999. 391 s.
16. Ükü İ. Bağımsızlıktan Sonra Azerbaycan. İstanbul: Doğan yay, 2000, 518 s.

**HEYDAR ALIYEV'S PRACTICE OF STATE MANAGEMENT IN USSR PERIOD.** *Selakhaddin Dikmen.* The article is dedicated to the National Lcader Heydar Aliyev's activity in Soviet time. On basis of wide historic materials, the author emphasizes H. Aliev's methods and styles of administration. The publication notes strategic policy of the leader to prepare national professionals.

**ПРАКТИКА ГОСУДАРСТВЕННОГО УПРАВЛЕНИЯ ГЕЙДАРА АЛИЕВА В ПЕРИОД СССР.** *Селахаддин Дикмен.* Статья посвящена деятельности общенационального лидера Азербайджана Г.Алиева в период советского времени. На основе обширного исторического материала автор повествует о методах управления Г.Алиева, стиле его руководства. В публикации отмечается дальновидная политика лидера в деле подготовки национальных кадров.

**“Dirçəliş-XXI əsr”**.-2008.-№126-127.-S.63-69

# AZƏRBAYCANDA QADIN SİYASƏTİNİN HÜQUQİ BAZASI

**Gülzar İBRAHİMOVA,**
*İnsan Hüquqları İnstitutu*

Ümummilli lider Heydər Əliyev cəmiyyətdə qadının rolunun yüksəldilməsi məsələsini həmişə diqqət mərkəzində saxlamaqla qadınların dövlət strukturlarında. parlamentdə. siyasi və ictimai təşkilatlarda geniş təmsil olunmasına çalışmışdır [18]. 1998-ci ildə "Azərbaycanda qadınların rolunun artırılması haqqında" Sərəncam imzalanmışdır. Həmin sərəncamda dövlət strukturları tərəfindən daha yüksək diqqət tələb edən öncül sahələr müəyyənləşdirilmişdir. Heydər Əliyev bu sərəncamla qadınların dövlət və ictimai həyatda irəli çəkilməsində mövcud köhnə bazanı demokratik dövrdə yeniləşdirdi. Məlumdur ki. Azərbaycan Respublikası Konstitusiyasının 55-56 - cı maddəsində qadınlar da daxil olmaqla, bütün vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququ təsbit edilir. [1. s. 18]. Onlar dövlət orqanlarında qulluq etmək və bütün seçkilərdə qeyd-şərtsiz iştirak etmək hüququna malikdirlər.

Prezidentin 6 mart 2000-ci il tarixdə "Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında" verilən 289 saylı Fərmanı respublika qadınlarına 8 Mart bayramqabağı önəmli hədiyyə oldu. [2]. Fərmanda AR - in bütün dövlət qurumlarında fəaliyyət növü nəzərə alınmaqla qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunması, Dövlət Statistika Komitəsinə Qadın Problemləri üzrə Dövlət Komitəsi (QPDK) ilə birlikdə standartlara cavab verən statistik məlumatın hazırlanması. Nazirlər Kabinetinə ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə gender siyasəti tələblərini rəhbər tutaraq qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılması, qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədilə onların münasib işlə təmin edilməsi proqramının hazırlanıb həyata keçirilməsi, qadınların hüquqlarının müdafiəsinin gücləndirilməsi məqsədilə Azərbaycan Respublikasının qanunlarında dəyişikliklər və əlavələr edilməsi üçün təkliflər verilməsi haqqında tapşırıqlar verilməsi ölkə Prezidentinin respublika əhalisinin yarıdan çoxunu təşkil edən qadınlara böyük diqqəti idi.

2000-ci ilin ilk aylarında Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı MFP hazırlanmışdır. Bu plan 1995-ci ildə Azərbaycanın qoşulduğu "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya və Pekin Fəaliyyət Platformasında qəbul edilmiş strategiyalar əsasında respublikadakı mövcud vəziyyəti və prioritetləri nəzərə almaqla tərtib edilmişdir. [3]. Plan problemlərin beynəlxalq standartlara uyğun şəkildə həllinə yönəldilmiş nazirlik, komitə, qeyri-dövlət və beynəlxalq təşkilatların iştirakı ilə hazırlanmış və bütün problemli sahələrdə gender bərabərliyinə yönəldilmiş dövlət sənədidir. “Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı” adlanan bu sənədi Azərbaycan Respublikası Nazirlər Kabineti 6 mart 2000-ci il tarixli, 33 saylı qərarı ilə təsdiq etmişdir.

Bu sənəd dövlət proqramlarının hazırlanmasını, habelə qadın problemləri ilə əlaqədar konkret təxirəsalınmaz tədbirlərin görülməsini nəzərdə tutur. Milli Fəaliyyət Planında qadınlara qarşı zorakılığın bütün formalarının. qadın ticarəti, istismarı, fahişəliyin qarşısının alınması məsələlərinə ayrıca bir bölmə həsr edilmişdir. Sənəddə qadın hüquqlarının pozulmasında təqsirkar şəxslərə qarşı qanunla nəzərdə tutulan qaydada, məsuliyyətə cəlbetmə də daxil olmaqla, müvafiq ölçülərin götürülməsi nəzərdə tutulur.

MFP-ni həyata keçirmək və gender tarazlığına nail olmaq üçün QPDK İdarələrarası Şura təsis etmişdir. Dövlət İdarələrinin nümayəndələri (focal points) və qadın QHT-lərindən ibarət olan Şura koordinasiya funksiyasını yerinə yetirir. İdarələrarası Şuranın üzvləri müntəzəm görüşlər keçirərək MFP-in icra vəziyyətini müzakirə edir, maneələri və onların həlli yollarını müəyyən edirlər.

Azərbaycanda qadınların vətəndaş, sosial-iqtisadi və siyasi hüquqlarına dair qanunvericiliyin tətbiqi ümumi yurisdiksiyalı məhkəmələr və Konstitusiya Məhkəməsi tərəfindən təmin edilir. Lakin hazırda məhkəmə sistemi xaricində olan təşkilatlar da mövcuddur:

- Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyası;
- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi;
- Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi;
- İnsan Hüquqları üzrə Parlament Komissiyası və s.

MFP prokurorluq orqanlarına gender bərabərliyinə nailolma və qadın zorakılıq problemlərinə qarşı diqqəti artırmağa imkan verdi. AR - in Əmək Məcəlləsinin 16-cı maddəsindəki müddəalara əsasən. əmək münasibətlərində cinsi mənsubiyyətinə və digər amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verən işəgötürən və ya digər fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada müvafiq məsuliyyət daşıyır. [4].

XXI əsrdə beynəlxalq cəmiyyət qarşısında duran ən əsas məsələlərdən biri qadınların tərəqqisidir. Buna görə də Azərbaycanda qadınların durumunun yaxşılaşdırılması məsələsi dövlət proqramlarında birmənalı şəkildə öz əksini tapdı.

Məhz elə bu siyasətin nəticəsidir ki, son 6 il ərzində bütün sahələrdə - siyasi. iqtisadi, sosial və digər hüquqların müdafiəsi sahəsində dövlət strukturlarında və QHT - lərdə rəhbər vəzifələrdə çalışan qadınların sayı çoxdur. Doğrudur, qərar qəbuletmə səviyyəsində qadınların sayı kifayət deyil: 3,4%. Belə ki, 82 icra başçısından 1 nəfəri, 24 nazir müavinindən 2-si, 2645 bələdiyyə sədrindən 46 nəfər. respublikanın xarici ölkələrdə olan diplomatik nümayəndəliklərdəki diplomatik korpuslarda fəaliyyət göstərən 175 nəfər-dən 10 nəfər, 2 vitsekonsuldan 1 nəfəri, 40 səfirdən biri, Xarici İşlər Nazirliyinin mərkəzi aparatında diplomatik vəzifələrdə işləyən 199 şəxsdən 41-i, hakim vəzifəsində çalışanların
14%-i. 14 idarə rəisindən biri, 22 şöbə rəisindən 5 nəfəri qadındır. Beynəlxalq təşkilatlarda respublikanın 18 nümayəndəsi çalışır ki. onlardan 5 nəfəri qadındır. 5524 kəndli-fermer təsərrüfatının 1656-sı qadınlara məxsusdur. 1 nəfər universitetə rəhbərlik edir, komitə sədr müavini və prorektor 11 nəfər, bölmə və ya sektor müdiri vəzifəsində 225 nəfər, 2687 qadın rəhbər vəzifədə çalışır. Parlamentdə 14 millət vəkili, parlament sədrinin 3 müavinindən biri qadındır. Milli Elmlər Akademiyasına keçirilən ən son seçkilərdən sonra 8 qadına akademik adı verilmişdir. Ancaq qadınlarımızın cəmiyyətdə artan fəallığı, idarəetməyə doğru irəliləyişləri bizə gələcəyə nikbin baxmağa əsas verir.

Azərbaycan qadınlarının fəallığının artması istiqamətində önəmli hadisə olan Azərbaycan Respublikası Qadınlarının II qurultayı Prezident Heydər Əliyevin razılığı ilə 27 sentyabr 2003-cü il tarixdə Respublika sarayında keçirilmişdir. Qurultaya 2070 nəfər nümayəndə seçilmişdi. Qurultayda başqa məsələlərlə yanaşı. koordinatorların fəaliyyəti qiymətləndirilmiş. əldə edilmiş nailiyyətlərlə yanaşı, çatışmazlıqlar da müəyyən edilmiş və gələcək inkişaf perspektivlərinin ilkin konturları dəqiqləşdirilmişdir

BMT İnkişaf Proqramının Azərbaycandakı nümayəndəsinin müavini Devid Eyzenberq qurultayda Azərbaycanda görülən işləri yüksək qiymətləndirərək daim onlara dəstək verəcəklərini bildirmişdir. Avropa Birliyinin İnsan Hüquqları Platformasının müdiri Mücgan Suver isə eyni dildə danışan mübariz türk qadınlarının demokratiya. sülh uğrunda fəaliyyət mücadiləsinin təqdirəlayiq olduğunu qeyd etmişdir. Qurultayda Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri Zəhra xanım Quliyeva məruzəsində dövlət başçısı Heydər Əliyevin qadınlara xüsusi diqqət və qayğısının nəticəsi olaraq, 1993-cü illə müqayisədə rəhbər vəzifədə çalışan qadınların sayının artdığını. qadınlara qarşı ayrı-seçkiliyin aradan götürüldüyünü göstərmişdir. Kişilərlə bərabər sahibkar qadınların da getdikcə artması bir daha onu göstərir ki, Prezidentin Azərbaycan Respublikasında "Dövlət Qadın Siyasətinin həyata keçirilməsi" haqqında verdiyi Fərman qadınların fəallığını artırmış və onların layiq olduqları vəzifələrə keçmələrinə şərait yaratmışdır. Prezidentin bu fərmanının qadınların hüquqlarının müdafiəsi, onların bilik və bacarıqlarından. istedad və potensialından səmərəli istifadə üçün göstərilən qayğının nəticəsi olduğu qeyd edilmişdir.

Sonda qurultay iştirakçıları Azərbaycan xalqına üz tutaraq Vətən torpaqlarının bütövlüyü uğrunda sıx birləşməyə. Vətənə layiq övladlar: dünyaya göz açan uşaqları milli ruhda, qəhrəmanlıq, şücaət ruhunda. əsl vətənpərvər, milli adət-ənənələrimizin. daşıyıcısı kimi böyütməyə, ölkəmizin azad, firavan sabahı uğrunda birgə mübarizəyə səslədilər.

Azərbaycan Respublikasının bütün qanun və normativ hüquqi aktlarında qadınların bərabər hüquqlarının təsbit edilməsi diqqət mərkəzində saxlanılır ki, bunlar bütövlükdə Konstitusiya əsasında işlənib hazırlanmışdır. Bu qanunlarda qadınlara qarşı ayrı-seçkiliyə yol verən müddəalar yoxdur və qanun çərçivəsində insanlar cinsi mənsubiyyətə görə məhdudlaşdırılmır. Qanunvericilik insan hüquqları və mənafelərini cinsi mənsubiyyətdən asılı olmayaraq qoruyur və əsas beynəlxalq humanitar aktların tələblərinə cavab verir. Lakin qanunları konkret işlərdə gerçəkləşdirmək üçün mexanizmlər hazırlanmamışdır. Qanunvericilikdəki müddəalara gender baxımından düzəlişlər etmək üçün tədbirlər hazırlanmalıdır ki, cinsi bərabərlik de-yure daha hərtərəfli təsbit olunsun, kişi və qadınlar üçün bərabər imkanlar de-fakto təmin edilsin. Qüvvədə olan qanunların əksəriyyətinin sovet dövründə qəbul edilməsini və hazırda onların beynəlxalq hüquq normalarına uyğunlaşdırılmasına ehtiyac duyulduğunu nəzərə alsaq, qanunvericilik sahəsində bəzi gender qeyri-bərabərliyinin (parlamentdə qadınların təmsili və s.) olmasının səbəbləri aydınlaşır. Bununla yanaşı, qanunlarda fizioloji xüsusiyyətləri (bir sıra hallarda yerli ənənə və xüsusiyyətləri) nəzərə alaraq qadınların “xeyrinə” kişilərə qarşı "pozitiv diskriminasiya hallarına rast gəlinir. Qanunların bu maddələrində qadın və kişi arasında bəzi fərqlər təsbit edilir. qadınlar üçün iş yerində və ailədə xüsusi güzəştli şərtlər müəyyənləşdirilir. Məsələn, baxmayaraq ki, Konstitusiyada hərbi mükəlləfiyyət barədə heç bir məhdudiyyət nəzərdə tutulmayıb (maddə 76, 1. s. 24), əslində həkimlər istisna olmaqla. qadınlar hərbi xidmətə çağırılmırlar. Cinayət Məcəlləsində qadınlar tərəfindən və ya onlara qarşı törədilmiş cinayətlərlə bağlı 15 maddə vardır. Bundan əlavə. elə cinayətlər vardır

ki. onlara görə ancaq kişilər cəzalandırılır. halbuki bu cinayətləri qadınlar da törədə bilər. (zorlama. nikaha daxil olmağa mane olma. poliqamiya və s.). Qadınlara kişilərdən fərqli olaraq bir sıra ağır cəza tədbirləri (ömürlük həbs cəzası, həbs müddətinin çəkilməsi zamanı xüsusi saxlama rejimi) tətbiq edilmir. Bu cəza tədbiri qadınlar üçün ölüm hökmünün ləğvindən bir il əvvəl aradan götürülmüşdür.

1992-ci ildən etibarən Beynəlxalq Əmək Təşkilatının üzvü olan Azərbaycan Respublikası BƏT-in 55 Konvensiyasını ratifikasiya etmişdir ki, həmin sənədlərdən bəziləri özündə qadınların məşğulluğu və əməyi sayəsində hüquq normalarını əks etdirir. Onlara "Eyni əməyə görə kişilərin və qadınların bərabər mükafatlandırılması haqqında" 100 saylı, "Əmək və məşğulluq sahəsində ayrı-seçkilik haqqında" 111 saylı, "Analığın mühafizəsi haqqında" 103 saylı. "Bütün növ şaxtalarda aparılan yeraltı işlərdə qadın əməyindən istifadə haqqında" 45 saylı konvensiyalar aiddir ki. hökumət bu konvensiyaların tələblərinin Azərbaycan Respublikasında tətbiqinə dair BƏT-ə müntəzəm hesabat verir. Qadınlarla bağlı əmək siyasəti indiyə qədər respublikamızda qadınların analıq və ailə vəzifələrinin icrası ilə əlaqədar güzəştlər. imtiyazlar və əlavə təminatların verilməsi ilə onların əməyinin yüngülləşdirilməsi prinsipinə əsaslanır. Qanunvericilik səviyyəsində qadınların məşğulluğu ilə bağlı ayn-seçkiliyə yol verən norma ümumiyyətlə mövcud deyildir. Qadınların faktiki məşğulluğunu təmin etmək üçün yüksək səviyyədə bir sıra qərarlar qəbul edilmiş, habelə dövlət məşğulluq xidməti tərəfindən müvafiq tədbirlər görülməkdədir. Əmək hüququ hər kəsin ayrılmaz hüququ olaraq, AR Konstitusiyasının 35-ci maddəsi ilə təmin edilir [1, s. 13]. 1999-cu il 1 iyul tarixindən qüvvəyə minmiş Əmək Məcəlləsinin 16-cı maddəsi əsasən, qadınlara və sosial müdafiəyə ehtiyacı olan digər şəxslərə əmək münasibətlərində güzəştlərin, imtiyazların və əlavə təminatların müəyyən edilməsini müvafiq hüquqi normalarla təsbit edir.

Hamiləlik. analıq. sağlamlıq və qadınların iş yerində təhlükəsizliyini qorumaq üçün AR Əmək Məcəlləsinin müvafiq maddələrində uyğun olaraq aşağıdakı tədbirlər nəzərdə tutulur:

79-cu maddəyə əsasən. işəgötürən tərəfindən hamilə. habelə üç yaşınadək uşağı olan qadınlarla bu Məcəllənin 70-ci maddəsi ilə müəyyən edilmiş əsaslarla əmək müqaviləsinin ləğv edilməsi qadağandır [4. s.63].

91-ci maddəyə əsasən. qısaldılmış iş vaxtının müddəti hamilə və yaşyarımadək uşağı olan qadınlar üçün həftədə 36 saatdan artıq olmamalıdır[4. s. 70 ].

94-cü maddədə deyilir ki. işçinin səhhəti və fizioloji vəziyyəti (hamiləlik, əlillik, habelə xroniki xəstəliyi olan uşağının və digər ailə üzvünün səhhəti müvafiq tibbi rəyə görə) əmək funksiyasının natamam iş vaxtında yerinə yetirilməsini tələb edərsə. habelə 14 yaşına çatmamış. yaxud 16 yaşınadək əlil uşağı olan qadınlara ərizələrlə işəgötürən natamam iş vaxtı (iş günü. yaxud iş həftəsi) müəyyən etməlidir [4. s. 71 ].

98-ci maddəyə görə. gecə vaxtı görülən işlərə hamilə və 3 yaşınadək uşağı olan qadınların cəlb edilməsinə yol verilmir [4, s. 74].

112-ci maddədə işçilərin məzuniyyət hüququ uşağına qulluq etmək üçün qadınlara təqdim edilən sosial məzuniyyət növü ilə də təmin edilir[4. s. 80].

117-ci maddəyə görə. əsas və əlavə məzuniyyətlərin müddətindən asılı olmayaraq. üç yaşınadək iki uşağı olan qadınlara 2 təqvim günü. bu yaşda üç və daha çox uşağı olan. həmçinin üç yaşınadək əlil uşağı olan qadınlara isə 5 təqvim günü müddətində əlavə məzuniyyət verilir [4, s. 84].

Bu maddə ilə müəyyən edilmiş əlavə məzuniyyət hüququ müvafiq təqvim ilinin sonunadək uşaqlardan birinin 14 yaşı tamam olduğu hallarda da saxlanılır.

125-ci maddədə deyilir ki, hamiləlik dövründə və doğuşdan sonrakı dövr üçün işləyən qadınlara 126 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 56 təqvim günü müddətində ödənişli məzuniyyət verilir. Doğuş çətin olduqda. iki və daha çox uşaq doğulduqda) doğuşdan sonrakı məzuniyyət 70 təqvim günü müddətində verilir [4, s. 89].

Kənd təsərrüfatı istehsalında çalışan qadınlara hamiləliyə və doğuşa görə məzuniyyət aşağıdakı müddətlərdə verilir:

- normal doğuşda 140 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü və doğuşdan sonra 70 təqvim günü);
- doğuş çətin olduqda 156 təqvim günü (doğuşdan əvvəl 70 təqvim və doğuşdan sonra 86 təqvim günü);
- iki və daha çox uşaq doğulduqda 180 təqvim günü (doğuşdan əvvəl 70 təqvim günü doğuşdan sonra 110 təqvim günü).

126-cı maddəyə əsasən, iki aylıq yaşında uşağı övladlığa götürən, yaxud övladlığa götürmədən böyüdən qadınlar doğuşdan sonra müəyyən edilmiş 56 günlük sosial məzuniyyətdən, həmçinin bu Məcəllənin 117-ci maddəsi ilə müəyyən edilmiş əlavə və 127-ci maddəsində nəzərdə tutulmuş qismən ödənişli məzuniyyətlərdən istifadə etmək hüququna malikdirlər [4, s. 90, 84].

127-ci maddəyə əsasən, uşağa, bilavasitə qulluq edən valideynlərdən biri. yaxud ailənin başqa üzvü uşağa qulluq etməkdən ötrü qanunvericiliklə müəyyən edilmiş məbləğdə müavinət verilən qismən ödənişli sosial məzuniyyət almaq hüququna malikdirlər [4. s. 90].

Uşağa qulluq edən işçi yazılı ərizəsi əsasında qismən ödənişli sosial məzuniyyət hüququndan tam, yaxud hissə-hissə istifadə edə bilər.

130-cu maddəyə görə. işçinin xahişi və işəgötürənin razılığı ilə 16 yaşınadək uşağı olan qadınlara və ya tək valideynlərə 14 təqvim gününədək ödənişsiz məzuniyyətlər verilir [4, s. 91].

131-ci maddəyə görə. əmək müqaviləsinin bağlandığı vaxt nəzərə alınmadan işin birinci ili üçün əmək məzuniyyətindən qadınların da hamiləliyə və doğuşa görə sosial məzuniyyətdən. bilavasitə əvvəl. yaxud sonra istifadə etmək hüququ vardır [4, s. 92].

133-cü maddəyə görə. 14 yaşınadək iki və daha çox uşağı olan və ya 16 yaşınadək əlil uşağı olan qadınlara əmək məzuniyyəti onların öz arzusu ilə onlar üçün əlverişli olan vaxtda verilə bilər [ 4, s. 95].

135-ci maddəyə əsasən, əmək şəraitinə görə əlavə məzuniyyət hüququ olan işçilərə, habelə hamilə qadınlara bir iş ilindən artıq dövrün əmək məzuniyyətinin verilməməyi və ya onun başqa iş ilinə keçirilməsi qadağandır [4. s. 96 ].

228-ci maddəyə görə. qadınların, habelə əmək şəraiti zərərli və ağır olan işçilərin əməyinin mühafizəsi sahəsində münasibətlərin xüsusiyyətləri bu Məcəllə və müvafiq normativ hüquqi aktlarla tənzimlənir [4, s. 159].

240-cı maddəyə əsasən, hamilə və ya 3 yaşına çatmamış uşağın olması səbəbinə görə qadınla əmək müqaviləsinin bağlanmamdan imtina etmək yolverilməzdir. Bu qayda işəgötürənin müvafiq işi (vəzifəsi) olmadığı. habelə qadın əməyindən istifadə olunmasına yol verilməyən iş yerlərinə işə götürməkdən imtina olunan hallara şamil olunmur [4, s. 166].

İşəgötürən hamilə və ya 3 yaşına çatmamış uşağı olan qadınla bu səbəblərə görə əmək müqaviləsi bağlamaqdan imtina etdikdə. qadın imtinanın səbəbi barədə işə götürəndən yazılı cavab verilməsini tələb etmək hüququna malikdir. Əmək müqaviləsi bağlamaqdan imtina edilməsinin səbəblərinə görə qadın hüququnun müdafiə olunması üçün məhkəməyə müraciət edə bilər.

241-ci maddəyə görə, əmək şəraiti ağır, zərərli olan iş yerlərində, habelə yeraltı tunellərdə. şaxtalarda və digər yeraltı işlərlə qadın əməyinin tətbiqi, qanunvericilikdə başqa cür nəzərdə tutulmayıbsa, qadağandır [4, s. 166 ].

Qadınların müəyyən edilmiş normalardan artıq ağır əşyaların qaldırılması və bir yerdən başqa yerə daşınması işlərinə cəlb edilməsi qadağandır. Qadınların əmək funksiyasına yalnız ümumi çəkisi aşağıdakı normalar həddində olan ağır şeylərin əl ilə qaldırılması və daşınması işlərinin görülməsi (xidmətindən göstərilməsi) daxil edilə bilər;

a) başqa işləri görməklə yanaşı, eyni zamanda ümumi çəkisi 15 kiloqramdan çox olmayan əşyaların əl ilə qaldırmaqla başqa yerə daşınması;

b) ümumi çəkisi 10 kiloqramdan çox olmayan əşyanın bir metr yarımdan artıq olmayan hündürlüyə qaldırılması;

c) bütün iş günü (iş növbəsi) ərzində müntəzəm olaraq ümumi çəkisi 10 kiloqramdan çox olmayan əşyanın əl ilə qaldırıb başqa yerə daşınması;

ç) 15 kiloqramdan artıq gücün sərf edilməsi tələb olunan yüklənmiş təkərli araba və ya hərəkət edən digər vasitələrlə əşyaların daşınması.

Hamilə və 3 yaşınadək uşağı olan qadınların bu maddədə nəzərdə tutulmuş işlərin görülməsinə cəlb olunması qadağandır.

Qadın əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin). habelə yeraltı işlərin siyahısı Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir ("Qadın əməyinin tətbiqi qadağan olunan əmək şəraiti zərərli və ağır olan istehsalatların, peşələrin (vəzifələrin), habelə yeraltı işlərin siyahısının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 20.10.1999 tarixli Qərarı).

242-ci maddə ilə hamilə qadınların və 3 yaşına çatmamış uşağı olan qadınların gecə işlərinə, iş vaxtından artıq işlərə, bayram və iş günü hesab olunmayan digər günlərdə işə cəlb edilməsinə, habelə onların ezamiyyətə göndərilməsinə yol verilmir [4, s. 168]. 3 yaşından 14 yaşınadək uşağı olan, həmçinin 16 yaşınadək əlil uşağı olan qadınların iş vaxtından artıq işlərə, istirahət, bayram və iş günü hesab olunmayan digər günlərdə işə cəlb edilməsinə və ezamiyyətə göndərilməsinə yalnız onların razılığı ilə yol verilir.

243-cü maddəyə görə, tibbi rəyə uyğun olaraq hamilə qadınlar üçün hasilat və ya xidmət norması azaldılır. yaxud onlar zərərli istehsal amillərinin təsirini istisna edən daha yüngül işə keçirilirlər [4, s. 168].

Yaş yarımına çatmamış uşağı olan qadınlar əmək funksiyasını yerinə yetirməklə yanaşı, uşağını yedizdirməkdə çətinlik çəkirlərsə, işəgötürən qadının ərizəsi ilə onu uşağı yaş yarımına çatanadək başqa yüngül işə keçirməli və ya uşağının yedizdirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin etməlidir.

Qadınlar bu maddədə nəzərdə tutulmuş hallarda başqa yüngül işə keçirilərkən onların əsas vəzifələri üzrə orta əməkhaqqı saxlanılır.

Hamiləlik və ya uşağının yedizdirilməsi səbəblərinə görə qadınların əmək haqqının azaldılması qadağandır.

244-cü maddəyə əsasən, yaş yarımına çatmamış uşağı olan qadınlara iş vaxtı ərzində istirahət və yemək üçün verilən ümumi fasilədən başqa, həm də uşağını yedizdirmək üçün əlavə fasilələr verilməlidir. Bu fasilələrin hər biri azı 30 dəqiqə olmaqla. hər 3 saatdan bir verilir. Qadının yaş yarımına çatmamış iki və daha çox uşağı olduqda hər fasilə azı bir saat müəyyən edilir [4. s. 169].

Uşağın yedizdirilməsi ilə əlaqədar fasilələr iş vaxtına daxil edilir və orta əmək haqqı saxlanılır.

Qadının istəyi ilə uşağın yedizdirilməsi üçün fasilələr cəmlənərək nahar və istirahət vaxtına birləşdirilə. habelə iş vaxtının (növbəsinin) əvvəlində. yaxud axırında istifadə edilə bilər. Əgər qadın uşağın yedizdirilməsi üçün fasilələri cəmləyərək iş vaxtının sonunda istifadə etmək istərsə. onda onun iş günü həmin fasilələrin müddəti qədər qısaldılır.

245-ci maddəyə görə. hamilə. 14 yaşına çatmamış uşağı, yaxud 16 yaşa çatmamış əlil uşağı olan. habelə tibbi rəy əsasında xəstə ailə üzvünə qulluq edən qadınların xahişi ilə işəgötürən onlara işlənmiş vaxta mütənasib əməkhaqqı ödənilən natamam iş günü və ya natamam iş həftəsi müəyyən etməlidir. Bu halda qadının gündəlik və ya həftəlik iş vaxtının müddəti tərəflərin razılığı ilə müəyyən edilir [4, s. 169]. Hamilə və 3 yaşınadək uşağı olan qadınların həm özünün, həm də uşağının tibb müəssisələrində dispanser və ambulator müayinələrinin keçirildiyi, həkim məsləhətləri aparıldığı günlərdə orta əməkhaqqı saxlanılır. Belə müayinələrin keçirilməsi üçün işəgötürən hökmən hamilə qadınlara zəruri şərait yaratmalıdır.

251-ci maddəyə görə, 16 yaşından 18 yaşadək olan qadınların əmək funksiyasına başqa işləri görməklə yanaşı, eyni zamanda, ümumi çəkisi 10 kiloqramdan çox olmayan əşyaların əl ilə qaldırılaraq başqa yerə daşınması, habelə ümumi çəkisi 5 kiloqramdan çox olmayan əşyanın bir metr yarımdan artıq olmayan hündürlüyə qaldırılması işlərinin görülməsi (xidmətlərin göstərilməsi) daxil edilə bilər[4. s. 172].

Azərbaycan Respublikasının "Məşğulluq haqqında" [15] 01. VIII. 2001-ci ildə qüvvəyə minmiş Qanununun 6. 2. 1. maddəsinə görə, irqindən, milliyyətindən, dilindən, cinsindən, ailə vəziyyətindən, ictimai-sosial mənşəyindən. yaşayış yerindən, əmlak vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlara əmək və məşğulluğu sərbəst seçmək hüququnun həyata keçirilməsində bərabər imkanların təmin edilməsi məşğulluq sahəsində dövlət siyasətinin əsas istiqamətidir.

Peşə hazırlığı. ixtisasın artırılması və yenidən hazırlıq keçmə hüququ "Məşğulluq haqqında" Qanunun 19-cu maddəsi əsasında təmin edilir və bu sahədə qadınlara qarşı heç bir məhdudiyyət qoyulmur.

2005-ci ildə Azərbaycan Respublikasının dövlət büdcəsindən sosial təminata 87, 2 milyon manat (dövlət büdcəsinin xərclərinə nisbətən 4. 1 %, ümumdaxili məhsula nisbətən 1, 8%) maliyyə vəsaiti xərclənmişdir.

Hər kəsin sosial təminat hüququ Azərbaycan Respublikası Konstitusiyasının 38-ci maddəsində müəyyən edilir: hər kəs qanunla müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat almaq hüququna malikdir: təqaüdlərin və sosial müavinətlərin minimum məbləği qanunla müəyyən edilir [1, s. 14].

Təqaüdəçıxma, işsizlik, xəstəlik, əlillik, ahıllıq və əmək qabiliyyətinin itirildiyi digər hallar da daxil olmaqla. sosial təminat hüququ Azərbaycan Respublikasında aşağıdakı qanunların əsasında təmin edilir: 1997-ci ildə edilmiş dəyişikliklər nəzərə alınmaqla 1992-ci il tarixli "Vətəndaşların pensiya təminatı haqqında" Qanun. 2001-ci ildə edilmiş dəyişikliklər nəzərə alınmaqla 2000-ci il tarixli "Məşğulluq haqqında" Qanun, 1997 və 2001-ci illərdə edilmiş dəyişikliklər və əlavələr nəzərə alınmaqla. 1992-ci il tarixli "Əlilliyin qarşısının alınması. əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında" Qanun. sonradan edilmiş dəyişikliklər və əlavələr nəzərə alınmaqla 1997-ci il tarixli "Sosial sığorta haqqında" Qanun.

Beynəlxalq təcrübəyə əsaslanaraq respublikanın sosial yardım sisteminin yenidən qurulması üçün "Azərbaycan Respublikasında sosial yardım sisteminin islahatı Konsepsiyası" nın layihəsi işlənib hazırlanmışdır. Hökumətin əsas fəaliyyət istiqamətlərindən biri də vətəndaşların pensiya təminatı sahəsidir. Pensiya təminatı sisteminin yenidən qurulması məqsədilə "Azərbaycan Respublikasında pensiya islahatı" Konsepsiyası işlənib hazırlanmış və respublika Prezidentinin 17 iyun 2001-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuşdur. Bu konsepsiyaya əsasən, pensiya islahatlarının məqsədi pensiyaların yaşayış minimumunun təmin edilməsi, pensiya məbləğlərinin ödənilən sığorta ilə əlaqəsinin yaxınlaşdırılması kimi mühüm vəzifənin həyata

keçirilməsindən ibarətdir. Respublikada pensiya qanunvericiliyində qadınlar üçün bir sıra güzəştlər nəzərdə tutulur.

"Vətəndaşların pensiya təminatı haqqında" Qanuna əsasən, kişilər 62 yaşına çatdıqda və azı 25 il stajı olduqda; qadınlar 57 yaşına çatdıqda və azı 20 il stajı olduqda pensiyaya çıxa bilər. Üç və daha çox uşağı olan və onları səkkiz yaşınadək tərbiyə etmiş qadınlar 51 yaşına çatdıqda və azı 16 il iş stajı olduqda onlara güzəştli pensiyaya çıxma hüququ verilir. Uşaqların sayı artdıqca qadının pensiyaya çıxmaq üçün tələb olunan yaş həddi və iş stajı da müvafiq olaraq bir il azaldılır. 9 uşağı olan və onları səkkiz yaşınadək tərbiyə etmiş qadınlar 45 yaşına çatdıqda və azı 10 il iş stajı olduqda yaşa görə pensiya almaq hüququna malikdir.

Uşaqlıqdan əlil olanlar, həmin uşaqlan səkkiz yaşınadək tərbiyə etmiş analar 50 yaşına çatdıqda və azı 15 il iş stajı olduqda yaşa görə pensiya almaq hüququna malikdirlər. Bu halda uşağın qayğısına qalmağa sərf edilmiş vaxt iş stajına daxil edilir.

Qadınlar üçün güzəştlərin nəzərdə tutulduğu əlilliyə görə pensiyaların təyin edildiyi müddət istisna olmaqla, əlilliyə görə pensiyaların müəyyən edilməsi və onların məbləği cinsdən asılı deyildir.

"Vətəndaşların pensiya təminatı haqqında" Qanunun 35-ci maddəsinə görə, pensiyalar həkim əmək ekspert komissiyasının müəyyən etdiyi bütün əlillik dövrü üçün 62 yaşından yuxarı əlil kişilərə və 57 yaşından yuxarı əlil qadınlara isə ömürlük təyin edilir və onlar yalnız öz ərizələrinə əsasən yenidən müayinədən keçirilir. Bu norma ayrı-seçkiliyə yol vermir, bu, pensiyaların yaş əsasında təyin edilməsinə əsaslanan mövcud şəraitlə əlaqədardır ki, həmin yaş həddi kişilərlə müqayisədə (62 yaş), qadınlar üçün daha güzəştli (57) təyin edilmişdir. Bu, o deməkdir ki. qadının kişiyə nisbətən təqaüdə daha erkən çıxma hüququ vardır.

Pensiyaların qeyd olunmuş növlərindən başqa, Azərbaycan Respublikasında əmək qabiliyyəti olmayan. işləməyən vətəndaşların ayrı-ayrı kateqoriyalarına onların əmək pensiyası almaq hüququ olmadıqda sosial pensiyalar təyin edilir.

Bu pensiyaların həcmi cinsi mənsubiyyətdən asılı deyildir. Həmin pensiyalar qadınlara təyin edilərkən yuxarıda qeyd olunan yaş güzəştləri tətbiq edilir, yəni sosial təqaüdalma hüquqları bərabər olduqda qadınlar sosial pensiyam 62 yaşına çatanda ala bilərlər (kişilər 65 yaşına). Bundan başqa. 57 yaşına çatmış. əmək qabiliyyəti olmayan. işləməyən, 3 və daha çox uşaq doğub 8 yaşınadək tərbiyə etmiş qadınlar, habelə uşaqlıqdan əlil olanların 57 yaşına çatmış anaları, onlar həmin uşaqları 8 yaşınadək tərbiyə etmişlərsə. sosial pensiya almaq hüququ vardır.

İşçilər xəstələndikdə onların sosial təminat hüququ, Dövlət Sosial Müdafiə Fondunun vəsaitləri hesabına müvəqqəti işsizlik üzrə müavinətin verilməsi ilə təmin edilir. Bu müavinətin həcmi və verilmə qaydası işçinin cinsi mənsubiyyətindən asılı deyildir. Müavinət əmək stajının müddətindən asılı olaraq aşağıdakı həcmdə ödənilir:

- əmək haqqının 150 faizi əlililər üçün.
- əmək haqqının 100 faizi ümumi əmək stajı 8 və daha artıq olan işçilərə;
- himayəsində 16 yaşına çatmamış uşaqları (18 yaşınadək təhsil alan) və ya birdən artıq uşağı olanlara;
- əmək haqqının 80 faizi ümumi əmək stajı 5 ildən 8 ilədək olan işçilərə;
- 21 yaşına çatmamış, heç bir valideyni olmayan 5 ilədək iş stajı olan yetimlərə;
- əmək haqqının 60 faizi ümumi əmək stajı 5 ilədək olan işçilərə.

Sosial müdafiə sahəsində qanunvericilik yuxarıda qeyd edilən sosial təminat hüququnun təmin edildiyi qanunlar və hüquqi normativ aktlardan ibarətdir.

2005-ci ildə Azərbaycan Respublikasının dövlət büdcəsindən sosial müdafiəyə 217, 7 milyon manat (dövlət büdcəsinin xərclərinə nisbətən 10,1 %, ümumdaxili məhsula nisbətən 1, 8 %), sosial mədəni tədbirlərə 843,3 milyon manat (ümumdaxili məhsula nisbətən 7, 1 %) vəsait xərclənmişdir.

2007-ci ildə isə dövlət büdcəsindən sosial yönümlü xərclərin ümumi çəkisi 37.9% və ya 2163. 4 min manat olmaqla 2006-cı illə müqayisədə 691. 3 min manat və ya 47% çox olmuşdur.

AR Konstitusiyasına uyğun olaraq, ölkə vətəndaşları qanun qarşısında cinsindən asılı olmayaraq bərabər hüquqlara malikdir.

Müqavilələrin bağlanması və şəxsi mülkiyyətin idarə olunması üzrə AR-nin mülki hüquq sahəsindəki qanunvericilikdə olan prinsiplərindən biri mülki hüquq subyektlərinin bərabərliyidir. Bu. 28 dekabr 1999-cu il tarixdə təsdiq edilmiş Mülki Məcəllənin 6. 1. 1-ci maddəsi ilə təsbit edilmişdir [6, s. 13]; qeyd olunan məcəllənin 26 / 2.3. 6-cı maddələrinə əsasən. fiziki şəxs (kişi və qadın) hüquq və vəzifələri öz adı ilə əldə edir və həyata keçirir, bu isə o deməkdir ki, qadın kredit almaq, daşınmaz əmlak və ya başqa mülkiyyət hüququ da daxil olmaqla. müqavilələr bağlamaq, eləcə də başqa kommersiya əqdlərini öz adından həyata keçirmək hüququna malikdir [6. s. 20-21].

Qanunla nəzərdə tutulmuş hallarda və qaydada fiziki şəxs təxəllüsdən (uydurma addan) istifadə edə bilər.

Başqa şəxsin adı ilə hüquq və vəzifələr əldə edilməsinə yol verilmir.

AR Ailə Məcəlləsinin 33 və 34-cü maddələrinin müddəalarına əsasən, ər-arvadın ümumi əmlakı üzərində sahiblik, istifadə və sərəncam hüququ onların qarşılıqlı razılığı əsasında həyata keçirilir [7, s.36]

Ər-arvadın ümumi əmlakı üzərində sərəncam əqdini onlardan biri həyata keçirirsə, bu halda güman edilir ki. o, digərinin razılığı ilə hərəkət edir.

28. 12. 1999-cu il tarixli "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunun 1-ci maddəsinə əsasən, vəkillər öz fəaliyyətlərini, vəkillər kollegiyası üzvlərinin bərabərliyi prinsipi əsasında həyata keçirirlər.

Yuxarıda deyilənlərin əsasında demək olar ki, bizim dövlətdə qadınlar məhkəmələrdə təmsil etdikləri şəxslərin nümayəndəsi olan, andlı iclasçı qismində xidmət etmək hüququna malikdirlər, eləcə də Azərbaycan Respublikası məhkəmələrində hakim kimi işləyə bilərlər, məsələn, hazırda ölkəmizin hakim korpusunun 14 % - ni qadın hüquqşünaslar təşkil edir.

AR Konstitusiyasının 61-ci maddəsinə əsasən, hər kəsin yüksək keyfiyyətli hüquqi yardım almaq hüququ vardır. Qadın və kişinin hüquqi xidmətlərdən istifadə hüquqları bərabərdir [1, s. 20].

AR Ailə Məcəlləsinin 2-ci maddə-sinə əsasən, bu Məcəllə nikahın bağlanması, nikaha xitam verilməsi və onun etibarsız sayılması qaydaları və şərtlərini müəyyən edir, ailə üzvləri (ər-arvad, valideynlər və uşaqlar), eləcə də ailə qanunvericiliyində nəzərdə tutulmuş hallarda başqa qohumlar və digər şəxslər arasında yaranan əmək və şəxsi qeyri-əmlak münasibətlərini tənzimləyir, habelə valideyn himayəsindən məhrum olan uşaqların tərbiyəyə götürülməsi qaydalarmı müəyyən edir [7. s. 7].

Ailə münasibətlərinin hüquq tənzimi qadınla kişinin nikahının könüllülüyü. ər-arvadın hüquq bərabərliyi, ailədaxili məsələlərin qarşılıqlı razılıq əsasında həll olunması, uşaqların ailə tərbiyəsinin üstünlüyü, onların rifahına və inkişafına qayğı, ailənin yetkinlik yaşına çatmayan və əmək qabiliyyəti olmayan üzvlərinin hüquq və mənafelərinin müdafiəsinin təmin olunması prinsiplərinə uyğun həyata keçirilir.

Qeyd olunan məcəllənin 29-cu maddəsində deyildiyi kimi, Azərbaycan Respublikası Konstitusiyasında təsbit edilmiş qadın və kişinin hüquq bərabərliyinə uyğun olaraq ər və arvad ailə münasibətlərində bərabər şəxsi və əmlak hüquqlarına malikdirlər.

Analıq, atalıq, uşaqların tərbiyəsi və təhsili, eləcə də ailənin digər məsələləri ər-arvadın hüquq bərabərliyi prinsipinə uyğun olaraq birgə həll edilir.

Ər (arvad) özünə məşğuliyyət. sənət və yaşayış yeri seçməkdə azaddır.

Ər-arvad ailədə öz münasibətlərini qarşılıqlı yardım və hörmət hissi əsasında qurmalı, ailənin möhkəmləndirilməsi və rifahı üçün birgə fəaliyyət göstərməli, övladlarının inkişafı üçün əlverişli şərait yaratmalı və onların sağlamlığının qayğısına qalmalıdırlar.

Ailə Məcəlləsinin 1. 4 və 1. 5-ci maddələrinə əsasən. Azərbaycan Respublikasında nikah və ailə münasibətlərinin hüquqi baxımdan tənzimlənməsi dövlət tərəfindən həyata keçirilir və yalnız Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı orqanında bağlanmış nikah tanınır [7. s. 5 ].

Dini kəbinkəsdirmə (dini nikah) hüquqi əhəmiyyətə malik deyildir. Bu müddəa Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı orqanlarının yaradılmasınadək bağlanmış dini nikahlara və onların təsdiqinə dair sənədlərə, doğum. nikahın bağlanması, nikahın pozulması və ölüm haqqında sənədlərə aid deyildir.

Ailə Məcəlləsinin 2.3 və 2.4-cü maddələrinə əsasən. nikah kişi ilə qadının ailə qurmaq məqsədilə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı orqanında qeydiyyata alınan könüllü ittifaqdır [7. s. 7].

Nikaha daxil olarkən və ailə münasibətlərində vətəndaşların hüquqlarının hər hansı formada məhdudlaşdırılması qadağandır.

Azərbaycan Respublikasında polıqam nikahlar qanunla qadağandır.

Ailə Məcəlləsinin 23.4 - cü maddələrinə əsasən ər (arvad) nikahın pozulması haqqında şəhadətnaməni alana qədər yenidən nikaha daxil ola bilməz.

36-cı maddəyə əsasən, ər-arvadın ümumi əmlakının bölünməsi nikah dövründə. eləcə də onlardan birinin tələbi ilə nikah pozulduqdan sonra. habelə kreditor ödəməni ər-arvadın ümumi əmlakım onlardan birınm payına yönəltmək üçün ümumi əmlakın bölünməsi tələbi barədə ərizə verdikdə həyata keçirilir [7. s. 39 ].

Ailə Məcəlləsinin 32.1 , 33 və 38 - cı maddələrinə əsasən, nikah müddətində ər-arvadın əldə etdikləri əmlak, onların ümumi birgə mülkiyyəti hesab edilir [7, s. 35, 37, 42 ].

Ər-arvadın ümumi əmlak üzərində sahiblik, istifadə və sərəncam hüququ onların qarşılıqlı razılığı əsasında həyata keçirilir.

AR Ailə Məcəlləsinin 17.1 - cı maddəsinə görə, ər-arvadın yetkinlik yaşına çatmayan ümumi uşaqları olmadıqda, nikaha onların razılığı əsasında Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı orqanında xitam verilə bilər [ 7. s. 13].

Arvadın hamiləliyi dövründə və ya uşağın doğulmasından sonra 1 il müddətində arvadın razılığı olmadan ər nikaha xitam verilməsi barədə iddia qaldıra bilməz.

AR Ailə Məcəlləsinin 84-87 - cı maddələrinə əsasən, ər və arvad bır-birinə maddi cəhətdən kömək etməlidirlər [7, s. 91-99].

Bu köməyin göstərilməsindən imtina edildikdə və ər-arvad arasında alimentin ödənilməsi barədə sazış olmadıqda, aşağıdakı şəxslər buna zəruri vəsaitə malik olan digər tərəfin aliment ödəməsini məhkəmə qaydasında tələb etmək hüququna malikdirlər:

- əmək qabiliyyəti olmayan və maddi yardıma ehtiyacı olan ər və ya arvad;
- hamiləliyi dövründə və ümumi uşaqlarının doğulduğu gündən üç il ərzində arvad;
- əlil ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad uşaq on səkkiz yaşına çatana qədər;
- I qrup əlil ümumi uşağa qulluq edən və ehtiyacı olan ər və ya arvad.

Aşağıdakı şəxslər nikah pozulduqdan sonra zəruri vəsaitə malik olan keçmiş ərdən (arvaddan) aliment ödəməyi tələb etmək hüququna malikdir:

- hamiləliyi dövründə və ümumi uşaqlarının doğulduğu gündən üç il ərzində keçmiş arvad;
- yetkinlik yaşına çatmamış əlil ümumi uşağa və ya uşaqlıqdan 1 qrup əlil olan ümumi uşağa qulluq edən və maddi yardıma ehtiyacı olan keçmiş ər (arvad);
- nikah pozulana qədər və ya nikah pozulduğu gündən bir il ərzində əmək qabiliyyətini itirən və maddi yardıma ehtiyacı olan keçmiş ər (arvad);
- ər-arvad uzun müddət nikahda olmuşlarsa. nikah pozulduğu andan beş il müddətindən gec olmayaraq pensiya yaşına çatan və maddi yardıma ehtiyacı olan keçmiş ər (arvad).

Alimentin miqdarı və nikah pozulduqdan sonra onun keçmiş ərə (arvada) ödənilməsi qaydası keçmiş ər-arvad arasındakı sazişlə müəyyən edilə bilər.

Aliment ödənilməsi barədə ər-arvad və ya keçmiş ər-arvad arasında saziş olmadıqda, məhkəmə qaydasında ərə (arvada) və ya keçmiş ərə (arvada) ödənilməsi olan alimentin miqdarı məhkəmə tərəfindən keçmiş ərin (arvadın) ailə və maddi vəziyyəti, tərəflərin diqqətəlayiq olan maraqlan nəzərə alınmaqla. hər ay ödənilməsi məcburi olan sabit pul məbləği formasında müəyyən edilir.

Məhkəmə aşağıdakı hallarda əri (arvadı) nikah dövründə və nikah pozulduqdan sonra maddi yardıma ehtiyacı olan və əmək qabiliyyəti olmayan arvadı (əri) saxlamaq vəzifəsindən azad edə və bu vəzifəni müəyyən müddətlə məhdudlaşdıra bilər:

- maddi yardıma ehtiyacı olan ər (arvad) əmək qabiliyyətini spirtli içkilərin, narkotik vasitələrin qəbulu və ya qəsdən törətdiyi cinayət əməli nəticəsində itirdikdə;
- aliment ödənilməsini tələb edən ər (arvad) ailədə ləyaqətsiz davrandıqda;
- nikah çox çəkmədikdə. Uşaqların tərbiyəsi və təhsilinə aid olan bütün məsələlər uşaqların hüquq və mənafeləri, onların rəyi nəzərə alınmaqla, valideynlərin qarşılıqlı razılığı əsasında həll olunur. Valideynlər (onlardan biri) öz aralarında olan narazılığı həll etmək üçün müvafiq icra hakimiyyəti orqanına və ya məhkəməyə müraciət edə bilərlər.

Valideynlər ayrı yaşadıqda uşaqların yaşayış yeri onların razılığı ilə həll edilir. Valideynlər arasında razılıq olmadıqda məhkəmə mübahisəni uşaqların hüquq və mənafeləri. onların rəyini (uşaqların qardaş və bacılarına, valideynlərdən hər birinə olan bağlılığı. valideynlərin əxlaqı və digər şəxsi keyfiyyətləri, uşağın yaşı, onun inkişafı və tərbiyəsi üçün şərait yaradılması) nəzərə almaqla həll edir.

Məlumdur ki, 1995-ci ildə Azərbaycan Respublikası "Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiyaya qoşulmuşdur və bununla əlaqədar olaraq qadınlarla kişilərin bərabərliyi baxımından milli qanunvericiliyin təhlili aparılmışdır. Təqdim olunmuş cədvəl həmin təqvimi özündə əks etdirir:

QPDK milli qanunvericiliyin tam gender ekspertizası üzrə proqram hazırlanmasını və onun gender bərabərliyi baxımından adekvat gerçəkləşdirilməsi üçün tədbirlər işlənməsini tövsiyə edir:

- keçid dövrü üçün seçki qanunvericiliyində dəyişiklik edilməsi və qadınlara seçkilərdə iştirak üçün kvota verilməsi;
- qərar qəbul edilən bütün səviyyələrdə gender tarazlığına riayət edilməsi;
- qadının ailədəki rolunun qanunvericilikdə əks olunması;

- qadınlar arasında nikahın azalmamağı üçün tədbirlərin işlənib hazırlanması;
- təcrübədə nikah müqavilələrindən istifadənin başlanması;
- cinsi təcavüzə görə məsuliyyətin gücləndirilməsi;
- şəxsi məsələ hesab edilməməli olan ailədaxili zorakılıq da daxil olmaqla. qadınlara qarşı zorakı cinayətlərin istintaqı və məhkəmə baxışı zamanı qadınların qanunvericiliklə qorunmasının təmin edilməsi;
- həm evdən kənar, həm də ailədə işləməyə imkan verən tədbirlərin işlənib hazırlanması;
- atalıq. habelə valideynlərə qayğı ilə əlaqədar kişilərə sosial məzuniyyətlərin verilməsi;
- ölkədə bütün sahələr üzrə (ailələrdə, cəmiyyətdə) gender ekspertizası üzrə sistemli işin aparılması.

Bu, kişilər və qadınlarla bağlı gender uyğunsuzluqlarını, qanunların tətbiq edildiyi konkret halları aşkar etməyə kömək edəcəkdir.

Hazırlama prosesinə 2003-cü ildən başlayan "Gender bərabərliyi haqqında" Qanun layihəsi 2006-cı ilin oktyabr ayında parlamentdə təsdiq edilmişdir [14]. Qanunun məqsədi kişi və qadınlar üçün ictimai həyatın bütün sahələrində bərabər hüquqların təmin edilməsi və cinsi mənsubiyyətə görə ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasıdır. Həmçinin, bu qanuna görə dövlət hüquqi, təşkilati və digər mexanizmlər vasitəsilə kişi və qadınlara dövlətin idarə olunmasında və qərar qəbul edilməsində bərabər imkanların yaradılmasını, gender bərabərliyinin təmin edilməsi və ayrı-seçkiliyin bütün formalarının aradan qaldırılmasını təmin edir.

**“Dirçəliş - XXI əsr”**. - 2008. - № 124-125. - S. 235